AZƏRBAYCAN RESPUBLİKASI
DİASPORLA İŞ ÜZRƏ DÖVLƏT KOMİTƏSİ

# AZƏRBAYCAN DİASPOR TƏŞKİLATLARI ÜÇÜN SƏNƏDLƏR VƏ MƏLUMATLAR TOPLUSU

## I KİTAB

Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

BAKI-2008

**Azərbaycan Respublikası**
**Diasporla İş üzrə Dövlət Komitəsi**

Azərbaycan diaspor təşkilatları üçün
sənədlər və məlumatlar toplusu (I kitab)
Bakı-Şirvannəşr-2008. səh. 308

**Buraxılışa məsul:** NAZİM İBRAHİMOV

**Tərtibçilər:** Nəriman Qurbanov
Elşad Miraləm

Kitabda Azərbaycan Respublikasının diaspor quruculuğu sahəsində dövlət siyasətinin ideoloji əsaslarını müəyyənləşdirən sənədlər, qanunvericilik aktları, Azərbaycan həqiqətlərinin təbliği baxımından mühüm əhəmiyyət kəsb edən materiallar toplanmışdır. Nəşrdə eyni zamanda, diaspor təkilatlarının müxtəlif tolplantılarında qəbul olunmuş sənədlər də öz əksini tapmışdır. Kitab xarici ölkələrdə yaşayan azərbaycanlılar, habelə diaspor mövzusunu araşdıran tədqiqatçılar üçün nəzərdə tutulmuşdur.

A 83. 3 Az (2) / 054

**© Diaspor, 2008**

MÜNDƏRİCAT


- **DÜNYA AZƏRBAYCANLILARININ HƏMRƏYLİK XARTİYASI** .......... 9
- **AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN YENİ ƏSR VƏ ÜÇÜNCÜ MİNİLLİK MÜNASİBƏTİLƏ AZƏRBAYCAN XALQINA MÜRACİƏTİ** .......... 41

**QANUNVERİCİLİK BAZASI** .......... 108

- XARİCDƏ YAŞAYAN AZƏRBAYCANLILARLA BAĞLI DÖVLƏT SİYASƏTİ HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU .......... 109
- «AZƏRBAYCAN RESPUBLİKASININ DİASPORLA İŞ ÜZRƏ DÖVLƏT KOMİTƏSİNİN YARADILMASI HAQQINDA» AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI .......... 116
- «AZƏRBAYCAN RESPUBLİKASININ DİASPORLA İŞ ÜZRƏ DÖVLƏT KOMİTƏSİ HAQQINDA ƏSASNAMƏNİN VƏ KOMİTƏNİN STRUKTURUNUN TƏSDİQ EDİLMƏSİ BARƏDƏ» AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI .......... 117
- AZƏRBAYCAN RESPUBLİKASI DİASPORLA İŞ ÜZRƏ DÖVLƏT KOMİTƏSİ HAQQINDA ƏSASNAMƏ .......... 119

**DÜNYA AZƏRBAYCANLILARININ I QURULTAYI** ........ 128

- Dünya azərbaycanlılarının I Qurultayının keçirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ........ 129
- Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin nitqi ........ 133

**Dünya azərbaycanlılarının I qurultayının qəbul etdiyi sənədlər** ........ 148

- Dünya azərbaycanlılarının I qurultayının qətnaməsi ........ 148
- Dünya azərbaycanlılarının I qurultayı nümayəndələrinin Azərbaycan Respublikasının Prezidenti cənab Heydər Əliyevə müraciəti ........ 153
- Dünya azərbaycanlılarının I qurultayı nümayəndələrinin bütün dünya azərbaycanlılarına müraciəti ........ 156
- Dünya azərbaycanlılarının I qurultayı nümayəndələrinin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ problemi ilə əlaqədar dünya ictimaiyyətinə, beynəlxalq təşkilatlara, xarici ölkələrin hökumət rəhbərlərinə və parlamentlərinə müraciəti ........ 162
- Dünya azərbaycanlılarının I qurultayı nümayəndələrinin 2001-ci il sentyabrın 11-də Amerika Birləşmiş Ştatlarında törədilmiş qanlı terror hadisələri ilə bağlı Amerika xalqına müraciəti ........ 167

**DÜNYA AZƏRBAYCANLILARININ II QURULTAYI** ........ 168

- «Dünya azərbaycanlılarının II qurultayının keçirilməsi haqqında» Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ........ 169
- «Dünya azərbaycanlılarının həmrəyliyi sahəsində fəaliyyətinə görə bir qrup ictimai xadimin təltif edilməsi haqqında» Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ........ 171
- Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqi ........ 173

**Dünya Azərbaycanlılarının II qurultayının sənədləri** ........ 188

- Dünya Azərbaycanlılarının II qurultayının qətnaməsi ........ 188
- Dünya Azərbaycanlılarının II qurultayı nümayəndələrinin Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə müraciəti ........ 195
- Dünya azərbaycanlılarının II qurultayının bütün dünya azərbaycanlılarına müraciəti ........ 198
- Dünya azərbaycanlılarının II qurultayının nümayəndələrinin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar dünya ictimaiyyətinə, beynəlxalq təşkilatlara, xarici ölkələrin parlamentlərinə, dövlət və hökumət başçılarına müraciəti ........ 203

- Dünya azərbaycanlılarının II qurultayının BMT-nin Təhsil, Elm və Mədəniyyət Məsələləri üzrə Təşkilatına (YUNESKO) müraciəti ........ 207
- Dünya azərbaycanlılarının II qurultayının Azərbaycan və Türk diaspor təşkilatlarına müraciəti ........ 209
- Dünya Azərbaycanlılarını Əlaqələndirmə Şurasının tərkibi ........ 212
- Dünya azərbaycanlılarını Əlaqələndirmə Şurasının İdarə Heyətinin tərkibi ........ 218

**DÜNYA AZƏRBAYCAN VƏ TÜRK DİASPOR TƏŞKİLATLARI RƏHBƏRLƏRİNİN I FORUMU ........ 220**

- Düya Azərbaycan və Türk diaspor təşkilatları rəhbərlərinin I forumunda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqi ........ 221
- Azərbaycan və Türk diaspor təşkilatları rəhbərlərinin I forumunun Bakı Bəyannaməsi ........ 230
- Azərbaycan və Türk diaspor təşkilatları Koordinasiya Şurasının Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə və Türkiyə Respublikasının Prezidenti cənab Abdulla Gülə müraciəti ........ 234
- Azərbaycan və Türk diaspor təşkilatlarının birgə fəaliyyət strategiyası ........ 237
- Azərbaycan və Türk diaspor təşkilatları rəhbərlərinin I forumunun türk xalqlarına müraciəti ........ 268
- Azərbaycan və Türk diaspor təşkilatları rəhbərlərinin I forumunun Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar dünya ictimaiyyətinə, beynəlxalq təşkilatlara, xarici ölkələrin parlamentlərinə, dövlət və hökumət başçılarına müraciəti ........ 270
- 1918-ci ilin mart ayında azərbaycanlılara qarşı törədilmiş soyqırımının 90-cı ildönümü ilə əlaqədar Azərbaycan və Türk Diaspor Təşkilatları Koordinasiya Şurasının bəyanatı ........ 273
- «Erməni Soyqırımı» iddiaları ilə bağlı Azərbaycan və Türk diaspor təşkilatları rəhbərlərinin I forumunun bəyanatı ........ 276

**AZƏRBAYCAN VƏ TÜRK DİASPOR TƏŞKİLATLARI KOORDİNASİYA ŞURASININ TOPLANTISI ........ 279**

- Azərbaycan və Türk diaspor təşkilatları koordinasiya şurasının Berlin bəyannaməsi ........ 280

**AVROPA AZƏRBAYCANLILARI KONQRESİ ........ 286**

- Avropa azərbaycanlıları konqresinin 2007-2009-cu illər üçün fəaliyyət proqramı ........ 287

ƏLAVƏLƏR........................................................299

- «Azərbaycanlıların soyqırımı haqqında» Azərbaycan Respublikası Prezidentinin Fərmanı ................................. 300

- «1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi - etnik torpaqlarından kütləvi surətdə deportasıyası haqqında» Azərbaycan Respublikası Prezidentinin Fərmanı ................................................... 305

# DÜNYA AZƏRBAYCANLILARININ HƏMRƏYLİK XARTİYASI

# DÜNYA AZƏRBAYCANLILARINA MÜRACİƏT

Bu gün dünya azərbaycanlılarının müqəddəs and yeri olan Azərbaycan Respublikası dünya birliyində mövqeyini, nüfuzunu daha da möhkəmləndirməkdədir. Demokratik inkişaf yolunda inamla addımlayan, milli-mənəvi dəyərlərini qorumaqla beynəlxalq aləmə sürətlə inteqrasiya edən, iqtisadi, siyasi və mədəni inkişafına görə regionun liderinə çevrilən Azərbaycan dövlətinin əldə etdiyi uğurlarda xalqımızın hər bir nümayəndəsinin, o cümlədən xarici ölkələrdə yaşayan azərbaycanlıların da müstəsna payı vardır.

Xalqımızın qədim tarixinin, zəngin mənəvi dəyərlərinin yaşadılması, elm, mədəniyyət, incəsənət sahələrində əldə etdiyi naiişaliyyətlərin dünya ictimaiyyətinə çatdırılmasında diasporumuzun - xarici ölkələrdə yaşayan yüz minlərlə soydaşımızın da üzərinə məsul və şərəfli vəzifələr düşür.

Milli birlik, vətəndaş birliyi olmadan tərəqqiyə, əmin-amanlığa, firavanlığa nail olmaq mümkün deyil. Bunun üçün isə ilk növbədə dünyanın müxtəlif ölkələrində, tarixi Vətəndən uzaqda yaşayan azərbaycanlılar arasında həmrəyliyin, fikir, əməl birliyinin yaradılması, möhkəmləndirilməsi zəruridir. Bu gün əqidəsindən, dünya görüşündən asılı olmayaraq, Azərbaycanı özünə tarixi Vətən bilən hər bir şəxsin vahid amal uğrunda birləşməsi, həmrəylik nümayiş etdirməsi tarixi missiya, dövrün tələbi, zamanın çağırışıdır.

Qloballaşan dünyada bütün xalqların, dövlətlərin sülh, əmin-amanlıq, tərəqqi ümidi ilə yaxınlaşdığı, bəşər sivilizasiyasının yeni-yeni mənəvi dəyərlər, humanizm çalarları ilə zənginləşdiyi, mədəniyyətlərarası dialoqun, etnomədəni müxtəlifliyin qorunmasının zərurətə çevrildiyi bir vaxtda milli özünüdərkin təsdiqi, insanların öz kökünə bağlılığı getdikcə daha böyük əhəmiyyət kəsb etməkdədir. Milli kimliyini dərk etməyən, təmsil etdiyi xalqdan ayrı düşən, milli inkişafdan, milli təkamüldən kənarda qalan şəxs başqalarını dəyərləndirə bilməz.



**Əziz həmvətən!**

Sən, qədim və şanlı keçmişə malik Azərbaycan xalqının yüz minlərlə övladı kimi Vətəndən uzaq düşsən də, Vətən səndən ayrı düşməz. Tale səni dünyanın hansı guşəsinə atsa da, bölünməz və daim yeniləşən Azərbaycanla bağlılığın daha da möhkəmlənməlidir.

Sən Vətənsiz yaşaya bilmədiyin kimi, Azərbaycanın da övlad məhəbbətinə, qayğısına, sədaqətinə həmişə ehtiyacı var. İnsan Günəşin qiymətini qaranlıqda, Vətənin qədrini qürbətdə yaxşı bilir. Zirvəsi göylərə ucalan qocaman ağacların kökü torpağa daha sıx bağlıdır. Torpaqdan güc alan köklər cavan pöhrələrə yol açır, Vətən sevgisini ən qiymətli irs olaraq gələcək nəsillərə ötürürlər. Dünyanın hansı guşəsində yaşasan da sənə həyat, güc verən kökünü unutma! Vətənin bir parçası olan dilini, dinini, milli kimliyini qoru, yaşat! Çünki Azərbaycan təkcə coğrafi məkan, dünya xəritəsində öz layiqli yerini bərqərar etmiş ölkə deyil, minilliklər boyu sənin mənəviyyatına, mədəniyyətinə hopmuş müqəddəs qan yaddaşıdır. Sən harada olsan da Azərbaycanın bir parçasısan!

Keçmişinlə qürur duy, bu gününlə öyün, gələcəyinlə fəxr et! Hər işini Azərbaycanın adı ilə başla. Bunu səndən bəşər sivilizasiyasına əvəzsiz töhfələrini vermiş müdrik babalarımızın ruhu, müqəddəs torpağımız, ləyaqətimiz, namusumuz uğrunda canından keçmiş şəhidlərimizin şərəfli ömür yolu tələb edir.

Ulu öndərimiz, ümummilli liderimiz Heydər Əliyevin Vətən sevgisi, milli təəssübkeşlik, sonsuz qürur dolu bu sözləri hər bir azərbaycanlının yaddaşında əbədi həkk olunmalıdır: "Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, azərbaycanlıyam!"

**Əziz həmvətən!**

Fəxr et ki, sən bu qədim torpağın övladı, şərəfli tarixə malik bir xalqın nümayəndəsisən!

FƏXR ET Kİ, AZƏRBAYCANLISAN!

# DÜNYA AZƏRBAYCANLILARININ HƏMRƏYLİK XARTİYASI

## PREAMBULA

Azərbaycan - tarixin sınaqlarından üzüağ çıxaraq, qəhrəman övladlarının istiqlal savaşının təntənəsi olan üçrəngli bayrağı ilə Cənubi Qafqazın lider ölkəsinə çevrilən, insanlığa məhəbbət, humanizm ideyaları ilə yaşayan, günbəgün dəyişən, inkişaf edən, hamımızın vahid, bölünməz vətəni, ümid, pənah yerimiz!

Biz, dünyanın hansı guşəsində yaşamasından, sosial statusundan, dünyagörüşündən, əqidəsindən asılı olmayaraq, özünü azərbaycanlı hesab edən hər bir kəsi - babalarımızın şəhidlik qanının hopduğu üçrəngli bayrağımızı daha da yüksəklərə qaldırmaq, əcdadlarımızın bizə miras qoyub getdiyi milli-mənəvi dəyərlərimizi, adət-ənənələrimizi, mədəni irsimizi qorumaq, vətənimizin mənafelərini daimi hər şeydən uca tutmaq, xalqımızın mədəni intibahına, iqtisadi tərəqqisinə, siyasi yüksəlişinə öz töhfələrimizi vermək üçün bütün gücünü, enerjisini, ağlını və bacarığını səfərbər etməyə, doğma Azərbaycanın rifahı naminə əlindən gələni əsirgəməməyə çağırırıq.

Biz dünya sivilizasiyasına öz layiqli töhfələrini vermiş Azərbaycan xalqı və onun milli maraqlarının aliliyi qarşısında məsuliyyətimizi, bu missiyanın həyata keçirilməsində milli birliyin və vətəndaş birliyinin zəruriliyini aydın dərk edirik.

Biz qəti şəkildə inanırıq ki, dünya azərbaycanlılarının həmrəyliyi, vahid amal, tarixi Vətən ətrafında birliyi Azərbaycan dövlətçiliyinin möhkəmləndirilməsi və inkişafını, Azərbaycan xalqının siyasi-iqtisadi və mədəni tərəqqisini təmin edən əsas amildir.

**Dünya Azərbaycanlılarının Həmrəylik Xartiyası** (bundan sonra - Xartiya)

- qədim tarixə və zəngin ənənələrə malik milli dövlətçiliyimizin qorunub saxlanmasında, unikal maddi-mənəvi irsin mühafizəsində Azərbaycan xalqının əsas mənbə və hərəkətverici qüvvə olduğunu;



- dünyanın müxtəlif dövlətlərində yaşayan azərbaycanlıların milli icma çərçivəsindən çıxaraq güclü və mütəşəkkil diaspor halında formalaşması və güclənməsi, məskunlaşdığı ölkələrdə siyasi, iqtisadi, fəaliyyətlərinin genişləndirilməsi, yerli cəmiyyətə daha sıx inteqrasiyası, Azərbaycan xalqının milli maraqlarının müdafiəsində digər xalqların diaspor təşkilatları ilə səylərinin birləşdirilməsi, Azərbaycanı özünə Vətən bilən digər xalqların xaricdə yaşayan nümayəndələrinin Azərbaycan Respublikası ilə əlaqələrinin möhkəmləndirilməsinin əhəmiyyətini;

- müasir qloballaşma, informasiya cəmiyyəti və mədəniyyətlərin dialoqu şəraitində gənc nəslin ümumbəşəri dəyərlərə mükəmməl səviyyədə yiyələnməsi ilə yanaşı, vətənpərvərlik, milli dəyərlərə sədaqət, milli özünüdərk ruhunda tərbiyəsinin vacibliyini nəzərə alaraq,

- vətəndaşlığından, siyasi, sosial-iqtisadi mövqeyindən asılı olmayaraq, bütün azərbaycanlıları vahid amal, tarixi Vətən və Azərbaycan xalqının milli maraqları uğrunda daha fəal iş aparmağa, milli birliyə və həmrəyliyə çağıran, Azərbaycan diasporunun fəaliyyətinin əsas prinsip və istiqamətlərini müəyyənləşdirən tövsiyə xarakterli sənəddir.

**Dünya Azərbaycanlılarının Həmrəylik Xartiyası** Azərbaycan xalqının və Azərbaycan dövlətinin milli maraqlarının müdafiəsində dünya azərbaycanlılarının fəal iştirakını təmin etməyi qarşıya məqsəd qoyur, xarici ölkələrdə yaşayan azərbaycanlıların tarixi vətənin mənafeləri naminə vahid amal ətrafında birləşmək əzmini və iradəsini ifadə edir, bu birliyin ideoloji, sosial-fəlsəfi, siyasi və mənəvi aspektlərini müəyyənləşdirir.

# I BÖLMƏ: ƏSAS ANLAYIŞLAR VƏ PRİNSİPLƏR

**Maddə 1. «Azərbaycanlı» anlayışı.**

Sayı 50 milyonu keçən azərbaycanlıları dil, din, mənəviyyat kimi etnoqrafik mədəni özünəməxsusluqlar birləşdirir. Təxmini hesablamalara görə azərbaycanlıların beşdə dördü öz tarixi vətənində, beşdə biri isə Vətəndən kənarda yaşayır.

«Azərbaycanlı» anlayışının strukturuna:

1) Azərbaycanlılar;

2) Azərbaycanda yaşayan, türk mənşəli azərbaycanlılarla qaynayıb qarışmış milli azlıqlar;

3) özünü azərbaycanlı hesab edən hər bir kəs daxildir.

Tarix elə gətirmişdir ki, 50 milyondan artıq azərbaycanlının beşdə birindən də azı müstəqil Azərbaycan Respublikasının vətəndaşıdır. Lakin nəzərə almaq lazımdır ki, bu, müasir dünya üçün o qədər də qeyri-təbii sayılmır. Qlobal dəyərlərin mühüm əhəmiyyət kəsb etdiyi, dünyanın «böyük bir kənd» halına gəldiyi bir dövrdə azərbaycanlıların müxtəlif dövlətlərin vətəndaşları olması onların milli birliyi üçün mümkün qədər az maneə yaratmalıdır. Hər şeydən əvvəl ona görə ki,

1) Azərbaycanlıların siyasi iradəsini ifadə edən, milli mənəvi dəyərləri rəhbər tutan müstəqil dövlət (Azərbaycan Respublikası);

2) xalqın formalaşdığı, etnik yaddaşa dərindən həkk olunmuş tarixi vətən- etnoqrafik coğrafiya;

3) özünəməxsus adət-ənənələr, dil, din, etnososial dünyagörüşü, etnik- mədəni vərdişlər sistemi;

4) «azərbaycançılıq» ideologiyası;

5) və nəhayət, Heydər Əliyevin şəxsində ümummilli lider mövcuddur.

Dünya azərbaycanlılarının milli birliyini təmin edən, onların dünya birliyinə təbii inteqrasiyasını şərtləndirən vasitə olaraq Türk dünyasının rolu get-gedə güclənməkdədir.

Dinin müasir dövrdə insan mənəviyyatına təsir imkanlarının genişləndiyini nəzərə alsaq, azərbaycanlıların birliyinin digər bir konteksti kimi İslam dünyası ilə əlaqələr də mühüm əhəmiyyət kəsb etməkdədir.



Beləliklə, hər bir azərbaycanlı özünəməxsus aləmi ilə yanaşı a) türk dünyasının, b) islam dünyasının və c) ümumən dünyanın övladıdır.

**Maddə 2. Azərbaycançılıq ideologiyası.** Azərbaycançılıq ideologiyası dünya azərbaycanlılarının vahid ideya ətrafında birləşməsini şərtləndirən tarixi-siyasi amillərin təsnifatını, xaricdə yaşayan soydaşlarımızın hüquq və azadlıqlarının qorunması sahəsində Azərbaycan dövlətinin qarşısında duran vəzifələri, onların Azərbaycan Respublikasına münasibətdə üzərinə düşən mənəvi öhdəlikləri, azərbaycanlı anlayışının sosial-fəlsəfi məzmununu müəyyənləşdirən konsepsiya kimi nəzərdə tutulur.

Ümummilli lider Heydər Əliyev tərəfindən dövlət siyasəti səviyyəsinə yüksəldilmiş azərbaycançılıq ideologiyası millətin və dövlətin perspektiv inkişafının dəyişməz konsepsiyası kimi, milli inkişafın mədəni-tarixi dəyərlərini yaşatmaqla yanaşı, strateji inkişafın əsas yollarını və istiqamətlərini müəyyənləşdirir, milli dilimizin, mədəniyyətimizin və milli-mənəvi dəyərlərimizin inkişaf etdirilməsində öz əksini tapır. Bütün bunlar həm ölkədaxili və regional, həm də qlobal xarakterli vəziyyətlərdə ölkənin dəyişməkdə olan rolunu başa düşməklə formalaşan milli ideoloji model kompleksini təcəssüm etdirir.

Azərbaycançılıq məfkurəsində etnik mənsubiyyətindən asılı olmayaraq ölkəmizdə və xarici dövlətlərdə yaşayan bütün vətəndaşlara, soydaşlara və həmvətənlərə hərtərəfli hüquqi və mənəvi baxımdan bərabər münasibət var. Bu xüsusiyyət bir daha azərbaycançılıq məfkurəsinin dövlətçilik təfəkkürünə əsaslandığına dəlalət edir. Dövlətçilik ideyası, dövlət müstəqilliyimizin əbədiliyi və dönməzliyi fikri, Azərbaycan Respublikasının bütün azərbaycanlıların milli sərvəti, bütün soydaşlarımızın vətəni hesab edilməsi azərbaycançılığın mühüm meyarlarındandır. Bu konseptual ideya özlüyündə əhəmiyyətli olmaqla bərabər, xaricdə yaşayan soydaşlarımızın ölkəmizlə hərtərəfli əlaqələrinin inkişafı, onların müxtəlif maraqlarının hüquqi təminatı üçün də geniş əsas yaradır.

Azərbaycançılıq ideologiyası Azərbaycan dilini, islam mənəviyyatını, respublikanın milli-etnik gerçəkliyini, müasir dəyərlərə malik Azərbaycan vətəndaşlarını və özünü bu ölkə ilə bağlayan soydaşların vahid birliyini ehtiva edir.

**Maddə 3. Azərbaycan xalqının milli təfəkküründə «Vətən» anlayışı.** «Vətən» anlayışı insanın anadan olduğu, dədə-babaların, qohum-əqrəbalarının yaşadığı, soykökü ilə bağlı olduğu ölkə və fərdi inkişaf zamanı bu ölkə ilə əlaqəli olaraq əldə edilən emosional hissləri özündə ifadə edir. Vətən yalnız insanın doğulduğu ərazinin coğrafi hüdudlarını ifadə etmir, o eyni zamanda hər bir fərdin şəxsiyyət olaraq formalaşmasını, özünüdərkini, dünyaya münasibətini şərtləndirən başlıca meyarları müəyyənləşdirən fenomen olaraq qiymətləndirilir. Hər bir insan üçün «Vətən» anlayışı onun daxili «məni» ilə tamamlanan, düşüncə və hisslərini, emosiyalarını, dünyagörüşünü, ictimai münasibətlər sistemində fərdi davranışının motivlərini istiqamətləndirən başlıca məfhum kimi qiymətləndirilir.

Azərbaycan xalqının təfəkküründə «Vətən» anlayışının tarixi Azərbaycan xalqının tarixi qədər qədim və zəngindir. İlk eposumuz olan və xalqın təşəkkülünün ilkin mərhələlərində formalaşan «Dədə Qorqud» qədim azərbaycanlının epik dünyagörüşündə vətənpərvərlik hisslərinin nə qədər güclü olduğunu parlaq şəkildə nümayiş etdirir. Həmin hisslər Azərbaycan xalqını heç bir tarixi mərhələdə tərk etməmiş, XIX əsrin sonu XX əsrin əvvəllərindən etibarən yeni keyfiyyət qazanmış, siyasi-ideoloji məzmun kəsb etmişdir.

Vahid tarixi vətən - Azərbaycan milli həmrəyliyin stimulverici amili, maddi və mənəvi bazası kimi çıxış edir. İlk növbədə maddi anlayış olan, eyni zamanda milli-mənəvi, psixoloji və s. amilləri ehtiva edən Vətən məfhumunun hüdudları Azərbaycan çoğrafi məkanının əhatə dairəsindən kənara çıxır və daha geniş sosial-siyasi məzmun daşıyır. Harada yaşamasından asılı olmayaraq, millətini təmsil edən şəxs, fərd özünün mövcudluğunu, həyatını və gələcəyini Vətəni ilə bağlayır.



**Maddə 4. Azərbaycan diasporu: Azərbaycan diasporu** vahid və bölünməz Azərbaycan xalqının tarixi Vətəndən kənarda məskunlaşmış ayrılmaz hissəsidir.

**Maddə 5. Azərbaycan Respublikasının xarici ölkələrdə yaşayan azərbaycanlılarla bağlı dövlət siyasətin qanunvericilik bazasını** «Xaricdə yaşayan azərbaycanlılarla bağlı dövlət siyasəti haqqında» Azərbaycan Respublikası Qanunu təşkil edir. Qanun Azərbaycan diasporunun inkişafına dövlət qayğısının daha da artırılması, bu sahədə ciddi fəaliyyət üçün vahid strategiyanın hazırlanmasının hüquqi prinsiplərini, xaricdə yaşayan azərbaycanlıların əsas hüquq və azadlıqlarının müdafiəsində, milli özgürlüyünü qoruyub saxlamasında və inkişaf etdirməsində dövlət siyasətinin məqsədlərini, Azərbaycan Respublikasının dövlət müstəqilliyinin qorunması və möhkəmləndirilməsi, iqtisadi, sosial, mədəni inkişafı, digər dövlətlərlə qarşılıqlı faydalı münasibətlərin qurulması prosesinə soydaşların da cəlb edilməsi yollarını müəyyənləşdirmişdir.

**Maddə 6. «Xaricdə yaşayan azərbaycanlılar»** anlayışı: «Xaricdə yaşayan azərbaycanlılarla bağlı dövlət siyasəti haqqında» Azərbaycan Respublikası Qanununun 1. maddəsinə əsasən, "xaricdə yaşayan azərbaycanlılar" dedikdə,

- Azərbaycan Respublikasının hüdudlarından kənarda yaşayan və özünü azərbaycanlı hesab edən Azərbaycan Respublikasının vətəndaşları və onların övladları;
- əvvəllər Azərbaycan SSR-nin və ya Azərbaycan Respublikasının vətəndaşları olmuş şəxslər və onların övladları;
- həmçinin göstərilmiş kateqoriyalara aid olmayan, lakin etnik, dil, mədəniyyət və ya tarixi əlaqələr baxımından özünü azərbaycanlı hesab edən şəxslər və onların övladları nəzərdə tutulur.

**Maddə 7. Dünya Azərbaycanlılarının Həmrəylik Xartiyasının məqsədi** xarici ölkələrdə yaşayan azərbaycanlıların təşkilatlanması prosesinin keyfiyyətcə təkmilləşdirilməsi, soydaşlarımız arasında milli birliyin və həmrəyliyin möhkəmləndirilməsi, Azərbaycan xalqının tarixi, müasir həyatı, sosial-iqtisadi inkişaf səviyyəsi,

Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

mədəniyyəti ilə bağlı məlumatların dünya ictimaiyyətinə çatdırılması, diaspor təşkilatlarının fəaliyyəti səmərəliliyinin artırılması; xarici ölkələrdə məskunlaşmış azərbaycanlıların ictimai-siyasi fəallığının gücləndirilməsi, onların cəmiyyətə inteqrasiyasının sürətləndirilməsi, hüquq və azadlıqlarının müdafiəsi, habelə digər xalqların diaspor təşkilatları ilə əməkdaşlıq əlaqələrinin genişləndirilməsi və ictimai münasibətlərin qurulması işinin daha yüksək səviyyədə təşkilinə nail olmaqdan ibarətdir.

**Maddə 8. Dünya Azərbaycanlılarının Həmrəylik Xartiyasının əsaslandığı başlıca prinsiplər** aşağıdakılardan ibarətdir:

8.1. Azərbaycan xalqının milli maraqlarının davamlı olaraq müdafiəsi;

8.2. Beynəlxalq hüquq normalarına və Azərbaycan icmalarının fəaliyyət göstərdiyi xarici ölkələrin qanunvericilik aktlarının tələblərinə riayət etmək;

8.3. İnsan hüquq və azadlıqlarına hörmət;

8.4. Başqa xalqların nümayəndələrinə qarşı münasibətdə dini və milli tolerantlıq nümayiş etdirmək, millətlərarası, dinlərarası münaqişələrə, siyasi qarşıdurmalara səbəb ola biləcək hər hansı bir fəaliyyətdən çəkinmək;

8.5. Azərbaycan xalqına xas olan mənəvi normalara və əxlaqi keyfiyyətlərə sədaqət;

8.6. Azərbaycan diaspor təşkilatlarının fəaliyyətinin səmərəliliyini artırmaq;

8.7. Azərbaycan icmalarının fəaliyyətinin koordinasiyası və Azərbaycan həqiqətlərinin təbliği sahəsində müasin informasiya texnlogiyalarının tətbiqi;

8.8. Milli mənşəyini, tarixi Vətənini unutmamaq, Azərbaycan xalqının milli maraqlarının müdafiəsi;

8.9. Diaspor daxilində yaranmış istənilən fikir ayrılığını, mübahisəli məsələləri yalnız kollegial qaydada, demokratik yolla həll etmək, bu proseslərin üzvləri arasında həmrəyliyə xələl gətirməsinə yol verməmək;

8.10. Siyasi baxışların müxtəlifliyinin və sosial status fərqlərinin dünya azərbaycanlılarının birliyin təşəkkülünə, qorunub möhkəmləndirilməsinə xələl gətirməsinə yol verməmək;



8.11. Xarici ölkələrdə yaşayan azərbaycanlılar bir-birilə ideoloji, mənəvi, siyasi və iqtisadi amillərə əsaslanan həmrəyliyin təmin olunmasına səy göstərmək;

8.12. Azərbaycan diaspor təşkilatları arasında həmrəyliyin və əməkdaşlığın inkişaf etdirilməsi, milli mənafenin təminatı amalını siyasi, iqtisadi və ya digər korporativ maraqlardan üstün tutmaq;

Diaspor təşkilatları umümmilli xarakter daşıyan aksiyalarda həmrəylik nümayiş etdirmək, ortaq problemlər yaşayan digər xalq və millətlərin milli birliklərini bu işə cəlb etmək, eyni zamanda onların da müvafiq tədbirlərində öz mövqeyini fəal nümayiş etdirmək.

## II BÖLMƏ:
## ƏSAS İSTİQAMƏTLƏR

**Maddə 9. Xarici ölkələrdə yaşayan azərbaycanlıların birliyinin təmin olunması və təşkilatlanması.** Müasir dövrdə xarici ölkələrdə yaşayan azərbaycanlılar arasında milli-mənəvi birliyin möhkəmləndirilməsi, soydaşlarımızın təşkilatlanması prosesi keyfiyyətcə yeni məzmun kəsb etməkdədir. Bu, Azərbaycan diaspor quruculuğu işinə xarici ölkələrdə yaşayan azərbaycanlı ziyalıların, gənclərin və qadınların, eləcə də Azərbaycanda yaşayan digər xalqların xarici ölkələrə köçmüş nümayəndələrinin cəlb olunması zərurəti ilə bağlıdır. Bu sahədə Azərbaycan diaspor təşkilatlarının əsas fəaliyyət istiqamətləri aşağıdakılardır:

9.1. Xarici ölkələrdə yaşayan azərbaycanlılar arasında ideoloji, mənəvi, siyasi və iqtisadi amillərə əsaslanan birliyin təmin olunmasına səy göstərilməsi, azərbaycanlılar arasında milli həmrəylik və birlik ideyalarını təbliğ etmək;

9.2. Azərbaycan diaspor təşkilatlarının yaradılması prosesinin davam etdirilməsi, azərbaycanlıların təşkilatlanmadığı, yaxud zəif təşkilatlandığı ölkələrdə yeni icma və birliklərin yaradılması;

9.3. Azərbaycan diaspor təşkilatlarının fəaliyyətinə dəstəyin gücləndirilməsi;

9.4. Azərbaycan icmaları tərəfindən təşkil olunmuş bütün tədbirlərdə-etiraz aksiyalarında, elmi-praktik konfranslarda, sərgilərdə, mədəni kütləvi tədbirlərdə fəal iştirak etmək;

9.5. Ayrı-ayrı ölkələrdə fəaliyyət göstərən diaspor təşkilatları arasında inteqrasiya meyillərinin gücləndirilməsi, onların fəaliyyətinin vahid mərkəzdən əlaqələndirilməsi məqsədilə əlaqələndirici qurumların (konqress, federasiya, assosiasiya) yaradılması;

9.6. Azərbaycanlıların kütləvi şəkildə məskunlaşdığı ölkələrdə eyni fəaliyyət sahəsində çalışan həmvətənlərimiz arasında əlaqələrin yaradılmasına səy göstərilməsi, bu məqsədlə azərbaycanlı iş adamları, azərbaycanlı jurnalistlər, elm adamları, mədəniyyət xadimləri birliklərinin yaradılması;

9.7. Xarici ölkələrdə yaşayan azərbaycanlı qadınların diaspor quruculuğu işinə cəlb olunması, eləcə də hazırda fəaliyyət



göstərən diaspor təşkilatlarının nəzdində Qadınlar Şurasının yaradılması;.

9.8. Dünya Azərbaycanlılarının II Qurultayının Qətnaməsindən irəli gələn tövsiyələrin həyata keçirilməsi istiqamətində tədbirlərin görülməsi, o cümlədən:

9.8.1. Bir ölkə daxilində ayrı-ayrılıqda fəaliyyət göstərən icma və qurumların koordinasiya şuralarının yaradılması:

9.8.2. Diaspor təşkilatlarının qitələr üzrə birləşdirilməsi prosesinin davam etdirilməsi, Amerika Azərbaycanlıları Konqresinin və Asiya Azərbaycanlıları Konqresinin təsis edilməsi;

**Maddə 10. Azərbaycan həqiqətlərinin təbliği.** İnformasiya cəmiyyətinin müasir tələblərinə uyğun olaraq, diaspor təşkilatları dünya azərbaycanlılarının həmrəyliyinin informasiya təminatı istiqamətində ana dilində və ya yaşadıqları ölkələrin dövlət dilində kütləvi informasiya vasitələri təsis etmək, milli icma üzvləri və yerli əhali arasında təbliğat və maarifçilik işi aparmaq hüququna malikdirlər. Azərbaycanlı icmalarının fəaliyyət göstərdikləri ölkələrin kütləvi informasiya vasitələri ilə əlaqələri yaxşılaşdırılmalı, yeni müstəqil qəzet, jurnal, radio, televiziya və informasiya agentliklərinin yaradılması prosesi davam etdirilməli, ölkəmizlə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılmasında fəal iştirak edən və Azərbaycan diasporuna ictimai münasibətlərin qurulmasında yardım göstərə biləcək alim, siyasətçi və jurnalistlərlə, soydaşlarımızın yaşadıqları ölkələrin və digər dövlətlərin qeyri-hökumət təşkilatlarının təmsilçiləri ilə sıx münasibətlər qurulmalı, onlarla məqsədyönlü iş aparılmalıdır. Bu sahədə Azərbaycan diaspor təşkilatlarının əsas fəaliyyət istiqamətləri aşağıdakılardan ibarətdir:

10.1. Diaspor təşkilatlarının fəaliyyət göstərdiyi ölkələrdə yerli qanunvericiliyi, ictimai-siyasi mühitin tələblərini, Azərbaycanın həmin ölkə ilə münasibətlərinin xarakterini və səviyyəsini nəzərə alan təbliğat strategiyasının müəyyənləşdirilməsi və həyata keçirilməsi;

10.2. Azərbaycanın tarixi, mədəniyyəti müasir inkişaf səviyyəsi ilə bağlı mövzulara həsr olunmuş beynəlxalq konfransların, elmi simpoziumların təşkili;

10.3. Xarici ölkələrdə fəaliyyət göstərən kütləvi informasiya vasitələri ilə əlaqələrin qurulması, Azərbaycan haqqında materialların dərc olunmasına səy göstərilməsi;

10.4. Xarici kütləvi informasiya vasitələri nümayəndələrinin Azərbaycana səfərlərinin təşkili;

10.5. Azərbaycanın tarixi və müasir həyatından bəhs edən broşurların, məlumat vərəqələrinin, plakatların və digər əyani təbliğat vasitələrinin nəşr edilərək yayılması;

10.6. Müxtəlif ölkələrdə Azərbaycan mədəniyyət günlərinin, rəsm və fotosərgilərin, kino günlərinin təşkili;

10.7. Ən müxtəlif metod və texnologiyaların tətbiqi yolu ilə Azərbaycanın məruz qaldığı haqsızlıqlar, xalqımıza qarşı törədilmiş terror və soyqırım aktları barədə məlumatların dünya ictimaiyyətinə çatdırılması, eyni zamanda erməni uydurmalarının ifşası məqsədilə tədbirlərin görülməsi, o cümlədən:

10.7.1. Ermənistanın işğalçılıq siyasətinin nəticələrinə, ermənilər tərəfindən azərbaycanlılara qarşı törədilmiş terror və soyqırım aktlarına həsr olunmuş elmi-praktik konfransların, simpoziumların, film festivallarının, foto və rəsm sərgilərinin təşkili;

10.7.2. «31 Mart azərbaycanlıların soyqırımı» günü, 20 yanvar faciəsi, Xocalı soyqırımı və digər faciəli tarixlərlə bağlı dünya ictimaiyyətinin dəqiq məlumatlandırılması istiqamətində davamlı iş aparılması, ermənilərin törətdiyi qanlı cinayətlər haqqında beynəlxalq təşkilatlara, ayrı-ayrı dövlətlərin parlamentlərinə müraciətlər ünvanlanması, dinc insanların milli mənsubiyyətlərinə görə kütləvi şəkildə məhv edilməsinin beynəlxalq ictimaiyyət tərəfindən tanınmasına nail olunması;

10.7.3. 31 Mart Azərbaycanlıların soyqırımı günü ilə bağlı dünyanın müxtəlif ölkələrində etiraz aksiyalarının, foto və film sərgilərinin, elmi-praktik konfransların, anım günlərinin təşkili işinin davam etdirilməsi;

10.7.4. 20 yanvar faciəsi ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması istiqamətində tədbirlərin davam etdirilməsi;

10.7.5. Xocalı soyqırımı ilə bağlı dünya ictimaiyyətinin obyektiv məlumatlandırılması istiqamətində mütəmadi iş aparılması, Xocalı hadisələrinin soyqırım kimi beynəlxalq ictimaiyyət tərəfindən tanınmasına nail olmaq məqsədilə imzatoplama kampaniyalarının təşkili;



10.7.6. Xocalı soyqırımı ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması məqsədilə müxtəlif formatlı tədbirlərin, etiraz aksiyaların, elmi-praktik konfransların təşkili;

10.7.7. Azərbaycan diaspor təşkilatlarının ofislərində «Azərbaycanlıların soyqırımı» muzeylərinin yaradılması;

10.7.8. Hər il Xocalı soyqırımının ildönümü ərəfəsində ictimai və siyasi xadimlərə müraciətlərin və məktubların ünvanlanması;

10.7.9. Xarici kütləvi informasiya vasitələrində Xocalı soyqırımı barədə materialların yayılması istiqamətində iş aparılması;

10.7.10. Xocalı soyqırımının ildönümündə - hər il fevral ayının 26-da eyni vaxtda dünyanın müxtəlif ölkələrində birgə etiraz aksiyalarının keçirilməsi;

10.7.11. Türkdilli və digər xalqların diaspor təşkilatları ilə əməkdaşlıq çərçivəsində erməni uydurmalarının ifşa edilməsi istiqamətində tədbirlərin görülməsi, bu məqsədlə konfransların, elmi simpoziumların təşkili,

10.7.12. Xarici ölkələrin parlamentlərinin «erməni soyqırımı» ilə bağlı qəbul etdiyi qərarlara etiraz olaraq türk icmaları ilə birgə aksiyaların təşkili, beynəlxalq ictimaiyyətin bu barədə obyektiv məlumatlandırılması məqsədilə digər zəruri tədbirlərin görülməsi;

10.7.13. Hər il bir neçə dəfə xarici ölkələrin Azərbaycan və Türkiyədəki səfirliklərinə, habelə beynəlxalq təşkilatlardakı nümayəndəliklərinə Ermənistanın Azərbaycana təcavüzü, 1915-ci il hadisələri ilə bağlı erməni iddialarının əsassızlığı, erməni terrorizmi, azərbayanlılara və digər xalqlara qarşı ermənilər tərəfindən törədilmiş soyqırımı aktları barədə materialların təqdim edilməsi;

10.7.14. Azərbaycan diaspor təşkilatlarının ofislərində mədəniyyət mərkəzlərində azərbaycanlılara qarşı törədilmiş soyqırım aksiyalarına dair daimi və səyyar ekspozisiyaların yaradılması;

10.7.15. Erməni millətçilərinin digər xalqlara-ləzgilərə, avarlara, talışlara, kürdlərə, yəhudilərə qarşı törətdikldəri soyqırı-

mı aktları barədə dünya ictimaiyyətinin məlumatlandırılması, bu barədə sənədlərin və materialların yayılmasının təşkili;

10.8. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması istiqamətində tədbirlərin həyata keçirilməsi, o cümlədən:

10.8.1. Ermənistanın Azərbaycana qarşı təcavüzkarlıq siyasətinin ifşası istiqamətində səylərin gücləndirilməsi, bu məqsədlə müxtəlif ölkələrdə təbliğat xarakterli tədbirlərin təşkili;

10.8.2. Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində yaranmış münaqişə ilə bağlı faktların, sənədlərin beynəlxalq ictimaiyyətə çatdırılması istiqamətində səy göstərilməsi, münaqişə ilə bağlı materialların beynəlxalq təşkilatlara və xarici ölkələrin parlamentlərinə çatdırılması istiqamətində iş aparılması;

10.8.3. Kütləvi informasiya vasitələrində münaqişənin səbəb və nəticələri barədə əsl həqiqətləri özündə əks etdirən materialların yayılmasına nail olunması;

10.8.4. Yerli ictimaiyyət arasında müvafiq təşviqat işinin aparılması, təbliğat materiallarının yayılması;

10.8.5. Azərbaycana həsr olunmuş tədbirlərdə, mədəniyyət günlərində, festival və sərgilərin təşkili zamanı Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı məlumatların təqdim edilməsi;

10.8.6. Avropa ölkələri və ABŞ-da Qarabağ münaqişəsinə («Cənubi Qafqazda dondurulmuş münaqişələrin dünyada sülhə və təhlükəsizliyə yaratdığı real təhdidlər» mövzusu adı altında) həsr olunmuş internet forumların təşkili;

10.8.7. Əcnəbi müəlliflər tərəfindən Qarabağ münaqişəsinə həsr olunmuş tədqiqatların geniş yayılması istiqamətində işlərin aparılması;

10.8.8. Azərbaycan diaspor təşkilatlarının nəzdində Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tarixi, münaqişənin nəticələri, habelə nizamlama prosesinin mərhələləri ilə bağlı zəruri məlumatların, video materialların və digər məlumat xarakterli vəsaitlərin toplandığı informasiya bürolarının yaradılması;

10.8.9. Xarici televiziya kanallarında Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı həqiqətləri özündə



əks etdirən filmlərin nümayiş etdirilməsinə nail olunması;

10.8.10. Ermənistanın Azərbaycana təcavüzü ilə əlaqədar siyasi dairələrlə fəal təşviqat işinin aparılması, yerli qanunvericilik aktları çərçivəsində etiraz aksiyalarının təşkili;

10.8.11. Xarici dillərdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında məlumatları özündə əks etdirən filmlərin, audio-vizual materialların hazırlanması, kitab və broşurların nəşri;

10.8.12. Beynəlxalq təşkilatların mərkəzi qərargahları və xarici ölkələrdəki nümayəndəlikləri qarşısında Ermənistanın işğalçılıq siyasətinə qarşı birgə etiraz aksiyalarının təşkili;

10.8.13. Ermənistanın Azərbaycana təcavüzü nəticəsində yurd-yuvalarından didərgin düşmüş qaçqın və məcburi köçkünlərin problemlərinin diqqət mərkəzində saxlanılması, beynəlxalq hüquq-müdafiə təşkilatlarına bu barədə müvafiq məlumatların təqdim edilməsi;

10.8.14. Azərbaycandakı məcburi köçkünlərin problemləri və döyüş bölgələrindəki vəziyyətlə tanışlıq məqsədilə xarici KİV nümayəndələrinin səfərlərinin təşkili;

10.8.15. Azərbaycan icmalarının fəaliyyət göstərdiyi ölkələrdə parlament və hökumət üzvləri, dövlət və siyasət adamları, elm xadimlərinə, kütləvi informasiya vasitələrinə, kitabxanalara Ermənistanın terror, işğalçılıq və soyqırımı siyasəti ilə bağlı ədəbiyyatların göndərilməsi;

10.8.16. Ermənistanın digər ölkələrə qarşı ərazi iddiaları ilə bağlı beynəlxalq ictimaiyyətin məlumatlandırılması istiqamətində tədbirlərin görülməsi;

10.8.17. Separatizmə, terrorizmə, dövlətlərin və xalqların təhlükəsizliyinə, maddi və mənəvi həyatına ziyan verə biləcək digər neqativ hallara qarşı başqa diasporlarla birgə mübarizə aparılması;

10.8.18. Azərbaycan xalqının tarixi və mədəni abidələrini, milli dəyərlərini özününküləşdirən ermənilərə və digərlərinə qarşı mübarizə aparılması;

10.8.19. Tarixən Azərbaycan xalqının başına gətirilən facio və işğalların bu gün də insan hüquqları və beynəlxalq qanunlara zidd olaraq davam etdiyinin dünya ictimaiyyətinə çatdırılması;

10.9. Azərbaycan icmalarının təsis etdiyi kütləvi informasiya vasitələri arasında, eləcə də onların Azərbaycan mətbuatı ilə əməkdaşlıq əlaqələrinin inkişaf etdirilməsi;

10.10. Azərbaycanlı iş adamlarının maliyyə dəstəyi, Azərbaycan icmalarının birgə təsisçiliyi ilə Avropa ölkələrinin birində Azərbaycanın ictimai-siyasi həyatı, iqtisadi inkişaf perspektivləri, onların Qərbə inteqrasiyası ilə bağlı təhlillər aparan peşəkar araşdırma mərkəzinin yaradılması;

10.11. Mədəniyyətlərarası və dinlərarası dialoqun inkişafında Azərbaycanın roluna həsr olunmuş elmi-praktik konfransların və digər tədbirlərin təşkili;

10.12. Azərbaycanda ictimai-siyasi sabitliyin və müxtəlif xalqların sülh və qardaşlıq münasibətləri əsasında yaşamısının vacib şərtlərindən biri olan dini və etnik tolerantlıq haqqında dünya ictimaiyyətinin məlumatlandırılmasına xidmət edən tədbirlərin həyata keçirilməsi;

10.13. Azərbaycanın tarixi, mədəniyyəti, ədəbiyyatı, ictimai-siyasi və sosial-iqtisadi həyatı haqqında məlumatları özündə əks etdirən nəşrlərin xarici ölkələrdə yayılması;

10.14. Xarici ölkə yazıçılarının və alimlərinin Azərbaycan haqqında əsərlərinin yayılması və təbliği.

**Maddə 11. Azərbaycan xalqının mədəni irsinin və qədim tarixinin təbliği.** Tarixi Vətəndən uzaq düşmüş diaspor təşkilatları üzvlərinin və onların övladlarının ana dilini, milli mədəniyyəti, tarixini öyrənməsi, vətənpərvərlik ruhunda tərbiyəsi məqsədilə təhsil ocaqlarının, müxtəlif fakültətiv kursların və dərnəklərin təşkili, tədris prosesində Azərbaycan xalqının milli dövlətçiliyi və inkişaf perspektivləri, «Azərbaycan» və «azərbaycanlı» anlayışlarının məzmunu, Azərbaycan xalqının milli təfəkküründə «Vətən» anlayışı, azərbaycanlıların milli-mənəvi keyfiyyətləri və s. barədə məşğələlərin aparılması vacib vəzifələrdəndir. Bu sahədə Azərbaycan diaspor təşkilatlarının əsas fəaliyyət istiqamətləri aşağıdakılardan ibarətdir:



11.1. *Azərbaycanlıların məskunlaşdıqları* ölkələrin qanunvericiliyinə və beynəlxalq konvensiyaların tələblərinə uyğun olaraq, etnomədəni özünəməxsusluğunu qorumaq, inkişaf etdirmək, millətlərarası və mədəniyyətlərarası dialoqda əməkdaşlıq məqsədilə tədbirlərin görülməsi, ictimai təşkilatlar, assosiasiyaların yaradılması;

11.2. Soydaşlarımızın öz dilinə, mədəniyyətinə, tarixi köklərinə və milli-mənəvi dəyərlərinə bağlılığını qoruyub saxlamaları üçün milli teatrların, kitabxanaların açılması;

11.3. Milli mədəniyyətlərin qorunmasına dair beynəlxalq konvensiyaların müddəalarına uyğun olaraq xarici ölkələrdə məskunlaşan azərbaycanlıların milli-mədəni cəmiyyətlərin yaradılması, milli özünəməxsusluğu mühafizə etmək məqsədilə digər zəruri tədbirlərin həyata keçirilməsi;

11.4. Xaricdə yaşayan azərbaycanlıların milli-mənəvi keyfiyyətlərini, əxlaqi dəyərlərini yaşatmaq, təbliğ etmək, zəngin mədəniyyətini, adət-ənənələrini qayğı ilə mühafizə etməklə gələcək nəsillərə aşılamaq məqsədilə tədbirlərin həyata keçirilməsi;

11.5. Azərbaycanlıların sıx halda yaşadığı xarici ölkələrdə ana dilinin, Azərbaycan tarixi, mədəniyyəti və coğrafiyasının tədrisi məqsədilə «Həftə sonu» şəbəkəsinin genişləndirilməsi;

11.6. «Həftə sonu» məktəblərinin maddi-texniki bazasının yaxşılaşdırılması, əyani və dərs vəsaitləri ilə təminatı işinin gücləndirilməsi, həmin məktəblərin kadr potensialını inkişaf etdirmək məqsədilə tədbirlərin görülməsi;

11.7. Azərbaycan xalqının folklor nümunələrinin, musiqisinin, ədəbiyyat və incəsənətinin zəngin mədəni irsinin gənc nəslə təbliği məqsədilə birgə mədəni-kütləvi tədbirlərin - musiqi festivallarının, milli mədəniyyət günlərinin, rəsm sərgilərinin, Azərbaycan kinosu günlərinin təşkilində diaspor nümayəndələrinin həmrəylik nümayiş etdirməsi;

11.8. Xarici ölkələrdə yaşayan azərbaycanlı mədəniyyət və incəsənət xadimləri arasında əlaqələrin qurulmasına və onların görüşlərinin təşkilinə səy göstərilməsi;

11.9. Xarici ölkələrdə yaşayan tanınmış azərbaycanlı elm və mədəniyyət xadimlərinin yubileylərinin qeyd edilməsi;

11.10. Beynəlxalq mədəniyyət festivallarında Azərbaycanın

layiqincə təmsil olunması üçün diaspor təşkilatlarının imkanlarının səfərbər edilməsi;

11.11. Azərbaycanın tarixi və mədəniyyətindən bəhs edən muzey mərkəzlərinin yaradılması;

11.12. Dünyanın nüfuzlu muzeylərində Azərbaycan tarixi və mədəniyyəti haqqında eksponatları özündə əks etdirən guşələrin təşkil edilməsi;

11.13. Azərbaycan xalqının mədəni irsi barədə məlumat verən təbliğat materiallarının yayılması işinin təşkil edilməsi;

11.14. Azərbaycan xalqının qədim tarixinin, zəngin mədəni irsinin təbliği üçün birgə mədəni-kütləvi tədbirlərin - konsert proqramlarının, musiqi festivallarının, mədəniyyət günlərinin, rəsm sərgilərinin, Azərbaycan kinosu günlərinin təşkili;

11.15. Azərbaycan mədəniyyətini təbliğ edən materialların xarici kütləvi informasiya vasitələrində yayımına nail olmaq istiqamətində səylərin birləşdirilməsi;

11.16. Azərbaycan tarixinə dair materialların - məqalə, monoqrafiya və kitabların yayılmasına nail olmaq, birgə elmi-praktik konfranslar keçirmək, sənədli və bədii filmlərin xarici dillərə tərcümə edilərək nüfuzlu telekanallar vasitəsilə nümayiş etdirilməsi istiqamətində tədbirlər görmək;

11.17. Azərbaycanın tarixi və mədəni abidələrinin, milli dəyərlərinin ermənilər tərəfindən mənimsənilməsinə qarşı ardıcıl və sistemli tədbilərin həyata keçirilməsi;

11.18. Xarici ölkələrin televiziya kanallarında Azərbaycan və türk xalqlarının mədəniyyətindən bəhs edən filmlərin nümayiş etdirilməsi;

11.19. Azərbaycan şəhərləri ilə dünyanın müxtəlif iri şəhərləri arasında qardaşlaşma və əməkdaşlıq müqavilələrinin imzalanması məqsədilə birgə tədbirlərin həyata keçirilməsi;

11.20. Azərbaycanın turizm imkanlarını təbliğ etmək məqsədilə iş adamlarını cəlb etməklə birgə turizm sərgilərinin keçirilməsi;

11.21. Turizm sahəsində çalışan azərbaycanlı iş adamları arasında əlaqələrin qurulmasına nail olmaq məqsədilə onların görüşlərinin təşkil edilməsi.



**Maddə 12. Azərbaycan diaspor təşkilatlarının fəaliyyətinin koordinasiyası və təbliğat işində müasir informasiya texnologiyalarının tətbiqi.** Azərbaycan diaspor təşkilatlarının fəaliyyətinin koordinasiyası və Azərbaycan həqiqətlərinin təbliğində müasir informasiya texnologiyalarının tətbiqi diaspor quruculuğu işinin keyfiyyətcə təkmilləşdirilməsi, Azərbaycan icmaları arasında əlaqələrin daha operativ şəkildə həyata keçirilməsi, xalqımızın tarixi və müasir həyatı ilə bağlı məlumatların dünya ictimaiyyətinə çatdırılması mexanizmlərinin müasirləşdirilməsi məqsədlərinə xidmət edir. Bu sahədə Azərbaycan diaspor təşkilatlarının əsas fəaliyyət istiqamətləri aşağıdakılardan ibarətdir:

12.1. İnternetdə Azərbaycanın milli dəyərlərinin (tarix, dil, mədəniyyət və s.) qorunması, təsbit edilməsi və bu işdə nəzarətin gücləndirilməsi;

12.2. Milli informasiya resursları - kitablar, elmi-bədii əsərlər, şəkillər, səslər və s. elektron formaya keçirilməsi və Azərbaycan icmalarının internet saytlarında yerləşdirilməsi;

12.3. Virtual məkanda domen adlarının missiyasını nəzərə alaraq azərbaycanlılara məxsus olan məşhur, strateji əhəmiyyət daşıyan və s. domen adların qeydiyyatdan keçirilməsi;

12.4. Domen adların qeydə alınması zamanı türk dilləri standartlarının qeydə alınması, «.turan», «.turk», «.azeri», «.qarabaq» domenlərin yaradılması;

12.5. Azərbaycanın virtual məkanda coğrafi adları, mövcud reallıqları, mənəvi dəyərləri, tarixi həqiqətləri, görkəmli səxsiyyətləri ilə geniş təmsil olunması istiqamətində tədbirlərin görülməsi;

12.6. İKT-də əldə olunan ən son nailiyyətlərin azərbaycanlılara məxsus olan milli dəyərlərinin qorunması işlərinə tətbiq olunması;

12.7. Müasir İKT-nin imkanlarından istifadə etməklə Azərbaycan diaspor təşkilatlarının fəaliyyətlərinin əlaqələndirilməsi;

12.8. Dünya azərbaycanlılarının virtual məkanda Azərbaycan dilində informasiya mübadiləsini təmin edən vahid konvertasiya sisteminin (latın, kiril, ərəb qrafikası nəzərə alınmaqla) işlənilməsi;

12.9. Azərbaycan dilinin dünya dillərinə və əksinə tərcümə olunması üçün maşın tərcümə sistemlərinin yaradılması, mövcud

sistemlərin təkmilləşdirilməsi və inkişaf etdirilməsi;

12.10. Azərbaycan dilində vahid terminoloji lüğətin yaradılması;

12.11. Diaspor təşkilatları tərəfindən virtual məkanda Avropa Şurası və digər beynəlxalq qurumlar qarşısında erməni terrorçuları tərəfindən həyata keçirilmiş cinayətlərlə bağlı müzakirələrin açılması məsələsinin qaldırılması;

12.12. İngilis dilində Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə həsr olunmuş obyektiv materiallar toplusundan ibarət informasiya bazası əsasında xüsusi internet saytın yaradılması;

12.13. Azərbaycan xalqının tarixini, mədəniyyətini, milli-mənəvi dəyərlərini özündə əks etdirən dünya azərbaycanlılarının və diaspor təşkilatlarının vahid portalının yaradılması;

12.14. İnternetdə dünya azərbaycanlılarının ortaq yayım qurumunun (televiziya kanalının) yaradılması, eyni zamanda internet televiziya kanalının açılması;

12.15. Xarici ölkələrdə yaşayan azərbaycanlı uşaqlara və gənclərə müasir informasiya texnologiyaları vasitəsilə Ana dilini, Azərbaycan tarixini, mədəniyyətini, coğrafiyasını tədris etmək məqsədilə Azərbaycan Milli Elmlər Akademiyasının İnformasiya Texnologiyaları İnstitutu ilə birlikdə «Virtual Həftə sonu" məktəbinin yaradılması;

12.16. Azərbaycanlıların sıx yaşadığı regionlarda (Avropa ölkələri, MDB və s.) «AZERIS NETWORK» internet şəbəkələrinin yaradılması işinin davam etdirilməsi;

12.17. Müasir İKT-nin imkanlarından istifadə etməklə dünya azərbaycanlıları arasında iki və çoxtərəfli əməkdaşlıq qurulması, təcrübə mübadiləsinin aparılması, azərbaycanlıların intellektual potensialının ümumimlli mənafelərin reallaşdırılmasına səfərbər edilməsi.

**Maddə 13. Xaricdə yaşayan azərbaycanlıların cəmiyyətə inteqrasiyasının sürətləndirilməsi, ictimai-siyasi fəallığının artırılması, hüquq və azadlıqlarının müdafiəsi.** Azərbaycanlıların cəmiyyətə inteqrasiyasının sürətləndirilməsi, soydaşlarımızın hüquq və azadlıqlarının qorunması Azərbaycan diasporunun qarşısında duran prioritet vəzifələrdir. Bu sahədə ötən müddət ərzində müəyyən nailiyyətlər əldə olunsa da, soydaşlarımızın cəmiyyətə daha sıx inteqrasiyasına nail olmaq, onların hüquq və azadlıqlarının müdafiəsi mexanizmlərini təkmilləşdirmək, siyasi təşkilatlarda, dövlət və hökumət strukturlarında təmsilçilik imkanlarının genişləndirilməsi, diaspor təşkilatlarının fəaliyyətində bu sahəyə diqqətin artırılması həllini gözləyən ən vacib məsələlər olaraq qalır. Bu sahədə Azərbaycan diaspor təşkilatlarının əsas fəaliyyət istiqamətləri aşağıdakılardan ibarətdir:

13.1. Xarici ölkələrdə yaşayan azərbaycanlıların cəmiyyətə inteqrasiyasına dəstək vermək məqsədilə Azərbaycan diaspor təşkilatlarının nəzdində yerli dili, mədəniyyəti və tarixi tədris edən kursların yaradılması;

13.2. Azərbaycanlıların sıx yaşadığı ölkələrdə ictimai-siyasi proseslərə təsir imkanlarını artırmaq üçün diaspor təşkilatları arasında qarşılıqlı məsləhətləşmələrin aparılması;

13.3. Seçki və referendumlarda azərbaycanlıların fəal iştirakı;

13.4. Seçkili orqanlara real, perspektivli şəxslərin namizədliyinin irəli sürülməsi və müdafiəsi;

13.5. Seçkili orqanlara namizədliyi irəli sürülmüş azərbaycanlıların təşviqat və təbliğat kampaniyalarında fəal iştirak etmək, onlara zəruri təbliğat-informasiya dəstəyinin verilməsi;

13.6. Seçkili orqanlarda təmsil olunan azərbaycanlı siyasətçilərin fəaliyyətinin dəstəklənməsi;

13.7. Siyasi partiya və hərəkatlar, habelə onların liderləri ilə işgüzar münasibətlərin yaradılmasına səy göstərilməsi;

13.8. Azərbaycanlıların siyasi partiyalarda təmsil olunması istiqamətində iş aparılması;

13.9. Azərbaycan diaspor təşkilatlarının fəaliyyət göstərdikləri ölkələrdə yerli ictimai təşkilatlar, qeyri-hökumət təşkilatları, kütləvi informasiya vasitələri və dövlət strukturları ilə əlaqələrinin qurulması;

13.10. İnsan hüquq və azadlıqlarının müdafiəsi ilə məşğul olan qeyri-hökumət təşkilatlarının təsis edilməsi;

13.11. Xarici ölkələrdə yaşayan azərbaycanlılar arasında hüquqi maarifləndirmə işinin təşkili, onlara yerli qanunvericilik akt-

ları və beynəlxalq hüquq normaları çərçivəsində öz hüquq və vəzifələrinin izahı, azərbaycanlıların sıx yaşadığı regionlarda hüquqmüdafiə mərkəzlərinin yaradılması işinin davam etdirilməsi;

13.12. Azərbaycanlıların hüquq və azadlıqlarının qorunması, pasport-viza məsələlərinin həlli sahəsində Azərbaycan diaspor təşkilatlarının fəaliyyət göstərdiyi ölkələrdəki hüquq-mühafizə orqanları və miqrasiya məsələləri ilə məşğul olan dövlət strukturları ilə əməkdaşlıq əlaqələrinin qurulması;

13.13. İnsan hüquq və azadlıqları ilə bağlı beynəlxalq konvensiyalar, azərbaycanlıların sıx yaşadığı ölkələrdə miqrasiya proseslərini tənzimləyən qanunvericilik aktları və onların həyata keçirilmə mexanizmləri, o cümlədən pasport-qeydiyyat məsələləri, miqrantların hüquq və azadlıqları ilə əlaqədar hüquqi sənədlər toplusunun, informasiya bülletenlərinin nəşri və yayımının təşkili;

13.14. Azərbaycan diaspor təşkilatları tərəfindən azərbaycanlıların hüquq və azadlıqlarının pozulması faktlarının qeydə alınması, bu sahədə baş verən qanun pozuntularının aradan qaldırılması üçün səy göstərilməsi;

13.15. Xarici ölkələrə miqrasiya etmiş azərbaycanlıların pasport-qeydiyyat, viza ilə bağlı məsələlərinin, işlə təmin olunması sahəsində meydana çıxan çətinlik və problemlərinin həlli istiqamətində səy göstərilməsi;

13.16. Xaricdə yaşayan azərbaycanlıların ekstremizmin bütün təzahürlərindən müdafiəsi, normal və səmərəli fəaliyyətinin təşkilinə, təhlükəsizliyinə xidmət edən tədbirlərin həyata keçirilməsi;

13.17. Azərbaycanlıların xarici ölkələrdə insan hüquq və azadlıqlarının təminatı ilə bağlı məlumatların toplanılması və operativ yardımların göstərilməsi məqsədilə qaynar xəttin yaradılması;

13.18. Azərbaycanlıların sosial-məişət şəraitini yaxşılaşdırmaq, maliyyə fondlarını gücləndirmək, yerli cəmiyyətə iqtisadi cəhətdən inteqrasiya olunmaq məqsədilə iqtisadi və təsərrüfat fəaliyyətlərinin genişləndirilməsi, maliyyə müstəqilliyinə əlverişli zəmin yaradılması;



**Maddə 14. Xaricdə yaşayan azərbaycanlıların Azərbaycan Respublikası ilə əlaqələrinin möhkəmləndirilməsi.** Azərbaycan Respublikasının xaricdə yaşayan azərbaycanlılarla bağlı dövlət siyasətinin əsas prinsiplərindən biri soydaşların tarixi Vətənlə əlaqələrinin inkişafı, onları öz Vətənlərinə mənəvi bağlılığının daha da möhkəmləndirilməsini təmin etməkdən ibarətdir. Xaricdə yaşayan soydaşlarımızın tarixi Vətənə bağlılığının möhkəmləndirilməsi Azərbaycan haqqında dolğun və operitv informasiya almaq, əlaqələr qurmaq imkanlarından asılıdır. Bu sahədə Azərbaycan diaspor təşkilatlarının əsas fəaliyyət istiqamətləri aşağıdakılardır:

14.1. Xaricdə yaşayan azərbaycanlıların Azərbaycan haqqında operativ və dolğun informasiya almasını təmin etmək məqsədilə tədbirlərin görülməsi, müxtəlif kütləvi informasiya vasitələrinin təsis edilməsi;

14.2. Azərbaycan Respublikasının diaspor quruculuğu sahəsində dövlət siyasətinin əsasları barədə xarici ölkələrdə yaşayan azərbaycanlıların məlumatlandırılması;

14.3. Xaricdə yaşayan azərbaycanlıların Azərbaycan Respublikasına səfərlərinin təşkili;

14.4. Xarici ölkələrdəki azərbaycanlı iş adamlarının Azərbaycana sərmayə qoymağa təşviq edilməsi;

14.5. Xaricdə yaşayan azərbaycanlı iş adamlarının forumunun təşkili, onların diaspor quruculuğu sahəsində fəaliyyətinin koordinasiya edilməsi məqsədilə tədbirlər görülməsi;

14.6. Azərbaycan diaspor təşkilatlarının vasitəsilə dünyanın nüfuzlu şirkətlərinin Azərbaycana sərmayə qoymağa təşviq edilməsi, Azərbaycanın iqtisadi inkişaf potensialı və təbii resursları ilə bağlı simpoziumlar, elmi-praktik konfransların təşkil edilməsi;

14.7. Azərbaycan diaspor təşkilatları tərəfindən qaçqın və məcburi köçkünlərə yardım kampaniyalarının təşkil edilməsi;

14.8. Dünya Azərbaycanlılarını Əlaqələndirmə Şurasının toplantılarının təşkili təcrübəsinin davam etdirilməsi;

14.9. Azərbaycan Respublikasının dövlət və hökumət nümayəndələrinin, parlament üzvlərinin, ictimai xadimlərin, ziyalıların xarici ölkələrə səfərləri zamanı Azərbaycan diasporunun nümayəndələri ilə görüşlərinin təşkili;

14.10. Azərbaycan Respublikasında fəaliyyət göstərən qeyri-hökumət təşkilatları ilə Azərbaycan diaspor qurumları arasında əlaqələrin yaradılması və qarşılıqlı əməkdaşlığın inkişaf etdirilməsi;

14.11. Azərbaycan Respublikasında fəaliyyət göstərən kütləvi informasiya vasitələri ilə Azərbaycan diaspor təşkilatlarının təsis etdiyi mediya qurumları arasında əlaqələrin yaradılması və inkişaf etdirilməsi;

**Maddə 15. Digər xalqların diasporları ilə əməkdaşlığın inkişaf etdirilməsi.** Azərbaycana məxsus dini və etnik tolerantlıq burada bütün xalqların azad və təhlükəsiz yaşamasına, mədəniyyətinin, ana dilinin inkişafına imkan vermişdir. Məhz buna görə də bu gün Azərbaycandan xarici ölkələrə köçmüş bir çox qeyri millətlərin nümayəndələri respublikamızı daim özlərinə ikinci vətən hesab edir, ölkəmizin milli maraqlarının müdafiəsi işində fəal iştirak edirlər. Eyni zamanda Azərbaycan diasporu məskunlaşdığı ölkələrdə fəaliyyət göstərən və Azərbaycana dost münasibətilə seçilən diasporlarla da sıx əməkdaşlıq edir, onların təcrübəsini öyrənir və Azərbaycan həqiqətlərinin təbliği işinə cəlb olunmasına səy göstərir. Bu sahədə Azərbaycan diaspor təşkilatlarının əsas fəaliyyət istiqamətləri aşağıdakılardan ibarətdir:

15.1. Digər xalqların diaspor təcrübəsinin öyrənilməsi və tətbiq edilməsi ilə bağlı tədbirlərin görülməsi;

15.2. Azərbaycan diaspor təşkilatlarının fəaliyyət göstərdikləri ölkələrdəki digər xalqların diasporları ilə qarşılıqlı faydalı əməkdaşlıq əlaqələrinin qurulması, bu məqsədlə birgə elmi-praktik konfransların, müşavirə və toplantıların təşkili;

15.3. Azərbaycana dost münasibəti olan xalqların diaspor nümayəndələrinin Azərbaycan diasporu tərəfindən təşkil olunmuş tədbirlərə dəvət olunması, habelə onların Azərbaycana səfərlərinin təşkili;

15.4. Azərbaycan Respublikasından başqa ölkələrə köçmüş digər xalqların diaspor qurumları ilə əlaqələrin qurulması;

15.5. Azərbaycanda yaşayan müxtəlif xalqların xarici ölkələrə köçmüş ictimai xadimlərinin seçkili orqanlara seçilməsinə dəstək verilməsi.



**Maddə 16. Türk dünyasının birliyi ideyalarının yayılması və həyata keçirilməsi.** Xarici ölkələrdə məskunlaşmış türk xalqları arasında ortaq mənafe naminə əlaqələrin qurulması bu gün xüsusi əhəmiyyət kəsb edir. Azərbaycan və Türkiyəyə qarşı yönəldilmiş təbliğatın neytrallaşdırılması, əsassız iddia və böhtanların aradan qaldırılmasında bu birlik və diaspor təşkilatları arasında sıx əməkdaşlıq günün tələbidir. Azərbaycan və Türk diasporların vahid mənafe uğrunda fəaliyyətdə yaxınlaşdırılması siyasətinin davam etdirilməsinə xarici ölkələrdə yaşayan hər azərbaycanlı əməli kömək göstərməlidir. Bu sahədə Azərbaycan diaspor təşkilatlarının əsas fəaliyyət istiqamətləri aşağıdakılardan ibarətdir:

16.1. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təşəbbüsü ilə 2007-ci ilin mart ayının 9-da Azərbaycan və türk diaspor təşkilatları rəhbərlərinin I forumunda qəbul edilmiş «Azərbaycan və türk diaspor təşkilatlarının birgə fəaliyyət strategiyası»ndan irəli gələn vəzifələrin yerinə yetirilməsi;

16.2. Azərbaycan və türk diaspor təşkilatları rəhbərlərinin forumlarının təşkili təcrübəsinin davam etdirilməsi;

16.3. Azərbaycan və Türk diaspor təşkilatlarının Koordinasiya Şurası ilə Dünya Azərbaycanlılarını Əlaqələndirmə Şurası arasında əməkdaşlığın intensivləşdirilməsi;

16.4. Türk Dövlət və Cəmiyyətlərinin XI Dostluq, Qardaşlıq və Əməkdaşlıq Qurultayının qərarlarından irəli gələn vəzifələrin yerinə yetirilməsində fəal iştirak;

16.5. Türk dövlət və cəmiyyətlərinin dostluq, qardaşlıq və əməkdaşlıq qurultaylarının təşkilinə dəstək vermək və qurultayların işində fəal iştirak etmək;

16.6. Türk dünyasının birliyi ideyalarının əhəmiyyətini və türkdilli xalqların perspektivlərinə təsir ilə bağlı mütəmadi olaraq təbliğat-təşviqat işinin aparılması;

16.7. Xarici ölkələrin birində Türk dünyası mədəniyyət mərkəzinin yaradılması ideyasının həyata keçirilməsinə dəstək vermək;

16.8. Türkdilli xalqların problem və qayğılarının Azərbaycan diaspor təşkilatlarının fəaliyyətində əsas istiqamətlərdən birinə çevrilməsinin təmin edilməsi;

**Maddə 17. İctimai münasibətlərin qurulması.** Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılmasında müxtəlif ölkələrin ictimai, siyasi və dövlət xadimləri, elm adamları, kütləvi informasiya vasitələri ilə əlaqələrin qurulması mühüm əhəmiyyət kəsb edir. Azərbaycan diasporu bu məsələlərə daha çox diqqət yetirməli, bəzi ölkələrdə Azərbaycan haqqında erməni diasporu və lobbisi tərəfindən formalaşdırılmış yanlış təssəvvürlərin aradan qaldırılması üçün öz imkanlarını maksimum dərəcədə səfərbər etməyə çalışmalıdır. Bu sahədə Azərbaycan diaspor təşkilatlarının əsas fəaliyyət istiqamətləri aşağıdakılardan ibarətdir:

17.1. Xarici ölkələrin parlamentlərində, dövlət və hökumət strukturlarında, siyasi partiyalarda təmsil olunan, Azərbaycana müsbət münasibəti olan ictimai və siyasi xadimlərlə əlaqələrin qurulması;

17.2. Azərbaycanlıların sıx halda yaşadığı ölkələrdə keçirilən seçkilərdə namizədliyini irəli sürülmüş şəxslərlə əlaqələrin qurulması, onların təbliğat kampaniyalarına dəstək verilməsi;

17.3. Xarici ölkələrin dövlət və hökumət strukturlarında, eləcə də ictimai səviyyədə Azərbaycanın dostları qruplarının yaradılması, habelə ayrı-ayrı ölkələrin parlamentlərində fəaliyyət göstərən Azərbaycanla dostluq qruplarının fəaliyyətinə dəstək verilməsi, onlarla mütəmadi əlaqə saxlanılması;

17.4. Xarici ölkələrin ictimai münasibətlər haqqında qanunvericilik aktlarından yararlanaraq maraq və təzyiq qruplarının yaradılması;

17.5. Xarici ölkələrdəki nüfuzlu beynəlxalq təşkilatların müvafiq strukturları ilə işgüzar əlaqələrin qurulması, Azərbaycan haqqında onların obyektiv məlumatlandırılması;

17.6. Nüfuzlu kütləvi informasiya vasitələri ilə əlaqələrin qurulması, zərurət yarandığı təqdirdə mövcud imkanlar daxilində onların fəaliyyətinə dəstək verilməsi;

17.7. İctimai rəyə təsir imkanlarına malik nüfuzlu jurnalistlərlə əlaqələrin qurulması, onların Azərbaycana səfərlərinin təşkili, ölkəmiz haqqında ətraflı məlumatlandırılması üçün tədbirlərin görülməsi;

17.8. Müxtəlif ölkələrin elm adamları ilə əlaqələrin qurulması, onların Azərbaycana səfərlərinin təşkili;



17.9. Xarici ölkələrin ictimai və siyasi xadimlərinin Azərbaycana səfərlərinin təşkili istiqamətində mütəmadi və sistemli iş aparılması;

17.10. Beynəlxalq hüquqdan, ölkə qanunlarından istifadə edərək, azərbaycanlıların məskunlaşdığı ölkələrdə Ermənistan Respublikasının işğalçılıq siyasətinə hüquqi qiymət verilməsinə nail olmaq;

17.11. Dövlət qurumları və ictimai təşkilatlarla iş mexanizminin qurulması;

17.12. Azərbaycan diasporunun maraq və mənafelərinə bu və ya digər formada təsir göstərə biləcək qanun layihələrinin hazırlanmasına təsir mexanizmlərinin işlənilməsi, qanun layihələrinin müzakirəsi ilə bağlı strateji planların hazırlanması və həyata keçirilməsi, bu məqsədlə siyasi təşəbbüs qruplarının yaradılması və onların fəaliyyət istiqamətlərinin müəyyənləşdirilməsi;

17.13. Azərbaycan diasporunun, eyni zamanda Azərbaycan Respublikasının maraqlarına bu və ya digər dərəcədə təsir göstərən qanunvericilik aktlarının, habelə digər hüquqi sənədlərin müzakirəsi zamanı ictimai qurumlar, QHT-lər, siyasi partiyalar və parlament üzvlərinin iştirakı ilə birgə müzakirələrin təşkil edilməsi;

17.14. Qanun layihələrinin müzakirəsi zamanı Azərbaycan diasporunun, eyni zamanda Azərbaycan Respublikasının maraqlarına bu və ya digər dərəcədə təsir göstərə biləcək müddəalarının doğura biləcəyi mümkün nəticələrin proqnozlaşdırılması və bu barədə ətraflı ictimai izahat işinin aparılması.

**Maddə 18. Xarici ölkələrdə yaşayan azərbaycanlı gənclərdə vətənpərvərlik hisslərinin gücləndirilməsi, onların tarixi vətənə bağlılığının möhkəmləndirilməsi.** Qloballaşma, informasiya cəmiyyətinin qurulması, mədəniyyətlərarası dialoq prosesləri hər bir xalqın intellektual potensialının artırılmasını zərurətə çevirməkdədir. Gənc nəslin milli kökə, milli-mənəvi dəyərlərə bağlılığının möhkəmləndirilməsi, tarixi Vətənlə əlaqələrin genişləndirilməsi istiqamətində diaspor təşkilatları fəal iştirak etməli, yaşadıqları dövlətlərin qanunvericiliyinə, eləcə də beynəlxalq hüquq normalarına uyğun olaraq ana dilində tədrisin təşkili, «Həftə sonu» mək-

təblərində Azərbaycan tarixinin, mədəniyyətinin, incəsənətinin öyrədilməsi, yerli əhali arasında təbliği istiqamətində səylər birləşdirilməlidir. Bu sahədə Azərbaycan diaspor təşkilatlarının əsas fəaliyyət istiqamətləri aşağıdakılardan ibarətdir:

18.1. Xaricdə yaşayan azərbaycanlı iş adamlarının və Azərbaycan Respublikasının imkanlarından istifadə etməklə icma üzvləri içərisində elm, təhsil, mədəniyyət, incəsənət, idman və digər sahələr üzrə fitri istedadı olan uşaq, yeniyetmə və gənclərin aşkar edilməsi, onların öz istedad və bacarıqlarının inkişaf etdirməsi, Azərbaycan və Azərbaycan xalqını dünyaya tanıtması üçün əlverişli şəraitin yaradılması;

18.2. Dünyanın nüfuzlu ali təhsil ocaqlarında təhsil alan azərbaycanlı tələbələrlə əlaqələrin yaradılması;

18.3. Xarici ölkələrdə yaşayan azərbaycanlı gənclərin milli-mənəvi ruhda tərbiyə olunması məqsədilə sistemli və ardıcıl təbliğat-maarifləndirmə işinin aparılması;

18.4. Xarici ölkələrdə təhsil alan və yüksək nəticələr göstərmiş azərbaycanlı tələbələrin həvəsləndirilməsi məqsədilə diaspor təşkilatları tərəfindən həvəsləndirici mükafatların təsis edilməsi;

18.5. Azərbaycanlı gənclərin diaspor quruculuğuna cəlb olunması, onların diaspor tədbirlərində fəal iştirakının təmin edilməsi;

18.6. Xaricdə təhsil alan azərbaycanlı gənclərin təhsil sahəsində meydana çıxan problemlərinin həllində birgə səylərin göstərilməsi;

18.7. Xarici ölkələrdə təhsil alan azərbaycanlı tələbələrin forumlarının təşkili təcrübəsinin davam etdirilməsi;

18.8. Xarici ölkələrdə yaşayan azərbaycanlı gənclərin milli-mənəvi dəyərlərə bağlılığını artırmaq üçün «Həftə sonu» məktəblərinin açılması və onların Ana dilində dərslik və ədəbiyyatlarla təmin edilməsi;

18.9. Azərbaycanlı gənclərin Azərbaycanın tarixi, mədəniyyəti, müasir həyatı, strateji inkişaf istiqamətləri, beynəlxalq münasibətlər sistemində yeri barədə ətraflı məlumatlandırılması sahəsində tədbirlərin görülməsi, bu məqsədlə elmi-praktik konfransların, diskussiyaların, simpoziumların və digər maarifləndirici toplantıların təşkili;



18.10. Azərbaycanlı gənclərin yaşadıqları ölkələrdə gənclər təşkilatları ilə sıx əməkdaşlıq əlaqələrinin qurulması istiqamətində birgə səylər göstərilməsi;

18.11. Xarici ölkələrdə təhsil alan azərbaycanlı gənclər üçün İnternet-forumların təşkili təcrübəsinin davam etdirilməsi.

**Maddə 19.** Xartiya Azərbaycanda bir sıra görkəmli alimlərin və mütəxəssislərin rəy və tövsiyələri, eyni zamanda Azərbaycan diaspor təşkilatlarının təklifləri əsasında hazırlanmış və Dünya Azərbaycanlılarını Əlaqələndirmə Şurasının 2008-ci il noyabr ayının 18-də Bakı şəhərində keçirilmiş iclasında qəbul edilmişdir;

**Maddə 20.** Xartiya xarici ölkələrdə yaşayan azərbaycanlılar və onların təsis etdiyi ictimai təşkilatlar üçün tövsiyə xarakteri daşıyır, dünya azərbaycanlılarının həmrəyliyin möhkəmləndirilməsində, onların hüquq və insan azadlıqlarının qorunmasında, milli mədəniyyətin təbliğində və inkişafında istiqamətləndirici sənəddir.

**Maddə 21.** Xaricdə yaşayan azərbaycanlılar və onların təsis etdiyi təşkilatlar bu xartiyadan irəli gələn vəzifələrin həyata keçirilməsi zamanı yerli qanunvericiliyi, beynəlxalq normativ aktları Azərbaycan diaspor təşkilatlarının birgə qəbul etdiyi qərar və fəaliyyət proqramlarını əsas götürür.

**Maddə 22.** Xarici ölkələrdə yaşayan azərbaycanlılar bu xartiyanı ideoloji konsepsiya kimi qəbul edərək, mənəvi məsuliyyət hissi ilə onun yerinə yetirilməsi üçün səy göstərirlər.

**Maddə 23.** Xartiyada hər hansı əlavə düzəlişlərin edilməsi dünya azərbaycanlılanının ali məclisinin - Dünya Azərbaycanlılarının Qurultayının və qurultay tərəfindən seçilmiş Dünya Azərbaycanlılarını Əlaqələndirmə Şurasının səlahiyyətlərinə daxildir.



# AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN YENİ ƏSR VƏ ÜÇÜNCÜ MİNİLLİK MÜNASİBƏTİLƏ AZƏRBAYCAN XALQINA MÜRACİƏTİ

# AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN YENİ ƏSR VƏ ÜÇÜNCÜ MİNİLLİK MÜNASİBƏTİLƏ AZƏRBAYCAN XALQINA MÜRACİƏTİ

**Möhtərəm həmvətənlər!**
**Əziz bacı və qardaşlar!**
**Azərbaycan Respublikasının vətəndaşları!**

Yeni ilin, yeni əsrin, yeni minilliyin ərəfəsində sizi-bütün Azərbaycan xalqını, müstəqil Azərbaycan Respublikasının hər bir vətəndaşını, ölkəmizin hüdudlarından uzaqlarda yaşayan soydaşlarımızı bu əlamətdar hadisə münasibətilə səmimi qəlbdən təbrik edir, hamınıza cansağlığı, xoş əhval-ruhiyyə və səadət arzulayıram.

Dünyanın hər yerində yeni minilliyin və yeni əsrin başlanmasına həsr olunmuş çoxsaylı konfrans, forum və müxtəlif simpoziumlar keçirilməkdədir. Dünya ictimaiyyətinin nümayəndələri, müxtəlif ölkələrin dövlət və özəl qurumlarını təmsil edən şəxslər və tanınmış siyasi xadimlər keçmişə nəzər salaraq, yeni minilliyin astanasında bəşəriyyətin qarşılaşa biləcəyi problemlər üzərində düşünür və gələn yüzillikdə öz ölkələrini və ümumən dünyanı necə gördükləri barədə fikirlərini bildirirlər.

Bu günlərdə imzaladığım xüsusi sərəncamla yeni ilin, yeni əsrin, yeni minilliyin qarşılanması ilə bağlı Azərbaycanda keçiriləcək tədbirlərin planını təsdiq etdim. XXI əsrin, yeni minilliyin başlanğıcında ölkəmizin qarşısında duran siyasi və sosial-iqtisadi problemlər sözsüz ki, bu tədbirlər çərçivəsində geniş müzakirə olunacaqdır.

Bütün bəşəriyyətlə birgə Azərbaycan xalqı da XXI əsrə, üçüncü minilliyə böyük nikbinliklə qədəm qoyur. Əsr başa çatır, onunla birlikdə tarixin ikiminillik dövrünə yekun vurulur. Əsrlərin və minilliklərin qovuşduğu bu gün tarixin xüsusi bir anıdır. Hər bir bəşər övladı kimi, Azərbaycan vətəndaşı da sözsüz ki, belə tarixi hadisənin məhz onun taleyinə, onun həyatına təsadüf etməsindən böyük şərəf və qürur hissi duyur. İki əsrin şahidi olmaq səadəti hər insana nəsib olmur. Bu, bizim payımıza düşübdür. Azərbaycanda bu gün XIX əsrdə anadan olmuş xeyli insan



da yaşayır. Deməli, onlar bu tarixi anda üç əsrin şahidlərinə çevriliblər. Bizim gənc nəslin nümayəndələri, əlbəttə ki, xüsusi hisslər keçirirlər və XXI əsrdə Azərbaycanın layiqli vətəndaşları olaraq bu tarixi günləri dönə-dönə xatırlayacaqlar. Orta nəslin nümayəndələri isə yeni əsrə, yeni minilliyə XX əsrin bir çox hadisələrinin bilavasitə iştirakçısı və şahidi olaraq qədəm qoyurlar. Beləliklə, zamanın və tarixin bu nadir anları, əslində, bütün nəsilləri tarixə qovuşdurur.

Başa vurduğumuz yüzillik bəşəriyyətin yaddaşında sürətli elmi-texniki tərəqqi ilə və iki dünya müharibəsində tökülmüş qanlarla, imperiyaların süqutu və yeni suveren dövlətlərin yaranması ilə, "soyuq müharibə"nin doğurduğu gərginliklə, sülh, sabitlik və əmin-amanlıq naminə göstərilən kollektiv səylərlə qalacaqdır.

Dünya inkişafının indiki mərhələsinin başlıca meylləri mədəni inteqrasiya və qloballaşmadır. Əgər bəşəriyyət XX əsri elmi inkişafın nailiyyətlərinin yaratdığı xoş ümidlərlə qarşılamışdısa, qloballaşma prosesi çox vaxt heç də nikbinlik doğurmur. Bu mürəkkəb və birmənalı qiymətləndirilməyən prosesin perspektivləri hamımızı düşündürür. Qloballaşma dövlətlərin sabit inkişafının, bütövlüyünün və idarəetmə sistemlərinin stabilliyinin təmin olunmasına, iqtisadi münasibətlərdə ayrı-seçkiliyin aradan qaldırılmasına, xalqların rifah halının yüksəldilməsinə kömək etməlidir. Sözsüz ki, beynəlxalq hüquq prinsipləri və normalarının aliliyi, dəyişikliklərin təkamül xarakteri, qarşılıqlı etimad və ümumbəşəri dəyərlərə sədaqətlə yanaşı, hər bir ölkənin səciyyəvi milli cəhətlərinin də nəzərə alınması bu prosesin müəyyənedici istiqamətləri olmalıdır. Təbii ki, qloballaşmanın bir çox ölkələr üçün yaratdığı problemlər bizi də düşündürür.

Bir tərəfdən Azərbaycan da qloballaşmanın inkişafına öz töhfəsini verir. Ölkəmiz dünya miqyasında geostrateji əhəmiyyətə malik olan əlverişli coğrafi mövqeyindən, zəngin təbii ehtiyatlarından və böyük potensialından istifadə edərək, Şərq ilə Qərb arasında körpü rolunu səmərəli surətdə həyata keçirməyə qadirdir. Azərbaycan Böyük İpək Yolunun bərpası, Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizinin yaradılması və Xəzər hövzəsinin karbohidrogen ehtiyyatlarının hasilatı və dünya bazarlarına

nəqli üçün səylər göstərir. Dünyanın bir çox dövlətlərinin hərtərəfli inkişafı üçün bu layihələrin həlledici əhəmiyyəti var. Bunlar səmərəli beynəlxalq əməkdaşlığa təkan verəcək və qlobal inkişafa müsbət təsir göstərəcəkdir. Digər tərəfdən isə, Azərbaycan hələ də müasir texnologiyaların mənimsənilməsi və geniş istifadə olunması yolunda bir çox çətinliklərlə qarşılaşır. Bəşəriyyətin qədəm qoyduğu müasir inkişaf mərhələsində öz layiqli yerimizi tapmaq üçün gərək biz zamanın tələbləri ilə uyğunlaşa bilək, qarşımızda duran bir çox ciddi problemləri həll etməyə qadir olaq, ümdə vəzifələrimizə uyğun müvafiq proqramları həyata keçirməyə nail ola bilək.

Azərbaycan Respublikası artıq dünya birliyinin ayrılmaz tərkib hissədir. İstiqlaliyyət əldə etdikdən sonra dövlətimiz qısa müddətdə Birləşmiş Millətlər Təşkilatının, Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatının, İslam Konfransı Təşkilatının, Müstəqil Dövlətlər Birliyinin, Qara dəniz Ölkələri İqtisadi Əməkdaşlıq Təşkilatının, İqtisadi Əməkdaşlıq Təşkilatının, Beynəlxalq Valyuta Fondunun, Dünya Bankının, Avropa Yenidənqurma və İnkişaf Bankının, İslam İnkişaf Bankının, Asiya İnkişaf Bankının üzvü olmuş, Parlamentlərarası İttifaq, Avropa Şurası, Avropa Birliyi, Avropa Parlamenti, NATO və başqa beynəlxalq təşkilatlarla qarşılıqlı faydalı əlaqələr yaratmışdır.

XX əsrdə Azərbaycan xalqının ən böyük nailiyyəti, şübhəsiz ki, müstəqil Azərbaycan dövlətinin yaradılmasıdır. Öz müstəqilliyini bərpa edən Azərbaycan demokratik, hüquqi, dünyəvi dövlətin möhkəm təməlini qoymuşdur. Məhz bu müddət ərzində Azərbaycan xalqı öz müstəqil dövlətinin Konstitusiyasını qəbul etmiş, qanunvericiliyini, hakimiyyətin bölünmə prinsiplərini, hüquq normalarını dünya standartlarına uyğunlaşdıraraq digər dövlətlərlə hərtərəfli əməkdaşlığa hazır olduğunu nümayiş etdirmişdir. Bu illər ərzində yaşayışımızın bütün sahələrini əhatə edən köklü dəyişikliklər və dərin islahatlar həyata keçirilmişdir. Azərbaycan öz milli neft strategiyası və konsepsiyasını həyata keçirməyə başlamış, xarici dövlətlərin aparıcı neft şirkətləri ilə müqavilələr bağlayaraq dünya iqtisadiyyatına qovuşmasını təmin etmişdir.

Bu gün biz müstəqilliyimizin əldə olunması, qorunub saxlanılması yolunda böyük xidmətləri olan şəxsiyyətlərin, istiqlalımız naminə şəhid olan Azərbaycan övladlarının əziz xatirəsini dərin ehtiram hissi ilə yad edirik. Bu əziz gündə Azərbaycan Xalq Cümhuriyyəti banilərinin ruhu qarşısında, bolşevik terrorunun, repressiyalarının, kütləvi deportasiyaların, soyqırımların, Qanlı Yanvar faciəsi qurbanlarının və Azərbaycanın ərazi bütövlüyü uğrunda şəhid olmuş bütün vətəndaşlarımızın xatirəsi qarşısında baş əyib Allahdan onlara rəhmət diləyirik.

Başa çatmaqda olan XX əsr Azərbaycan xalqının taleyində mühüm rol oynamış bir dövr olmuşdur. Bəzi siyasətçilər XX əsri neft əsri adlandırırlar. Həqiqətən də, neftin bu əsrdə dünya siyasətində və iqtisadiyyatında oynadığı müstəsna rol danılmazdır. Azərbaycanın dünyada məhz neft mərkəzlərindən birinə çevrilməsi bizə bir çox xalqların neçə-neçə əsr ərzində çatdığı zirvələri qısa müddətdə fəth etmək imkanı verdi.

Bəşəriyyətin həyatında misilsiz rol oynayan neft Odlar Yurdu Azərbaycanın hələ qədim dövrlərdən ən mühüm sərvətlərindən biri olmuşdur. Neftdən geniş istifadə olunması dünyada elmin, texnikanın, iqtisadiyyatın, xüsusilə sənaye istehsalının sürətli inkişafına güclü təkan verərək, insan həyatında köklü dəyişikliyin yaranmasına səbəb olmuşdur. Tarixə "Kerosin dövrü" kimi daxil olmuş XIX əsrin sonu - XX əsrin əvvəllərində neftdən alınan bu məhsul işıq mənbəyi idi. Sonralar qaz və elektrik vasitəsilə işıqlandırma üsulları meydana çıxsa da, kerosin uzun illər başlıca işıqlandırma məhsulu olaraq qalmışdır.

Daxiliyanma mühərrikinin kəşfi neftdən istifadə olunmasında yeni dövr açdı. XX əsrin əvvəllərindən etibarən başlanan "mazut və benzin dövrü" neftdən gəmi, parovoz və avtomobil kimi nəqliyyat vasitələri üçün istifadə olunması ilə onun əhəmiyyətini xüsusilə artırdı. Birinci Dünya müharibəsi illərində isə neft artıq strateji əhəmiyyətli məhsula çevrildi.

XX əsr bəşər tarixində nə qədər mühüm hadisələrlə zəngin olsa da, qətiyyətlə demək olar ki, bu əsri səciyyələndirən, onun simasını müəyyən edən başlıca cəhət elmi-texniki tərəqqinin misli görünməmiş böyük vüsət alması olmuşdur. XX əsrdə əldə edilmiş bütün elmi-texniki nailiyyətlərin təməlində isə məhz neft durur. Enerji mənbəyi, yanacaq məhsulu kimi nefti əvəz edə biləcək

müxtəlif maddələr və üsullar tapmaq yolunda aparılan axtarışlarda bir çox uğurlar qazanılsa da, təbiətin bəşəriyyətə bəxş etdiyi bu olduqca əlverişli xammalın tam ekvivalenti hələ ki, tapılmamışdır.

Neftin elmi-texniki tərəqqidə, dünya iqtisadiyyatının inkişafında oynadığı böyük rol XX əsrdə onu ayrı-ayrı ölkələrin daxili və xarici siyasətinin beynəlxalq siyasətin təsirli amillərindən birinə, mühüm coğrafi-siyasi və coğrafi-strateji amilə çevirdi. Neft mənbələri, neft bazarları uğrunda gedən kəskin mübarizə dünyada qüvvələr nisbətinin formalaşmasına, beynəlxalq siyasətin gedişinə öz güclü təsirini göstərdi. Tarixin belə bir təəsüf doğuran gerçəkliyi də var ki, bəzi neftçıxaran ölkələr bu qiymətli sərvətdən öz xalqlarının firavanlığı və tərəqqisi üçün istifadə etmək imkanından uzun illər ərzində məhrum olmuş, böyük dövlətlərin güclü təzyiqi nəticəsində müstəqil siyasət yeritmək imkanını itirmişlər. Həmin ölkələrin xalqları öz təbii sərvətlərinin tam sahibi olmaq uğrunda həmişə mübarizə aparmış və öz məqsədlərinin həyata keçirilməsində bu və ya digər dərəcədə nail olmuşlar.

Azərbaycan xalqının da azadlıq və müstəqillik uğrunda mübarizəsində öz təbii sərvətlərinin sahibi olmaq arzusu əsas məqsədlərdən biri idi. Bu gün iftixar hissi ilə deyə bilərik ki, Azərbaycan xalqı uzun illər boyu ürəyində arzusuna çatmışdır və öz təbii sərvətlərinin, o cümlədən neftinin tam sahibidir və ondan necə istifadə olunmasını sərbəst sürətdə müəyyən edir.

XX əsrdə Azərbaycanın neft hasilatı, o cümlədən Xəzər dənizində neftçıxarma sahəsindəki uğurları yüksək qiymətə layiqdir. Dünyada neft hasilatı sahəsində həyata keçirilmiş işlərin bir çoxu öz başlanğıcını Azərbaycandan götürmüşdür. Neçə-neçə qazma üsulları, neft texnologiyaları, dənizdə neft çıxarılması üçün yaradılmış nadir Neft Daşları şəhəri Azərbaycan mütəxəssislərini bu sahədə dünyada aparıcı mövqelərə çıxartdı. Keçmiş SSRİ-nin yeni yaranan neft rayonlarının "İkinci Bakı", "Üçüncü Bakı" adlandırılması buna əyani sübutdur. Ölkəmizdə neftçıxarmanın inkişafı elmin kimya, neft kimyası, geologiya kimi, sənayenin neft maşınqayırması, neftayırma, boru-prokat istehsalı, kimya, neft kimyası kimi sahələrinin vüsət almasına təkan verdi. Azərbaycanda neftlə bağlı sahələr üzrə böyük alim və mütəxəssislər ordusu yarandı. Əvvəlki nəsillərin görkəmli nailiyyətlərini inkişaf etdirərək, müstəqil Azərbaycanın bu günü və sabahı üçün böyük tarixi əhəmiyyət kəsb edən neft strategiyasının hazırlanması və həyata keçirilməsi gələcək nəsillər üçün xoş güzəranın təməlini qoydu. Məhz 1994-cü ildə imzalanmış və "Əsrin müqaviləsi" adını almış saziş ilə XXI əsrdə Azərbaycanın dinamik inkişaf yolu müəyyən olunmuşdur. Müstəqil Azərbaycanın neft strategiyasını ardıcıl həyata keçirərək biz böyük uğurlara nail olmuşuq. Gələcəkdə isə bu uğurlar daha da artacaqdır. Azərbaycan artıq indi bölgənin coğrafi-siyasi mərkəzinə çevrilmişdir. Azərbaycanın bölgədəki və onun hüdudlarından kənardakı vəziyyətə təsiri getdikcə artmaqdadır. Təbii ki, neft özlüyündə bizim üçün heç də məqsəd deyildir. O, Azərbaycan Respublikasının müstəqilliyinin, iqtisadiyyatın digər sahələrinin inkişaf etdirilməsi, yeni sahələrin yaradılması, xalqın rifah halının yüksəldilməsi kimi ali məqsədlərimizin uğurla həyata keçirilməsi üçün güclü bir vasitədir, əlverişli bir mənbədir. Tam qətiyyətlə demək olar ki, bu vasitədən səmərəli və məqsədyönlü istifadə etməklə, bu mənbədən lazımınca bəhrələnməklə biz yaxın gələcəkdə Azərbaycanı ən yüksək həyat səviyyəli ölkələrdən birinə çevirə biləcəyik. Əslində, yüzilliyin son günlərində biz "Əsrin müqaviləsi"nin, neft strategiyamızın uğurlu olduğunun bir daha şahidi olduq.

Əlbəttə ki, neft sahəsində əldə edilən uğurlar ilk növbədə Azərbaycanda mövcud olan qüdrətli insan potensialı ilə bağlıdır. Məhz Azərbaycan xalqının intellektual və yaradıcı imkanları ötən əsrdə, başa çatmaqda olan minillikdə dünya mədəniyyətində bir çox maddi və mənəvi sərvətlər bəxş etməsi üçün zəmin yaratdı.

Keçdiyimiz yola nəzər salarkən aydın olur ki, biz nadir irsin varisləriyik. Hər bir Azərbaycan vətəndaşı bu irsə layiq olmağa çalışaraq böyük bir tarixi keçmişi, zəngin mədəniyyəti, yüksək mənəviyyatı olan ölkəmizin həm dünəninə, həm bu gününə, həm də gələcəyinə dərin bir məsuliyyət hissi ilə yanaşmalıdır.

Azərbaycanın taleyi belə gətirmişdir ki, coğrafi-siyasi mövqeyinə görə o, həmişə sivilizasiyaların qovuşuğunda olmuş və istər Qərbin, istərsə də Şərqin çox güclü təsirini öz üzərində hiss etmişdir. Məlumdur ki, Azərbaycan insanın, bəşəriyyətin beşiyi

olan nadir ölkələrdən biridir. Burada həyat çox erkən yaranmışdır və Azıx mağarasında tapılan azıxantrop Azərbaycanın ən qədim ibtidai insan məskənlərindən biri olmasını sübut edir. Qobustandakı və Gəmiqayadakı qayaüstü təsvirlər və petroqliflər, Kür-Araz və Xocalı mədəniyyətlərinə aid maddi-mədəniyyət nümunələri, Kurqan tapıntıları sübut edir ki, hətta miladdan əvvəlki minilliklərdə də Azərbaycanda inkişaf etmiş mədəniyyət mövcud olmuşdur.

Eramızdan əvvəl birinci minilliyin sonunda, eramızın birinci minilliyinin əvvəlində Azərbaycan müxtəlif mədəniyyətlərin və dinlərin təsirinə məruz qalmışdır. Məhz bunun nəticəsində tarixən ölkəmizdə müxtəlif dinlərə münasibətdə yüksək tolerantlıq, dözümlülük mühiti yaranmışdır. Yunan-Roma mədəniyyətinin, bütün antik sivilizasiyasının güclü təsiri altında inkişaf edən elm, ədəbiyyat və incəsənətimiz çox erkən dövrlərdə özünəməxsus forma və məzmuna malik olmağa başlamışdır. Bununla yanaşı, sözsüz ki, bizim zəngin mədəniyyətimizin formalaşmasına müxtəlif mərhələlərdə həm zərdüştilik, yəhudi, xristian, həm də islam mədəniyyətlərinin təsiri olmuşdur. Karvan yollarının üstündə yerləşərək, "Böyük İpək Yolu"nun mühüm mərkəzlərindən biri olmuş Azərbaycan müxtəlif siyasi baxışların, iqtisadi münasibətlərin, dövlətçilik formalarının təsirini öz üzərində hiss etmişdir.

İkinci minilliyin tarixi əyani surətdə göstərir ki, Azərbaycan xalqı dünya mədəniyyətində öz dəst-xətti ilə seçilən xalqlardandır. Keçən iki min il ərzində bəşər sivilizasiyanın ayrılmaz hissəsi kimi azərbaycanlılar dünya mədəniyyəti xəzinəsinə sanballı töhfələr vermişlər. Bizim əcdadlarımız ibtidai mədəniyyət sahəsində əldə etdiyi bütün nailiyyətlərdən faydalanaraq, özünəməxsus zəngin mədəni-mənəvi irs yaratmışlar. Bunu istər Azərbaycan ərazisində arxeoloji qazıntılar nəticəsində tapılmış abidələr, istər də, bu günümüzə qədər gəlib çatmış şifahi xalq ədəbiyyatı və yazılı ədəbi irsimiz sübut edir.

2000-ci ildə 1300 illik yubileyini təntənə ilə qeyd etdiyimiz "Kitabi-Dədə Qorqud" kimi möhtəşəm bir abidəyə malik olmaq da onu göstərir ki, bu torpaqda hələ bizim eramıza qədərki dövrdə böyük bir mədəniyyət mövcud olmuşdur.

Xalqımızın əsrlər boyu yaratdığı mədəniyyət və ədəbiyyat



nümunələri həyat eşqi, azadlıq və müstəqillik duyğuları ilə aşılanmışdır. Dastanlarımız kimi möhtəşəm sənət abidələri, dünya sivilizasiya tarixində silinməz izlər qoymuş Qətran Təbrizi, Nizami Gəncəvi, Əfzələddin Xaqani, Xətib Təbrizi, İmaməddin Nəsimi, Məhəmməd Füzuli kimi korifeylərin yaradıcılığı ümumbəşəri ideyaların tərənnümünə, haqqın, ədalətin, humanist ideallarin bərqərar olmasına xidmət etmişdir. Səfiəddin Urməvinin, Əcəmi Naxçıvaninin, Sultan Məhəmməd Təbrizinin dünya mədəniyyəti xəzinəsinə verdikləri incilər sənətsevərləri indi də heyran qoyur.

Xalqımızın dünya elminə bəxş etdiyi töhfələrlə fəxr etməyə haqqı var. Nəsirəddin Tusinin, Əbülhəsən Bəhmənyarın, Şihabəddin Sührəvərdinin və digər mütəfəkkirlərin adları dünya elm aləminə yaxşı tanışdır. Şərqdə, o cümlədən Azərbaycanda, təşəkkül tapmış intibah dünya mədəniyyəti tarixinin ən parlaq səhifələrindən biridir. Bu intibah Azərbaycan xalqının həyatın müxtəlif sahələrində qazandığı böyük uğurların məntiqi nəticəsi idi.

Cavanşir və Babək kimi sərkərdələrin qəhrəmanlıqları böyük vətənpərvərlik məktəbinə çevrilmiş, vətənin bütövlüyü, xalqın birliyinin təcəssümü olmuşdur. Məhəmməd Cahan Pəhləvanın, Qızıl Arslanın, Uzun Həsənin, Şah İsmayıl Xətainin və başqa dövlət xadimlərimizin həyat və fəaliyyəti xalqın vətən sevgisi və dövlətçilik hissini daha inkişaf etdirmiş, onu həyatın ən vacib, ən ümdə məqsədinə çevirmişdir.

Tarixi proseslərin gedişi ona gətirib çıxartdı ki, 1813 və 1828-ci illərdə imzalanmış Gülüstan və Türkmənçay müqavilələri Azərbaycanı, onun tarixi torpaqlarını parçaladı, xalqımızı iki yerə böldü. Bu gün tam qətiyyətlə demək olar ki, bütün dünyaya səpələnmiş azərbaycanlılar müstəqil Azərbaycan Respublikasını öz vətəni sayır, onu milli dövlətçiliyin, milli ruhun, milli dəyərlərin, milli mənəviyyatın məbədi kimi yüksək qiymətləndirirlər. Bu, XX əsrdə təşəkkül tapmış azərbaycançılıq ideyalarının böyük vüsət almasının məntiqi nəticəsidir.

XX əsrdə bizim qazandığımız uğurlar, o cümlədən müstəqil dövlət qurmaq əzmimizin köklərini uzaq və yaxın tariximizdə, xüsusilə XIX əsrdə formalaşmış və təşəkkül tapmış qaynaqlarda axtarıb tapmaq lazımdır. Bu qaynaqlar həm ayrı-ayrı görkəmli

şəxsiyyətlərin, Abbasqulu ağa Bakıxanov və Mirzə Kazım bəy kimi nadir insanların çox uğurlu yaradıcı fəaliyyətində öz əksini tapmış, həm də birbaşa milli maarifçilik ideyalarının gerçəkləşməsi ilə bağlı olmuşdur. Azərbaycanda məhz bu dövrdə demokratik mətbuat, anadilli məktəb, dünyəvi teatr yaranaraq milli şüurun formalaşmasına güclü təkan verdi.

1872-ci ildə çar hökumətinin sərəncamı ilə intizam sistemi ləğv olunduqdan sonra neft sənayesinin inkişafı üçün yollar açıldı. Bundan sonra Bakıya güclü xarici kapital axını başladı. 1883-cü ildə Zaqafqaziya dəmir yolu çəkildikdən sonra Rusiya və digər Avropa ölkələri ilə əmtəə mübadiləsi gücləndi. Bakı yerli və xarici sərməyə hesabına sürətlə kapitalistləşdirildi. 1896-1906-cı illərdə Bakı Batumi neft kəmərinin çəkilməsi xüsusilə əlamətdar bir hadisə oldu. Bundan sonra Bakı nefti dəniz və dəmir yolu ilə Rusiya və dünya bazarlarına çıxarıldı. Bakının bir tərəfdən Şimali Qafqaz və Rusiya ilə, o biri tərəfdən Tiflis və Qara dəniz sahilləri ilə kommunikasiya yaratması, onun dünya əmtəə tədavülünə cəlb olunması sürətləndirdi. Məhz Bakı nefti sayəsində Rusiya neft hasilatına görə dünyada birinci yerə çıxdı. XIX əsrin sonu-XX əsrin əvvəlləri dünyada yeni bir münasibətlərin bərqərar olduğu bir dövr kimi Azərbaycan xalqının həyatının bütün sahələrində də öz təsirini göstərmişdir. Bu dövrün ictimai prosesləri iri sənaye şəhərinə çevrilmiş Bakını bütün Qafqazın iqtisadi mərkəzi etmişdir. İqtisadi inkişafla əlaqədər olaraq bu dövrdə təhsil, elm, incəsənət və ədəbiyyat sahələrində böyük canlanma başlandı. Bakı, Gəncə, Naxçıvan, Şuşa, Şəki, Salyan və sair şəhərlərdə yeni tipli şəhər və qəza məktəbləri açıldı. Qori Müəllimlər Seminariyasının məzunlarından olan Cəlil Məmmədquluzadə, Süleyman Sani Axundov, Üzeyir bəy Hacıbəyov, Həbib bəy Mahmudbəyov, Rəşid bəy Əfəndiyev, Firudin bəy Köçərli kimi görkəmli maarifçilər təhsildə gedən islahatlara güclü təkan verirdilər. Artıq yeni üsullu təhsil metodunun mütərəqqiliyini başa düşənlər "Üsuli-cədid" məktəblərini açmağa çalışırdılar. Şamaxıda Seyid Əzim Şirvani, Şuşada Mir Möhsün Nəvvab, Lənkəranda Mirzə İsmayıl Qasir, İrəvanda Mirzə Kazım Əskərzadə ənənəvi təlim və tədrisdən əl çəkərək, yeni üsulla dərs verirdilər. Bu məktəblərdə ənənəvi fənlərlə yanaşı tarix, rus dili, coğrafiya və təbiət dərsləri də tədris edilirdi. 80-ci illərdən başlayaraq "Rus-tatar məktəbi" adı ilə tanınan dördillik ibtidai məktəblər açıldı. Yeni tipli məktəblərin şəbəkəsi genişlənirdi. 1896-cı ildə Bakıda Hacı Zeynalabdin Tağıyevin himayəsi ilə yaradılan Qızlar məktəbi Azərbaycan qadınlarının maariflənməsində müstəsna rol oynamışdır.



Maarifçilik hərəkatının genişlənməsi Azərbaycandan xarici ölkələrə ali təhsil almağa gedənlərin sayının get-gedə artmasına gətirib çıxardı. Xaricdə ali təhsil aldıqdan sonra vətənə qayıdan ziyalılar Azərbaycanda maariflənmə meyllərini dəstəkləyən qüvvələri öz ətrafında birləşdirdilər, milli mətbuat və milli teatrın yaranması üçün zəmin yaratdılar.

Bakının inkişafı, əhalinin artması, ziyalı qüvvələrin yetişməsi, informasiya məkanının genişlənməsi milli mətbuatın yaranması ehtiyacını doğururdu. Bunu ilk dərk edən görkəmli maarifçi Həsən bəy Zərdabi bu istiqamətdə məqsədyönlü iş aparırdı. 1875-ci il iyulun 22-də "Əkinçi" qəzetinin ilk nömrəsi çıxdı və bununla Azərbaycan mətbuatının bünövrəsi qoyuldu. Cəlil Məmmədquluzadənin təşəbbüsü və başçılığı ilə nəşrə başlayan «Molla Nəsrəddin» jurnalı nəinki Azərbaycanın, hətta bütün Şərqin mətbuat tarixində özünəməxsus məktəbin əsasını qoydu. Bu, Azərbaycanda milli mətbuatın formalaşıb öz təbii inkişaf axarına düşməsindən xəbər verirdi.

Həmin dövrdə mədəniyyətin ən böyük nailiyyətlərdən biri də milli teatrın yaranmasıdır. Məlumdur ki, Mirzə Fətəli Axundovun komediyaları hələ əsrin 50-ci illərində Peterburq və Tiflisdə tamaşaya qoyulmuşdur. 1873-cü ildə Həsən bəy Zərdabi Nəcəf bəy Vəzirovla birlikdə milli Azərbaycan teatrının əsasını qoydu. Bakıda azərbaycanlı tələbələrdən ibarət aktyor truppasının köməyi ilə Mirzə Fətəli Axundovun komediyaları səhnəyə qoyuldu. İlk tamaşa "Lənkəran xanının vəziri", sonra isə "Hacı Qara" olmuşdur. Bakı tamaşasından sonra 1870-ci illərin ikinci yarısında Quba və Şəkidə Azərbaycan dilində teatr tamaşaları təşkil edildi. Diqqətəlayiq cəhətdir ki, teatr tamaşalarının verilməsində Qori Müəllimlər Seminariyasının məzunları fəal rol oynamışlar. 1879-cu ildə Şəkidə Rəşid bəy Əfəndiyev, 1882-ci ildə Şuşada Yusif bəy Məlikhaqnəzərov, 1883-cü ildə Naxçıvanda Məhəmmədtağı Sidqi

teatr həvəskarlarının köməyi ilə Axundovun komediyalarından tamaşalar vermişlər.

XIX əsrin sonları - XX əsrin əvvəlləri Azərbaycan teatrının canlanma dövrü oldu. Dahi Azərbaycan bəstəkarı Üzeyir Hacıbəyovun "Leyli və Məcnun" operasının 1908-ci ildə ilk tamaşası ilə Azərbaycanda və bütün Şərqdə opera sənətinin təməli qoyuldu. Müslüm Maqomayevin 1916-cı ildə yaratdığı "Şah İsmayıl" operası da Azərbaycan səhnəsində həmişəlik yer tutdu. Üzeyir Hacıbəyov həm bəstəkar, həm də dramaturq kimi 1909-1913-cü illərdə yazdığı musiqili komediyalarla Azərbaycan teatrına operetta janrını gətirdi.

O dövrdə Uilyam Şekspirin, Fridrix Şillerin, Nikolay Qoqolun, Lev Tolstoyun əsərləri azərbaycanca tamaşaya qoyulurdu ki, bu da Azərbaycan dramaturgiyasının inkişafına təsir göstərirdi. Təməli Mirzə Fətəli Axundovla qoyulan ədəbi məktəb Azərbaycan dramaturqlarının yaradıcılığında əsrin ən qüvvətli və qabaqcıl ədəbi hərəkatına çevrildi, ədəbiyyatda demokratik ideyalar getdikcə daha geniş yayılmağa başladı. Bu hərəkat XX əsr ədəbiyyat, mədəniyyət və siyasətinin nəhəng simalarının yetişməsi üçün zəmin yaratdı.

Yeni dövrün ədəbiyyatının formalaşmasında Nəcəf bəy Vəzirovun, Əbdürrəhim bəy Haqverdiyevin, Mirzə Ələkbər Sabirin, Süleyman Sani Axundovun, Üzeyir bəy Hacıbəyovun, Nəriman Nərimanovun, Haşım bəy Vəzirovun, Cəlil Məmmədquluzadənin, Abbas Səhhətin, Məhəmməd Hadinin, Abdulla Şaiqin, Əlibəy Hüseynzadənin, Əhməd Ağaoğlunun, Əhməd Cavadın, Hüseyn Cavidin və başqalarının əvəzsiz xidmətləri var idi.

XX əsrə qədəm qoyan Azərbaycan artıq bir çox sahələrdə, o cümlədən mədəniyyət, maarif və milli mətbuat sahələrində olduqca mühüm nailiyyətlər əldə etmişdi. Ən başlıcası isə Azərbaycan müasir burjuaziya təbəqəsi formalaşıb ölkənin ictimai həyatında mühüm rol oynamağa başlamışdı. Bu dövrdə Azərbaycan ziyalılarının müxtəlif sahələrdə göstərdiyi fəaliyyət milli dirçəliş, milli oyanış, milli ruhun aşılanması proseslərinə xidmət edirdi. Beləliklə, XIX əsrdən başlanan mürəkkəb ictimai-siyasi proseslərin gedişi Azərbaycan cəmiyyətində əsaslı dəyişikliklərə gətirib çıxartdı, yeni mühitdə formalaşan görkəmli ictimai və siyasi xadimlərimiz



əsrin çağırış və tələblərinə layiqincə cavab verməyə qadir oldular. Azərbaycan Xalq Cümhuriyyətinin qurulması üçün münbit zəmin yarandı. Bu dövrü XX əsr Azərbaycan tarixinin birinci mərhələsi adlandırmaq olar.

Azərbaycan üçün ikinci mərhələsi çar Rusiyası dağılandan sonra ölkəmizin ilk dəfə dövlət müstəqilliyi əldə etdiyi dövrdür.

Həmin dövrdə yaranmış Azərbaycan Xalq Cümhuriyyəti qısa müddət ərzində həyata keçirdiyi ciddi tədbirlər sayəsində bütün dövlətçilik atributları - öz parlamenti, hökuməti, ordusu və pul vahidi olan müstəqil, suveren bir dövlətə çevrildi. O, bütün dövlətçilik göstəricilərinə və prinsiplərinə görə Şərqdə ilk demokratik respublika idi. Azərbaycan Milli Şurasının qəbul etdiyi tarixi bəyannamə yeni yaranmış Azərbaycan Xalq Cümhuriyyətinin daxili və xarici siyasətinin başlıca prinsiplərini bütün dünyaya bildirdi. Bəyannamədə elan edilmiş prinsiplər - Azərbaycan xalqının öz müqəddəratını müəyyən etmək, insanların hüquq bərabərliyinə hörmət, bütün xarici dövlətlərlə, habelə qonşu xalqlarla dinclik və əmin-amanlıq şəraitində yaşamaq, bir-birinin suverenliyinə və ərazi bütövlüyünə hörmətlə yanaşmaq prinsipləri Azərbaycan Xalq Cümhuriyyətinin beynəlxalq nüfuzunu artırdı. 1920-ci ilin yanvarında Azərbaycan dövlətinin müstəqilliyi de-fakto tanındı.

Azərbaycan Xalq Cümhuriyyəti gərgin və mürəkkəb ictimai-siyasi şəraitdə cəmi 23 ay fəaliyyət göstərsə də, sonrakı nəsillərin yaddaşında xalqımızın tarixinin ən parlaq səhifələrindən biri kimi həmişə qalacaqdır. O, demokratik dövlət quruculuğu, iqtisadiyyat, mədəniyyət, təhsil, səhiyyə, hərbi quruculuq sahələrində atdığı mühüm addımları başa çatdıra bilməsə də, onun qısa müddətdə həyata keçirdiyi tədbirlər xalqımızın tarixində silinməz iz buraxmış, milli dövlətçilik ənənələrimizin bərpası işində böyük rol oynamışdır. Ən əsası odur ki, Azərbaycan Xalq Cümhuriyyəti az yaşasa da, xalqımızda azadlıq, müstəqillik fikirlərini daha da gücləndirmiş oldu. Bu cümhuriyyətin yaradılmasında müstəsna xidmətləri olan Məmməd Əmin Rəsulzadə, Əlimərdan bəy Topçubaşov, Fətəli xan Xoyski, Həsən bəy Ağayev, Nəsib bəy Usubbəyov, Mehdi bəy Hacınski, Məmməd Yusif Cəfərov, Xudadat bəy Rəfibəyov, Əkbər ağa Şeyxulislamov, Teymur bəy Makinski, Səməd bəy Mehmandarov, Əliağa Şixlinski, Sultan Məcid Qəniza-

də, Xəlil bəy Xasməmmədov, Əhməd bəy Pepinov, Şəfi bəy Rüstəmov kimi görkəmli ictimai xadimlərin xatirəsini qədirbilən Azərbaycan xalqı bu gün də böyük ehtiram hissi ilə yad edir.

Əsrin sonunda öz müstəqilliyini bərpa edən Azərbaycan Respublikası Xalq Cümhuriyyətinin varisi olaraq Üzeyir Hacıbəyovun və Əhməd Cavadın yaratdıqları dövlət himnini, Xalq Cümhuriyyətinin üçrəngli bayrağını və gerbini bərpa elədi. Bu dövlətçilik atributları bu gün də hər bir Azərbaycan vətəndaşı üçün olduqca əzizdir.

Üçüncü mərhələsi 1920-ci ilin aprelindən başlanır. Azərbaycanda Sovet hakimiyyəti qurulandan sonra da o, öz müstəqilliyini saxlamış, aprelin 30-da Rusiya ilə Azərbaycan arasında hərbi-iqtisadi müqavilə imzalamışdı. Azərbaycanda xarici ölkələrin nümayəndəlikləri, o cümlədən Rusiya konsulluğu da fəaliyyət göstərirdi. Azərbaycanın bu dövrdə yürütdüyü uğurlu siyasətin təzahürlərindən biri kimi Azərbaycanın ərazi bütövlüyünün qorunması istiqamətində aparılan işlər, Moskva və Qars müqavilələri, Genuya konfransı sayıla bilər. 1920-ci ildə Bakıda Şərq xalqlarının birinci qurultayı keçirildi. Bolşeviklər Şərq ölkələrinin yeni inqilabi dəyişikliklərə can atmaq arzusunda olmadıqlarını gördükdən sonra, öz siyasi məqsədləri naminə Azərbaycanın müstəqilliyinin qorunub saxlanılması ideyasından əl çəkdilər. 1921-ci ildə Zaqafqaziya Federasiyasının yaradılması artıq müstəqilliyin itirilməsi yolunda atılan ilk addım oldu. 1922-ci il dekabrın 30-da SSRİ-nin yaranması isə Azərbaycanın müstəqilliyinə son qoydu. O, bir sıra dövlətçilik atributlarını, o cümlədən bayraq, gerb, himn və konstitusiyasını qoruyub saxlamasına baxmayaraq, bir çox sahələrdə özünün beynəlxalq hüququn subyekti olmaq statusunu itirmişdi.

1922-1991-ci illər Azərbaycanda Sovet hakimiyyətinin qurulması və 70 il ərzində Azərbaycanın Sovet hakimiyyəti, Sovet dövləti çərçivəsində yaşaması dövrünü əhatə edir. Bu illərdə Azərbaycanda çox zəngin iqtisadi və intellektual potensial yaranmışdır. Bu potensialı xarakterizə etmək üçün bəzi faktlara müraciət edək.

20-30-cu illərdə Azərbaycan xalqının qəhrəman əməyi ilə neft sənayesində böyük yüksəliş əldə edilmiş, sənayenin yeni sahələri əmələ gəlmiş, elektrik stansiyaları tikilmiş, suvarma kanalları çəkilmiş, kənd təsərrüfatı dirçəlmişdir. Azərbaycan ellikcə savadlanmış, orta ümumtəhsil məktəblərinin, xəstəxana və poliklinikaların, ali və orta ixtisas məktəblərinin, elmi tədqiqat və mədəni-maarif müəssisələrinin şəbəkəsi xeyli genişləndirilmişdir.



1937-ci ildə Azərbaycan SSR özünün Konstitusiyasını qəbul edir və mədəni inqilab adı altında geniş maariflənmə proqramlarını həyata keçirir. Təhsildə islahatlar gerçəkləşdirilir. Artıq İkinci Dünya müharibəsi ərəfəsində Azərbaycanın dörd mindən çox ibtidai məktəbi, 16 ali məktəbi var idi. 1938-ci ildə SSRİ Elmlər Akademiyasının Azərbaycan filialı yaradıldı, Azərbaycanda teatr şəbəkəsi formalaşdı. Artıq 1940-cı ildə ölkədə 18 teatr fəaliyyət göstərirdi. 1937-ci ildə Üzeyir Hacıbəyovun yaratdığı "Koroğlu" operası Azərbaycan mədəniyyətində böyük hadisəyə çevrildi. Bütün bu uğurlarla yanaşı, 1937-1938-ci illərin repressiyaları Azərbaycan elminə və mədəniyyətinə böyük zərbələr vurdu. Repressiya illərində 50 mindən artıq adam güllələnmiş, 100 mindən çox insan Sibir və Qazaxıstana sürgün edilmişdir. Hüseyn Cavid, Mikayıl Müşviq, Tağı Şahbazi, Salman Mumtaz kimi böyük şəxsiyyətlər məhv edilmişdi.

İkinci Dünya müharibəsi illəri bəşəriyyətin XX əsrdə üzləşdiyi ən ağır və dəhşətli dövr olmuşdur. İtaliyada və Almaniyada meydana çıxmış faşizm hərəkatı təkcə həmin ölkələrin xalqlarının deyil, bütün bəşəriyyətin həyatını böyük təhlükəyə məruz qoydu. Faşizm ideologiyası qısa müddət ərzində bir çox ölkələrin iqtisadi imkanlarından istifadə etməklə real dağıdıcı qüvvəyə çevrildi, dünya "olum, ya ölüm" dilemması qarşısında qaldı. XX əsrin ən mühüm dərslərindən biri də o oldu ki, dünya dövlətləri öz aralarındakı siyasi, ideoloji, iqtisadi fərqlərə baxmayaraq, bu ümumi təhlükə qarşısında kollektiv səylər göstərilməsinin zərurətini dərk edə bildilər.

Beləliklə də, dünya xalqlarının güclü antifaşizm birliyi yarandı. Yalnız bunun sayəsində, antifaşist qüvvələrin fədakarlığı nəticəsində bəşəriyyəti bu böyük təhlükədən, ağır faciədən xilas etmək mümkün oldu. Biz fəxr edirik ki, dünyanın bu taleyüklü probleminin həll olunmasında faşizm üzərində qələbədə Azərbaycan xalqının da mühüm payı olmuşdur.

Azərbaycan xalqı İkinci Dünya müharibəsində həm döyüş meydanlarında, həm də "arxa cəbhə"də əsl şücaət və əzmkarlıq nümunələri göstərmişdir. Müharibə başlanandan keçən qısa müddət ərzində respublika ərazisində 87 qırıcı batalyon, 1124 özünümüdafiə dəstəsi təşkil edilmişdi. 1941-1945-ci illərdə respublikanın 600 mindən çox oğlan və qızı cəbhəyə getmişdir. Azərbaycan diviziyaları Qafqazdan Berlinədək şanlı döyüş yolu keçdilər. Azərbaycanda 130-a qədər adam Sovet İttifaqı Qəhrəmanı adına, 30 nəfər azərbaycanlı döyüşçü isə Şöhrət ordeninin hər üç dərəcəsinə layiq görüldü. 170 mindən çox azərbaycanlı əsgər və zabit SSRİ-nin orden və medalları ilə təltif edildi. İki dəfə Sovet İttifaqı Qəhrəmanı Həzi Aslanov, Sovet İttifaqı qəhrəmanları İsrafil Məmmədov, Aslan Vəzirov, Adil Quliyev, Ziya Bünyadov, Gəray Əsədov, Məlik Məhərrəmov, Mehdi Hüseynzadə, generallar Mahmud Əbilov, Akim Abbasov, Tərlan Əliyarbəyov, Hacıbala Zeynalov və bir çox başqaları öz qəhrəmanlıqları ilə xalqımızın şanlı tarixinə yeni səhifələr yazdılar.

Respublikada iqtisadiyyatın hərbi qaydada yenidən qurulması sahəsində böyük işlər görüldü. Yüngül, toxuculuq və yeyinti sənayesi tamamilə cəbhə üçün məhsul istehsalına keçdi. Qısa müddət ərzində Bakı döyüşən ordunun mühüm cəbbəxanalarından birinə çevrildi. 1942-ci ildə Bakıda 130 növ müxtəlif silah, hərbi sursat istehsal edilirdi. Böyük çətinliklərə baxmayaraq, neftçilər fədakarlıqla çalışır, cəbhəni və iqtisadiyyatın bütün sahələrini yanacaqla təmin edirdilər. Akademik Yusif Məmmədəliyevin rəhbərliyi ilə aviasiya benzini istehsalının yeni texnologiyası hazırlandı, Azərbaycanda yüksək oktanlı benzin istehsalına başlandı. Elə 1941-ci ildə neftçilərimizin fədakar və gərgin səyləri nəticəsində Azərbaycanın bütün tarixində ən böyük həcmdə - 23,5 milyon ton neft hasil olundu ki, bu da İttifaqda çıxarılmış neftin 71,4 faizini təşkil edirdi. Azərbaycan neftçiləri müharibə illərində ölkəyə 75 milyon ton neft, 22 milyon ton benzin və başqa neft məhsulları verdilər. Mübağiləsiz demək olar ki, İkinci Dünya müharibəsində faşizm üzərində qələbənin əldə edilməsində Bakı nefti həlledici amillərdən biri olmuşdur. Müharibənin ağırlığının böyük bir hissəsini öz üzərinə götürmüş Sovet ordusunun dənizdə, quruda və havada düşmən üzərində üstünlük qazanmasında Bakı



nefti misilsiz rol oynamışdır. Təkcə bu faktı qeyd etmək kifayətdir ki, o dövrdə hər beş təyyarə, tank və avtomaşından dördü Bakı mədənlərindən çıxarılaraq Bakının neft emalı zavodlarında istehsal olunmuş benzinlə işləyirdi.

İkinci Dünya müharibəsi əyani şəkildə bir daha təsdiq etdi ki, Azərbaycan xalqı ən ağır sınaqlardan üzüağ çıxmağa, misilsiz şücaət və rəşadət nümunələri göstərməyə qadir olan çox dözümlü və qəhrəman xalqdır.

Müharibədən sonrakı illərdə respublikamız iqtisadiyyat və mədəniyyətin yüksəliş mərhələsinə qədəm qoydu. Artıq 1948-ci ildə respublika sənayesi müharibədən əvvəlki səviyyəni ötmüş, 1960-cı ildə isə 1940-cı ildəki səviyyəni 2,8 dəfə üstələyən məhsul buraxılışına nail olmuşdu. Kənd təsərrüfatının məcmu məhsulu bu illərdə 2 dəfə, dəmiryol nəqliyyatının yük daşımaları 2,9 dəfə, bütün maliyyələşdirmə mənbələri üzrə kapital qoyuluşu 3,8 dəfə artmışdı. Bu illərdə ağır sənayenin neft emalı, kimya və neft kimyası, qara və əlvan metallurgiya, cihazqayırma və elektrotexnika kimi yeni sahələri əmələ gəlmişdi. Energetika və su təsərrüfatı tikintiləri genişlənmiş, kənd təsərrüfatının maddi-texniki bazası möhkəmlənmişdi. Azərbaycan əməkçiləri Rusiya Federasiyasının, eləcə də SSRİ-nin digər respublikalarının iqtisadiyyatının bərpa olunması və inkişafı işində fəal iştirak edirdilər. Respublikanın alim və mütəxəssisləri Cənubi Qafqaz, Tatarıstan və Başqırdıstanda, Qərbi Sibirin Tümen vilayətində yeni iri yataqlarının kəşf olunmasına və istismarına əvəzsiz töhfələr vermişdilər.

Müharibədən sonrakı beşilliklər ərzində Sovet Azərbaycanının keçdiyi tarixi yolun əhəmiyyətini azaltmadan onu da qeyd etmək vacibdir ki, 1960-cı illərdə respublika iqtisadiyyatının inkişafında mənfi meyllər də özünü göstərməyə başlamışdı. Azərbaycan milli gəlirin inkişaf templərinə, sənaye və kənd təsərrüfatı istehsalının həcminə, elmi-texniki tərəqqinin nailiyyətlərinin mənimsənilməsinə ictimai əməyin məhsuldarlığına görə ümumittifaq göstəricilərindən geri qalırdı. İqtisadiyyatdakı çatışmazlıqlar sosial sahədə əməkçilərin maddi rifah halının yaxşılaşmasındakı problemlərin həllinə mənfi təsir göstərirdi.

Bir sıra obyektiv səbəblərdən Azərbaycanın sosial-iqtisadi cəhətdən uzun müddət geridə qalması müşahidə olunurdu.

1965-ci ildə 1940-cı ilə nisbətən respublikada məcmu ictimai məhsul yalnız 3,6 dəfə, sənaye məhsullarının həcmi 4 dəfə artmışdı, halbuki ölkə üzrə bu göstəricilər müvafiq surətdə 5,7 və 7,9 dəfəyə çatırdı. Azərbaycan Respublikası milli gəlirin həcminə görə ümumittifaq səviyyəsindən 2 dəfə, əsas fondlara görə 1,8 dəfə, kapital qoyuluşu üzrə 1,7 dəfə geri qalırdı. Sənayedə bütün istehsalın ən mühüm səmərəlilik və yekun göstəricisi olan əmək məhsuldarlığı ümumittifaq miqyaslı inkişaf templərindən 1,5 dəfə geri qalırdı.

Əsaslı tikinti sahəsində ciddi çatızmazlıqlara yol verilmişdi. Sənaye müəssisələrinin, yaşayış binalarının, mədəni-məişət obyektlərinin istismara verilməsi üzrə tapşırıqlar müntəzəm olaraq pozulurdu. Bütövlükdə 60-cı illərdə əsas fondlar 1 milyard rubla qədər kəsirdə qalmışdı ki, bu da 1969-cu ilin başlanğıcında respublikanın bütün əsas fondlarının 10 faizini təşkil edirdi. Sənaye sahələrinin və sosial sferanın potensialının gücləndirilməsi işində əldən verilmiş imkanlar respublikanın 60-cı illərdə sosial-iqtisadi cəhətdən geri qalmasına başlıca səbəbləri idi.

Neft sənayesi, energetika, qara metallurgiya, kimya və neft kimyası sənayesi fasilələrlə işləyir, bir çox sahələrin texniki-iqtisadi göstəriciləri pisləşirdi.

Nəqliyyat kompleksində dəmiryol vaqonlarının normadan artıq boş dayanmaları, gəmilərin yüklənmə-yükboşaltma işində ləngimə çoxalmış, hərəkət heyətlərinin sürəti azalmış, onların yükdaşıma qabiliyyətindən tam istifadə olunmamışdı. Sərnişin nəqliyyatının işində də boşdayanmalar artmışdı ki, bu, əhalinin, xüsusən Bakı şəhərində haqlı şikayətinə səbəb olurdu.

Kənd təsərrüfatında meliorasiya və dəmyə torpaqlarının suvarılması işində nöqsanlar var idi, kənd təsərrüfatı işlərinin mexanikləşdirilməsi aşağı səviyyədə idi. Aqrotexniki qaydaların pozulması üzündən taxılın, pambığın, tərəvəzin, üzümün, çay yarpağının və başqa bitkilərin məhsuldarlığı aşağı səviyyədə idi.

İstehsal qüvvələrinin yerləşdirilməsi işində kobud yanlışlıqlara yol verilmişdi. İri obyekt və müəssisələrin əksəriyyəti bir qayda olaraq Bakı, Sumqayıt şəhərlərində tikilirdi ki, bu da orta və kiçik şəhərlərin əmək ehtiyyatlarından səmərəli istifadə olunması dərəcəsini aşagı salır, ölkə əhalisinin paytaxta axışmasına səbəb olur və burada yaşayış evləri və sosial obyektlərlə əlaqədar artıq mövcud olan çətinlikləri daha da ağırlaşdırırdı.



Qətiyyətlə bildirmək olar ki, 60-cı illərdə respublika iqtisadiyyatı bütövlükdə dərin və uzunmüddətli böhran mərhələsinə qədəm qoymuşdu. Yaranmış ağır vəziyyətdən çıxış yolu tapılmalı, iqtisadiyyatın inkişafı üçün prinsipial cəhətdən yeni konseptual yanaşma yolları işlənib hazırlanmalı, xalq təsərrüfatında köklü struktur dəyişiklikləri aparılmalı, təsərrüfatçılıq və iqtisadi həvəsləndirmə işində təzə metodlar tətbiq edilməli idi.

Azərbaycanın müasir tarixində 1969-cu ildə dönüş mərhələsinin təməli qoyuldu. Respublikanın dinamik inkişafı üçün kompleks proqramların işlənib hazırlanmasında yorulmaz fəaliyyət, misilsiz təşəbbüskarlıq və nəhəng enerji bütün 1970-ci illərin bariz əlamətinə çevrildi.

1970-1985-ci illər Azərbaycanın quruculuq salnaməsinə ən parlaq səhifələr kimi daxil olmuşdur. Baş verən dəyişikliklərin miqyasına, iqtisadi və sosial sahələrdə aparılan dərin struktur islahatlarının xarakterinə, xalqın maddi rifah halının keyfiyyətcə yeni mərhələyə keçirilməsinə görə doqquzuncu, onuncu və on birinci beşilliklər Azərbaycanın yeni tarixində ən mühüm yerləri tutur. SSRİ hökuməti Azərbaycanla əlaqədar, respublikada xalq təsərrüfatının hərtərəfli yüksəlişi və intensiv inkişafını nəzərdə tutan beş xüsusi qərar qəbul etmişdi. Azərbaycan xalqı üçün həqiqətən tarixi əhəmiyyət daşıyan bu mühüm qərarlar 1970-1980-ci illər arasında və daha sonrakı perspektivdə ölkənin sosial-iqtisadi inkişafının əsas istiqamətləri üzrə kompleks məsələləri müəyyənləşdirmişdi.

Qəbul olunmuş proqramın həlli yolunda böyük iş aparmağa başlayan fəhlə və kolxozçular, respublika ziyalıları iqtisadiyyat və mədəniyyətin bütün sahələrində xalqın maddi və mənəvi baxımdan artan tələbatlarının təmin olunması işində çox yüksək nəticələr əldə etmişlər. Müharibədən sonrakı dövrdə ilk dəfə olaraq, doqquzuncu və onuncu beşilliklər üçün xalq təsərrüfatının inkişaf planları vaxtından əvvəl yerinə yetirilmişdi.

Bu gün tam əminliklə söyləmək olar ki, Azərbaycan dövlət suverenliyi və iqtisadi müstəqilliyi, sistemli şəkildə artan xarici iqtisadi əlaqələri, dünya iqtisadiyyatına get-gedə daha dərindən in-

teqrasiya olunması hələ 1970-1985-ci illərdə təməli qoyulmuş xalq təsərrüfatı potensialına əsaslanır.

Sənaye və kənd təsərrüfatı məhsullarının dinamik artan istehsalı, öhdəliklərin vaxtından qabaq və artıqlaması ilə yerinə yetirilməsi, xalq təsərrüfatının bütün sahələrində keyfiyyət göstəricilərinin yüksəlməsi 1970-1980-ci illərdə Azərbaycanın inkişafının nə qədər dinamik olduğunu əks etdirirdi. Ümumittifaq əmək bölgüsündə respublikanın payı, həmçinin Sovet İttifaqının xarici iqtisadi əlaqələrində onun iştirakı əhəmiyyətli dərəcədə artmışdı.

1985-ci ildə sənayedə əmək məhsuldarlığı 1970-ci illə müqayisədə 2,1 dəfə, kənd təsərrüfatında 1,8 dəfə artmışdı. Ümumittifaq göstəriciləri müvafiq olaraq, 15 və 27 faiz idi. Xalq təsərrüfatında mənfəət bütövlükdə 335 faiz artmışdı. Halbuki orta ümumittifaq göstəricilərinə görə, əhalinin hər nəfərinə düşən gəlir cəmi 164 faiz artmışdı.

Respublikanın ən kəskin problemlərindən biri də əmək qabiliyyətli əhalinin ictimai əməyə cəlb olunması, əmək ehtiyatlarından səmərəli istifadə edilməsidir. Bu sahədə də böyük dəyişikliklər baş vermişdi. Orta və kiçik şəhərlərdə, kənd yerlərində əlavə iş yerləri yaradılması hesabına fəhlə, qulluqçu və kolxozçuların ortaillik sayı 813 min nəfər, yaxud 1,5 dəfə artmış və 1985-ci ildə 2360 min nəfərə çatmışdı.

Sənayenin dinamik yüksəlişini təmin etmək üçün iqtisadiyyatda struktur siyasətinin prinsipial şəkildə yeni istiqamətləri işlənib hazırlanmışdı. Bu istiqamətlər sənayenin qabaqcıl və mütərəqqi sahələrinin, ilk növbədə maşınqayırma kompleksində, kimya və neft kimyasında, əlvan metallurgiyada texniki cəhətdən yeniləşmə və yenidənqurma prosesləri ilə eyni vaxtda neft və qaz hasil edən, neft emal edən sənayenin, energetikanın, qara metallurgiyanın və dağ-mədən sənayesinin genişlənməsini nəzərdə tuturdu.

Azərbaycanın təşəbbüsü ilə ümumittifaq səviyyədə qəbul olunmuş qərarlarla elmi-texniki tərəqqi əsasında respublikanın sənaye bazasının inkişaf etdirilməsində, sənayenin strukturunun təkminləşdirilməsində, iri cihazqayırma, radiotexnika, elektritexnika, dəzgahqayırma və avtomobil sənayesi müəssisələrin yaradılmasında, fəaliyyətdə olan zavodların yenidən qurulmasında və



genişləndirilməsində yeni mərhələnin başlanğıcı qoyuldu. Göstərilən qərar respublika ərazisində sənaye müəssisələrinin yerləşdirilməsi işinin köklü surətdə yaxşılaşdırılmasında böyük rol oynadı, şəhər və rayonların kompleks inkişafına, əmək ehtiyatlarından səmərəli istifadə edilməsinə, xalqın rifah halının yaxşılaşmasına kömək göstərdi.

Qəbul olunmuş qərarda nəzərdə tutulan irimiqyaslı dəyişikliklərin həyata keçirilməsi bir çox müəssisələrin əmək kollektivlərindən, elmi tətqiqat institutlarından, layihə-kostruktor və inşaat-quraşdırma təşkilatlarından, sahə nazirliklərindən və baş idarələrindən böyük yaradıcı səylər tələb edirdi. İttifaq büdcəsindən kapital qoyuluşları ilə təmin olunmaq, xaricdən texnoloji avadanlıqlar alınması üçün valyuta vəsaitlərinin ayrılması, obyektlərin maddi-texniki təchizatına nail olmaqdan ötrü onların mühüm ümumittifaq tikintilərinin siyahısına daxil edilməsi, kadr hazırlığı və bir çox digər olduqca mühüm məsələlər öz həllini tapırdı.

Bütün bunlar nəzərdə tutulan tədbirlərin vaxtında yerinə yetirilməsinə əsas vermiş, 1970-ci illər ərzində, 1980-ci illərin ortalarına qədər respublikanın sənaye istehsalını yüksək artım templəri ilə təmin etmişdi. Bircə faktı qeyd etmək kifayətdir ki, doqquzuncu və onuncu beşilliklər ərzində 1945-ci ildən 1970-ci ilə qədər dövrdəkinə nisbətən daha çox məhsul istehsal olunmuşdu.

On birinci beşillikdə sənaye məhsulunun ümumi həcmi 58,5 milyard rubla çatmışdı, bu isə səkkizinci və doqquzuncu beşilliklərin nəticələrini müvafiq olaraq, təqribən 3,2 və 2,1 dəfə üstələyirdi. 15 il ərzində sənayenin ümumi məhsul həcmi üçumilikdə götürəndə 1921-ci ildən 1970-ci ilə qədərki bütün dövr ərzində buraxılmış məhsuldan ikiqat çox olmuşdu. Respublika iqtisadiyyatının 1970-1980-ci illərdə əldə etdiyi uğurların miqyasını əyani surətdə təsəvvür etmək üçün qeyd etməliyik ki, bu göstəricinin hər bir faizi mütləq həcmin artmasına dəlalət edir. Əgər doqquzuncu beşillikdə sənaye məhsulunun bir faiz artmasının qiyməti 45 milyon rubla bərabər tutulurdusa, on birinci beşillikdə bu rəqəm təqribən 100 milyon rubl edirdi ki, bu da səkkizinci beşilliyin müvafiq göstəricisindən 3,3 dəfə artıq idi. 15 ildə sənayenin əsas fondlarının 69 faizi yeniləşdirilmişdi ki, bu da respublikanın milli varidatının çox mühüm hissəsini təşkil edirdı. Sənaye-məhsuldar

personalın fondlarla təchizatı 1980-ci ildə 1970-ci illə müqayisədə 10 ildə 1,4 dəfə, on birinci beşillikdə isə daha 1,3 dəfə artmışdı.

Azərbaycan sənayesinin inkişafında müəyyənedici amillərdən biri də elmi-texniki tərəqqinin nailiyyətlərinin geniş tətbiq edilməsi olmuşdur. 1971-1985-ci illər ərzində 581 adda yeni tipli maşın, avadanlıq, aparat və cihaz nümunələri yaradılmışdı; 1056 adda mühüm sənaye məhsulunun kütləvi buraxılışına başlanılmışdı; istehsalın texnoloji proseslərini idarə etmək üçün 94 avtomatlaşdırılmış sistem işə salınmışdı. 1985-ci ildə sənayedə 2519 mexanikləşdirilmiş axın xətti, 310 avtomatlaşdırılmış xətt, 1300 kompleks mexanikləşdirilmiş xətt və avtomatlaşdırılmış məntəqə, sex və istehsal sahəsi fəaliyyət göstərirdi.

1982-ci ilin əvvəllərində sənayedə 73 elm-istehsal və istehsal birliyi yaradılmışdı ki, bunların da tərkibində 264 iri müəssisə vardı. Real məhsulun ümumi həcmində bunların payı 1969-cu ildəki 0,29 faizdən artaraq, 26 faizə çatmışdı. Sənaye inkişafının, ilk növbədə elmi-texniki tərəqqini müəyyən edən sahələrdə sürətləndirilməsi sənayenin ümumi məhsulunun xüsusi çəkisinin 1970-ci ildəki 22 faizdən 1980-ci ildə 24 faizə, 1985-ci ildə isə 28 faizə çatmasına səbəb olmuşdur. Sənayenin texniki səviyyəsinin yüksəlməsi müəssisələrin işinin səmərəliliyini artırmağa, keyfiyyəti yaxşılaşdırmağa, hər məhsul vahidinə düşən maddi və əmək məsrəflərini azaltmağa imkan verirdi. Belə ki, 1985-ci ildə 1970-ci illə müqayisədə ümumən sənayedə əmək məhsuldarlığı 2,1 dəfə, mənfəət isə 3,2 dəfə yüksəlmişdi. Sənaye məhsullarının ümumi həcmində ən yüksək keyfiyyətli məhsulun xüsusi çəkisi 1980-ci ildə 13 faiz, 1985-ci ildə 17,2 faiz artmışdı (1970-ci ildəki 1,3 faizə qarşı); attestasiya edilmiş məhsulun ümumi həcmində bu göstərici 1980-ci ildə 30 faizə, 1985-ci ildə isə 46 faizə qədər qalxmışdı. Respublika müəssisələri tərəfindən buraxılan 451 adda məhsula dövlət keyfiyyət nişanı verilmişdi.

1970-1985-ci illər ərzində 213 yeni iri sənaye müəssisəsi istismara verilmişdi, bunların da üçdə ikisi öz əmək fəaliyyətinə doqquzuncu, onuncu beşilliklərdə, həmçinin on birinci beşilliyin ilk iki ilində başlamışdı.

Bu illər ərzində Azərbaycanın paytaxtının görkəmi tamamilə dəyişmişdi. Burada müasir memarlıq üslubunda inşa edilmiş



çoxsaylı binalar, mədəniyyət obyektləri, İmadəddin Nəsimiyə, Cəfər Cabbarlıya abidələr ucaldılmışdı. 14 ildə yaşayış evləri tikintisinin həcmi ağlagəlməz dərəcədə artmışdı, belə ki, bu dövrdə tikilmiş yaşayış binaları bütün Bakı şəhərinin yaşayış fonduna bərabər tutula bilərdi. Elə hesab edin ki, respublikada yeni bir Bakı salınmışdı.

Bu rəqəmlərin arxasında Azərbaycan xalqının gərgin əməyi və misli görünməmiş səyləri durur. Tarixi baxımdan qısa bir dövrdə Azərbaycan öz iqtisadiyyatını sürətlə inkişaf etdirərək yüzlərlə *iri zavod, fabrik, istehsalat sahələri* yaratmışdı. Azərbaycan bu illərdə neft məhsulları, neft avadanlığı, polad borular, əlvan metallar, sintetik kauçuk, elektrik mühərrikləri, tikinti materialları, məişət kondisionerləri, avtomobil hissələri, mineral gübrələr, çini-saxsı, xalça və xalçaçılıq məmulatı istehsalı üzrə SSRİ-də aparıcı yerlərdən birini tuturdu. Ölkəmizdə buraxılan 350 adda məhsul dünyanın 65 ölkəsinə ixrac olunurdu.

Bu illər ərzində milli gəlirin ümumi həcmi 2,5 dəfə artmışdı. Respublikada sənaye istehsalı, həmçinin əmək məhsuldarlığı iki dəfə, xalq istehlakı mallarının istehsalı isə üç dəfə artmışdı. Bu 14 ildə istehsal olunmuş sənaye məhsulları öz həcminə görə, əvvəlki 50 ildəkinə bərabər idi. Kənd təsərrüfatında məcmu məhsul da 2,7 dəfə artmış, bu sahədə məhsuldarlıq, o cümlədən əmək məhsuldarlığı iki dəfədən artıq çoxalmışdı.

Həmin illər ərzində xalq təsərrüfatının inkişafına 21,3 milyard rubl vəsait cəlb olunmuşdu ki, bu da əvvəlki əlli illə müqayisədə 1,5 dəfədən də artıq idi. 250-dən çox iri zavod, fabrik və istehsal sexləri *tikilmişdi. İki milyondan çox adam öz yaşayış şəraitini* yaxşılaşdırmışdı.

Ancaq bu rəqəmlər, bu cansız göstəricilər nə qədər cəlbedici olsa da, Azərbaycan iqtisadiyyatında baş vermiş struktur, keyfiyyət dəyişiklikləri haqqında tam təəssürat doğura bilməz. Bu illərdə Azərbaycan üçün yeni olan bir neçə xalq təsərrüfatı sahəsinin əsası qoyulmuşdu. Həmin dövrdə Azərbaycanda hər gün 41 min ton neft, 37 milyon kubmetr qaz çıxarılır, 2200 ton polad tökülür, 69 min metr boru, 4900 avtomobil təkəri, 2700 ton mineral gübrə, 968 məişət kondisioneri, 734 soyuducu istehsal olunur, 546 min metr parça toxunurdu.

Elektron maşınqayırması, radiosənaye, yüngül və yeyinti sənayesi üçün maşın və avadanlıqların istehsalı kimi yeni mütərəqqi sənaye sahələri Azərbaycana məhz həmin illərdə "ayaq açmışdı". Bakı məişət kondisionerləri zavodunun fəaliyyətə başlaması respublikada elektrotexnika kimi perspektivli bir sahənin inkişafına təkan vermiş, qısa müddətdə irəliləyiş əldə olunmuş, istehsalın həcmi bir yarım dəfə artırılmışdı.

Azərbaycanın qədim neft emalı sənayesi tarixində ilk dəfə bu dövrdə Bakı neft emalı müəssisələrinin irimiqyaslı yenidən qurulması həyata keçirilmiş, neftin ikiqat emalı üçün qurğu və avadanlıq quraşdırılmışdı.

Bu illərdə yüksək peşəkar səviyyəli kadrların hazırlığına da ciddi fikir verilirdi. Respublikanın ali məktəblər şəbəkəsi əhəmiyyətli dərəcədə genişləndirilmiş, ildırım sürəti ilə inkişaf edən iqtisadiyyatın tələblərinə uyğun bir tərzdə onların strukturu və maddi-texniki bazası da təkmilləşdirilmişdi.

1970-ci illərdə Azərbaycanın elektrik enerjisi ilə təmin olunması üçün çox səylər göstərilmişdi. Bu gün iftixar hissi ilə demək olar ki, bu mühüm sahədə respublikamız heç bir ölkədən asılı olmayan geniş elektrik enerjisi müəssisələri sisteminin yaradılmasına nail olmuşdu. Energetika sahəsində Azərbaycanda görülən işlər sayəsində beş min meqavat elektrik enerjisi istehsal gücünə malik energetika sistemi yaradılmışdır. Biz o dövrdə ittifaq hökumətindən böyük vəsaitlər alıb Mingəçevirdə hər birinin gücü üç yüz meqavat olan 8 böyük enerji bloku yaratdıq. Kür Su Elektrik Stansiyası inşa edildi. Yenikənd Su Elektrik Stansiyasının tikilməsi üçün 1979-cu ildə qərar qəbul olundu, lakin məlum səbəblərə görə sonrakı illərdə bu iş yarımçıq qaldı. Azərbaycan öz müstəqilliyini əldə edəndən sonra imkan tapıb, yenidən bu məsələyə qayıtdıq və 1994-cü ildə Avropa Yenidənqurma və İnkişaf Bankından güzəştli kredit alıb Yenikənd Su Elektrik Stansiyasının tikintisini davam etdirdik.

Həyatımızın bütün sahələrində belə əsaslı dönüş yaratmaq üçün ilk növbədə, yüksək ixtisaslı kadrlara ehtiyac duyulurdu. Azərbaycanın daxilində hazırlanan ali təhsilli mütəxəssislərlə yanaşı, bu ehtiyacı ödəmək üçün Moskvanın, eləcə də keçmiş SSRİ-nin digər şəhərlərinin 170 aparıcı ali elm və təhsil ocağına 3500



azərbaycanlı oğlan və qız göndərilmişdi. Hər il ali təhsil almaqdan ötrü respublikadan kənara 800-dən artıq tələbə göndərilməsi artıq yaxşı bir ənənə şəklini almışdı. Gənc və yeniyetmə azərbaycanlı oğlanların ali hərbi məktəblərə cəlb olunması işinə xüsusi diqqət yetirilirdi. Bütün bunlar Azərbaycanın gələcək inkişafı üçün qüdrətli kadr potensialının formalaşmasına böyük təsir göstərmişdir.

SSRİ dövlətinin dağılması ərəfəsində bir çox mütəxəssislər hansı müttəfiq respublikaların iqtisadiyyatının müstəqillik şəraitində özünü təmin etməyə qadir olduğunu müəyyən etməyə cəhd göstərirdilər. Aparılan təhlil göstərirdi ki, keçmiş SSRİ-də cəmi 2 respublika tam müstəqil olaraq öz iqtisadiyyatını idarə edə bilər. Bu respublikalardan biri Azərbaycan idi. Bizim bəzi alimlərimiz sübut etməyə çalışırdılar ki, guya SSRİ-siz Azərbaycan bir gün də dolana bilməz. Azərbaycanın Sovet dövründə inkişafının ən bariz nəticəsi odur ki, həmin dövrdə yaranmış iqtisadi, elmi-texniki və mədəni potensial respublikamızın tam müstəqil dövlət kimi fəaliyyət göstərməsi üçün möhkəm zəmin yaratmışdır.

1920-1991-ci illərdə Azərbaycanın iqtisadiyyatı ilə yanaşı təhsili, elmi və mədəniyyəti də böyük inkişaf yolu keçmişdir. Dünyəvi teatr, müasir məktəb və demokratik mətbuatın yaranmasının bünövrəsi XIX əsrdə qoyulsa da, məhz bu 70 ildə ölkəmizdə savadsızlıq ləğv olunmuş, tam orta icbari təhsil tətbiq edilmiş, təhsil müəssisələrinin, o cümlədən ali məktəblərin inkişaf etmiş şəbəkəsi yaranmış, Elmlər Akademiyası formalaşmış, qadınların hüquqlarının qorunması və sosial-iqtisadi həyatda fəal iştirakı təmin olunmuş, onlarca teatr açılmış, kino sənəti inkişaf etmiş, minlərlə qəzet və jurnal çap olunmağa başlamışdı.

Təəssüflər olsun ki, həmin dövrdə yaradılmış o böyük potensial hərc-mərclik illərində dağıntılara məruz qaldı. Azərbaycanın düçar olduğu Dağlıq Qarabağ faciəsi vəziyyəti daha da ağırlaşdırdı.

1991-ci il fevralın 5-də Azərbaycan Ali Sovetinin iclasındakı çıxışımda respublikada o dövrdə yaranmış gərgin vəziyyəti, mövcud olan dərin siyasi böhranı şərh edərək təxirəsalınmaz tədbirlərin gerçəkləşdirilməsindən, o cümlədən Bakıda fövqəladə vəziyyətin ləğv edilməsindən, Dağlıq Qarabağ probleminin tədricən Dağ-

lıq Qarabağ faciəsinə çevrilməsi təhlükəsindən, Azərbaycan Kommunist Partiyasının ləğv edilməsinin zəruriliyindən söz açdım. Tarixə nəzər salarkən qeyd etdim ki, Azərbaycan xalqı 20-ci ildən indiyədək bu cür ağır, çətin və çıxılmaz vəziyyətdə olmayıb. Biz 1922-ci ildən SSRİ-nin tərkibindəyik. SSRİ tərkibində olan heç bir müttəfiq respublikanın başına belə bəla gəlməyib. Heç bir müttəfiq respublika başqa müttəfiq respublikanın təcavüzünə məruz qalmayıb. Bu xırda məsələ deyil, bunu geniş müzakirə etmək lazımdır, danışmaq lazımdır, məsləhətləşmək lazımdır, dil tapmaq lazımdır, yol tapmaq lazımdır. Bu məsələyə tələm-tələsik baxmaq olmaz. Mən sizi həmin məsələyə bu cür mövqedən yanaşmağa dəvət edirəm. Buna görə də hesab edirəm ki, «Dağlıq Qarabağda vəziyyətin normallaşdırılması» məsələnin dar çərçivədə qoyulması deməkdir. «Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması» məsələ belə qoyulmalıdır və biz bunun üçün çarə, çıxış yolu tapmalıyıq. Ona görə də biz gərək təhlil edək: nə cür oldu ki, biz Dağlıq Qarabağı əldən verdik. Üç il bundan qabaq Dağlıq Qarabağ Azərbaycanın tərkibində idi. Pis idi, yaxşı idi - Azərbaycanın tərkibində idi. Düzdür, Dağlıq Qarabağ məsələsi 1920-ci ildən başlanıb. 1923-cü ildə Dağlıq Qarabağ Muxtar Vilayəti yaranıb. Sonrakı illərdə bu məsələ erməni millətçiləri tərəfindən qaldırılıb. Ancaq gəlin tarixə düzgün qiymət verək. Gəlin etiraf edək ki, o dövrlərdə erməni millətçilərinin qarşısı alınmışdı.

Bəs nə cür oldu ki, respublikamız bu qədər böyüdü, yüksəldi, nüfuz qazandı, ölkədə, dünyada tanındı, lakin 1988-ci ildə Azərbaycan torpağının bir hissəsi əlindən getdi? Bu sualları qaldıraraq mən Ali Soveti, bütün qüvvələri, bütün Azərbaycan vətəndaşlarını hərtərəfli və konstruktiv bir proqram hazırlamağa çağırırdım. O dövrdə tam aydın idi ki, 1988-ci ildən başlayaraq hadisələri Azərbaycan xalqının iradəsi yox, erməni separatçıları idarə edirdilər. Hadisələr gerçəkləşdikdən sonra tədbirlər haqqında fikirləşməyə başlayan daim uduzur. Erməni separatçıları monolit bir qüvvə olaraq, ümummilli bir platforma səviyyəsində düşünülmüş addımlar ataraq, Dağlıq Qarabağı Azərbaycandan təcrid etmək yolunda hər gün yeni uğurlar qazanırdılar. Bunun müqabilində, o dövrdə təəssüf ki, heç bir qüvvə Azərbaycanda adekvat



və konstruktiv addımlar atmağa qadir olmadı. Faciənin köklərini məhz burada axtarmaq lazımdır.

O dövrdəki Azərbaycan rəhbərliyi sadə bir həqiqəti nəzərə almırdı ki, dünyanın siyasi mənzərəsi böyük sürətlə dəyişməkdə idi. Yeni coğrafi-siyasi vəziyyət yeni strategiyaların formalaşmasını tələb edirdi və günün bu tələblərinə Azərbaycan, təəssüf ki, cavab verə bilmədi. Yenidənqurmanı dəstəkləyən bir qüvvə kimi rəsmi qeydiyyata alınan Azərbaycan Xalq Cəbhəsi hərəkatı qısa bir müddətdə özünü Azərbaycan ziyalılarının əsas kütləsindən təcrid etdi, dərin elmi təhlil və siyasi proqnozlar əsasında ümummilli platforma yaratmaq əvəzinə, populist çıxışlara və meydan əhval-ruhiyyəsinə üstünlük verdi. Nəticədə Kommunist Partiyası - Xalq Cəbhəsi xətti üzrə formalaşmış qarşıdurma hakimiyyət uğrunda mübarizə müstəvisinə yönəldildi. Dağlıq Qarabağda böyük məharətlə hazırlanmış hiyləgər planların gerçəkləşdiyi bir vaxtda özlərini böyük siyasətçi sayan bu şəxslər səriştəsiz hərəkətləri ilə vətəndaşlarımızı bu oyunun qurbanlarına çevirdilər. Əfsuslar olsun ki, xalq adından çıxış edən bu insanlar öz şəxsi maraqlarını, öz şəxsi ambisiyalarını, hakimiyyət hərisliyini ümummilli mənafelərdən üstün tutdular.

Məhz bu baxımdan bu gün də biz bu ağılsız siyasətin nəticələrini aradan qaldıra bilmirik. Əgər Dağlıq Qarabağ faciəsinin bir qütbündə erməni separatçılığı, erməni terrorizmi, Azərbaycana qarşı torpaq iddiaları durursa, digər qütbündə, - nə qədər acı olsa da, bunu etiraf etmək lazımdır, - bizim bəzi siyasətçilərimizin səriştəsizliyi, hakimiyyət hərisliyi, hədsiz-hüdudsuz şəxsi ambisiyaları durur. Məhz onlar bu gün tarixi təhrif edərək, Dağlıq Qarabağ qarşıdurmasını, Azərbaycan xalqının Dağlıq Qarabağ məsələsində Moskvanın tutduğu ədalətsiz mövqeyinə kəskin etiraz aksiyalarını öz şəxsi nailiyyətləri kimi qələmə verməyə başlayırlar. Bu gün həmin şəxslər o dövrdəki səhvlərinə bəraət qazandırmaq istərkən müxtəlif bəhanələr gətirirlər.

Amma yaxın və uzaq tarix göstərir ki, bütün bu hücumlara, bütün bu təqiblərə Azərbaycan xalqı layiqincə cavab verməyə qadir idi. Əgər bütün Azərbaycan xalqını hiddətləndirən, vahid sarsılmaz bir qüvvə kimi Azadlıq meydanına toplayan milli qürur, milli oyanış, milli dirçəliş hisslərindən konstruktiv şəkildə istifadə

olunsaydı, biz bu gün Dağlıq Qarabağ probleminin həlli ilə məşğul olmazdıq. Xalq çox tez başa düşdü ki, onun ən ülvi, ən müqəddəs, ən pak hissləri siyasi alverə, siyasi rəqabətə, kiminsə ucuz siyasi ambisiyalarının gerçəkləşməsinə xidmət edir. Bu ağır mənəvi sarsıntıdan, bu acı həqiqətin yaratdığı psixoloji zərbədən bir çox vətəndaşlarımız bu gün də özlərinə gələ bilmirlər.

Respublikanın Ali Sovetində etdiyim sonrakı çıxışlarımda da, bir neçə dəfə təklif etdim ki, gəlin bir daha ictimai-siyasi durumu təhlil edək. Mənə isə cavab verirdilər ki, Dağlıq Qarabağ heç vaxt indiki qədər bizim olmayıbdır. Həqiqət isə ondan ibarət idi ki, vaxtilə Sovet İttifaqının rəhbərlərindən biri olduğuma görə, öz siyasi təcrübəmə əsaslanaraq yaxşı anlayırdım ki, mənim xalqımı uçuruma, fəlakətə aparırlar.

1987-ci ildən başlayaraq ortaya atılan qondarma Dağlıq Qarabağ problemi Azərbaycan xalqı tərəfindən elə ilk günlərdən respublikanın ərazi bütövlüyünə qarşı, vətəndaşların Konstitusiya hüquqlarının pozulmasına yönəldilmiş bir cəhd kimi qəbul olundu. Lakin sərhədlərimizin toxunulmazlığı müxtəlif səviyyəli dövlət qurumları tərəfindən rəsmən dəfələrlə təsdiq edilsə də Dağlıq Qarabağ Muxtar Vilayətinin Azərbaycanın tərkibindən çıxarılması məqsədini güdən siyasət mərhələ-mərhələ həyata keçirilirdi.

Hələ 1988-ci ilin martında SSRİ rəhbərliyi Dağlıq Qarabağ Muxtar Vilayətinin sosial iqtisadi inkişafının sürətləndirilməsi haqqında xüsusi bir qərar qəbul edərək, əslində Dağlıq Qarabağın Azərbaycan SSR-in tabeliyindən çıxarılmasının təməlini qoydu. Heç bir obyektiv əsasa istinad etməyən, qondarma səbəblərlə qəbul edilmiş bu qərarla Dağlıq Qarabağa müstəsna hüquqlar verildi, külli miqdarda vəsait ayrıldı, vilayətin bir çox məsələlərinin həlli birbaşa ittifaq, nazirlik və qurumlarına həvalə edildi. Azərbaycan SSR Ali Sovetinin 17 iyun 1988-ci il tarixli qərarında isə qeyd olunurdu ki, mərkəzin həmin qərarı ilə həyata keçirilən tədbirlər "Muxtar vilayətin məhsuldar qüvvələrinin inkişafının sürətləndirilməsi, onun istər erməni və azərbaycanlı əhalisinin, istərsə də başqa millətlərinin iqtisadi və mənəvi tələbatının ödənilməsi üçün əlverişli şərait yaradır".

Dağlıq Qarabağ Muxtar Vilayətini Azərbaycanın tabeliyindən çıxarmaq yolunda mərkəzin atdığı növbəti addım SSRİ Ali



Soveti Rəyasət Heyətinin muxtar vilayətdə xüsusi idarəetmə forması yaratmaq haqqında 1989-cu il yanvarın 12-də verdiyi fərman oldu. Dağlıq Qarabağın idarə olunması mərkəzin nümayəndəsi A.İ. Volskinin başçılığı ilə yaradılmış xüsusi idarəetmə komitəsinə həvalə edildi. Bu, faktiki olaraq Dağlıq Qarabağın Azərbaycan SSR-in tərkibindən çıxarılması demək idi.

SSRİ rəhbərliyi qəbul etdiyi rəsmi sənədlərdə belə bir təsəvvür yaratmağa çalışırdı ki, o, regionda yaranmış vəziyyəti normallaşdırmaq üçün atdığı addımlarda həm Azərbaycana, həm də Ermənistana münasibətdə paritetlik mövqeyindən çıxış edir. Halbuki mərkəzin Azərbaycana, azərbaycanlılara qarşı qərəzli münasibəti açıq-aşkar göz qabağında idi.

Azərbaycanlılar hələ 1988-ci ildən əvvəl də SSRİ-nin mərkəzi kütləvi informasiya vasitələrində və Ermənistanın müxtəlif mətbu orqanlarında məqsədyönlü şəkildə həyata keçirilən ideoloji təcavüzə məruz qalırdılar. "Mənfi azərbaycanlı obrazı" yaratmaq həmin kampaniyanın əsas məqsədi idi. Bu, 1988-ci ildə Ermənistan SSR-də, eləcə də Dağlıq Qarabağ Muxtar Vilayətində başlanmış kütləvi etnik təmizləmə əməliyyatının hazırlıq mərhələsi hesab edilə bilər. Ermənistanda yaşayan azərbaycanlıların misli görünməmiş qəddarlıqla ata-baba yurdlarını tərk etməyə məcbur edilmələri zamanı neçə-neçə soydaşımız, o cümlədən qocalar, qadınlar və uşaqlar qətlə yetirildi. SSRİ-nin rejimi dövlət qurumları, hüquq-mühafizə orqanları və kütləvi informasiya vasitələri Dağlıq Qarabağ probleminə olduqca böyük diqqət yetirdiyi halda, Azərbaycan xalqının böyük faciəsi tam sükutla müşayiət olundu. Azərbaycan rəhbərliyinin bu məsələdə tutduğu laqeyd mövqe isə öz xalqına qarşı əsl cinayət idi.

Ermənistan SSR Ali Soveti Azərbaycan rəhbərliyinin bu mövqeyindən "cəsarətlənərək", 1989-cu il dekabrın 1-də Dağlıq Qarabağın Ermənistan SSR ilə birləşməsi haqqında qərar qəbul etdi. 20 Yanvar hadisələrinə bir neçə gün qalmış, yəni 1990-cı il yanvarın 15-də isə SSRİ Ali Soveti Rəyasət Heyətinin "Dağlıq Qarabağ Muxtar Vilayətində və bəzi digər rayonlarda fövqəladə vəziyyətin elan olunması haqqında" fərmanı ilə əslində azərbaycanlıların Dağlıq Qarabağdakı ev-eşiklərinə qayıtmaq ümidlərinə də son qoyuldu. Fərmanın başlığından göründüyü kimi, muxtar

vilayətin və "bəzi digər rayonların" kimə mənsub olması məsələsi də artıq sual altına qoyulurdu.

Mərkəzin Azərbaycana qarşı qərəzli siyasət yeritməsi, respublika rəhbərliyinin xalqın taleyinə açıq-aşkar laqeydlik nümayiş etdirməsi geniş xalq kütlələri içərisində qəzəb və etirazlara səbəb olurdu. Onlar get-gedə daha aydın şəkildə dərk edirdilər ki, Azərbaycan rəhbərliyi respublikanın, xalqın taleyi ilə bağlı gedən oyunların qarşısını almaqda acizlik və qətiyyətsizlik göstərir, bəlkə də rəhbər mövqelərini qoruyub saxlamaq üçün mərkəzlə sövdələşərək xalqa qarşı gizli xəyanətkar planlar həyata keçirir. Xalqın bütün məsuliyyəti öz üzərinə götürməkdən, bu xəyanətkar planların həyata keçirilməsinin qarşısını almaq üçün ayağa qalxmaqdan başqa bir yolu qalmamışdı.

SSRİ rəhbərliyi də respublikada haqq-ədalətin bərqərar edilməsi uğrunda səsini qaldıran xalqa açıq divan tutmaq yolunu seçdi. Sovet ordusunun, xüsusi təyinatlı dəstələrin və daxili qoşunların iri kontingentinin 1990-cı il yanvarın 20-də fövqəladə vəziyyət elan edilmədən Bakını zəbt etməsi xüsusi qəddarlıq və misli görünməmiş vəhşiliklərlə müşayiət edildi.

Ayağa qalxan xalqın inam və iradəsini qırmaq, milli mənliyini alçaltmaq və Sovet hərb maşınının gücünü nümayiş etdirmək məqsədi ilə həyata keçirilmiş 20 Yanvar faciəsi totalitar kommunist rejiminin Azərbaycan xalqına qarşı hərbi təcavüzü və cinayəti idi.

Törədilmiş cinayət və onun nəticələri göz qabağında olduğu halda, respublika rəhbərliyi baş vermiş faciənin mahiyyətini hər vasitə ilə ört-basdır etməyə cəhd göstərmişdir. Xalqın tələbi və bir qrup deputatın təşəbbüsü ilə Azərbaycan SSR Ali Sovetinin 1990-cı il yanvarın 22-də Yanvar faciəsi ilə bağlı çağırılmış sessiyasına respublikanın əksər siyasi və dövlət rəhbərlərinin gəlməməsi isə onların xalqın taleyinə biganə qaldıqlarını, törədilmiş cinayətdə bu və ya digər dərəcədə iştirak etdiklərini bir daha təsdiq etmişdir. Respublika rəhbərliyi hətta şəhidlərin dəfn mərasiminə gəlməyi belə lazım bilməmişdir.

20 Yanvar hadisələrinə siyasi qiymət verilməsi tələbi ilə dəfələrlə çıxış edən Azərbaycan Xalq Cəbhəsi də hakimiyyətdə olduğu dövrdə faciəyə siyasi qiymət vermək üçün öz imkanlarından



istifadə etməmişdir. Beləliklə, hadisələrdən uzun müddət keçsə də, keçmiş SSRİ-nin və Azərbaycanın rəhbərliyi tərəfindən xalqa qarşı törədilmiş ağır cinayət açılmamış qalmışdı.

Hələ Azərbaycanda Sovet hakimiyyəti dövründə 20 Yanvar faciəsi ilə bağlı olan və geniş xalq kütlələri tərəfindən yığılıb dövlət istintaq komissiyasına təhvil verilmiş konkret dəlil və sübutlar qəsdən Azərbaycandan çıxarılıb aparılmışdı. O dövrdə Azərbaycanın prokurorluq və hüquq-mühafizə orqanları müvafiq istintaq tədbirləri həyata keçirməmiş, hətta əksinə, 20 Yanvar faciəsi ilə bağlı bir sıra məxfi sənədlər, o cümlədən mühüm arxiv sənədləri bütövlükdə və ya qismən məhv edilmişdi.

SSRİ-nin digər bölgələrində, o cümlədən Tbilisidə və Baltikyanı ölkələrdə baş vermiş hadisələr Sovet rəhbərliyi, xalq deputatları qurultayı səviyyəsində müzakirə edilsə də, 20 Yanvar faciəsi zamanı baş vermiş hadisələr şüurlu şəkildə təhrif edilərək, yanlış yozuma və unutqanlığa məhkum edilmişdi.

Yalnız 1994-cü ildə 20 Yanvar hadisələrini lazımınca qiymətləndirmək yolunda ciddi addımlar atılmışdır. Azərbaycan Respublikası Prezidentinin 5 yanvar 1994-cü il tarixli fərmanı ilə Milli Məclisə 20 Yanvar hadisələrinə tam siyasi-hüquqi qiymət verməsi tövsiyə olunmuşdur. Azərbaycan Respublikasının Milli Məclisi həmin məsələyə xüsusi sessiya həsr edərək, bir neçə gün davam edən iclaslarında yanvar hadisələrinin əsl səbəblərini açıqlamış, həqiqi günahkarları aşkar etmişdir. 1990-cı il yanvarın 20-də törədilmiş faciəli hadisələrə Milli Məclisinin 29 mart 1994-cü il tarixli qərarı ilə siyasi-hüquqi qiymət verilmişdir.

XX əsr tarixində totalitarizmin törətdiyi ən qanlı terror aktlarından biri olan 20 yanvar faciəsində Azərbaycan xalqına qarşı işlədilmiş cinayət əslində bəşəriyyətə, humanizmə, insanlığa qarşı həyata keçirilmiş dəhşətli bir əməldir. Həmin cinayəti törədənlər indiyədək öz cəzalarını almamışlar. Xalqımız əmindir ki, müqəssirlər tarix, bəşəriyyət, eləcə də Azərbaycan xalqı qarşısında cavab verməli olacaqlar.

*Azərbaycan xalqı 20 yanvarda hərbi, siyasi, mənəvi təcavüzə məruz qalsa da, öz tarixi qəhrəmanlıq ənənələrinə sadiq olduğunu Vətənin azadlığı və müstəqilliyi naminə ən ağır sınaqlara sinə gəlmək, hətta şəhid vermək əzmini bütün dünyaya nümayiş et-*

dirdi. 1990-cı ilin qanlı yanvarında Azərbaycanın azadlığı və müstəqilliyi uğrunda şəhidlik zirvəsinə ucalmış Vətən övladları özlərinin fədakarlığı, şəhidliyi ilə xalqımızın qəhramanlıq salnaməsinə parlaq səhifə yazdılar. Bu gün də Azərbaycan xalqı onun milli mənliyini qorumaq üçün öz canlarından keçməyə hazır olan övladları ilə fəxr edir.

SSRİ-nin süqutundan bir neçə il əvvəl başlayan və tarixə "suverenliklər paradı" adı ilə düşmüş prossesin bünövrəsini hələ 1988-ci ilin noyabr ayında Estoniya qoydu. "Suverenlik haqqında" qəbul edilmiş bəyannamə respublika ərazisində Estoniya qanunlarının ittifaq qanunları üzərində aliliyini elan etdi.

1990-cı ilin mart ayında Litva Ali Soveti Litva dövlətinin müstəqilliyinin bərpa olunduğunu bəyan etdi. 1990-cı il iyunun 12-də Rusiya Federasiyasının xalq deputatlarının birinci qurultayı "Rusiyanın dövlət suverenliyi haqqında" bəyannaməni təsdiq etdikdən sonra, iyul ayında Moskvanın Ali soveti "Suverenliyin prinsipləri haqqında" bəyannamə qəbul etdi. Belarusun Ali Soveti 1990-cı ilin iyul ayında dövlət suverenliyi haqqında bəyannamə ilə çıxış etdi. Elə həmin ildə Qazaxıstan, Tacikistan, Qırğızıstan da öz suverenliklərini elan etdi.

Beləliklə, 1990-cı il ərzində bir neçə respublika öz suverenliyi haqqında bəyannamə qəbul etsə də, Azərbaycan hələ də fövqəladə vəziyyət şəraitində yaşayırdı, *Bakının küçələrində isə əli tüfənqli* Sovet əsgərləri öz əməlləri ilə insan hüquqlarının pozulmasını adi bir hadisəyə çevirməkdə idilər.

SSRİ-nin dağılmasının qarşısında öz acizliyini dərk edən Sovet hakimiyyəti 1991-ci il martın 17-də ümumittifaq referendumu keçirdi. Rəsmi elan olunmuş nəticələrə görə referendumda əhalinin 80 faizi iştirak etdi və guya onların 76 faizi ittifaqın saxlanmasına səs verdi. Azərbaycanda da bu referendum nəticələri kobud surətdə saxtalaşdırıldı.

Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin, onun yerli strukturlarının zorla keçirdikləri bu referendumda o zaman yalnız Naxçıvan Muxtar Respublikası iştirak etmədi. Bu da öz növbəsində muxtar respublika rəhbərliyinə ağır başa gəldi. Ali Məclisin o zamankı sədri işdən azad edildi. Onun yerinə isə



Vilayət Partiya Komitəsinin yenicə seçilmiş katibi qeyri-qanuni şəkildə təyin olundu.

Xatırlayaq ki, bütün bunlar baş verdiyi zaman artıq SSRİ-nin dağılması heç kimdə şübhə yaratmırdı və ittifaq respublikalarının bir çoxu öz müstəqilliyini bərpa etmişdi. SSRİ-də 1991-ci il 19-21 avqust dövlət çevrilişini tələm-tələsik müdafiə edən başda Ayaz Mütəllibov olmaqla Azərbaycan Kommunist Partiyasının rəhbərliyi xalqın artan təzyiqini, eləcə də öz hakim mövqeyini saxlamaq üçün 1991-ci il avqustun 30-da Ali Sovetin sessiyasında "Azərbaycan Respublikasının dövlət müstəqilliyini bərpa etmək haqqında" bəyannamə qəbul etməyə məcbur oldu. Əslində bu bəyannamənin qəbul edilməsi və həmin gün Bakıda fövqəladə vəziyyətin ləğv olunması sentyabrın 8-də Azərbaycanda keçiriləcək Prezident seçkilərini təmin etməyə yönəldilmişdi. Bu sessiya deputlardan bir neçəsinin təkidinə baxmayaraq, o zamanki rəhbərlik referendum yolu ilə müstəqillik haqqında xalqın rəyini öyrənməyi lazım bilmədi. Bundan başqa, müstəqillik haqqında bəyannamə iki həftə ərzində "Azərbaycanın dövlət müstəqilliyi haqqında" Konstitusiya aktının qəbul edilməsini nəzərdə tutsa da, naməlum səbəblərdən bu iş düz 48 gün, yəni oktyabrın 18-nə qədər, onun dərc olunması isə daha iyirmi gün yubadıldı. Konstitusiya aktı qəbul edilərkən Ali Sovet bu haqda referendum keçirmək haqqında qərar qəbul etməli idi. Bu da naməlum səbəbdən noyabrın 15-nə qədər yubadıldı.

SSRİ-nin saxlanması ilə bağlı digər cəhdlər ondan ibarət oldu ki, Qorbaçov və doqquz respublika başçısı "9+1" bəyannaməsini qəbul etdi və Novo-Oqaryovo danışıqlar prosesi başlandı. Sovet İttifaqının yerinə Müstəqil Dövlətlər Birliyinin yaradılmasına cəhd göstərildi və 1991-ci il avqustun 20-də ittifaq müqaviləsinin imzalanması nəzərdə tutuldu. Bundan sonra Moskvada məşhur avqust qiyami baş verdi və Azərbaycan rəhbərliyi bütövlükdə fövqəladə rejimin tətbiq olunmasını dəstəklədi. Maraqlı faktdır ki, artıq Moskva jurnalistləri Qorbaçovun Forosdan qayıtmasını və Yanayev-Kryuçkov qüruhunun qarşısının alınması haqqında kadrları şərh etdiyi bir vaxtda, Azərbaycan diktorları hələ də "QKÇP"-nin qərarlarını oxumaqda idilər. İttifaq müqaviləsinin imzalanması təxirə salındı, müəmmalı avqust qiyamı isə əslində

totalitar sistemin dağılmasının son nöqtəsini qoydu. Rusiya prezidentinin sərəncamı ilə Rusiyanın ərazisində Kommunist Partiyasının fəaliyyəti dayandırıldı və Mərkəzi Komitə ləğv olundu.

1991-ci il sentyabrın 14-də Azərbaycan Kommunist Partiyasının 23-cü fövqəladə qurultayında Azərbaycan Kommunist Partiyası da ləğv olundu.

1991-ci il aprelin 9-da Gürcüstanın Ali Soveti referendumun nəticələrini nəzərə alaraq, dövlət müstəqilliyinin bərpası haqqında müvafiq akt qəbul etdi, avqust qiyamından sonra isə əksər Sovet respublikaları öz müstəqilliyini bəyan etdi. Təəssüflər olsun ki, Azərbaycan bunların sırasında deyildi.

1991-ci il dekabrın 1-də Ukraynada keçirilən referendumun nəticələri şərh edilərkən aydın oldu ki, bu respublika ittifaq müqaviləsinə qoşulmayacaqdır. Bir neçə gün sonra isə Rusiyanın, Ukraynanın və Belarusun başçıları Belovejsk sazişləri əsasında bəyan etdilər ki, Sovet İttifaqı öz fəaliyyətini dayandırır və artıq beynəlxalq hüququn subyekti kimi mövcud deyildir. 1991-ci il dekabrın 8-də SSRİ, əslində, öz tarixinin son gününü yaşadı.

Məsələ bundadır ki, 80-ci illərin sonu - 90-cı illərin əvvəllərində SSRİ-nin dağılması və mərkəzdənqaçma meylləri ittifaq respublikalarının hərəsində bir cür təzahür edirdi. Bu proses Pribaltika respublikalarında, Ukrayna, Belarus, Gürcüstan, Ermənistan, Moldova və başqa respublikalarda yerli rəhbərliklə xalq kütlələrinin vahid məqsəd və hərəkəti ilə müşayiət olunduğu üçün daha ağrısız və itkisiz keçirdi.

1991-ci il dekabrın 29-da nəhayət ki, Azərbaycan Respublikasında da ümumxalq referendumu keçirildi. Bu referendumun bülleteninə cəmi bir sual daxil edilmişdi. Bu sual müstəqillik haqqında Konstitusiya aktına münasibəti öyrənmək məqsədini daşıyırdı və əhalinin 95 faizi bu referendumda iştirak edərək müstəqillik, suverenlik yolunu seçdi. Beləliklə də, Azərbaycanın müstəqilliyi yalnız SSRİ dağıldıqdan sonra öz tam hüquqi təsdiqini tapdı, müstəqillik haqqında Konstitusiya aktı qüvvəyə mindi.

Bütün bunlar göstərir ki, o zamankı respublika rəhbərliyi Azərbaycanın dövlət müstəqilliyinə var gücü ilə müqavimət göstərir və onun artıq dağılmış SSRİ-dən çıxmasına hər vəchlə mane olurdu.



Hətta müstəqillik haqqında Konstitusiya aktı qəbul edildən sonra Azərbaycan rəhbərliyi respublikanın müstəsna səlahiyyətinə aid olan bir sıra məsələləri keçmiş ittifaqın Dövlət Şurasının iştirakı ilə həll etməyə çalışmış, yerli hərbi qüvvələrin vahid ittifaq rəhbərliyinə tabe edilməsinə razılığını bildirmişdi. Bundan başqa, SSRİ Ali Sovetinin işində iştirak etmək üçün Azərbaycandan oraya 27 deputat göndərməyə cəhd etmiş, yalnız deputatların ciddi müqaviməti nəticəsində buna nail ola bilməmişdir.

Azərbaycan Respublikasının dövlət müstəqilliyini əldə etməsi 1980-ci illəri birinci yarısından başlayaraq, keçmiş Sovetlər İttifaqında və bütün dünyada gedən ictimai-siyasi proseslərin zəruri nəticəsi idi. Bu tarixi və obyektiv proseslər nəticədə SSRİ-nin dağılmasına, Kommunist Partiyasının tarixi səhnədən çıxmasına və müttəfiq respublikaların hər birinin müstəqil dövlətə çevrilməsinə gətirib çıxarmışdır. Bunun ardınca baş verən hadisələr - yeni müstəqil dövlətlərin, o cümlədən Azərbaycan Respublikasının dünya ölkələri müxtəlif beynəlxalq təşkilatlar, Birləşmiş Millətlər Təşkilatı tərəfindən tanınması təbii bir hal və beynəlxalq hüquq normalarının qanuni təzahürü idi. Buna görə də Azərbaycanın müstəqillik əldə etməsini heç bir vəchlə müəyyən ictimai-siyasi qüvvələrin, təşkilatların, ayrı-ayrı şəxslərin müstəsna xidmətləri hesab etmək olmaz. Bu, tarixi obyektiv proseslərin qanunauyğun nəticəsi, taleyin Azərbaycan xalqına və bütün keçmiş SSRİ-nin respublikalarının xalqlarına əvəzsiz töhfəsi idi.

XXI əsrin ilk ilində - 2001-ci ildə Azərbaycan Respublikasının öz müstəqilliyini bərpa etməsinin 10 illiyi tamam olur. Sözsüz ki, əsrin, minilliyin ilk ilində qeyd olunan bu yubiley bizim tariximizin ən mühüm mərhələlərindən birinə çevriləcəkdir. Müstəqilliyə gedən yollar heç də asan və hamar olmayıbdır. Təəssüf olsun ki, bu gün də ən yaxın tariximizi təhrif etmək, onu müxtəlif siyasi qüvvələrin "xeyrinə" saxtalaşdırılmaq meyilləri duyulur. Bu, dözülməz haldır.

Keçdiyimiz tarixi yola nəzər salarkən aydın olur ki, Azərbaycanın dövlət müstəqilliyi bütün Azərbaycan xalqının milli sərvətidir və bu sərvətin ayrı-ayrı qurumların, şəxslərin inhisarına alınması heç cür yol verilməzdir.

Beləliklə, 1991-ci il oktyabrın 18-də "müstəqillik haqqında"

Konstitusiya aktının qəbul edilməsi ilə XX əsr Azərbaycan tarixinin dördüncü mərhələsi başlandı. Biz o vaxtdan azad, sərbəst yaşayırıq, müstəqil dövlətik. Xalqımız öz taleyinin, torpaqlarının, öz ölkəsinin sahibidir.

Müstəqilliyin qorunması onun əldə edilməsindən qat-qat çətin idi. Müstəqil dövlət taleyin xalqımıza bəxş etdiyi töhfə kimi xalqımızın əvəzsiz milli sərvəti olmaqla bərabər, onun rəhbərlərindən tutmuş hər bir vətəndaşı qarşısında böyük məsuliyyət qoyurdu. Yeni tarixi inkişaf mərhələsində Azərbaycan Respublikasının qarşısında dövlət müstəqilliyinin möhkəmləndirilməsi, demokratik, hüquqi, dünyəvi dövlət qurulması Respublikasının ərazi bütövlüyünün bərpası, Dağlıq Qarabağ probleminin milli maraqlara uyğun həlli, ölkə əhalisinin təhlükəsizliyinin və rifahının təmin edilməsi kimi mühüm tarixi vəzifələr dururdu. Bütün bunlar ardıcıl, məqsədyönlü, düşünülmüş daxili və xarici siyasətin həyata keçirilməsini və bu məqsədlə ölkənin intellektual və sosial-iqtisadi potensialından, ictimai-siyasi qüvvələrindən səmərəli istifadə olunmasını tələb edirdi.

Lakin Azərbaycanın müstəqillik tarixinin ilk illərinə nəzər salsaq, müstəqil dövlətin qarşısında duran vəzifələrin heç də həmişə ardıcıllıqla və qətiyyətlə həyata keçirilmədiyinin şahidi oluruq. 1991-ci ildə və 1992-ci ilin birinci yarısında respublikaya rəhbərlik edən şəxslər dünyada və SSRİ-də gedən siyasi proseslərə, dünya hadisələrinin inkişaf meyllərinə tam zidd siyasət yeridərək, xalqın müstəqillik iradəsinin əksinə gedərək, bütün mümkün vasitələrlə SSRİ-ni qoruyub saxlamağa çalışanlarla bir mövqedə dayanır və nəyin bahasına olursa-olsun, Azərbaycanın bu dövlətin tərkibindən çıxmasına yol verməməyə cəhdlər göstərirdilər.

Müstəqillik yoluna qədəm qoymuş hər bir ölkə kimi, Azərbaycan üçün də öz daxili və xarici siyasət konsepsiyasını təxirə salmadan hazırlayıb onun həyata keçirilməsinə başlamaq aktual və taleyüklü vəzifə idi. Təəssüf ki, 1991-1992-ci illərdə bu istiqamətdə heç bir iş aparılmadı. Ermənistanın təcavüzü ilə yanaşı, Azərbaycanda daxili ictimai sabitlik də pozulmuş, müxtəlif qanunsuz silahlı dəstələr yaradılmış və respublikamızın daxilində qızğın hakimiyyət çəkişməsi gedirdi. Təbiidir ki, müxtəlif qüvvələrin özlərinə məxsus silahlı dəstələrdən istifadə edərək apardığı bu hakimiyyət mübarizəsi Azərbaycana böyük zərbələr vurdu.



Azərbaycanda siyasi proseslərin bu cür qorxulu və ziddiyyətli gedişi respublika rəhbərliyinin Azərbaycanın müstəqilliyi haqqında 18 oktyabr 1991-ci il Konstitusiya aktı qəbul edildəndən sonra da müstəqil xətt yeritmədiyindən, ikiüzlü, qeyri-ardıcıl siyasət apardığından xəbər verdi. Məhz o zamankı rəhbərliyin respublikanın real müstəqilliyi üçün əməli addımlar atmaması, xalq kütlələrinin artan narazılığını və etiraz səsini qulaq ardına vurması və bütün bu etirazları boğmağa çalışması həm Azərbaycanın müstəqil dövlət quruculuğunun sonrakı işlərini çətinləşdirmiş, təhlükəli istiqamətə yönəltmiş, həm də Dağlıq Qarabağ problemini çətin düyünə salaraq, bügünki nəsil üçün ağır problemlər yaratmışdır.

SSRİ dağıldıqdan və Azərbaycan müstəqil dövlət statusu aldıqdan sonra da Mütəllibov hökuməti xarici və daxili siyasətində daha çox müstəqil Azərbaycan dövlətinin deyil, öz hakimiyyət maraqlarını qoruyur və bu məqsədlə də xarici dövlətlərlə münasibətlərdə birtərəfli siyasət yeridirdi. Bütün bunlar Azərbaycanın iqtisadi, siyasi maraqlarına, onun təhlükəsizliyinə, ərazi bütövlüyünə, suveren dövlət hüquqlarının reallaşmasına cavab vermirdi.

Təəssüflə qeyd etmək lazımdır ki, 1992-ci ilin martından may ayına qədərki dövrdə də Azərbaycanın müstəqil dövlətçilik maraqlarında irəli gələn ardıcıl, düşünülmüş siyasət həyata keçirilmədi. Bu dövrdə Azərbaycanda başlanan hakimiyyət uğrunda silahlı mübarizə, hakimiyyətlərin bir-birini əvəz etməsi və çoxhakimiyyətliyin hökm sürməsi müstəqil dövlətçiliyə və onun sonrakı taleyinə çox ağır zərbələr vurdu. Azərbaycanın bu gün də həllinə nail ola bilmədiyi qlobal problemlər məhz həmin çoxhakimiyyətlik və ondan sonrakı hakimiyyət çəkişmələri dövründə yaradılmışdır. Həmin dövrü bütövlükdə Azərbaycanın müstəqillik tarixinin ən ziddiyyətli, ziyanlı və təhlükəli dövrü hesab etmək olar. Cəmi bir neçə ayda müstəqil Azərbaycan dövlətinə elə zərbələr vuruldu ki, bunun təsirini həm indiki nəsil hiss edir, həm də gələcək nəsilər onlardan uzun müddət xilas ola bilməyəcəklər. 1991-1992-ci illər ərzində Dağlıq Qarabağda vəziyyət günü-gündən gərginləşirdi. Xocalı faciəsi baş verdi. 1992-ci martın 6-da Mütəlli-

bov istefaya getməyə məcbur oldu. Əsl hərc-mərclik dövrü başlandı. Həmin vaxt xəyanət nəticəsində Şuşanın təslim edilməsi, 1992-ci il may ayının 15-də o zamankı müdafiə naziri Rəhim Qazıyevin Silahlı Qüvvələrin kvotası ilə bağlı Daşkənddə imzaladığı xəyanətkar saziş bütün Azərbaycan xalqının və onun silahlı qüvvələrin bu gününə və gələciyinə ömürlük zərbə vurmuşdur. O dövrdə yüzlərlə belə hal baş vermişdir.

Mayın 14-də Mütəllibov yenidən hakimiyyətə qayıtdı, mayın 15-də isə Xalq Cəbhəsi parlamentin binasına hücum təşkil etdi. Mayın 18-də parlament 4 gün əvvəl qəbul etdiyi öz qərarını qanunsuz elan etdi və beləliklə, Mütəllibovun bir daha hakimiyyətə qayıtmaq cəhdləri puç oldu.

1992-ci ilin may-iyun aylarında Cəbhə-Müsavat birliyi hakimiyyəti ələ aldı. Əslində bu, Azərbaycanda neobolşevizm ab-havasının bərqərar olmasına gətirib çıxartdı. İqtisadiyyatda başlanmış hərc-mərclik davam etdi. Respublikanın maddi ehtiyatları qəddarcasına talanır, malların xaricə satışı nəticəsində əldə olunan vəsait xarici banklarda kiminsə şəxsi hesabında yatıb qalırdı. Əhalinin böyük bir hissəsi yoxsulluq həddində yaşayırdı. Azərbaycandan xaricə güclü intellektual axın başlandı və bir çox tanınmış alim, yazıçı, şair, incəsənət xadimi Türkiyəyə, İrana, Rusiyaya və başqa ölkələrə üz tuturdu. Azərbaycan dilinin adı dəyişdirildi və bununla dil haqqında Konstitusiya müddəası kobudcasına pozuldu.

Əgər Mütəllibovun hakimiyyəti dövründə ziddiyyətli daxili və xarici siyasət yeridilirdisə, dövlət idarəçiliyi Moskvanın diktəsi ilə aparılırdısa və hər şey SSRİ-nin bərpa olunmasına tabe edilirdisə, indi beynəxalq siyasətin obyektiv reallıqlarına, Azərbaycan vətəndaşlarının istək və arzularına zidd, obyektiv gerçəkliyi nəzərə almayan, anlamayan, məqsəd və məramı aydın olmayan, dövlət üçün xüsusi təhlükə kəsb edən siyasət yeridilirdi.

Region dövlətləri və qonşularla əsassız gərginliyin yaradılması, Azərbaycanın daxilində etimadsızlıq mühitinin formalaşdırılması və digər hallar getdikcə çox ciddi zərərli nəticələr verirdi.

Bu dövrdə hökumətin daxili və xarici siyasətini xarakterizə edən əsas cəhət həm də ardıcıl, prinsipial bir kursun olmaması idi. Dövlət idarəçiliyi vahid bir konsepsiya və sistem əsasında deyil,



ayrı-ayrı məsul vəzifə sahiblərinin qrup maraqlarını ifadə edən təsadüfi bəyanatlar, əksər hallarda bir-birinin təkzib edən, ziddiyyətli və emosional çıxışlar üzərində qurulmuşdu.

Hakimiyyətdə olan siyasi qüvvələr tərəfindən tez-tez səsləndirilən məsuliyyətsiz bəyanatlar müstəqil Azərbaycan dövlətinin ali məqsədləri və vəzifələri, prinsipləri və istiqamətləri haqqında beynəlxalq aləmdə yanlış rəy yaradır, onun sivil dünya dövlətlərindən təcrid edilməsinə səbəb olurdu.

Ölkədə daxili vəziyyət gündən-günə pisləşir, respublikada nəinki siyasi, iqtisadi, sosial islahatlar aparılmır, demokratik hüquqi dövlət quruculuğu həyata keçirilmirdi, əksinə, bu iqtidarın atdığı bütün addımlar cəmiyyəti sonu görünməyən uçuruma doğru sürükləyirdi. Onların respublikada yaratdığı ictimai-siyasi xaos, anarxiya, "dövlət reketçiliyi", zorakılıq ənənələri nəticə etibarilə milli və vətəndaş qarşıdurmasının kəskinləşməsinə və hakimiyyətin tam iflasına rəvac verirdi. Belə düşüncəsiz və səriştəsiz siyasət qısa vaxtda AXC-Müsavat hakimiyyətinin ölkə daxilində öz nüfuzunu büsbütün itirməsinə, ölkəmizin regionda və dünyada təkləməsinə, respublika ətrafında faktiki olaraq antiazərbaycan koalisiyasının formalaşmasına gətirib çıxardı. Bütün bunlar - Azərbaycanda dövlət quruculuğu sahəsində baş alıb gedən hərc-mərclik, özbaşınalıq, ayrı-ayrı dövlətlər və siyası dairələr tərəfindən dəstəklənən siyasi qüvvələrin hakimiyyət uğrunda silahlı mübarizəsi iqtisadiyyatın dağıdılması, milli sərvətlərin talan edilməsi, sovet dövründə əldə olunmuş bütün nailiyyətlərdən kor-koranə imtina edilməsi ilə müşaiyyət olunurdu. Nəticədə, 1993-cü ilin Azərbaycan dövlətçiliyi böhran və məhvolma təhlükəsi qarşısında qaldı, ölkə vətəndaş müharibəsi və parçalanma həddinə gətirildi.

Xalq Cəbhəsinin daxilində keçmiş silahdaşlar arasında baş verən qarşıdurmalar Gəncə qiyamı ilə nəticələndi. Ölkədə mövcud olan dərin siyasi-iqtisadi və sosial böhran hakimiyyəti iflic vəziyyətinə gətirib çıxardı. Baş nazir, milli məclisin sədri, bütün güc nazirliklərinin rəhbərləri istefaya getdi. Ölkə heç bir qurum və ya şəxs tərəfindən idarə olunmurdu. Artıq 1993-cü ilin iyun ayında Azərbaycanda dərin siyasi və ictimai böhran hökm sürürdü.

Vəziyyət elə təhlükəli xarakter almışdı ki, 1991-ci ildə əlverişli tarixi şəraitin və taleyin xalqımıza bəxş etdiyi imkandan ya-

ranmış müstəqil dövlətimiz qəsdən və yaxud səriştəsizlikdən yaranan iradəsizlik nəticəsində real itirilmək təhlükəsi ilə üz-üzə qalmışdır. Beləliklə, 1991-1993-cü illər Azərbaycanın müstəqillik tarixində nəinki itirilmiş illər hesab olunur, həm də bu illərdə Azərbaycan " olum, ya ölüm" dilemması qarşısında qalmışdı.

Azərbaycanın Ermənistanla apardığı müharibədə hərbi məğlubiyyətə uğramasının bir neçə xarici və daxili səbəbləri vardır. Bunların sırasında Rusiyanın və xarici ölkələrdəki erməni diasporunun Ermənistana göstərdiyi siyasi dəstəyi və yardımı xüsusilə qeyd etmək lazımdır. Azərbaycandan fərqli olaraq, Ermənistan hələ münaqişə başlamazdan çox-çox əvvəl onun uğurla başa çatdırılması üçün böyük hazırlıq işləri aparmışdır. Dağlıq Qarabağ məsələsində "Məzlum erməni xalqının haqlarının tapdalanması" haqqında fikirlər hər bir ermənin beyninə yeridilərək onun milli şüurunun hakim komponentinə çevrilmiş bu məsələdə dünya ictimaiyyətini aldatmaqla onun rəğbətini qazanmaq məqsədi ilə geniş miqyaslı təbliğat işi aparılmışdır. Artıq münaqişə başlayanda Ermənistan Respublikasının rəhbərliyi Dağlıq Qarabağın Azərbaycandan ayrılması zərurəti barədə həm daxildə, həm də xaricdə istisnasız olaraq bütün ermənilərin yekdil rəyinə, birliyinə arxalanırdı. Digər tərəfdən, Ermənistanda ordu yaradılması, Dağlıq Qarabağ zonasında döyüş əməliyyatları aparmağa qadir olan silahlı dəstələr hazırlanması istiqamətində işlər çoxdan aparılırdı.

Azərbaycanda isə vəziyyət tam bambaşqa idi. O zamankı Azərbaycan rəhbərliyi Ermənistanda gedən prosesləri görə-görə nəinki dünya ictimaiyyətinə, heç öz xalqına da Dağlıq Qarabağ haqqında həqiqətləri, real vəziyyəti çatdırmaq niyyətində deyildi. Qorbaçovun bədnam "yenidənqurma" dövründə hakimiyyətə gətirilmiş Əbdürrəhman Vəzirov xalqa, onun milli mənafelərinə zidd siyasətilə Dağlıq Qarabağ məsələsində ermənilərin öz xəbis niyyətlərini həyata keçirməyə daha da həvəsləndirdi. Azərbaycan xalqının mübarizə əzmini qırmaq məqsədilə törədilmiş qanlı yanvar hadisələrindən sonra Əbdürrəhman Vəzirov xalqın qəzəbindən qurtarmaq üçün Moskvaya qaçmalı oldu. Ondan sonra hakimiyyətə gələn Ayaz Mütəllibovun aqibəti də eyni cür oldu. Moskvanın göstərişlərini "sədaqətlə" yerinə yetirməkdə öz sələfindən fərqlənməyən Ayaz Mütəllibov ordu yaradılması barədə xalqın



tələblərinə məhəl qoymadı. Yalnız öz himayəsi üçün silahlı dəstələr yaratdı. Bəli, o, öz hakimiyyətini daxildəki bəzi qüvvələrdən qorumağın Azərbaycan torpaqlarının erməni təcavüzündən müdafiə etməkdən üstün tutdu. Nəticədə, o da Moskvaya qaçmalı oldu. Hakimiyyətə yeni qüvvələr - Xalq Cəbhəsi gəldi. Az keçmədi ki, Əbülfəz Elçibəy hakimiyyəti də öz səriştəsizliyi, orada təmsil olunan qüvvələrin böyük şəxsi ambisiyaları üzündən ölkəni uçurum astanasına gətirib çıxartdı. Hərc-mərcliyin baş alıb getdiyi Azərbaycan vətəndaş müharibəsi həddinə gəlib çatdı. Vəziyyəti nizama salmaqda aciz olan Əbülfəz Elçibəy də gizlicə baş götürüb Kələkiyə getdi. Üç başçı və üç qaçış.

1993-cü ilin iyununda xalqın təkidli tələbi ilə ölkədə hakimiyyət dəyişikliyi baş verdi və müstəqil dövlətçilik tarixinin ikinci dövrü başlandı. Ölkə onu gözləyən fəlakətlərdən daxili və xarici antiazərbaycan qüvvələrin qəsdlərindən, vətəndaş müharibəsindən torpaqlarımızın bir-birinin ardınca işğal edilməsindən və nəhayət, müstəqil dövlətçiliyin məhvindən, Azərbaycanın parçalanmasından xilas edilməli idi.

1993-cü ilin iyunundan başlayaraq, ilk növbədə hakimiyyət boşluğu aradan qaldırıldı, respublikanın müxtəlif bölgələrində baş qaldırmış separatçı qüvvələr və parçalanma meylləri sağlam düşüncəli vətəndaşların, xalqın böyük əksəriyyətinin fəal köməyi ilə zərərsizləşdirildi, vətəndaş müharibəsi təhlükəsinin qarşısı alındı. Ayrı-ayrı şəxslərə və siyasi qruplaşmalara xidmət edən silahlı birləşmələr ləğv edilməyə başlandı, Azərbaycan dövlətçiliyinə, müstəqilliyinə, ərazi bütövlüyünə qəsdlər təşkil edən cinayətkar ünsürlər cəmiyyətdən təcrid edildi və cəzalandırıldı. Dövlət qurumları ilə xalqın birliyi, yekdilliyi təmin edildi, etnik və dini mənsubiyyətindən asılı olmayaraq, bütün vətəndaşlarda dövlətə və Vətənə mənsubluq hissləri aşılanmağa başlandı.

Təbiidir ki, əsaslı sabitlik yaratmaq və respublikamızın müstəqil dövlət kimi yaşaması üçün Ermənistan-Azərbaycan müharibəsində qəti tədbirlər görmək lazım idi. Çünki Azərbaycanda mövcud olan daxili çəkişmələr, hakimiyyət mübarizəsi, müxtəlif qüvvələrin təxribatları, Milli Ordunun olmaması, Ermənistan silahlı qüvvələrinin Azərbaycan torpaqlarını işğal etməsinə imkan

yaratmışdır. Onlar Azərbaycanın vəziyyətindən çox çevik istifadə edərək, torpaqlarımızı ardıcıl surətdə işğal edirdilər.

Bu məqsədlə 1993-cü ilin noyabr ayından başlayaraq, bir tərəfdən Milli Ordunun formalaşdırılması, Azərbaycanın nizami silahlı qüvvələrinin yaradılması, torpaqlarımızın müdafiə olunması ilə bağlı təxirəsalınmaz tədbirlər həyata keçirilmiş, o biri tərəfdən atəşkəsə nail olmaq üçün bütün siyasi və diplomatik vasitələr işə salınmışdı. Bunun nəticəsində 1994-cü ilin mayında Ermənistan-Azərbaycan müharibəsində ölkəmiz üçün həyatı əhəmiyyət kəsb edən atəşkəsə nail olunmuşdur.

Müharibənin dayandırılması, daxili vəziyyətin nizamlanması, ictimai-siyasi sabitliyin möhkəmləndirilməsi və regionda Azərbaycanla qonşu dövlətlər arasında yaranmış gərginliyin normal məcraya salınması Azərbaycanın müstəqil dövlət kimi yaşamasını və sonrakı inkişafını şərtləndirdi.

Görülən gərgin və əhatəli işlər nəticəsində 1994-cü ildə ATƏT-in Budapeşt Sammiti Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquq prinsiplərinə uyğun həlli haqqında qərar çıxardı.

1994-cü ilin sentyabrında Azərbaycan daxilində yaranmış nisbi sabitlikdən və beynəlxalq aləmdə ölkəmizə artan inam və maraqdan istifadə edərək, "Əsrin müqaviləsi" adlandırılan ilk neft müqaviləsini imzalamışdır. Azərbaycanda başlamış bu işlər əhalidə və bizi istəyən xarici aləmdə inam və sevinc yaratdığı kimi, respublikamızın inkişafını istəməyən daxili və xarici qüvvələrdə qısqanclıq oyadırdı. Azərbaycan dövlətçiliyinə qarşı olan daxili və xarici qüvvələr, müxtəlif ambisiyalı siyasi və hərbi qruplaşmalar öz mövqelərinin itirilməsi, dövlətdə və ölkədə nizam-intizam yaradılması ilə barışmaq istəmirdilər. Onlar müxtəlif xarici dövlətlərin təsiri və köməyi ilə Azərbaycan Respublikasının qanuni hökumətini devirməyə, ölkədə hakimiyyətsizlik mühiti, vətəndaş qarşıdurması yaratmağa dəfələrlə cəhdlər göstərir, müxtəlif dövlət və hökumət rəhbərlərinə qarşı sui-qəsdlər təşkil edirdilər.

1994-cü ilin oktyabrında o zamankı Baş nazir Sürət Hüseynova Xüsusi Təyinatlı Polis Dəstəsinin başçısı Rövşən Cavadov və onun qardaşı Mahir Cavadovun dəstələri tərəfindən və ölkədəki bir çox müxalifət partiyalarının onların hərəkətlərini himayə



etməsi nəticəsində dövlət çevrilişinə qəsd baş verdi, qanuni dövlət strukturlarına qarşı yönəlmiş aksiyaların həyata keçirilməsinə cəhd göstərildi. Azərbaycan dövlətinin qətiyyəti və dəyanəti, düşünülmüş tədbirlər nəticəsində, bütün xalqın yekdil və qızğın dəstəyi ilə çevriliş cəhdinin qarşısı alındı. Gecə yarısı ayağa qalxan xalq Prezident Sarayının qarşısında toplaşaraq öz dövlətçiliyini, öz hüquqlarını, öz gələcəyini müdafiə edərək, qiyamçılara layiqli cavab verdi.

Qanuni dövlət orqanlarını devirməyə, siyasi hakimiyyəti zorakılıqla dəyişdirməyə növbəti cəhd 1995-ci ilin martında, yenə də Daxili İşlər Nazirliyinin Xüsusi Təyinatlı Polis Dəstələrinə rəhbərlik edən Rövşən Cavadov və onun qardaşı Mahir Cavadov tərəfindən göstərildi. Həm də bu dəfə əksər müxalifət partiyaları öz məqsədlərini dövlətçilik mənafeyindən üstün tutaraq bilavasitə və dolayısı ilə qəsdçiləri müdafiə etdilər. Baş verən hadisələri düzgün qiymətləndirmək, dövlətçilik mövqeyi tutmaq əvəzinə onlar əhalini çaşdırmağa, qəsdçiləri həvəsləndirməyə yönəldilmiş ziddiyyəti bəyanatla verdilər. Sonralar bir sıra partiyaların və onların başında duran ambisiyalı siyasətçilərin qəsdçilərlə bilavasitə cinayət əlaqələrinə girdikləri, dövlət hakimiyyətini devirmək və gələcəkdə formalaşdırmaq istədikləri hökumətdə vəzifələri bölmək haqqından razılığa gəldikləri də aşkarlandı. Lakin onların qarşısında yenə də xalqa arxalanan, Azərbaycan dövlətinin və xalqının maraqları naminə qətiyyətlə hərəkət edən Azərbaycan siyasi rəhbərliyinin yenilməz idarəsi dururdu. Qanunsuz silahlı dəstələr, cinayətkar qruplar, xaricdən və daxildən istiqamətləndirilən qüvvələr, Azərbaycan dövlətini silah gücü ilə devirməyə cəhd göstərən qəsdçilər qanuni dövlət orqanlarının gücü ilə tamamilə darmadağın edirdilər və layiqli cəzalarını aldılar. Onların açıq və gizli himayədarları isə xalq qarşısında ifşa olundular.

Müstəqil Azərbaycan dövlətini qüdrəti, gücü bu təhlükənin də qarşısını aldı. Bütün bunlar xalqımızın öz müstəqil dövlətçiliyinə inamını, müstəqillik uğrunda mübarizə əzmini və qətiyyətini bir az da möhkəmləndirdi. Azərbaycan dövləti özünün möhkəmliyini, etibarlığını, qanunçuluğu və vətəndaşların təhlükəsizliyini hər şeydən yüksək tutduğunu bütün dünyaya nümayiş etdirdi.

1995-ci ilin ortalarında Azərbaycan dövləti bütün qeyri-

qanuni silahlı qüvvələrdən artıq xilas olmuş, tamamilə möhkəmlənmiş, keyfiyyətcə yeni bir mərhələyə daxil olmuş, dövlət quruculuğunda, iqtisadi, sosial və mədəni həyatda böyük işlərə başlamaq üçün möhkəm ictimai-siyasi sabitlik və qanunçuluq şəraitinə gətirilmiş dövlətə çevrilmişdi. Bu dövrdə müxtəlif siyasi və hərbi qruplaşmaların ilhamçıları və iştirakçıları, məsuliyyətsiz, ambisiyalı siyasi partiya liderləri öz planlarından və istəklərindən əl çəkməyə məcbur oldular. Azərbaycanda hakimiyyətə gəlmək üçün silahlı dəstələrdən istifadə etmək ənənəsinə son qoyuldu. Bundan sonrakı dövrlərdə xaricdəki və ölkə daxilindəki pozucu qüvvələr Azərbaycan Respublikasında ictimai-siyasi sabitliyi pozmaq, iqtisadi islahatların həyata keçirilməsinə və ölkəyə xarici kapitalın axınının təmin olunmasına mane olmaq məqsədi ilə digər təxribat əməllərinə, hətta ölkə başçısına qarşı terror aktlarına da əl atdılar. Həyata keçirilən məqsədyönlü və qəti tədbirlər nəticəsində bütün bu cəhdlərin qarşısı alındı. Respublikamız dinc və sabitlik şəraitində öz müstəqil dövlətini qurmaq və inkişaf etdirmək imkanı qazandı. Müstəqil dövlət quruculuğunun üçüncü dövrü başlandı.

1995-ci il noyabrın 12-dən, yəni müstəqil respublikamızın Konstitusiyası qəbul olunduqdan və parlament seçkiləri keçirildikdən sonra başlanan bu dövr dövlət quruculuğu baxımından, əlbəttə ki, bizim tariximizin ən məhsuldar dövrüdür.

Məhz ictimai-siyasi sabitliyin yaranması və Azərbaycanın daxilində olan bütün qanunsuz silahlı dəstələrin ləğv olunması, cinayətkar qrupların cinayətlərinin qarşısının alınması - bunlar hamısı Azərbaycanda dövlət quruculuğu prosesinin uğurla aparılmasına şərait yaratdı. Azərbaycan öz dövlət müstəqilliyini elan edərkən bəyan etmişdi ki, Azərbaycan demokratiya yolu ilə irəliləyəcək, ölkəmizə demokratik, hüquqi, dünyəvi dövlət quruculuğu prosesi gedəcəkdir. Bunlar elan olunmuşdu, ancaq təəssüf ki, Azərbaycanın daxili vəziyyəti, dediyim kimi, çox gərgin olduğuna görə bunlar söz idi, əməli tədbirlər isə lazımi səviyyədə görülmürdü. Azərbaycanda müstəqil dövlətin təsisatlarının yaranması və dövlət quruculuğu prosesi 1995-ci ildə böyük vüsət aldı. Bunun əsasını da Azərbaycanın qəbul etdiyi ilk Konstitusiyası təşkil edirdi. Ondan sonrakı dövrdə Azərbaycanda dövlətçilik möhkəmlənib, demokratik prinsiplər bərqərar olubdur. Demokratik, hüquqi, dünyəvi dövlət quruculuğu prosesi uğurla, sürətlə həyata keçirilir. Azərbaycanın öz iqtisadiyyatını bazar iqtisadiyyatı yolu ilə inkişaf etdirməsi üçün imkanlar yaradılıb və bir çox nailiyyətlər əldə olunubdur. Azərbaycan bir dövlət kimi möhkəmlənib, Azərbaycanın Silahlı Qüvvələri, ordusu yaranıb, güclənib, inkişaf edibdir və o, bu gün müstəqil Azərbaycanın milli mənafelərini, torpaqlarını, onun hüdudlarını qorumağa qadir ordudur.

Konstitusiya qəbul olunandan sonra ötən beş il ərzində bizim ali qanunvericilik orqanımız Milli Məclis tərəfindən 900-dən çox qanun qəbul edilmişdir. Məhz Konstitusiyanın əsasında, qəbul olunmuş qanunların əsasında Azərbaycanda siyasi, iqtisadi, hüquqi, demokratik islahatlar həyata keçirilir. Bu islahatlar bütün sahələrdə aparılır. Onların ilbəil həyata keçirilməsi Azərbaycanın bütün sahələrdə inkişafını təmin edir.

Azərbaycan öz daxili və xarici siyasətini müəyyən edibdir. Dediyim kimi, daxili siyasət Azərbaycanda demokratik, hüquqi dövlət qurmaq, bazar iqtisadiyyatı yaratmaq və iqtisadi islahatlar aparmaqdan, Azərbaycanın hər bir vətəndaşına azad, sərbəst yaşamaq, hüquqlarının qorunmasını təmin etmək və öz rifah halını yaxşılaşdırmaq imkanları yaratmaqdan ibarətdir.

Azərbaycanın xarici siyasəti isə dünyanın bütün dövlətləri ilə bərabər hüquqlu surətdə faydalı əlaqələr qurmaq, inkişaf etdirmək üçün səmərəli istifadə etmək məqsədini daşıyır həm də respublikanın iqtisadiyyatını, elmini, mədəniyyətini inkişaf etdirmək, bu əlaqələrdən həm Azərbaycan Respublikasının beynəlxalq mövqelərini möhkəmləndirmək üçün, həm də respublikanın iqtisadiyyatını, elmini, mədəniyyətini inkişaf etdirmək üçün səmərəli istifadə etmək məqsədini daşıyır. Azərbaycanın sülhsevər xarici siyasəti ilk növbədə onun dövlət müstəqilliyinin möhkəmləndirilməsi işinə xidmət edir. Azərbaycan dövlətinin xarici siyasətinin başlıca prinsipləri beynəlxalq hüquq normaları ilə tənzimlənən dövlətlərarası münasibətlərə hörmət etməkdən, bütün dövlətlərin suveren hüquqlarına hörmətlə yanaşmaqdan, bütün mübahisəli məsələləri sülh və danışıqlar yolu ilə həll etməkdən, qarşılıqlı surətdə faydalı iqtisadi, elmi və mədəni əməkdaşlıq yaratmaqdan, dövlətlərarası əlaqələrə mane olan hər cür məhdudiyyətləri aradan qaldırmaqdan ibarətdir. Azərbaycan demokratik və hüquqi

dövlət quruculuğu yolu tutduğundan, onun xarici siyasəti də dünya təcrübəsinin bütün nailiyyətlərinə, sivil beynəlxalq normaları özündə əks etdirir.

1991-1992-ci illərdə xarici siyasət sahəsində ölkənin beynəlxalq aləmdə mövqelərinin möhkəmləndirilməsinə yönəldilmiş ardıcıl kursun hazırlanıb həyata keçirilməməsi, bəzi dövlət rəhbərlərinin beynəlxalq, regional və dövlətlərarası münasibətlərlə bağlı məsuliyyətsiz bəyanatları Azərbaycanın beynəlxalq nüfuzuna olduqca mənfi təsir göstərirdi. Bu özünü bəzi qonşu dövlətlərlə münasibətdə xüsusi ilə büruzə verirdi. Ermənistanla müharibə getdiyi bir şəraitdə yaxın qonşularımızdan Rusiya, İran, Mərkəzi Asiya respublikaları ilə münasibətlər keçmiş iqtidarın məsuliyyətsiz bəyanatları üzündən gərginləşmişdi. İlk növbədə yaxın xariclə münasibətləri qaydaya salmaq, əlaqələri bərpa etmək lazım gəlirdi. Azərbaycanın Müstəqil Dövlətlər Birliyinə daxil olması bu yöndə atılmış ilk addımlardan biri idi. Bu quruma daxil olan keçmiş Sovet respublikaları ilə birbaşa ikitərəfli əlaqələrin də möhkəmləndirilməsi istiqamətində ardıcıl iş aparıldı. 1993-cü ilin sonuna qədər Azərbaycanla kəskin münasibətlərə malik olan mərkəzi Asiya Respublikaları ilə əlaqələrin köklü surətdə yenidən qurulması üçün yeni forma və vasitələrdən istifadə edildi. Müstəqil Dövlətlər Birliyi ölkələri ilə iqtisadi əməkdaşlıq məsələlərinə xüsusi önəm verildi. Gürcüstan, Özbəkistan, Ukrayna və Moldova ilə ikitərəfli əməkdaşlıq əlaqələrinin yaradılması öz müsbət nəticələrini verdi.

1993-cü ilin yayından başlayaraq, Türkiyəyə münasibətdə də xarici siyasət kursunda ciddi dəyişikliklər edildi və Azərbaycan-Türkiyə münasibətlərində keyfiyyətcə yeni bir mərhələ başlandı. Bu gün Türkiyə Azərbaycanın ən etibarlı siyasi müttəfiqi, bərabər hüquqlu iqtisadi tərəf müqabilidir. Son yeddi ildə iki qardaş dövlətin başçıların qarşılıqlı rəsmi səfərləri zamanı hərtərəfli əməkdaşlığımızı əhatə edən bir sıra mühüm sənədlər imzalanmışdır. Azərbaycan-Türkiyə münasibətləri iki qardaş xalqın mənafelərinə xidmət etməklə yanaşı dünyada və bölgədə sülhün və əmin-amanlığın bərqərar olması işinə də öz töhfəsini verir.

Azərbaycan qonşu İran dövləti ilə də xalqlarımızın mənafeyinə cavab verən qarşılıqlı faydalı əməkdaşlıq, mehriban qonşuluq prinsipləri əsasında ikitərəfli normal siyasi, iqtisadi mədəni



münasibətlər yaratmağa müvəffəq olmuşdur. Qərb dövlətlərinin də iştirak etdiyi ikinci neft konsorsiumunda İrana yer ayrılmış "Şahdəniz" yatağının işlənilməsi üzrə müqavilədə bu ölkəyə pay verilmişdir. Ölkələrimiz arasında ikitərəfli münasibətlərin bütün sahələrini əhatə edən sənədlər imzalanmışdır.

Azərbaycan İslam Konfransı Təşkilatının üzvü olan digər ölkələrlə də son illər ərzində siyasi, iqtisadi, ticarət və mədəni əlaqələrini xeyli inkişaf etdirmişdir. Həmin ölkələrlə İslam Konfransı Təşkilatı və başqa beynəlxalq təşkilatlar çərçivəsində, eləcə də ikitərəfli əməkdaşlığımız məhsuldar və faydalı olmuşdur.

Amerika Birləşmiş Ştatları, Böyük Britaniya, Çin, Yaponiya, Fransa, Almaniya, İtaliya kimi iri dövlətlərlə münasibətlər Azərbaycanın xarici siyasətinin məhək daşını təşkil edir. Azərbaycan ilə həmin ölkələr arasında və tərəfdaşlıq prinsiplərinə əsaslanan qarşılıqlı münasibətlər qurulmuşdur. Bu, ölkəmiz üçün strateji əhəmiyyət kəsb edən planetin qlobal məsələlərinin həllində təsir gücünə malik olan nüfuzlu dövlətlərin diqqətini Azərbaycana cəlb etmək üçün 1993-cü ilin sonundan başlayaraq aparılmış ardıcıl işin müsbət nəticəsi kimi qiymətləndirilə bilər.

Xəzər dənizinin enerji ehtiyatlarının mənimsənilməsində, neft və qaz ehtiyatlarının hasilatı və nəqlində Amerika neft şirkətlərinin Beynəlxalq Neft Konsorsiumunda geniş iştirakı Azərbaycan-Amerika Birləşmiş Ştatları əlaqələrinin inkişaf etməsinə təkan vermişdir. Amerika-Azərbaycan münasibətləri haqqında iki ölkə prezidentləri tərəfindən imzalanmış birgə bəyanat, müdafiə nazirlikləri arasında müdafiə və hərbi əlaqələr üzrə əməkdaşlıq, investisiyaların təşviqi və qorunması, ticarət kapital qoyuluşu, banklararası və digər sahələrdə əməkdaşlığı nəzərdə tutan hökumətlərarası sənədlər Azərbaycanın dövlət müstəqilliyinin möhkəmləndirilməsi, milli təhlükəsizliyinin təmin olunmasına və sosial-iqtisadi tərəqqisinə xidmət edir. Azərbaycan Respublikası və Amerika Birləşmiş Ştatları arasında tərəfdaşlıq münasibətlərinin genişləndirilməsi haqqında imzalanmış xüsusi sənəd Amerika iş adamlarının ölkəmizdə fəaliyyət göstərmələri üçün əlverişli şərait yaradılmasının hüquqi bazasını təşkil edir.

Azərbaycan diplomatiyasında Avropa istiqaməti mühüm yerlərdən birini tutur. Son illər ərzində Böyük Britaniya ilə ölkə-

mizin münasibətləri dinamik şəkildə inkişaf etmişdir. Bu gün Böyük Britaniya beynəlxalq aləmdə Azərbaycanın fəal tərəfdaşı kimi çıxış edir. Ermənistan-Azərbaycan münaqişəsinin ədalətli həlli üçün Azərbaycanın göstərdiyi səyləri dəstəkləyir.

Avropanın nüfuzlu ölkələri - Almaniya, Fransa, İtaliya, Belçika, Niderland, Yunanıstan, Polşa, Rumıniya, Bolqarıstan və Skandinaviya ölkələri ilə də respublikamız arasında tam sabit və bərabər hüquqlu əməkdaşlıq münasibətləri yaranmışdır. Bu ölkələrlə imzalanmış 90-dan artıq mühüm sənəd həmin münasibətlərin hüququ əsasını təşkil edir.

Avropa ölkələri ilə münasibətlərin inkişafında Qədim İpək Yolunun bərpasını nəzərdə tutan TRASEKA proqramının həyata keçirilməsinə başlanması mühüm yer tutur. Bu nəhəng nəqliyyat dəhlizinin mərkəzində yerləşən ölkə kimi Azərbaycan Şərqlə Qərbin qovuşmasında mühüm rol oynayır. Dünyanın ən böyük dövlətlərindən biri və Birləşmiş Millətlər Təşkilatı Təhlükəsizlik Şurasının daimi üzvü olan Çin Xalq Respublikası, həmçinin nəhəng intelektual potensiala malik Yaponiya bu illər ərzində Azərbaycanın siyasi və iqtisadi tərəfdaşına çevrilmişdir ki, bu da xarici siyasətimizin şəksiz uğurlarıdır. Azərbaycanla İsrail dövləti arasında da siyasi, iqtisadi əlaqələr genişlənməkdədir.

Ötən dövrdə Azərbaycanın beynəlxalq və regional təşkilatlarla da əlaqələri genişlənmiş və möhkəmlənmişdir. Azərbaycanın Avropa Şurasına tam hüquqlu üzv qəbul olunması yolunda aparılan iş öz müsbət nəticələrini verməkdədir.

Hazırda Azərbaycan 137 ölkə ilə diplomatik əlaqə qurmuşdur. Vyana Konvensiyasının iştirakçısı olan bütün ölkələrlə respublikamız arasında konsulluq münasibətləti yaradılmışdır. Azərbaycanda 63 xarici dövlətin səfirlikləri fəaliyyət göstərir. Bunların 24-ü bilavasitə Bakıda, 39-u isə həmın dövlətlərin Ankara, Moskva, Tehran və Tbilisi şəhərlərindəki səfirliklərində akkreditə olunmuşdur. Öz növbəsində Azərbaycanın 21 xarici ölkədə səfirlik, baş konsulluq və daimi nümayəndəlikləri fəaliyyət göstərir. Azərbaycan mötəbər beynəxalq təşkilatlarda da təmsil olunmuşdur.

Bu gün Dağlıq Qarabağ ətrafında Ermənistan-Azərbaycan münaqişəsinin həlli ilə bağlı Azərbaycanın haqlı tələbləri bütün



dünya ölkələri, beynəlxalq və regional təşkilatlar tərəfindən dəstəklənir. Bu, Azərbaycanın xarici siyasət sahəsində apardığı gərgin və məqsədyönlü işin parlaq nəticəsidir.

Azərbaycan diplomatiyasının son illərdə dövlətimizin müstəqilliyi, təhlükəsizliyi və ərazi bütövlüyünün təmin olunmasında, habelə bütün ölkələrdə hərtərəfli, bərabərhüquqlu qarşılıqlı faydalı əlaqələr qurmaq sahəsində qazandığı böyük uğurlar Azərbaycanın xarici siyasət kursunun düzgünlüyünə, milli maraqları dünyada gedən proseslərlə faydalı şəkildə uzlaşdırmağa qadir olduğuna dəlalət edir.

Xarici siyasət sahəsində köhnə iqtidardan miras qalmış ən mürəkkəb və ağrılı problem Dağlıq Qarabağla bağlı Ermənistan-Azərbaycan münaqişəsidir. Azərbaycanda olan daxili çəkişmələr, hakimiyyət uğrunda mübarizə, müxtəlif qüvvələrin törətdiyi təxribat əməlləri, Ermənistan silahlı qüvvələrinə xaricdən edilən xüsusi yardım Ermənistan silahlı qüvvələrinin Azərbaycan torpaqlarını işğal etməsinə imkan yaratdı. Bu işğal öncə Dağlıq Qarabağın ərazisini, sonra onun ətrafında olan bir neçə rayonun ərazisini əhatə etdi. İndi Azərbaycan torpaqlarının 20 faizi Ermənistan silahlı qüvvələrinin işğalı altındadır. Bu torpaqlardan zorla çıxarılmış bir milyon soydaşımız çadırlarda ağır vəziyyətdə yaşayır.

1994-cü ilin may ayında Ermənistan-Azərbaycan müharibəsində atəşkəs haqqında saziş imzalandı. Hələ tam sülh əldə edilməyibsə də, Azərbaycan altı il yarımdan çoxdur ki, müharibəsiz, dinc şəraitdə yaşayır, şəhid vermir, qan tökülmür. Azərbaycan dövləti bu müddətdə dünyayın bütün beynəlxalq təşkilatlarının, təsirə malik olan böyük dövlətlərin imkanlarından istifadə etməyə çalışmış və bu işdə mühüm uğurlar qazanmışdır. Bu müddət ərzində bir neçə dəfə məsələnin həlli yolunda real fürsətlər yaranmışdır. Lakin Ermənistanın daim pozucu mövqe tutması, Azərbaycanın torpaqlarını işğal etdiyinə görə özünü üstün hesab etməsi, beynəxalq təşkilatların, Minsk Qrupunun, onun həmsədrləri olan Rusiyanın, Amerika Birləşmiş Ştatlarının və Fransanın Ermənistana lazımi təsir göstərə bilməməsi bu problemin indiyə qədər həll olunmasına imkan verməmişdir. Azərbaycan və Ermənistan prezidentlərinin birbaşa danışıqları da hələ konkret bir nəticə verməmişdir.

Bütün bunlara baxmayaraq, Azərbaycan Respublikası münaqişənin sülh yolu ilə həll olunmasını mümkün hesab edir. Və bundan sonra da bu istiqamətdə səylərini davam etdirmək əzmindədir. Azərbaycan dövləti Minsk Qrupunun fəaliyyətinin gücləndirilməsi, səmərəliyinin artırılması üçün əlindən gələni etməklə yanaşı, Ermənistan və Azərbaycan prezidentlərinin birbaşa danışıqlarının bundan sonra da davam etdirilməsini zəruri hesab edir. Bu hər iki istiqamətdə göstərilən səylər nəticəsində müəyyən kompromislər yolu ilə Ermənistan-Azərbaycan münaqişəsinin həll olunması və sülh əldə olunması gerçəkləşə bilər.

Hər bir ölkənin, xalqın həm yaşaması, həm də dövlətinin mövcud olması üçün əsas şərt onun iqtisadiyyatıdır. Keçmiş SSRİ tərkibində sərt planlaşdırılmış təsərrüfat sistemində 70 ildən çox müddət ərzində fəaliyyət göstərmiş Azərbaycan Respublikası 9 ildir ki, yeni iqtisadi şəraitə qədəm qoymuşdur. Azərbaycan Respublikası dövlət müstəqilliyini bərpa etdikdən sonra keçən müddət ərzində iqtisadi sahədə öz suveren hüquqlarını gerçəkləşdirməyə və müstəqil iqtisadi siyasət aparmağa başlamışdır. Bu siyasətin başlıca istiqamətlərini müxtəlif mülkiyyət formalarına əsaslanan iqtisadi sistemin formalaşdırılması, bazar iqtisadiyyatına keçid və dünya təsərrüfat sisteminə inteqrasiya təşkil etmişdir.

Ermənistan silahlı qüvvələrinin Azərbaycana hərbi təcavüzü, ictimai-siyasi sabitliyin vaxtaşırı pozulması, ölkədə rəhbərliyin tez-tez dəyişməsi 90-cı illərin əvvəllərindən etibarən iqtisadiyyatın əksər sahələrində istehsalın tənəzzülünə və bu prosesin getdikcə dərinləşərək xroniki səciyyə almasına səbəb olmuşdur.

1991-1994-cü illərdə ölkədə istehsal müəssisələrinin böyük əksəriyyəti dayanmış və ya öz gücünün 15-20 faizi səviyyəsində işləmişdir. Həmin illərdə sənayedə illik geriləmə 20-24 faizə, kənd təsərrüfatında 15-20 faizə, kapital qoyuluşunda 40 faizə çatmışdır. İstehlak mallarının qiymətləri ildə 14-18 dəfə artaraq iqtisadi və sosial sahələrdə dağıdıcı rol oynamışdır. Respublikanın iqtisadiyyatı, demək olar ki, tamamilə dağılmış, xalqın rifah halı olduqca aşağı düşmüşdür. Lakin Azərbaycanın əlverişli coğrafi-siyasi vəziyyəti, onun təbii sərvətləri, uzun illər boyu yaradılmış maddi fondları, ümumiyyətlə, böyük sosial-iqtisadi, elmi-texniki potensialı ölkəni bu ağır böhrandan çıxarmağa əsas verirdi. Digər tərəfdən isə, yeni iqtisadi islahatlar aparmaq yolu ilə bazar iqtisadiyyatına keçmək istiqamətində məqsədyönlü iş aparılmalı idi.



Yalnız 1994-95-ci illərdə ölkədə siyasi vəziyyət normal məcraya salındıqdan və ictimai-siyasi sabitlik təmin edildikdən sonra çoxsaylı sosial-iqtisadi problemlərin həlli istiqamətində ardıcıl iş aparılması mümkün oldu. 1995-ci ilin əvvəlindən ölkədə bazar iqtisadiyyatına keçid məqsədi ilə islahatların aparılması kursu müəyyənləşdirildi və ardıcıl olaraq məqsədyönlü islahatlar proqramı həyata keçirilməyə başladı. Keçən dövr ərzində Azərbaycan ən radikal iqtisadi islahatlar aparmağa qadir olduğunu sübut etdi.

Ötən dövr ərzində ölkədə demokratik dövlət quruculuğu və yeni iqtisadi sistemin formalaşması üçün müvafiq hüquqi bazanın yaradılması yolunda böyük iş aparmış, 900-ə yaxın qanun qəbul edilmişdir. Onların içərisində torpaq islahatı haqqında, özəlləşdirmə, sahibkarlığın inkişafı, vergi, maliyyə-bank sisteminin yenidən qurulması, ticarətin liberallaşdırılması, inhisarçılığın aradan qaldırılması və rəqabətin inkişafı, əhalinin sosial müdafiəsini təmin edən qanunlar xüsusi yer tutur.

İstehsalatda yaranmış geriləmə hallarının qarşısı bazar iqtisadiyyatına keçid istiqamətində görülən məqsədyönlü tədbirlər nəticəsində alınmış, ölkədə makroiqtisadi sabitlik təmin olunmuşdur. Ümumi Daxili Məhsulun artımı 1996-cı ildə - 1,3 faiz, 1997-ci ildə - 5,8 faiz, 1998-ci ildə - 10 faiz, 1999-cu ildə isə 7,4 faiz olunmuşdur. Bu da Müstəqil Dövlətlər Birliyi məkanında ən yüksək göstəricidir.

Həyata keçirilən tədbirlər nəticəsində sənaye istehsalında da artım meylləri müşahidə edilməkdədir. 1997-ci ildə sənaye istehsalının həcmi cəmi 0,3 faiz artmışdırsa, 1998-ci ildə artım 2,2 faiz, 1999-cu ildə 3,6 faiz, 2000-ci ildə isə 6,9 faiz olmuşdur.

Artıq demək olar ki, sənayenin bütün sahələrində, o cümlədən neft və qaz, neft kimyası, metallurgiya, maşınqayırma, tikinti materialları, yüngül və yeyinti sənayesi sahələrində, habelə sənayenin qeyri-dövlət sektorunda ciddi irəliləyiş vardır və bu sahələrdə məhsul istehsalı keçən ilin müvafiq dövrünə nisbətən xeyli çoxalmışdır.

Ölkənin iqtisadi və sosial inkişafına xarakterizə edən makro-

iqtisadi göstəricilər 2000-ci ilin əvvəlindən xeyli yaxşılaşmışdır. Ümumi Daxili Məhsul istehsalı keçən illə müqaisədə 11,3 faiz və ya 21 trilyon manatdan çox olmuşdur. Ümumi Daxili Məhsul strukturunda real istehsal sahələrinin xüsusi çəkisi 1999-cu ilə nisbətən 46,3 faizdən 48,7 faizə çatmış, xidmət sahələrinin payı isə 47,5 faizdən 44,6 enmişdir. Adambaşına 2,5 milyon manatlıq (562,3 dollar), yaxud keçən ildəkindən 10,4 faiz çox belə məhsul istehsal olunmuşdur.

Ümumi Daxili Məhsulun tərkibində sənaye məhsul istehsalının çəkisi 25,6 faiz təşkil etmişdir. İstehsalın həcmi yanacaq sənayesi müəssisələrində 5,3 faiz, elektroenergetikada 3,2 faiz, yeyinti sahəsində 2,1 faiz, kimya və neft kimyası müəssisələrində 34,4 faiz, metallurgiya sənayesində 2,5 dəfə, maşınqayırma müəssisələrində 78,2 faiz, meşə, ağac emalı və sellüloz-kağız sənayesində 10,5 faiz, tikinti materialları sənayesində 21,3 faiz, yüngül sənayedə 47,7 faiz unüyütmə - yarıma müəssisələrində 52,5 faiz çoxalmışdır. Ötən illə müqayisədə sənayenin dövlət bölməsində məhsul istehsalı 2,5 faiz qeyri-dövlət bölməsində isə 12,5 artmış, ümumi məhsulda onun xüsusi çəkisi 43,9 faizə çatmışdır.

Məlumdur ki, kənd əhalisinin rifahı, kəndin sosial-iqtisadi inkişafı aqrar islahatların gedişindən asılıdır. Ölkədə torpaq islahatının həyata keçirilməsi, torpağın xüsusi mülkiyyətə verilməsi, kolxoz və sovxozların əmlakının özəlləşdirilməsi digər sahələrlə müqayisədə kənd təsərrüfatında islahatların daha sürətlə aparılmasına imkan yaratmışdır. 1995-ci ildən başlayaraq 1300-dən çox kolxoz və sovxoz ləğv olunmuş və onların bazasında 35 minə yaxın kəndli (fermer) təsərrüfatı yaradılmışdır. Demək olar ki, aqrar islahatların birinci mərhələsi başa çatmışdır. Bunun nəticəsində kənd təsərrüfatı istehsalında 1998-ci ildə 4 faiz artım əldə edilmişdirsə, 1999-cu ildə artım 7,1 faiz olmuşdur. Xüsusilə, 2000-ci il kənd təsərrüfatı üçün çox uğurlu olmuşdur.

Kənd təsərrüfatında bitkiçilik məhsullarının yığımı demək olar ki, başa çatmışdır. Dekabrın 1-nə kimi tarlalardan qarğıdalı ilə birlikdə 1538,8 min ton taxıl, 75,6 min ton üzüm, 468,6 min ton kartof, 764,0 min ton tərəvəz, 407,9 min ton meyvə və giləmeyvə, 260,0 min ton bostan məhsulları, 13,8 min ton tütün və 625 ton yaşıl çay yarpağı toplanmışdır. Keçən illə müqayisədə taxıl istehsalı 445,5 min ton və ya 40,7 faiz, kartof 77,3 min ton, tərəvəz 131,5 min ton, meyvə və giləmeyvə 13,5 min ton, bostan məhsulları 57,1 min ton, tütün istehsalı 5,8 min ton və ya 72,7 faiz artmışdır. Cari ildə 90,5 min tona qədər pambıq toplanıb emal müəssisələrinə təhvil verilmişdir. Pambıq, üzüm və yaşıl çay yarpağı istehsalının azalmasına baxmayaraq, bitkiçilik məhsulları istehsalının həcmi keçən ilə nisbətən 18,6 faiz artmışdır.

Cari ildə diri çəkidə 195 min ton ət, 1070 min ton süd, 550 milyon ədəddən çox yumurta, 12 min tona yaxın yun və 70 tondan çox barama istehsal olunmuş, heyvandarlıq məhsulları istehsalı 1999-cu ilə nisbətən 3,7 faiz artmışdır.

Bitkiçilik və heyvandarlıq məhsulları istehsalında qazanılmış uğurlar kənd təsərrüfatının ümumi məhsulunun keçən ilə müqayisədə 12,0 faiz artmasına imkan vermişdir.

Kənd təsərrüfatında aparılan islahatları dəstəkləmək, bu sahədə çalışan adamlara kömək etmək və problemləri aradan qaldırmaq məqsədi ilə 1999-cu ilin yazında xüsusi qanun və fərmanlar qəbul edilmişdir.

Kənd təsərrüfatı istehsalçılarının, torpaq vergisi istisna olmaqla, digər vergilərdən 5 il müddətinə azad edilməsi, həmçinin büdcəyə olan vergi borclarının silinməsi, onlara yanacağın (neft məhsullarının) güzəştli satışı və digər tədbirlər bu sahədə dövlət qayğısının təzahürüdür. Həmin tədbirlərin həyata keçirilməsi kənd təsərrüfatı istehsalına əhəmiyyətli təsir göstərmişdir. Bu tədbirlərin gələcəkdə də davam etdirilməsi nəzərdə tutulur. Bu sahədə görülən işlərin məqsədyönlü və sistemli şəkildə aparılması üçün aqrar islahatların dərinləşdirilməsi və kənd təsərrüfatında sahibkarlığın inkişafına kömək göstərilməsinə dair dövlət proqramı təsdiq edilmişdir.

2000-ci ildə iqtisadiyyatın və sosial sahələrin inkişafına bütün maliyyə mənbələrindən 4,2 trilyon manat həcmində investisiya yönəldilmiş, 2,0 trilyon manatlıq tikinti-quraşdırma işləri görülmüşdür. Keçən illə müqayisədə istifadə olunmuş investisiyanın məbləği 2,3 faiz, tikinti-quraşdırma işlərinin həcmi 2,4 faiz artmışdır. Əsaslı vəsaitin 51,0 faizini və ya 2,1 trilyon manatını Naxçıvan Dövlət Universitetinin tədris korpusu, Bakı şəhərində Mərkəzi klinik xəstəxana, ümumi sahəsi xarici investisiya təşkil

etmiş 3,4 trilyon manatı, yaxud 81,3 faizi istehsal təyinatlı obyektlərin inşasının davam etdirilməsinə sərf olunmuşdur. İlin əvvəlindən Yenikənd Su Elektrik Stansiyası, 1 nömrəli Bakı İstilik-Elektrik Mərkəzində gücü 55 min kvt. olan yeni qaz-turbin elektrik qurğusu, "Qurtuluş" qazma qurğusu, "Azərneftyağ" İstehsalat Birliyində bitum qurğusu kompleksi, 52,9 km uzunluğunda baş Mil-Muğan kollektorunun ikinci hissəsi, Naxçıvan Dövlət Universitetinin tədris korpusu, Bakı şəhərində mərkəzi klinik xəstəxana, ümumi sahəsi 302,5 min kvadrat metrə çatan yaşayış evləri, 1906 yerlik ümumtəhsil məktəbləri, 40 çarpayılıq xəstəxana, növbədə 70 nəfəri qəbul etməyə imkan verən ambulator-poliklinika müəssisəsi və s. istifadəyə verilmişdir. Cari ildən "Şimal" DRES-in yenidən qurulmasına və Ələt-Qazıməmməd avtomobil yolunun tikintisinə başlanmışdır.

Nəqliyyat müəssisələri və avtomobil nəqliyyatı sahəsində fəaliyyət göstərən fiziki şəxslər tərəfindən il ərzində 80 milyon ton yük və 880 milyon nəfər sərnişin daşınmış, keçən ilə nisbətən yük daşınması 17,3 faiz, sərnişin daşınması 2,1 faiz artmışdır. Yük daşınmasının 54,6 faizi, sərnişin daşınmasının 83,5 faizi, qeyri-dövlət bölməsinin nəqliyyat vasitələri ilə həyata keçirilmişdir.

Rabitə müəssisələri tərəfindən ilin əvvəlindən əhaliyə, müəssisə və təşkilatlara 700 milyard manatdan çox, yaxud keçən ilə nisbətən 33,6 faiz çox rabitə xidməti göstərilmişdir. Xidmətlərdən əldə edilmiş, gəlirlərin 61,3 faizi qeyri-dövlət bölməsinin payına düşür.

İlin əvvəlindən əhaliyə 12,8 trilyon manatlıq istehlak malları satılmış və pullu xidmət göstərilmişdir. Əmtəə dövriyyəsi 9,8 faiz artaraq 10 trilyon manatdan çox, pullu xidmətlərin həcmi isə 5,7 faiz artaraq 2,5 trilyon manata çatmışdır.

Cari ildə xarici ölkələrlə 2796 milyon dollar məbləğində, yaxud keçən illə müqayisədə 88,1 faiz çox ticarət əməliyyatları aparılmışdır. Əmtəə dövriyyəsinin 63,3 faizini ölkədən ixrac olunmuş mallar, 36,7 faizini isə idxal məhsulları təşkil etmiş, 680 milyon dollar məbləğində müsbət saldo yaranmışdır. Əmtəə mübadiləsinin 80,7 faizi uzaq xarici ölkələrlə, 19,3 faizi MDB dövlətləri ilə aparılmışdır, ticarət əlaqələri uzaq xarici ölkələrlə 2,2 dəfə, MDB dövlətləri ilə 18,0 faiz artmışdır.



İstehlak mallarının qiymətləri və xidmət tarifləri il ərzində keçən illə müqayisədə 1,8 faiz bahalaşmışdır. Lakin eyni zamanda, orta aylıq əmək haqqı 15,0 faiz artaraq 204,2 min manat, əhalinin adambaşına pul gəlirləri isə 11,0 faiz çoxalaraq 185,4 min manat təşkil etmişdir.

İqtisadi yüksəlişin həlledici şərti hesab olunan investisiya qoyuluşu son illər artmaqda davam edir. Belə ki, 1996-cı ildə kapital qoyuluşunun həcmi 65 faiz, 1997-ci ildə 67 faiz, 1998-ci ildə isə 45 faiz artmışdır. Kapital qoyuluşunun artmasında ölkəmizə xarici kapital axını həlledici rol oynayır. 1996-2000-ci illərdə ölkə iqtisadiyyatına 5,0 milyard ABŞ dolları həcmində xarici investisiya yönəldilmişdir. İndi Azərbaycanda yalnız neft sektoruna deyil, iqtisadiyyatın digər sahələrinə (rabitə, maşınqayırma, yeyinti, xidmət və s.) xarici investisiya qoyuluşu xeyli artmışdır. Nəticədə xarici investisiyaların ümumi həcmində qeyri-neft sektorunun payı 1996-cı ildə - 33 faiz, 1997-ci ildə 40 faiz olmuşdusa, 1999-cu ildə 50 faizə çatmışdır. Hazırda Azərbaycanda adambaşına 150 ABŞ dollarına yaxın xarici investisiya düşür ki, bu da MDB məkanında ən yüksək göstərici hesab olunur.

Azərbaycanın xarici şirkətlərlə bağladığı neft müqavilələri çərçivəsində neft sənayesinə 60 milyard ABŞ dolları həcmində investisiya qoyulması nəzərdə tutulur. Neft satışında əldə edilən gəliri səmərəli şəkildə ölkəmizin sosial-iqtisadi tərəqqisinə istifadə etmək məqsədi ilə hazırda xüsusi Neft Fondu yaradılmışdır.

Ümumiyyətlə, Azərbaycanın neft strategiyası və bu sahədə həyata keçirilən məqsədyönlü tədbirlər nəinki, mühüm sosial-iqtisadi, həm də böyük siyasi əhəmiyyət kəsb edir. Bu da Azərbaycan dövlətinin beynəlxalq aləmdə nüfuzunun artmasına və dövlət müstəqilliyinin möhkəmlənməsinə əyani sübutdur.

Ölkədə islahatların dərinləşməsində özəlləşdirmə prosesi həlledici yer tutur. Son illər bu sahədə xeyli işlər görülmüşdür, artıq kiçik özəlləşdirmə başa çatmışdır. Ölkədə ticarət, ictimai iaşə və bütün xidmət obyektləri demək olar ki, iş adamlarının əlində cəmlənmişdir. Orta və iri sənaye müəssisələrinin özəlləşdirilməsinə başlanmışdır.

Hazırda özəlləşdirmədə yeni mərhələ başlanır. Dövlət əmlakının özəlləşdirilməsi haqqında yeni qanunun və II dövlət özəlləş-

dirmə proqramının qəbul olunması bu prosesə yeni təkan verəcək, onun daha səmərəli aparılmasını təmin edəcəkdir. Ölkə iqtisadiyyatı üçün mühün əhəmiyyət kəsb edən strateji obyektlərin (metallurgiya, maşınqayırma, yanacaq, neft kimyası, infrastruktur sahələri və s.) özəlləşdirilməsinə hazırlıq işləri gedir. Bu isə hər bir obyektə fərdi yanaşma tələb edir. Odur ki, hər bir belə obyektin ölkə iqtisadiyyatındakı yeri və rolu nəzərə alınmaqla onun özəlləşdirilməsi planı işlənib hazırlanacaqdır.

Azərbaycan dövlətinin iqtisadi siyasətinin mühüm istiqamətlərindən biri də sahibkarlığın inkişaf etdirilməsidir. Bu məqsədlə ölkədə sahibkarlığın inkişafı üçün müvafiq hüquqi baza yaradılmışdır. Özəlləşdirmə tədbirlərinin həyata keçirilməsi və sahibkarlığın inkişafına şərait yaradılması nəticəsində hazırda Ümumi Daxili Məhsulda özəl bölmənin payı 62 faizə, o cümlədən sənayedə 43 faizə, kənd təsərrüfatı və ticarətdə 98 faizə, tikintidə 77 faizə, yük daşınmasında 45 faizə, sərnişin daşınmasında 80 faizə çatmışdır.

Bu gün ölkədə sahibkarların hüquqlarının qorunması mühüm əhəmiyyət kəsb edir. Bununla əlaqədar olaraq sahibkarların hüquqlarını müdafiə edən, onların fəaliyyətinə yersiz müdaxilənin və əsassız yoxlamaların qarşısını alan iki fərman (1996-cı il 17 iyun tarixli və 1999-cu il 7 yanvar tarixli) qəbul edilmişdir.

Ölkədə əlverişli sahibkarlıq mühiti yaratmaq məqsədi ilə bundan sonra da müvafiq tədbirlərin həyata keçirilməsi davam etdiriləcəkdir.

Qeyd etmək lazımdır ki, aparılan islahatların sosial yönümü və əhalinin sosial müdafiəsi tədbirləri dövlətin iqtisadi siyasətində mərkəzi yer tutur və bu sahədə müntəzəm olaraq məqsədyönlü iş aparılır. Son illər əmək haqqının artırılması barədə dövlət tədbirlərinin həyata keçirilməsi nəticəsində işçilərin orta aylıq nominal əmək haqqı xeyli artmışdır. Son 5 ildə (1994-1999-cu illər) orta aylıq əmək haqqı 12 dəfə artaraq, 184,4 min manat təşkil etmişdir. 2000-ci ilin yeddi ayı ərzində bu göstərici artmaqda davam etmiş və hazırda bir işçinin aylıq orta əmək haqqı 204,2 min manata bərabərdir. Burada mühüm bir cəhəti də nəzərə almaq lazımdır ki, əmək haqqının artımı inflyasiyanın çox aşağı səviyyədə olması (son iki ildə isə deflyasiya istehlak qiymətlərinin aşağı düş-



məsi) şəraitində baş vermişdir. Əgər 90-cı illərin birinci yarısında inflyasiyanın artımı əhalinin pul gəlirlərinin artımı sürətini üç dəfə üstələyirdisə, son 5 il ərzində isə, əksinə əhalinin pul gəlirinin artım sürəti inflyasiyanın səviyyəsini 2,5 dəfədən çox qabaqlamışdır. Başqa sözlə əhalinin alıcılıq qabiliyyəti 2,5 dəfə artmışdır.

Son illərdə büdcədən maliyyələşdirilən təşkilatlarda işçilərin əmək haqları bir neçə dəfə artırılmış, böyük qrup ədəbiyyat, incəsənət və elm xadimlərinə, habelə gənc istedadlara fərdi təqaüdlər müəyyən edilmişdir. Məsələn, 1999-cu il avqustun 1-dən dövlət büdcəsindən maliyyələşdirilən bir sıra müəssisə və təşkilatlarda işləyən fəhlə və qulluqçuların əmək haqları 1,8 dəfə, 2000-ci il yanvarın 1-dən təhsil işçilərinin, aprelin 1-dən elm, mədəniyyət və sosial təminat sahələrində çalışan işçilərin əmək haqları 25 faiz artırılmışdır.

2000-ci il yanvarın 1-dən əmək haqqının vergi tutulmayan minimum həddi 60 min manatdan 100 min manata qaldırılmışdır ki, bu da ölkə vətəndaşlarının real gəlirinin artmasına xeyli imkan yaradır. Ölkədə vətəndaşların pensiya təminatının yaxşılaşdırılmasına yönəldilmiş tədbirlərin həyata keçirilməsi nəticəsində orta aylıq pensiyanın məbləği 2 dəfədən çox artmışdır.

2000-ci il ərzində işləməyən əhaliyə ödəniləcək pensiya və müavinətlər vaxtlı-vaxtında ödənilmişdir. Hazırda bu sahədə praktiki olaraq borc qalmamışdır və yaxın günlərdə dekabr ayı üzrə pensiya və müavinətlər tamamilə ödəniləcəkdir. 1999-cu ildə əhaliyə ödənilən pensiyaların məbləği 635 milyard manat olduğu halda, cari ildə 810 milyard manata çatmış və ya 16,5 faiz artmışdır. Müavinətlər isə keçən illə müqayisədə 12,7 faiz çoxalmışdır.

Son vaxtlarda Qarabağ müharibəsi və 20 Yanvar əlillərinin bir qrupu dövlət vəsaiti hesabına minik maşınları və mənzillərlə təmin olunmuşdur. Əlilləri fəal iqtisadi həyata qaytarmaq üçün əlillərin reabilitasiya mərkəzi fəaliyyətə başlamışdır.

Məcburi köçkünlərin sosial müdafiəsini gücləndirmək məqsədilə onlara yemək xərci üçün verilən aylıq müavinət 2000-ci il yanvarın 1-dən 3,5 dəfə artırılmışdır. Ölkədə qaçqınların və məcburi köçkünlərin problemlərini sistemli şəkildə həll etmək və onların sosial müdafiəsini gücləndirmək məqsədi ilə dövlət proqramı

qəbul edilmişdir (1998-ci il, 17 sentyabr). Həmin dövlət proqramında nəzərdə tutulmuş tədbirlərin həyata keçirilməsini təmin etmək, məcburi köçkünlərin mənzil-məişət şəraitini yaxşılaşdırmaq, müvafiq sosial infrastruktur yaratmaq, iş yerləri açmaq məqsədi ilə 1999-cu ilin dekabr ayında məcburi köçkünlərin sosial inkişaf fondu yaradılmışdır.

Əhalinin müdafiəsinin yaxşılaşdırılması hər vaxt dövlətin diqqət mərkəzində olan məsələdir. Ölkənin sosial-iqtisadi imkanları yaxşılaşdıqca və büdcənin mədaxili artdıqca, müvafiq olaraq belə tədbirlər də həyata keçiriləcəkdir.

Bu gün Azərbaycanın sosial-iqtisadi inkişafında yeni mərhələnin möhkəm təməli qoyulmuş və yüksək iqtisadi artım üçün əsaslı zəmin yaradılmışdır. Yeni minilliyin başlanğıcı iqtisadi islahatların dərinləşməsində dönüş mərhələsi olacaq və onun əsas istiqamətləri iqtisadiyyatın strukturunun yenidən qurulması və yeni şəraitə uyğun təsisat dəyişikliklərinin həyata keçirilməsindən ibarət olacaqdır.

Bununla yanaşı qeyd etmək lazımdır ki, post sovet məkanının digər ölkələri kimi respublikamızda keçid dövrünü yaşayır. Ölkənin iqtisadiyyatında həmin dövrün tələblərindən doğan bir sıra obyektiv çətinliklər, problemlər vardır. Ərazimizin 20 faizinin erməni qəsbkarları tərəfindən işğal olunması, 1 milyondan çox vətəndaşımızın qaçqın və köçkünlərə çevrilərək ağır şəraitdə yaşamağa məcbur olması mövcud vəziyyəti daha da mürəkkəbləşdirir. Əsasən obyektiv xarakter daşıyan bu problemlər vətəndaşlarımızın böyük bir qismini çətin sosial iqtisadi vəziyyətdə yaşamağa vadar edir. Əhalinin bir hissəsi maddi sıxıntılar içərisində, ağır vəziyyətdə yaşaması, hamımızı narahat edir, incidir. Onu bilməliyik ki, bütün bu problemlər, sıxıntılar, çətinliklər yalnız müvəqqəti xarakter daşıyır. Xalq əmin olmalıdır ki, respublika rəhbərliyi bu sahədə yaranmış vəziyyətin ağırlığını dərk edir və onun aradan qaldırılması üçün bütün mövcud imkanlardan lazımınca istifadə edir və bundan sonra edəcəkdir. Son illərdə ölkə həyatının müxtəlif sahələrində əldə olunmuş nailiyyətlərimiz onu qətiyyətlə deməyə əsas verir ki, bizi narahat edən problemlərin həlli yolunda qarşıdakı yaxın illərdə mühüm addımlar atılacaq, xalqımızın üzləşdiyi bir çox sosial-iqtisadi çətinliklər aradan qaldırılacaq, vətəndaşlarımızın rifah halı yaxşılaşacaq və onlar layiq olduqları firavan həyata qovuşacaqlar.



Biz Azərbaycanda bu gün əsl vətəndaş cəmiyyəti qururuq. Çoxsaylı ictimai təşkilatlar, partiyalar, müxtəlif fondlar və cəmiyyətlər, vətəndaş cəmiyyətinin strukturunu təşkil edərək, Azərbaycanın bir çox mühüm məsələlərin həllində dövlətlə uğurlu əməkdaşlıq edirlər. Biz Azərbaycanda demokratiyanın inkişafını, sözün həqiqi mənasında, təmin etmək üçün çox səylər göstəririk.

Azərbaycan Respublikası demokratik inkişaf yolu ilə inamla irəliləyir. Ölkəmizdə demokratik inkişaf üçün zəruri olan təsisatlar və hüquqi baza artıq formalaşmışdır. Respublikada müxtəlif yönlü siyasi partiyaların, ictimai təşkilatların azad fəaliyyət göstərilməsi, yüzlərlə mətbuat orqanının senzurasız sərbəst nəşr edilməsi, özəl televiziya və radio kanalların öz verilişlərini maneəsiz efirə çıxarması və sairə kimi hallar Azərbaycanda siyasi plüralizim, fikir azadlığı, demokratiya ab-havası hökm sürməsinin konkret əyani nəticələridir. Elə bəzi bədxahların "Azərbaycanda demokratiya yoxdur", - deyə car çəkməsi və buna görə də heç bir təzyiqə və təqibə məruz qalmamasının özü ölkəmizdə demokratiyanın mövcud olmasına tutarlı dəlildir. Eyni zamanda unutmamalıyıq ki, bütün bunları biz cəmi 9 il ərzində əldə etmişik. Bu illərin də bir neçəsi Azərbaycanda hökm sürmüş siyasi çəkişmələr, hərc-mərclik, özbaşınalıq dövrünə təsadüf edir. Hələ də qonşu Ermənistanla müharibə şəraitində yaşamağa məcbur olan Azərbaycanda demokratik inkişaf yolunda belə az müddət ərzində əldə edilmiş nailiyyətlər həqiqətən də olduqca böyükdür. Onu təkcə biz yox, yüz illər ərzində demokratiya yolu keçmiş bir çox xarici ölkələrin nümayəndələri də təsdiq edirlər.

2000-ci ildə Azərbaycan Respublikasının Milli Məclisə keçirilən seçki kampaniyası da bunu bir daha nümayiş etdirdi. Deputatlığa namizədlər üçün seçkilərdə tam bərabər şəraitin yaradılması, siyasi partiyaların seçkilərdə iştirak etməsi yolunda hər cür əngəllərin aradan qaldırılması, seçkilərin azad, demokratik, obyektiv keçirilməsi üçün lazımi tədbirlərin görülməsi respublikamızın qısa bir müddət ərzində demokratiya yolunda artıq böyük təcrübə topladığını əyani şəkildə göstərir.

Bəzilərinin güman etdiyi kimi, demokratiya xaos, hərc-

mərclik, özbaşınalıq deyildir. Demokratiya ictimai-siyasi sabitliyin, qanunların aliliyinin hökm sürdüyü şəraitdə yaranıb inkişaf edə bilər. Demokratiyanın hüdudları genişdir. Odur ki, o, hər xalqın mentalitetinə, hər bir cəmiyyətin, hər bir dövrün tələblərinə uyğun olaraq inkişaf edir. Ona görə də nə burada, nə də Azərbaycandan kənarda heç kəs narahat olmasın: Azərbaycan demokratiya yolu ilə gedir və gedəcəkdir. Bu bizim strateji kursumuzun mahiyyətini təşkil edir və biz heç vaxt bu yoldan dönməyəcəyik.

Müstəqilliyə nail olmaq və həyatın bir çox sahələrində köklü dəyişikliklər etmək çox çətin və məsul bir prosesdir. Müstəqilliyi elan etmək, onun qorunması və möhkəmləndirilməsi istiqamətində dövlət tədbirləri həyata keçirmək nə qədər vacib olsa da, əsl müstəqilliyi qazanmaq üçün bu, hələ azdır. Gərək hər bir insan və xüsusən gənc nəsil müstəqilliyin nə qədər müqəddəs olduğunu bütün varlığı ilə dərk etsin, onu qorumaq və möhkəmləndirmək üçün hər cür qurban verməyə hazır olsun. Bunun üçün isə o, ilk növbədə yüksək mənəviyyata malik olmalıdır, xalqımızın milli-mənəvi dəyərləri onun şəxsiyyətinin mahiyyətini təşkil etməlidir.

O, azərbaycançılığın, mənsub olduğu Azərbaycan xalqının mədəniyyətinin, ədəbiyyatının, incəsənətinin, elminin nə olduğunu dərindən bilməlidir. Bu çox mühüm məsələdir. Bizim bu gün təhsilimiz də, mədəniyyətimiz də, incəsənətimiz də məhz Azərbaycanın dövlət müstəqilliyinə xidmət edərək, əsl vətəndaş tərbiyə olunması prosesinə cəlb edilibdir. Azərbaycan müstəqilliyinin dönməz və əbədi olmasının əsas mənbəyi və təminatçısı məhz Azərbaycan gəncliyidir.

Müstəqillik illərində biz əslində milli-mədəni irsimizi, tariximizi, milli sənətimizi bir daha təhlil edərək, onu ideoloji buxovlardan və qadağadan xilas edirik. Bununla yanaşı, biz Azərbaycan mədəniyyətinin dünya sənət xəzinəsinə verdiyi töhfələrlə başqa xalqların nümayəndələrini tanış edirik. Məhz müstəqillik dövründə, biz Füzulinin 500 illiyini keçirdik. Əsl poeziya bayramına, milli mədəniyyət bayramına çevrilən bu təntənələr, digər tərəfdən Azərbaycan dövlətçiliyinin, Azərbaycan müstəqilliyinin bayramı idi. Müxtəlif ölkələrdən, YUNESKO-dan bu yubileyə gələn insanlar Füzuli poeziyası vasitəsilə Azərbaycanı tanıyır, onun həqiqətlərini dünyaya çatdırırdılar.



Əsrlərin və minilliklərin qovuşduğu bu 2000-ci ildə Azərbaycan Respublikası türkdilli dövlətlər başçılarının dünya qorqudşünaslarının iştirakı ilə möhtəşəm "Kitabi-Dədə Qorqud" dastanının 1300 illiyini qeyd etdi. Təqiblərə məruz qalmış bu epos nəhayət ki, müstəqil Azərbaycan Respublikasında öz layiqli qiymətini aldı. "Kitabi-Dədə Qorqud" qəhrəmanlıq eposudur, özü də bir cəngavər, bir igid haqqında yox, bütöv bir xalqın qəhrəmanlığını özündə cəmləşdirən bir eposdur. Onun ən böyük ideyası baş sərkərdədən tutmuş, böyükdən kiçiyə kimi bütün qəhrəmanlarının doğma torpaqlarını qorumaq uğrunda canlarından keçməyə daim hazır olduqlarını göstərməkdir. Eposun əsas mahiyyətini qəhrəmanlıq ideologiyası təşkil edir. Ölkəmizin yaşadığı bugünkü mərhələdə xalqımızın qarşısında duran ən ümdə problemlərin həlli, o cümlədən respublikanın suverenliyinin və müstəqilliyinin möhkəmləndirilməsi, ərazi bütövlüyünün qorunması baxımından müasir Azərbaycan Respublikası vətəndaşlarının bu qəhrəmanlıq ideologiyasından faydalanmasının nə dərəcədə vacib olduğu gün kimi aydındır.

Müstəqil dövlətimiz üçün taleyüklü məsələlərin həyata keçirilməsi tariximizin bir çox qaranlıq səhifələrini açmaqla kimliyimizi tam müəyyən etməyi, milli kökləri ilə bağlı yeni təfəkkürlü gənc nəsil yetişdirilməsini zəruri edir. Keçid dövrünün çətinliklərinə, ağır proseslərinə baxmayaraq, biz öz tarixi keçmişimizin çox dəyərli səhifələrini qısa bir müddətdə aça bilmiş və xalqa göstərməyə nail olmuşdur. Xalqımızın hər bir övladı öz tarixi keçmişini, varisi olduğu mədəni irsi daha dərindən öyrənərək, böyük qürur hissi duymağa başlayır və sözsüz ki, bununla fəxr edir.

Müstəqilliyi qorumaq üçün müxtəlif xarici təzyiqlərdən, təxribatlardan xilas olmaq üçün gərək Azərbaycanda yaratdığımız ictimai-siyasi sabitliyi qoruyaq, möhkəmləndirək. Bunun üçün gərək Azərbaycanda vətəndaşların birliyi, həmrəyliyi yaransın. Siyasi baxışından və cəmiyyətdə mövqeyindən asılı olmayaraq, gərək hər bir vətəndaş düşünsün ki, müxtəlif yerlərdə Azərbaycana qarşı bəzi xəbis niyyətlər və bəd münasibətlər vardır. Bunların qarşısını almaq üçün Azərbaycanın daxilində birlik, həmrəylik yaranmalıdır. Mən xalqımızı dəfələrlə buna dəvət etmişəm, bütün vətəndaşlarımızı buna dəvət etmişəm. Bu gün mən bütün siyasi

partiyaları, qurumları, təşkilatları hamısını, bax, bu yola dəvət edirəm. Şəxsi ambisiyaları kənara qoymaq lazımdır. 1991-ci ilin sonunda Azərbaycanın əldə etdiyi dövlət müstəqilliyi tarixi nailiyyətdir və biz bunu qorumalıyıq, saxlamalıyıq. Bunun gələcək nəsillərə daha da möhkəm Azərbaycan dövləti kimi verməliyik. Ona görə də əsas prinsiplər də, əsas məsələlər də xalqın birliyi, həmrəyliyi başlıca şərtdir, başqa məsələlər də müxtəlif baxışlarda ola bilər və mən vətəndaşlarımızı buna dəvət edirəm.

Sizi əmin edirəm ki, Azərbaycan dövləti indiyə qədər olduğu kimi, bundan sonra da Azərbaycanın dövlətçiliyinin, müstəqilliyinin, Azərbaycan xalqının milli azadlığının keşiyində daim duracaq və bu müstəqilliyi cəsarətlə qoruyub saxlayacaqdır. İnanıram ki, müstəqil Azərbaycan Respublikası XXI əsrdə həyatın bütün sahələrində geniş inkişaf edən, çiçəklənən bir ölkə kimi böyük uğurlar qazanacaqdır.

Bizim yaşadığımız bu dünyada çoxlu əlamətdar günlər və bu günlərlə bağlı saysız-hesabsız təbriklər olubdur, insanlar insanları, xalqlar xalqları, dövlətlər dövlətləri təbrik ediblər. Bu xoş təbrikləri, səmimi diləkləri meydana gətirən səbəblər, şübhəsiz ki, müxtəlifdir. Amma bu gün Yer üzündə yaşayan insanların, xalqların və dövlətlərin böyük bir qisminin sevinməsinin, bir-birilərini təbrik etməsinin səbəbi, demək olar ki, eynidir! Qısa bir müddətdən sonra dünya *yeni ilə* qədəm qoyur! *Biz yeni ilin* - 2001-ci ilin, yeni bir yüzilliyin, yeni bir minilliyin günlərini yaşamağa başlayırıq. Yeni yüzilliyin, yeni minilliyin gəlişi bizim üçün bir də ona görə əlamətdardır ki, məhz dekabrın 31-də Yer üzündə yaşayan bütün azərbaycanlılar birlik, qardaşlıq, həmrəylik ucalığını bayram edirlər.

Ömrümüzdən ötüb keçmişə çevrilən hər bir gün tarixə məxsusdur. Əlbəttə, iki əsrin qovuşuğunda min illərin tarixi faktlarını, inkişaf salnaməsini araşdırmaq, bu barədə söhbət açmaq həftələrlə, aylarla vaxt apara bilərdi. Qısaca olaraq yalnız bunu deyə bilərəm ki, Azərbaycan xalqının bizim eranın iki min ili ərzində keçib gəldiyi yol yenilməz, zəngin, mərdanə bir qəhrəmanlıq tarixidir!

Ötən əsrin tarixi gerçəkliyi, bəşəri dəyərləri barədə danışmaq həm asandır, həm də çətin! Asandır ona görə ki, ötən yüz il



bizə vaxt etibarilə digər əsrlərdən yaxındır. Bu əsrin demək olar ki, hər ili, hər ayı, hər həftəsi, hər günü nəinki tarixçilər, alimlər tərəfindən qələmə alınmış, eyni zamanda onun bir çox əhəmiyyətli hadisələri bizim nəsillərin gözü qarşısında baş vermişdir. Bu əsrin xidmətləri daha geniş, daha böyükdür.

XX əsr Azərbaycan xalqının da həyatında silinməz izlər qoymuşdur. Əslində minilliklərin yekununda, əlbəttə ki, yeni bir Azərbaycan təşəkkül tapmışdır. Qazanılmış nailiyyətlər göz qabağındadır, onu hamı təsdiq edə bilər.

Xalqımızın tarixi taleyi elə imkan yaratmışdır ki, son yüz illikdə Azərbaycan köhnə dünyadan sürətlə qopmuş, elm, mədəniyyət, səhiyyə, təhsil, nəhayət, ictimai-siyasi intibah yolunu tutmuşdur.

Bu gün hər bir azərbaycanlının fəxr etməyə haqqı var ki, bizim ata-babalarımız olduqca qısa bir zaman içində kütləvi savadsızlığa son qoymuş, Vətənimiz bütün insanları oxuyub-yazmağı bacaran məmləkətə çevrilmişdir. Xalqımız illikcə maarifləşmə prosesini uğurla başa vurmuşdur. Ziyalılar ordusunun yüksək vətəndaş fəallığı ilə Şərqdə ilk teatr, ilk opera, ilk kino və sair Azərbaycanda meydana gəlmişdir. Şəhər və kəndlərin memarlıq siması sürətlə dəyişərək qədim ənənələri hifz edib saxlamaqla yeniləşmişdir.

Kütləvi sürətdə savadlanmaq, elmə, mədəniyyətə, təhsilə can atmaq Azərbaycan xalqının mənəviyyatını da, həyat tərzini də, xarici görünüşünü də dəyişmiş, onu inkişaf edən dünyaya qovuşdurmuşdur.

Budur, yüzillik başa çatır və biz özümüzə hesabat verərkən nə qədər dəyişib, inkişaf etdiyimizi tam səmimiyyətlə etiraf etməli oluruq. Ötüb keçən yüzillikdə Azərbaycan xalqı sözün həm hərfi, həm də məcazi mənasında işığa, nurlu bir aləmə çıxmışdır. Bu gün Azərbaycanın təhsili, mədəniyyəti, ümumiyyətlə iqtisadi, sosial, mədəni, mənəvi və siyasi həyatının bütün sahələri dünya sivilizasiyasına tam cavab verən bir səviyyədədir.

Demokratik, müstəqil Azərbaycan dövlətinin bərqərar olması xalqımızın həm iqtisadi, həm siyasi, həm də mənəvi qələbəsidir. Xalqımızın yüksək mənəviyyatdan irəli gələn böyük dözümü, iradəsi və müdrikliyi bütün Qafqazın sülh, əmin-amanlıq bölgə-

sinə çevrilməsi üçün ən etibarlı təminatdır.

***Hörmətli həmvətənlərim!***

***Əziz bacılarım, qardaşlarım!***

***İstəkli övladlarım!***

Azərbaycanın çox zəngin intelektual potensialı və misilsiz xammal ehtiyatları, Avropadan Asiyaya gedən yolda əvəzedilməz coğrafi mövqeyi onun dünya birliyində sanballı yer tutmasına imkan verir. TRASEKA proqramı çərçivəsində nəzərdə tutulan Avropa ilə Asiya arasındakı körpü, Böyük İpək Yolunun bərpası ölkəmiz qarşısında intensiv inkişaf üfüqləri açır. Məhz öz coğrafi mövqeyimizə görə biz bütün rabitə vasitələrini inkişaf etdirmək və qlobal informasiya sistemi yaradılmasında irəliləyişi təmin etmək üçün misilsiz imkanlara malikik.

Beynəlxalq hüquq baxımından biz gənc dövlətik. Bu gün artıq bütün bəşəriyyət, bütün xalqlar və millətlər bilirlər ki, mədəniyyət, elm və təhsil insanların ən böyük mənəvi dəyərləri olaraq sabit inkişafı təmin edən mühüm amillərdən biridir. Qlobal dəyişikliklər baş verən bir dövrdə biz bütün səylərimizi bu böyük sərvətin qorunub saxlanmasına sərf etməliyik. Məhz belə yüksək intellektual potensialı olan bir ölkədə qüdrətli vətəndaş cəmiyyəti yarana bilər.

Azərbaycan xalqının həyatının son yüz ili neftlə bağlıdır. Həqiqətən də neft, eləcə də ölkəmizin digər qiymətli sərvətləri xaqlımızın həyatında əhəmiyyətli rol oynamışdır. Bunu inkar etmək olmaz. Lakin Azərbaycanın ən böyük sərvəti onun vətənpərvər insanları, onun müdrik xalqıdır. Bizim xalqımızın XXI əsrdə tam rahat, firavan yaşamağa, öz dövlətinə, öz torpağına, öz sərvətlərinə tam sahib durmağa haqqı vardır!

Biz fəxr edirik ki, itirilmiş dövlətçilik ənənələrini XX əsrin sonlarında bərpa etmək fürsəti bizim nəslə nəsib olmuşdur. Azərbaycan Respublikasında dövlətçilik ənənələrinin zənginləşdirilməsi, müstəqilliyimizin daha da möhkəmləndirilməsi, onun əbədi edilməsi hər birimizdən var qüvvəsini sərf etməyi tələb edir. İnanıram ki, tarixin bir çox sınaqlarından ləyaqətlə çıxmış xalqım bu ali məqsəd uğrunda bütün imkanlarından lazımınca istifadə edəcək, müstəqil Azərbaycan dövlətinin bu günü və sabahının tam təminatçısı olacaqdır. İftixarla demək olar ki, Azərbaycanın



XX əsrdə yaratdığı qüdrətli iqtisadi potensial, böyük mütəxəssislər ordusu xalqımızın ən ümdə amallarının həyata keçirilməsi üçün möhkəm baza, əlverişli zəmin rolunu oynayır.

Hər bir xalqın özünəməxsusluğunu müəyyən edən başlıca ünsürlərdən biri onun dilidir. XX əsrdə xalqımızın bu sahədə əldə etdiyi uğurları yüksək təqdirə layiqdir. Biz fəxr edirik ki, müstəqil Azərbaycan Respublikasının dövlət dili olan Azərbaycan dili son bir əsrlik dövr ərzində böyük inkişaf yolu keçərək lüğət tərkibini zənginləşdirmiş, qrammatik quruluşunu cilalamış və dünya dilləri içərisində öz layiqli yerini tutmuşdur.

XX əsr Azərbaycanda elmin, ədəbiyyatın və incəsənətin inkişafı sürətli templəri ilə səciyyələnir. Bu əsrdə xalqımızın həmin sahələrdəki ənənələri davam etdirilərək xeyli zənginləşmiş, yeni sahələr, formalar və janrlar yaranıb inkişaf etmişdir. Bu gün hər bir azərbaycanlı ikinci minilliyin bəxş etdiyi böyük korifeylər ilə Mirzə Ələkbər Sabir, Cəlil Məmmədquluzadə, Nəcəf bəy Vəzirov, Məhəmməd Hadi, Abdulla Şaiq, Əlibəy Hüseynzadə, Hüseyn Cavid, Əhməd Cavad, Cəfər Cabbarlı, Əliağa Vahid, Səməd Vurğun, Məhəmmədhüseyn Şəhriyar, Süleyman Rüstəm, Rəsul Rza, Mirzə İbrahimov, Mehdi Hüseyn, Süleyman Rəhimov kimi şair və yazıçıları, Üzeyir Hacıbəyov, Müslüm Maqomayev, Qara Qarayev, Fikrət Əmirov, Niyazi, Tofiq Quliyev, Cahangir Cahangirov, Süleyman Ələsgərov kimi bəstəkarları, Cabbar Qaryağdıoğlu, Bülbül, Şövkət Məmmədova, Xan Şuşinski, Seyid Şuşinski, Zülfü Adıgözəlov, Rəşid Behbudov, Şövkət Ələkbərova kimi müğənniləri, Abbas Mirzə Şərifzadə, Mirzağa Əliyev, Ülvi Rəcəb, Mərziyə Davudova, Sidqi Ruhulla, Əsgər Ələkbərov, Möhsüm Sənani, Mustafa Mərdanov, Hökumə Qurbanova, Leyla Bədirbəyli kimi sənət ustaları, Əzim Əzimzadə, Bəhruz Kəngərli, Səttar Bəhlulzadə, Qəzənfər Xalıqov, Fuad Əbdürrəhmanov, Elmira Şahtaxtinskaya kimi fırça və tişə ustaları ilə haqlı olaraq fəxr edir. Görkəmli alimlərimiz Mirəsədulla Mirqasımov, Yusif Məmmədəliyev, Heydər Hüseynov, Həsən Əliyev, Mustafa Topçubaşov, Əziz Şərif, Murtuza Nağıyev, Zahid Xəlilov, Musa Əliyev, Həsən Abdullayev, Abdulla Qarayev, Cəfər Xəndan, Əbdüləzəl Dəmirçizadə, Məmmədcəfər Cəfərov, Ziya Bünyadov, Fərəməz Maqsudov və başqaları Azərbaycan elminin inkişafında böyük

xidmətlər göstərərək ona dünya şöhrəti gətirmişlər. Azərbaycanda sənətin opera, balet, heykəltaraşlıq, kinematoqrafiya kimi yeni növləri yaranaraq sürətlə inkişaf etmişdir. Bu hamımızda dərin iftixar və qürur hissi doğurur.

XX əsr Azərbaycan qadınının həyatında da çox əlamətdar bir dövr olmuşdur. Əsrin əvvəllərində Azərbaycanda baş verən ictimai-siyasi proseslər, neft sənayesinin sürətli inkişafı qadınların maariflənməsinə və ictimai həyata qoşulmasına güclü təkan verdi. Əsrin 20-ci illərindən başlayaraq həyata keçirilən tədbirlər nəticəsində qadınların hərtərəfli inkışafı üçün geniş üfüqlər açıldı. Qısa müddət ərzində qadınlar arasında savadsızlıq ləğv edildi, onların təhsil səviyyəsi kəskin sürətdə artdı. Qadınlar pedaqoq, həkim, mühəndis və digər peşələrə yiyələndilər, təhsildə, elmdə və mədəniyyətdə kişilərlə bərabər layiqincə təmsil olundular. Müstəqil Azərbaycan Respublikasının 1995-ci ildə qəbul olunmuş ilk Konstitusiyası qadınların kişilərlə bərabər hüququnu təsdiq etdi və demokratik dövlət quruculuğu prosesində onların fəal iştirakının hüquqi bazasının yaratdı. Biz fəxr edirik ki, bu gün ölkəmizin qarşısında duran problemlərin həllində yaxından iştirak edən Azərbaycan qadını artıq demokratik cəmiyyətin bərabərhüquqlu, fəal üzvü kimi çıxış edir.

Ölkəmizdə bədən tərbiyəsi və idman XX əsrdə xalqımızın həyatının ayrılmaz hissəsinə çevrilmiş sahələrdəndir. İnsana sağlam həyat tərzi, mübarizlik, vətənpərvərlik ruhu aşılamaq, onun intelektual və fiziki imkanlarını üzə çıxarıb inkişaf etdirmək baxımından idmanın və bədən tərbiyəsinin rolu danılmazdır. Biz fəxr edirik ki, idmanın müxtəlif növlərində öz böyük məharətini göstərərək, Azərbaycanın adını yüksəklərə qaldıran gənclərimiz vardır. Tarixin bu böyük anında unudulmaz bayramlar münasibəti ilə xalqımın hər bir oğlu və qızını sonsuz bir iftixar hissi ilə təbrik edir, hamınıza can sağlığı, əbədi xoşbəxtlik arzulayıram!

Mən bu yeni əsrin, yeni minilliyin ərəfəsində dünyanın hansı guşəsində məskunlaşmasından asılı olmayaraq, Azərbaycanın xoş gələcəyi üçün fəaliyyət göstərən bütün soydaşlarımızı təbrik edirəm.

Bu gün biz azad, demokratik bir cəmiyyətdə yaşayır, müqəddəs torpağımızın keşiyini çəkir, sülh və dincliyə can atırıq. Müstəqillik və ərazi bütövlüyünün təmin olunmasında nizami ordumuzun, zabit və əsgərlərimizin dözümü, rəşadəti danılmazdır. Bu bayram günündə mən onların Vətən qarşısında xidmətlərini yüksək qiymətləndirir, hər birinə bayramınız mübarək olsun deyirəm!

Yeni minillikdə dünya xalqlarının ən böyük istəyi sülh və əmin-amanlıqdır. İnsanlar dağıdıcı müharibələrə, qaçqın-köçkünlüyə qətiyyətlə «yox» deyir, dinc yaşamaq istəyirlər. Tale elə gətirib ki, bu gün Azərbaycanın bir milyondan çox sakini öz yurdundan zor gücünə çıxarılıb, onların bir çoxu çadırlarda, heç bir şəraiti olmayan binalarda yerləşdirilibdir. Bu gün mən böyük həyəcan hissi ilə onların hər birini yada salır, tezliklə doğma yurdlarına dönmək arzularına şərik çıxır və inanıram ki, çətinliklərə mətanətlə sinə gərən qardaş və bacılarımın ata ocağına dönəcəkləri gün uzaqda deyildir.

Bu bayram günündə mən torpaqlarımızın azadlığı uğrunda canından keçmiş şəhid balalarımızın hər birinin ruhu önündə baş əyir, şəhid ailələrinə səbr, dözüm diləyir və bəyan edirəm ki, torpaq naminə özünü fəda etmiş insanların xatirəsi bundan sonra da daim qəlbimizdə yaşayacaqdır! Gələcəyimiz olan uşaqları, yeniyetmələri, şagirdləri, tələbələri bağrıma basır, onlara mübarizələrlə dolu həyat yollarında cansağlığı və uğurlar diləyirəm!

Dünyada heç bir çətinlik əbədi deyildir. Tarix boyu bütün mübarizələrin sonunda ədalət zəfər çalmışdır. Ona görə də mən üzümüzə gələn 2001-ci ili ümid, inam ili adlandırıram. Çünki inanıram ki, xalqımız həmişə olduğu kimi 2001-ci ildə də üzərinə düşən vəzifələrin öhdəsindən ləyaqətlə gələcəkdir. Müstəqilliyimiz möhkəmlənəcək, torpaqlarımız azad olunacaq, Azərbaycan Respublikası sülh və firavanlığa qovuşacaqdır!

Bayramınız mübarək olsun!
Yeni iliniz mübarək olsun!
Yeni əsriniz, yeni minilliyiniz mübarək olsun!
Yaşasın azad, müstəqil, demokratik Azərbaycan!

***Heydər Əliyev, Azərbaycan Respublikasının Prezidenti.***
***Bakı şəhəri, 29 dekabr 2000-ci il.***

# QANUNVERİCİLİK BAZASI

## «XARİCDƏ YAŞAYAN AZƏRBAYCANLILARLA BAĞLI DÖVLƏT SİYASƏTİ HAQQINDA» AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Bu Qanun xaricdə yaşayan azərbaycanlılarla bağlı Azərbaycan Respublikasının dövlət siyasətinin məqsədi və prinsiplərini və bu siyasətin həyata keçirilməsi ilə əlaqədar dövlət orqanlarının fəaliyyətinin əsaslarını müəyyən edir.

Maddə 1. "Xaricdə yaşayan azərbaycanlılar" anlayışı

1.1. Bu Qanunun məqsədləri üçün "xaricdə yaşayan azərbaycanlılar" dedikdə, Azərbaycan Respublikasının hüdudlarından kənarda yaşayan və özünü azərbaycanlı hesab edən aşağıdakı şəxslər başa düşülür:

1.1.1. Azərbaycan Respublikasının vətəndaşları və onların övladları;

1.1.2. Əvvəllər Azərbaycan SSR-nin və ya Azərbaycan Respublikasının vətəndaşları olmuş şəxslər və onların övladları;

1.2. "Xaricdə yaşayan azərbaycanlılar" anlayışı həmçinin bu Qanunun 1.1.1 və 1.1.2-ci maddələrində göstərilmiş kateqoriyalara aid olmayan, lakin etnik, dil, mədəniyyət və ya tarixi əlaqələr baxımından özünü azərbaycanlı hesab edən şəxslərə və onların övladlarına da şamil olunur.

Maddə 2. Xaricdə yaşayan azərbaycanlılarla bağlı dövlət siyasətinin məqsədləri

2.0. Xaricdə yaşayan azərbaycanlılarla bağlı dövlət siyasətinin məqsədləri aşağıdakılardan ibarətdir:

2.0.1. Beynəlxalq hüququn hamılıqla qəbul edilmiş prinsip və normalarına, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə və Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq, eləcə də müvafiq xarici dövlətlərin qanunvericiliyi nəzərə alınmaqla, xaricdə yaşayan azərbaycanlıların əsas hüquq və azadlıqlarının həyata keçirilməsinə və onların öz milli özgürlüyünü qoruyub saxlamasına və inkişaf etdirməsinə kömək göstərmək;

2.0.2. Xaricdə yaşayan azərbaycanlıların Azərbaycan Respublikasının dövlət orqanları, eləcə də qeyri-hökümət təşkilatları ilə sıx əlaqələr qurmasına və inkişaf etdirməsinə, Azərbaycan Respublikasının daxili və xarici siyasəti, ölkənin iqtisadi, sosial və mədəni həyatı haqqında informasiya almasına şərait yaratmaq;

2.0.3. Xaricdə yaşayan azərbaycanlılar Azərbaycan Respublikasının dövlət müstəqilliyinin və suverenliyinin qorunmasına və möhkəmləndirilməsinə, iqtisadi, sosial və mədəni inkişafına, cəmiyyətin və dövlətin siyasi həyatına, habelə Azərbaycan Respublikası ilə digər dövlətlər arasında qarşılıqlı surətdə faydalı münasibətlərin qurulması və inkişaf etdirilməsinə cəlb etmək;

2.0.4. Beynəlxalq hüquq normalarına və müvafiq dövlətlərin qanunvericiliyinə uyğun olaraq, xaricdə yaşayan azərbaycanlıların milli-mədəni muxtariyyətlər və ictimai birliklər yaratmaq hüququnun həyata keçirilməsinə yardım göstərmək.

Maddə 3. Xaricdə yaşayan azərbaycanlılarla bağlı dövlət siyasətinin prinsipləri

3.1. Azərbaycan Respublikası xaricdə yaşayan azərbaycanlılarla bağlı dövlət siyasətini həyata keçirərkən beynəlxalq hüququn hamılıqla qəbul edilmiş prinsiplərinə, o cümlədən insan hüquq və azadlıqlarına hörmət və digər dövlətlərin daxili işlərinə qarışmamaq prinsiplərinə əsaslanır.

3.2. Xaricdə yaşayan azərbaycanlılarla bağlı dövlət siyasəti Azərbaycan Respublikasının daxili və xarici siyasətinin ayrılmaz tərkib hissəsidir.

Maddə 4. Xaricdə yaşayan azərbaycanlılarla bağlı dövlət siyasətinin əsasları

4.1. Azərbaycan Respublikası onun vətəndaşı olan və onun ərazisindən kənarda müvəqqəti və ya daimi yaşayan azərbaycanlıların hüquqi müdafiəsinə təminat verir və onlara hamilik edir.

4.2. Azərbaycan Respublikasının vətəndaşı olan və onun ərazisindən kənarda müvəqqəti və ya daimi yaşayan azərbaycanlılar Azərbaycan Respublikasının ərazisində yaşayan Azərbaycan Respublikası vətəndaşları ilə bərabər hüquqlara malikdir və bərabər vəzifələr daşıyırlar.



4.3. Azərbaycan Respublikası digər dövlətin vətəndaşı olan və ya vətəndaşlığı olmayan xaricdə yaşayan azərbaycanlılarla bütün sahələrdə əlaqələrin saxlanmasına və inkişaf etdirilməsinə kömək göstərir, onların əsas hüquq və azadlıqlarının müdafiəsi üçün müvafiq tədbirlər görür.

4.4. Azərbaycan Respublikası Konstitusiyasının 69-cu maddəsinin I hissəsinə uyğun olaraq, digər dövlətin vətəndaşı olan və ya vətəndaşlığı olmayan xaricdə yaşayan azərbaycanlılar Azərbaycan Respublikasının ərazisində olarkən, qanunla və ya Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilə ilə (başqa hal nəzərdə tutulmayıbsa), Azərbaycan Respublikasının vətəndaşları ilə bərabər bütün hüquqlardan istifadə edə bilər və bütün vəzifələri yerinə yetirməlidirlər.

Maddə 5. Xaricdə yaşayan azərbaycanlılarla bağlı vətəndaşlıq məsələləri

5.1. Azərbaycan Respublikası vətəndaşının xarici dövlətin ərazisində yaşaması Azərbaycan Respublikası vətəndaşlığının xitamına səbəb olmur.

5.2. Digər dövlətin vətəndaşı olan və ya vətəndaşlığı olmayan xaricdə yaşayan azərbaycanlıların Azərbaycan Respublikası vətəndaşlığını əldə etməsi və Azərbaycan Respublikası vətəndaşlığına bərpa edilməsi qaydası "Azərbaycan Respublikasının vətəndaşlığı haqqında" Azərbaycan Respublikasının Qanunu ilə tənzimlənir.

5.3. Azərbaycan Respublikası vətəndaşlığına qəbul edilməsi barədə vəsatət qaldıran xaricdə yaşayan azərbaycanlı müvafiq dövlət rüsumunu ödəməkdən azad edilir.

Maddə 6. Xaricdə yaşayan azərbaycanlılarla bağlı Azərbaycan Respublikasının iqtisadi və sosial siyasəti

6.1. Xaricdə yaşayan azərbaycanlılarla bağlı iqtisadi sahədə dövlət siyasətinin reallaşması məqsədi ilə Azərbaycan Respublikasının dövlət orqanları aşağıdakı tədbirləri həyata keçirir:

6.1.1. Azərbaycan Respublikasının ərazisində fəaliyyət göstərən kommersiya təşkilatları ilə xaricdə yaşayan azərbaycanlıların kommersiya təşkilatları arasında əməkdaşlığı təşviq edir;

6.1.2. Xaricdə yaşayan azərbaycanlıların iştirak etdiyi birgə müəssisələrin yaradılmasına kömək göstərir;

6.1.3. Xaricdə yaşayan azərbaycanlıların Azərbaycan Respublikasının iqtisadiyyatına investisiya qoymaları və Azərbaycan Respublikasının ərazisində sərbəst surətdə sahibkarlıq fəaliyyəti ilə məşğul olmaları üçün əlverişli şərait yaradır.

6.2. Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanları xaricdə yaşayan aztəminatlı azərbaycanlılara sosial yardım göstərə bilərlər.

6.3. Xaricdə yaşayan azərbaycanlılarla bağlı Azərbaycan Respublikasının dövlət siyasətinin məqsədləri üçün, xaricdə yaşayan azərbaycanlılara maliyyə yardımı edən fiziki və hüquqi şəxslərə Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq vergi, gömrük güzəştləri və digər güzəştlər verilə bilər.

6.4. Təbii fəlakətlər, ekoloji və digər qəzalar baş vermiş yerlərdə yaşayan azərbaycanlılara Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qaydada humanitar yardım göstərilə bilər.

Maddə 7. Xaricdə yaşayan azərbaycanlılarla bağlı Azərbaycan Respublikasının mədəniyyət, dil və təhsil siyasəti

7.1. Azərbaycan Respublikasının dövlət orqanları xaricdə yaşayan azərbaycanlılara öz mədəni irsinin və dilinin qorunub saxlanmasında və inkişaf etdirilməsində, öz ana dilində təhsil almaq imkanının həyata keçirilməsində yardım göstərir və bu məqsədlə zəruri tədbirlər görür.

7.2. Azərbaycan Respublikasının dövlət orqanları digər dövlətlərdə yaşayan azərbaycanlıların milli-mədəni muxtariyyətləri ilə hərtərəfli əməkdaşlıq həyata keçirir.

7.3. Xaricdə yaşayan azərbaycanlılara öz mədəni, elmi və informasiya tələbatını ödəmək üçün Azərbaycan Respublikasının digər dövlətlərdə olan elm və mədəniyyət mərkəzlərindən istifadə etmək imkanı verilir.

7.4. Xaricdə yaşayan azərbaycanlılara öz mədəni irsinin qorunub saxlanmasında və inkişaf etdirilməsində yardım məqsədi ilə Azərbaycan Respublikasının dövlət orqanları aşağıdakı tədbirləri həyata keçirir:



7.4.1. Xaricdə yaşayan azərbaycanlıların mədəniyyət mərkəzlərinə, mədəni-maarif təşkilatlarına, kitabxanalarına, arxivlərinə, muzeylərinə, teatrlarına, musiqi ansambllarına və digər yaradıcı kollektivlərinə yardım göstərir;

7.4.2. Xarici ölkələrdə Azərbaycan dilində fəaliyyət göstərən məktəblərin tədris-metodik və maddi-texniki təminatına və inkişafına, eləcə də həmin məktəblər üçün kadrların hazırlanmasına yardım göstərir;

7.4.3. Xaricdə yaşayan azərbaycanlıların mədəni irsinin öyrənilməsinə kömək göstərir;

7.4.4. Xaricdə yaşayan azərbaycanlılara öz ana dilini qoruyub saxlamaqda, ana dilinin öyrənilməsinə, təhsil almaq və informasiya əldə etmək üçün bu dildən istifadəyə şərait yaradılmasında kömək göstərir;

7.4.5. Xaricdə yaşayan azərbaycanlıların Azərbaycan tarixini və Azərbaycan mədəni irsini öyrənməsinə şərait yaradılmasında onlara kömək göstərir;

7.4.6. Xaricdə yaşayan azərbaycanlılara Azərbaycan Respublikasında təhsil almaq, elmi və digər yaradıcılıq fəaliyyəti ilə məşğul olmaq üçün güzəştli şərtlərlə yardım göstərir.

Maddə 8. İnformasiya sahəsində xaricdə yaşayan azərbaycanlılara kömək göstərilməsi

8.0. Azərbaycan Respublikasının dövlət orqanları xaricdə yaşayan azərbaycanlılara informasiya sahəsində kömək məqsədi ilə aşağıdakı tədbirləri həyata keçirir:

8.0.1. Xaricdə yaşayan azərbaycanlılara ana dilində informasiya almaqda və yaymaqda, informasiya vasitələri yaratmaqda, müvafiq xarici dövlətlərlə Azərbaycan Respublikası arasında informasiya əlaqələrinin qurulmasında və inkişaf etdirilməsində yardım göstərir;

8.0.2. Xaricdə yaşayan azərbaycanlılarla bağlı Azərbaycan Respublikasının dövlət siyasəti haqqında və yaşadıqları dövlətlərdə azərbaycanlıların vəziyyəti haqqında informasiyanın yayılmasını təmin edir;

8.0.3. Azərbaycan Respublikasından ana dilində televiziya, radio, dövri mətbuat, internet və digər vasitələrlə informasiyanın yayılması üçün zəruri şərait yaradır;

8.0.4. Xaricdə yaşayan azərbaycanlıların məlumatlandırılmasını həyata keçirən Azərbaycan Respublikasının kütləvi informasiya vasitələrinə Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq maliyyə və maddi-texniki vəsaitlər verir;

8.0.5. Xaricdə yaşayan azərbaycanlılara məxsus olan kütləvi informasiya vasitələrinə yardım göstərir;

8.0.6. Diaspora ilə işin təşkil olunması və aparılması sahəsində digər ölkələrin təcrübəsinin öyrənilməsinə və tətbiq olunmasına yardım göstərir.

Maddə 9. Xaricdə yaşayan azərbaycanlılarla bağlı Azərbaycan Respublikası dövlət orqanlarının fəaliyyətinin maliyyələşdirilməsi

9.1. Xaricdə yaşayan azərbaycanlılarla bağlı Azərbaycan Respublikası dövlət orqanlarının fəaliyyəti dövlət büdcəsindən maliyyələşdirilir. Bu vəsaitlərdən istifadə qaydaları Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

9.2. Azərbaycan Respublikasının yerli özünüidarə orqanları xaricdə yaşayan azərbaycanlılarla bağlı həyata keçirdikləri tədbirlərin maliyyələşdirilməsi üçün zəruri olan vəsaitlərin həcmini və onlardan istifadə qaydalarını müstəqil müəyyən edir.

9.3. Xaricdə yaşayan azərbaycanlılara və onların təşkilatlarına maddi yardım edilməsi məqsədi ilə dövlətin, fiziki və hüquqi şəxslərin ödəmələri hesabına təşkil olunan dövlət fondları və ya ictimai fondlar yaradıla bilər. Dövlət fondlarının vəsaitlərindən istifadə qaydaları Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

9.4. Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq, xaricdə yaşayan azərbaycanlılarla bağlı Azərbaycan Respublikasının və digər dövlətlərin fiziki və hüquqi şəxslərinin xeyriyyəçilik fəaliyyəti həvəsləndirilir.

Maddə 10. Xaricdə yaşayan azərbaycanlılarla bağlı monitorinqin aparılması Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı xaricdə yaşayan azərbaycanlıların vəziyyəti haqqında informasiyanın toplanmasını, təhlilini və qiymətləndirilməsini və bu məqsədlə xüsusi məlumat bankının yaradılmasını təmin edir.

Maddə 11. Xaricdə yaşayan azərbaycanlılarla bağlı dövlət siyasətinin həyata keçirilməsi ilə əlaqədar Azərbaycan Respublikası dövlət orqanlarının vəzifələri Azərbaycan Respublikasının dövlət orqanları öz səlahiyyətləri daxilində bu Qanunda göstərilmiş tədbirləri həyata keçirirlər.

*Heydər Əliyev,*
*Azərbaycan Respublikasının Prezidenti.*
*Bakı şəhəri, 27 dekabr 2002-ci il.*

## «AZƏRBAYCAN RESPUBLİKASININ DİASPORLA İŞ ÜZRƏ DÖVLƏT KOMİTƏSİNİN YARADILMASI HAQQINDA» AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikasında dövlət idarəetmə strukturunu təkmilləşdirmək məqsədi ilə və Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 7-ci bəndini rəhbər tutaraq qərara alıram:

1.Azərbaycan Respublikasının Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsinin əsasında Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsi yaradılsın.

2. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, bir ay müddətində:

2.1. Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsinin Əsasnaməsinin layihəsini, komitənin strukturunu, xərclər smetasını və işçilərin ümumi say tərkibi barədə təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.2. qüvvədə olan normativ hüquqi aktların bu Sərəncama uyğunlaşdırılması barədə təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.3. bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

3. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti.***
***Bakı şəhəri, 19 noyabr 2008-ci il.***



## «AZƏRBAYCAN RESPUBLİKASININ DİASPORLA İŞ ÜZRƏ DÖVLƏT KOMİTƏSİ HAQQINDA ƏSASNAMƏNİN VƏ KOMİTƏNİN STRUKTURUNUN TƏSDİQ EDİLMƏSİ BARƏDƏ» AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsinin fəaliyyətinin normativ hüquqi əsaslarını təkmilləşdirmək məqsədi ilə qərara alıram:

1. "Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsi haqqında Əsasnamə" təsdiq edilsin (əlavə olunur).

2. "Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsinin strukturu" təsdiq edilsin (əlavə olunur).

3. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, bir ay müddətində:

3.1. qüvvədə olan qanunvericilik aktlarının bu Fərmana uyğunlaşdırılması barədə təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

3.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin və müvafiq mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını təmin etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

3.3. Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsinin aparatının işçilərinin say həddini müəyyən etsin;

3.4. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

4. "Azərbaycan Respublikasının Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsi haqqında Əsasnamənin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 28 avqust tarixli 780 nömrəli Fərmanı (Azərbaycan

Respublikasının Qanunvericilik Toplusu, 2002-ci il, № 8, maddə 500; 2005-ci il, № 10, maddə 910; 2008-ci il, № 11, maddə 970) qüvvədən düşmüş hesab edilsin.

5. Bu Fərman dərc edildiyi gündən qüvvəyə minir.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti.***
***Bakı şəhəri, 14 may 2009-cu il.***



# AZƏRBAYCAN RESPUBLİKASININ DİASPORLA İŞ ÜZRƏ DÖVLƏT KOMİTƏSİ HAQQINDA ƏSASNAMƏ

***Azərbaycan Respublikası Prezidentinin***
***2009-cu il 14 may tarixli***
***Fərmanı ilə təsdiq edilmişdir***

## I. ÜMUMİ MÜDDƏALAR

1. Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsi (bundan sonra - Komitə) Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 19 noyabr tarixli 54 nömrəli Sərəncamı ilə Azərbaycan Respublikasının Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsinin əsasında yaradılmışdır.

Komitə diasporla iş sahəsində dövlət siyasətinin həyata keçirilməsini, xaricdə yaşayan azərbaycanlılar, eləcə də onların təsis etdiyi diaspor təşkilatları, habelə Azərbaycana dost münasibət bəsləyən digər xalqların diasporları ilə əlaqələrin genişləndirilməsini və inkişaf etdirilməsini, dövlət orqanlarının və qeyri-hökumət təşkilatlarının bu sahə ilə bağlı fəaliyyətinin əlaqələndirilməsini təmin edən mərkəzi icra hakimiyyəti orqanıdır.

2. Komitə öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının qanunlarını, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarını, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələri, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını və bu Əsasnaməni rəhbər tutur.

3. Komitə öz vəzifələrini yerinə yetirərkən və hüquqlarını həyata keçirərkən digər icra hakimiyyəti orqanları, yerli özünüidarəetmə orqanları, qeyri-hökumət təşkilatları, Dünya Azərbaycanlılarının Əlaqələndirmə Şurası, Azərbaycan Respublikasının xarici ölkələrdəki diplomatik nümayəndəlikləri, xaricdə yaşayan azərbaycanlılar, eləcə də onların təsis etdiyi diaspor təşkilatları, habelə Azərbaycana dost münasibət bəsləyən digər xalqların diasporları ilə qarşılıqlı əlaqədə fəaliyyət göstərir.

4. Komitə müstəqil balansa, qanunvericiliyə uyğun sərəncamında olan dövlət əmlakına, xəzinə və bank hesablarına, Azərbaycan Respublikasının Dövlət gerbinin təsviri və öz adı əks olunmuş möhürə, müvafiq ştamplara və blanklara malikdir.

5. Komitənin saxlanma xərcləri və fəaliyyəti Azərbaycan Respublikasının dövlət büdcəsi və qanunvericiliklə nəzərdə tutulan mənbələr hesabına maliyyələşdirilir.

6. Komitə Bakı şəhərində yerləşir.

## II. KOMİTƏNİN FƏALİYYƏT İSTİQAMƏTLƏRİ

7. Komitənin fəaliyyət istiqamətləri aşağıdakılardır:

7.1. diasporla iş sahəsində vahid dövlət siyasətinin formalaşdırılmasında iştirak edir və bu siyasətin həyata keçirilməsini təmin edir;

7.2. Diasporla iş sahəsinin inkişafını təmin edir;

7.3. Beynəlxalq hüququn qəbul edilmiş prinsip və normalarına, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə və Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq, eləcə də müvafiq xarici dövlətlərin qanunvericiliyi nəzərə alınmaqla, xaricdə yaşayan azərbaycanlıların əsas hüquq və azadlıqlarının həyata keçirilməsinə və onların öz milli varlığını yaşatmasına və inkişaf etdirməsinə, ana dilini öyrənməsinə və tətbiqinin genişləndirilməsinə, habelə Azərbaycana dost münasibət bəsləyən digər xalqların diasporları ilə əlaqələr qurmasına və inkişaf etdirməsinə köməklik göstərir;

7.4. Xaricdə yaşayan azərbaycanlıların, eləcə də onların təsis etdiyi diaspor təşkilatlarının, habelə Azərbaycana dost münasibət bəsləyən digər xalqların diasporlarının Azərbaycan Respublikasının dövlət orqanları və qeyri-hökumət təşkilatları ilə əlaqələr qurmalarına və inkişaf etdirmələrinə, Azərbaycan Respublikasının daxili və xarici siyasəti, ölkənin iqtisadi, sosial və mədəni həyatı haqqında düzgün informasiya almalarına şərait yaradır;

7.5. Xaricdə yaşayan azərbaycanlıları, eləcə də onların təsis etdiyi diaspor təşkilatlarını, habelə Azərbaycana dost münasibət bəsləyən digər xalqların diasporlarını Azərbaycan Respublikasının dövlət müstəqilliyinin və suverenliyinin qorunmasına və



möhkəmləndirilməsinə, iqtisadi, sosial və mədəni inkişafına, cəmiyyətin və dövlətin siyasi həyatına, habelə Azərbaycan Respublikası ilə digər dövlətlər arasında qarşılıqlı surətdə faydalı münasibətlərin qurulması və inkişaf etdirilməsi işinə cəlb edir;

7.6. Beynəlxalq hüquq normalarına və müvafiq dövlətlərin qanunvericiliyinə uyğun olaraq xaricdə yaşayan azərbaycanlıların milli-mədəni muxtariyyətlər və ictimai birliklər yaratmaq hüququnun həyata keçirilməsinə yardım göstərir;

7.7. Xaricdə yaşayan azərbaycanlıların vəziyyəti haqqında informasiyanın toplanmasını, təhlilini, qiymətləndirilməsini və bu məqsədlə xüsusi məlumat bankının yaradılmasını təmin edir;

7.8. Qanunvericiliklə müəyyən edilmiş digər istiqamətlərdə fəaliyyət göstərir.

## III. KOMİTƏNİN VƏZİFƏLƏRİ

8. Komitə bu Əsasnamə ilə müəyyən edilmiş fəaliyyət istiqamətlərinə uyğun olaraq aşağıdakı vəzifələri yerinə yetirir:

8.1. Xaricdə yaşayan azərbaycanlılara, onların yaratdıqları qurumlara, kütləvi informasiya vasitələrinə beynəlxalq hüquq normaları çərçivəsində öz tarixi Vətəni ilə əlaqə yaratmaq, ana dilini, milli-mənəvi dəyərləri mənimsəmək, yaşatmaq və inkişaf etdirmək, eləcə də Azərbaycana dost münasibət bəsləyən digər xalqların diasporları ilə əlaqələr qurmaq, onların təcrübəsini öyrənmək məqsədi ilə müxtəlif yönlü təşkilati, informasiya, maddi və mənəvi yardım göstərmək;

8.2. Azərbaycan Respublikasında həyata keçirilən müstəqil, hüquqi və dünyəvi dövlət, demokratik cəmiyyət quruculuğu, sosial-iqtisadi, ictimai-siyasi və mədəni inkişaf haqqında xarici ölkələrdə yaşayan həmvətənləri, habelə Azərbaycana dost münasibət bəsləyən digər xalqların diasporlarını məlumatlandırmaq;

8.3. Dövlət proqramlarının və inkişaf konsepsiyalarının həyata keçirilməsini öz səlahiyyətləri daxilində təmin etmək;

8.4. Digər icra hakimiyyəti orqanlarının diaspor işi ilə bağlı fəaliyyətini əlaqələndirmək;

8.5. Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrin həyata keçirilməsini öz səlahiyyətləri daxilində

təmin etmək;

8.6. Dünya azərbaycanlılarının mənəvi birliyinə və həmrəyliyinə xidmət edən ümummilli ideyaları, milli-mənəvi dəyərləri sistemləşdirmək, onların Azərbaycan Respublikasının vətəndaşları və xarici ölkələrdə yaşayan soydaşlarımız arasında yayılmasını təmin etmək;

8.7. Xaricdə yaşayan azərbaycanlıların mədəniyyət mərkəzlərinə, mədəni-maarif təşkilatlarına, kitabxana, arxiv, muzey, teatr, musiqi ansambllarına və yaradıcı kollektivlərinə digər dövlət orqanları ilə birgə yardım göstərmək;

8.8. Xaricdə yaşayan həmvətənləri Azərbaycan Respublikasında həyata keçirilən iqtisadi islahatlar prosesinə yaxından cəlb etmək, onların Azərbaycanın iqtisadiyyatına investisiya qoyması və ölkə ərazisində sərbəst surətdə sahibkarlıq fəaliyyəti ilə məşğul olmaları üçün əlverişli şərait yaratmaq;

8.9. Xaricdə yaşayan azərbaycanlıların bir-biri ilə əlaqə yaratmasına, təşkilatlanması işinə dəstək vermək, yaradılan ictimai, mədəni və digər birliklərin, habelə onların əməkdaşlıq etdiyi digər diaspor təşkilatlarının Azərbaycan Respublikası ilə əlaqələrinin qurulmasına və inkişafına kömək göstərmək;

8.10. Xaricdə yaşayan azərbaycanlıların öz milli və vətəndaşlıq hüquqlarının təmin edilməsi ilə bağlı həyata keçirdikləri fəaliyyətə beynəlxalq sənədlərdə təsbit olunmuş insan haqlarının müdafiəsi və qorunması prinsipinə uyğun olaraq dəstək vermək, bu məqsədlə azərbaycanlıların sıx yaşadığı dövlətlərin aidiyyəti strukturları ilə səmərəli iş mexanizmi qurmaq və problemlərin həllinə kömək göstərmək;

8.11. Xaricdə yaşayan azərbaycanlıların keçirdikləri mühüm tədbirlərdə Azərbaycan Respublikasının müvafiq dövlət və qeyri-hökumət təşkilatlarının nümayəndələrinin iştirakına kömək göstərmək;

8.12. Azərbaycan Respublikasının beynəlxalq aləmdə təbliğ edilməsi və mənafelərinin müdafiəsi işində Azərbaycana ənənəvi müsbət münasibəti olan diasporların imkanlarından istifadə etmək;

8.13. Diasporla iş sahəsinə ayrılan büdcə vəsaitləri, kreditlər, qrantlar və digər maliyyə vəsaitlərindən təyinatı üzrə səmərəli



istifadə olunmasını təmin etmək;

8.14. qanunvericiliyə uyğun olaraq dövlət sirrinin və məxfilik rejiminin qorunması üçün zəruri tədbirlər, habelə fəaliyyət istiqamətlərinə uyğun təhlükəsizlik tədbirləri görmək;

8.15. öz fəaliyyəti haqqında əhalinin məlumatlandırılmasını təmin etmək;

8.16. diaspor işinin təşkili sahəsində kadr hazırlığını təmin etmək;

8.17. Komitənin strukturunun və fəaliyyətinin təkmilləşdirilməsi istiqamətində öz səlahiyyətləri daxilində tədbirlər görmək;

8.18. Komitənin fəaliyyəti ilə bağlı daxil olan ərizə və şikayətlərə baxmaq və qanunvericiliklə müəyyən edilmiş qaydada tədbirlər görmək;

8.19. xaricdə yaşayan azərbaycanlıların vəziyyəti və onlarla aparılan iş, Azərbaycan diaspor təşkilatlarının fəaliyyəti, habelə Azərbaycana dost münasibət bəsləyən digər xalqların diaspor qurumları ilə əməkdaşlığın inkişafı sahəsində görülmüş işlər haqqında vaxtaşırı hesabatlar, illik məruzələr hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etmək;

8.20. xarici ölkələrdə Azərbaycan diasporunun formalaşmasına, mütəşəkkilliyinin möhkəmlənməsinə yardım etmək, azərbaycanlıların ayrı-ayrı beynəlxalq təşkilatlarda təmsil olunmasına, lobbiçilik fəaliyyətinin gücləndirilməsinə, Azərbaycana dost münasibət bəsləyən digər xalqların diasporları ilə əlaqələrin genişləndirilməsinə kömək etmək;

8.21. xaricdə yaşayan azərbaycanlıların problemləri, eləcə də Azərbaycan diaspor təşkilatlarının fəaliyyəti ilə bağlı dəyirmi masalar, seminarlar və konfranslar keçirmək;

8.22. xaricdə yaşayan azərbaycanlıların milli və vətəndaş hüquqlarının müdafiəsinə yönəlmiş tədbirlər həyata keçirmək, onların sosial-iqtisadi, ictimai-siyasi, mədəni-mənəvi problemlərini öyrənmək və həllinə dair Azərbaycan Respublikasının dövlət strukturları, eləcə də Xarici İşlər Nazirliyinin vasitəsi ilə müvafiq xarici dövlətlər qarşısında təkliflər irəli sürmək;

8.23. azərbaycanlıların yığcam yaşadıqları ölkələrdə və regionlarda Azərbaycan Respublikasının xarici ölkələrdəki diplomatik nümayəndəlikləri ilə birgə ana dilində məktəblərin və Azər-

baycan mədəniyyət mərkəzlərinin açılmasını və fəaliyyətini təşkil etmək;

8.24. xaricdə yaşayan azərbaycanlıların, eləcə də Azərbaycana dost münasibət bəsləyən digər xalqların diaspor nümayəndələrinin Azərbaycan dövlətinə və onun vətəndaşlarına maddi, mənəvi və humanitar yardımını təşkil etmək və aidiyyəti üzrə istiqamətləndirmək;

8.25. respublika və beynəlxalq əhəmiyyətli tədbirlərdə xarici ölkələrdə yaşayan azərbaycanlıların və onların ictimai birliklərinin, habelə zərurət yarandıqda, Azərbaycana dost münasibət bəsləyən digər xalqların diaspor qurumlarının iştirakına kömək etmək;

8.26. xaricdə yaşayan azərbaycanlıların Azərbaycan Respublikasının tədris müəssisələrində təhsil almasına, elmi və digər yaradıcılıq fəaliyyəti ilə məşğul olmasına yardım etmək;

8.27. xaricdə yaşayan azərbaycanlılar, onların məktəb və digər mərkəzləri üçün ana dili dərsliklərinin, müvafiq tədris proqramlarının və vəsaitlərinin hazırlanmasında iştirak etmək;

8.28. fəaliyyət istiqamətlərinə uyğun olaraq qanunvericilikdə nəzərdə tutulmuş digər vəzifələri yerinə yetirmək.

## IV. KOMİTƏNİN HÜQUQLARI

9. Komitə öz vəzifələrini yerinə yetirmək üçün aşağıdakı hüquqlara malikdir:

9.1. diasporla iş sahəsinə aid olan qanunvericilik aktlarının layihəsini hazırlamaq və onların hazırlanmasında iştirak etmək;

9.2. diasporla iş sahəsi üzrə Azərbaycan Respublikasının beynəlxalq müqavilələrə tərəfdar çıxması barədə təşəbbüs irəli sürmək;

9.3. diasporla iş sahəsi üzrə dövlət və yerli özünüidarəetmə orqanlarına, fiziki və hüquqi şəxslərə zəruri məlumatlar (sənədlər) barədə sorğu vermək və onlardan belə məlumatları (sənədləri) almaq;

9.4. xaricdə yaşayan azərbaycanlıların hüquqlarının müdafiəsini təmin etmək məqsədi ilə qanunvericiliklə müəyyən edilmiş qaydada müvafiq beynəlxalq təşkilatlarla, xarici dövlətlərin aidiyyəti dövlət orqanları (qurumları) ilə əməkdaşlıq etmək;

9.5. xarici dövlətlərin diasporla işin təşkili və aparılması sahəsində təcrübəsini öyrənmək, ümumiləşdirmək və qabaqcıl təcrübənin tətbiq olunmasını təmin etmək;

9.6. fəaliyyət istiqamətləri üzrə rəy vermək, təhlillər və ümumiləşdirmələr aparmaq, analitik materiallar hazırlamaq, tədqiqatlar aparmaq, təkliflər vermək;

9.7. xaricdə yaşayan azərbaycanlılar, onların təsis etdiyi diaspor təşkilatları, habelə Azərbaycana dost münasibət bəsləyən digər xalqların diasporları ilə bağlı informasiya və nəşr fəaliyyətini həyata keçirmək, internet saytı yaratmaq və ondan istifadə etmək;

9.8. diasporla iş aparmaq məqsədi ilə Azərbaycan Respublikasının xarici ölkələrdəki diplomatik nümayəndəliklərinə Xarici İşlər Nazirliyi tərəfindən təyin olunan işçilər haqqında təqdimat vermək;

9.9. xaricdə yaşayan azərbaycanlılar, onların təsis etdiyi diaspor təşkilatları, habelə Azərbaycana dost münasibət bəsləyən digər xalqların diasporları ilə iş üzrə komissiyalar, koordinasiya və ekspert şuraları, işçi qrupları yaratmaq;

9.10. diasporla iş sahəsində mütəxəssislərin hazırlanması və ixtisasının artırılması üçün tədbirlər görmək;

9.11. müstəqil ekspertləri və mütəxəssisləri qanunvericiliklə müəyyən edilmiş qaydada öz fəaliyyətinə cəlb etmək;

9.12. fəaliyyət istiqamətlərinə uyğun olaraq qanunvericiliklə müəyyən edilmiş digər hüquqları həyata keçirmək.

## V. KOMİTƏNİN FƏALİYYƏTİNİN TƏŞKİLİ

10. Komitənin aparatı və onun strukturuna daxil olan qurumlar və tabeliyində olan digər qurumlar (hüquqi şəxslər, təşkilatlar və sair) Komitənin vahid sistemini təşkil edir. Komitə öz fəaliyyətini bilavasitə və həmin qurumlar vasitəsilə həyata keçirir.

11. Komitənin strukturu Azərbaycan Respublikasının Prezidenti tərəfindən müəyyən edilir. Komitənin strukturuna daxil olmayan tabeliyindəki qurumların (hüquqi şəxslərin, təşkilatların

və sair) siyahısını, həmçinin Komitənin aparatının və onun strukturuna daxil olan qurumların işçilərinin say həddini Azərbaycan Respublikasının Nazirlər Kabineti təsdiq edir.

12. Komitənin fəaliyyətinə Azərbaycan Respublikasının Prezidenti tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən Komitənin sədri rəhbərlik edir. Komitənin sədri Komitəyə həvalə olunmuş vəzifələrin yerinə yetirilməsi və hüquqların həyata keçirilməsi üçün şəxsən məsuliyyət daşıyır.

13. Komitənin sədrinin Azərbaycan Respublikasının Prezidenti tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən birinci müavini və müavini vardır. Komitə sədrinin müavinləri onlara sədr tərəfindən həvalə edilmiş vəzifələri yerinə yetirir və bunun üçün şəxsən məsuliyyət daşıyırlar.

14. Komitənin sədri:

14.1. Komitənin fəaliyyətini təşkil edir və ona rəhbərlik edir;

14.2. Komitənin aparatının struktur bölmələrinin və strukturuna daxil olan qurumların və tabeliyində olan digər qurumların (hüquqi şəxslərin, təşkilatların və sair) əsasnamələrini (nizamnamələrini) təsdiq edir;

14.3. müəyyən edilmiş struktur, əməkhaqqı fondu və işçilərin say həddi daxilində Komitənin yerli və digər qurumlarının strukturunu, ştat cədvəlini və ayrılmış büdcə təxsisatı daxilində onların xərclər smetasını təsdiq edir;

14.4. Komitənin aparatının işçilərini və strukturuna daxil olan qurumların və tabeliyində olan digər qurumların (hüquqi şəxslərin, təşkilatların və sair) rəhbərlərini vəzifəyə təyin və vəzifədən azad edir, həmçinin digər işçilərini vəzifəyə təyin edir və vəzifədən azad edir, onlar barəsində həvəsləndirmə və intizam tənbeh tədbirləri görür;

14.5. qanunvericiliyə uyğun olaraq icrası məcburi olan əmr və sərəncamlar verir, normativ hüquqi aktları təsdiq edir (imzalayır), onların icrasını təşkil edir və nəzarəti həyata keçirir;

14.6. Komitənin fəaliyyəti barədə Azərbaycan Respublikasının Prezidentinə və Azərbaycan Respublikasının Nazirlər Kabinetinə mütəmadi olaraq hesabatlar və məlumatlar təqdim edir;



14.7. Komitənin vəzifəli şəxslərinin qanunvericiliyə zidd olan qərarlarını ləğv edir;

14.8. Komitəni təmsil edir;

14.9. qanunvericiliyə uyğun olaraq digər səlahiyyətləri həyata keçirir.

15. Komitədə Komitə sədrindən (kollegiyanın sədri), onun müavinlərindən və Komitənin digər rəhbər işçilərindən ibarət kollegiya yaradılır. Komitənin kollegiyasının tərkibinə mütəxəssislər və alimlər də daxil edilə bilər.

16. Komitənin kollegiyasının üzvlərinin sayı və tərkibi Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən təsdiq edilir.

17. Komitənin kollegiyası öz iclaslarında Komitənin fəaliyyəti ilə bağlı məsələləri müzakirə edir və müvafiq qərarlar qəbul edir.

18. Komitənin kollegiyasının iclasları onun üzvlərinin yarıdan çoxu iştirak etdikdə səlahiyyətlidir. Komitənin kollegiyasının qərarları onun üzvlərinin sadə səs çoxluğu ilə qəbul edilir. Komitənin kollegiyasının qərarları qəbul edilərkən səslər bərabər olarsa, kollegiyanın sədrinin səsi həlledici hesab edilir.

19. Komitənin kollegiyasının qərarları protokolla rəsmiləşdirilir və Komitənin sədri tərəfindən təsdiq edilir.

20. Komitənin kollegiyasının üzvləri arasında fikir ayrılığı yarandığı hallarda, Komitənin sədri bu barədə Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat verərək, öz qərarını həyata keçirir. Komitənin kollegiyasının üzvləri şəxsi fikirlərini Azərbaycan Respublikasının Nazirlər Kabinetinə çatdıra bilərlər.

21. Komitənin kollegiyasının iclaslarına zəruri hallarda digər icra hakimiyyəti orqanlarının və təşkilatların, həmçinin xaricdə yaşayan azərbaycanlıların və onların ictimai birliklərinin nümayəndələri dəvət edilə bilər.

22. Diasporla iş sahəsində qabaqcıl təcrübənin öyrənilməsi və həyata keçirilməsi üçün Komitədə ictimai əsaslarla fəaliyyət göstərən elmi-metodiki şura yaradıla bilər. Elmi-metodiki şura haqqında əsasnamə Komitənin sədri tərəfindən təsdiq edilir.

# DÜNYA AZƏRBAYCANLILARININ I QURULTAYI

## «DÜNYA AZƏRBAYCANLILARININ I QURULTAYININ KEÇİRİLMƏSİ HAQQINDA» AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Bu il ölkəmizin ictimai-siyasi həyatında əlamətdar hadisə - Azərbaycanın dövlət müstəqilliyinin 10 illik yubileyi geniş qeyd olunur. Azərbaycan Respublikası Prezidentinin 20 mart 2001-ci il tarixli fərmanı ilə Azərbaycan Respublikasının dövlət müstəqilliyinin onuncu ildönümünə həsr edilən tədbirlər planı təsdiq olunmuş və onun həyata keçirilməsi üçün ölkəmizin bütün guşələrində əməli işlər aparılır. Azərbaycanın on illik müstəqil inkişaf yolunun təhlilinə həsr olunmuş elmi simpozium və konfranslar keçirilir, bu müddət ərzində əldə olunmuş nailiyyətləri əks etdirən sərgilər, kinofilmlər nümayiş etdirilir, çap məmulatı hazırlanır, müxtəlif kütləvi tədbirlər təşkil edilir.

Bütün obyektiv çətinliklərə, bu və ya digər problemlərə baxmayaraq, tarixi baxımdan olduqca qısa bir müddət - on il ərzində xalqımızın əvəzsiz milli sərvəti olan müstəqilliyin qorunub möhkəmləndirilməsi, demokratik hüquqi, dünyəvi dövlət quruculuğunun həyata keçirilməsi, yeni iqtisadi münasibətlər sisteminin yaradılması, ölkədə ictimai-siyasi sabitliyin bərqərar edilməsi, əhalinin təhlükəsizliyinin və rifahının təmin edilməsi sahələrində qazanılmış nailiyyətlər Azərbaycanın intensiv inkişaf dövrünə qədəm qoymasına imkan yaratmışdır. Bu gün qətiyyətlə demək olar ki, Azərbaycanda artıq sosial-iqtisadi inkişafın yeni mərhələsinin möhkəm təməli qoyulmuş və ölkəmiz müstəqil inkişaf yolu ilə inamla irəliləyir. Azərbaycan müstəqil dövlət kimi bütün dünyada tanınır və dünya birliyində öz layiqli yerini tutur. Müstəqilliyimiz sarsılmaz, dönməz xarakter almışdır.

Müstəqil inkişaf yolunda atılmış hər bir uğurlu addım, əldə edilmiş hər bir qələbə xalqımızı azad, müstəqil Azərbaycanın xoşbəxt gələcəyinə dərin nikbinlik və böyük inamla baxmağa ruhlandırır, ona yeni güc, qüvvət verir. Azərbaycan Respublikasının hər bir uğuru dünyanın hansı ölkəsində yaşamasından asılı olmayaraq bütün həmvətənlərimizin də qəlblərində böyük qürur və iftixar hissi doğurur. Bütün dünya azərbaycanlılarının əcdadlarının

məskəni, tarixi vətəni olan Azərbaycan soydaşlarımızın daim diqqət mərkəzindədir.

Ölkəmizin inkişaf və tərəqqi yolundakı nailiyyətlərində dünyanın müxtəlif ölkələrində yaşayan, ürəklərində Azərbaycan amalını daşıyan bütün həmvətənlərimizin də öz payı vardır. Müstəqil Azərbaycan Respublikası dünyanın ayrı-ayrı ölkələrinə səpələnmiş soydaşlarımıza doğma atalıq duyğuları bəsləyir, öz övladlıq borclarını layiqincə yerinə yetirə bilmələri üçün onlara lazımi imkanların yaradılmasına səy göstərir.

Azərbaycanlılar minilliklər boyu özlərinin doğma torpağı olan tarixi Azərbaycan ərazisində yaşayaraq dünya sivilizasiyasına böyük töhfələr vermişlər. Müharibələr, inqilablar, hərbi münaqişələr, dünyada gedən müxtəlif ictimai-siyasi proseslər nəticəsində Azərbaycan parçalanmış, azərbaycanlıların bir qismi öz yurd-yuvalarından didərgin salınmış, deportasiyalara məruz qalmış, bir-birindən ayrı düşmüşdür. İş tapmaq, təhsil almaq məqsədilə doğma yurdu tərk edərək başqa ölkələrdə qərar tutub yaşayan azərbaycanlılar da vardır. Beləliklə də, azərbaycanlılar tarixi Azərbaycan torpaqlarından bütün dünyaya yayılmışlar. Hal-hazırda onlar dünyanın bir çox ölkələrində yaşayırlar. Rusiyada, Ukraynada, Müstəqil Dövlətlər Birliyinin digər ölkələrində, Baltikyanı ölkələrdə, Avropada, Amerikada, Şərq ölkələrində iri Azərbaycan icmaları yaranmışdır.

Öz doğma yurdunda yaşayan azərbaycanlılar başqa ölkələrdə məskunlaşmış həmvətənləri ilə həmişə maraqlanmış, onlarla əlaqələr yaratmaq arzusu ilə yaşamışlar. Lakin keçmiş sovet dövlətinin qadağaları bu arzunun həyata keçirilməsinə imkan verməmişdir. Sovet rejiminin zəifləməyə başladığı 80-ci illərin sonlarında Azərbaycan xalqı öz həmvətənləri ilə əlaqələr yaratmaq üçün səylərini artırdı. Azərbaycan öz dövlət müstəqilliyini bərpa etdikdən sonra Naxçıvan Muxtar Respublikasının Ali Məclisi 16 dekabr 1991-ci il tarixli qərarı ilə həmin səylərin böyük əhəmiyyətini nəzərə alaraq dekabrın 31-ni Dünya Azərbaycanlılarının Həmrəylik Günü elan etdi. Sonra bu bayramın bütün ölkədə rəsmi qeyd edilməsi barədə Azərbaycan Respublikasının Ali Soveti də qərar qəbul etdi. Beləliklə, 1991-ci ildən etibarən Azərbaycanda hamımız üçün əziz bir bayram olan 31 dekabr - Dünya Azərbaycanlılarının Həmrəylik Günü təntənə ilə qeyd olunur. Bu bayram ayrı-ayrı ölkələrdə yaşayan azərbaycanlılarla əlaqələr qurmaq, onlar arasında birlik və həmrəylik yaratmaq işində mühüm rol oynayır.



Müstəqil Azərbaycan Respublikasının daxili və xarici siyasət sahələrində fəaliyyəti, əldə etdiyi uğurlar bütün dünya azərbaycanlılarının milli şüurunu, özünüdərkini, ana torpağı Azərbaycana bağlılığını günü-gündən möhkəmləndirir. Azərbaycan icmalarının ayrı-ayrı ölkələrdə fəaliyyət göstərən cəmiyyətləri, klub və dərnəkləri soydaşlarımızın və həmvətənlərimizin təşkilatlanması, səylərinin birləşdirilməsi, onların fəaliyyətinə məqsədyönlü xarakter verilməsi yolunda faydalı iş aparır, məskunlaşdıqları ölkələrdə Azərbaycanı daha yaxından tanıtmaq üçün müxtəlif tədbirlər görür. Bu qurumlar bir-biri ilə, habelə Azərbaycan Respublikasının hökumət və qeyri-hökumət təşkilatları ilə əlaqələr yaradır, əməkdaşlıq etməyə səy göstərirlər. Müstəqil Azərbaycan Respublikası isə bütün dünya azərbaycanlılarının həmrəyliyinə nail olmaq üçün öz üzərinə düşən tarixi missiyanı yerinə yetirməyə çalışır. Həmin yolda bu vaxta kimi atılmış addımların nəticələrinin təhlili göstərir ki, xaricdəki Azərbaycan diasporunun imkanlarından geniş istifadə olunması, müstəqil Azərbaycan Respublikasının həyatının müxtəlif sahələrində meydana çıxan problemlərinin həllində onun fəal iştirakının təmin edilməsi, ölkəmizin beynəlxalq nüfuzunun daha da artmasına xidmət edən mütəşəkkil, sanballı bir qüvvəyə çevrilməsi yolunda hələ çox iş görülməlidir. Belə bir işin məqsədyönlü və uğurlu yerinə yetirilməsi isə ilk növbədə həmin sahədə toplanmış təcrübənin hərtərəfli müzakirə və təhlil edilib müvafiq strateji proqramın hazırlanmasını tələb edir.

Xaricdə yaşayan soydaşlarımızın və həmvətənlərimizin müstəqil Azərbaycan Respublikası ilə əlaqələrinin daha da möhkəmləndirilməsi, dünya azərbaycanlıları arasında birliyin və həmrəyliyin təmin olunması, habelə Azərbaycan icmaları, cəmiyyət və birliklərinin fəaliyyətinin gücləndirilməsi və əlaqələndirilməsi ilə bağlı məsələlərin müzakirə edilməsi zərurətini nəzərə alaraq qərara alıram:

2001-ci il noyabrın 9-10-da Bakı şəhərində Dünya Azərbaycanlılarının I Qurultayı keçirilsin.

Azərbaycan Respublikası Prezidentinin İcra Aparatı Dünya Azərbaycanlılarının I Qurultayının keçirilməsi məqsədilə işçi qrupu yaratsın, iş planı hazırlayıb təsdiq etsin və onun yerinə yetirilməsinə nəzarət etsin.

Azərbaycan Respublikasının Nazirlər Kabineti bu sərəncamdan irəli gələn məsələləri həll etsin.

*Heydər Əliyev,*
*Azərbaycan Respublikasının Prezidenti.*
*Bakı şəhəri, 23 may 2001-ci il.*



## DÜNYA AZƏRBAYCANLILARININ I QURULTAYINDA AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ HEYDƏR ƏLİYEVİN NİTQİ

**Əziz həmvətənlər!**
**Hörmətli nümayəndələr, qonaqlar!**
**Hörmətli xanımlar və cənablar!**

Sizi Dünya Azərbaycanlılarının I Qurultayının açılışı münasibətilə səmimi qəlbdən təbrik edirəm.

Dünya Azərbaycanlılarının I Qurultayı müstəqil Azərbaycanın həyatında tarixi hadisədir. Bütün dünyada yaşayan azərbaycanlıların, Azərbaycan icmalarının nümayəndələri ilk dəfə olaraq Azərbaycana onun paytaxtı Bakı şəhərinə toplaşmışlar və özlərinin I qurultayını keçirirlər.

Dünya Azərbaycanlılarının I Qurultayının keçirilməsi haqqında qəbul etdiyimiz qərara səs verdiklərinə görə və bu qurultayda iştirak etmək üçün Azərbaycana, Bakıya gəldiklərinə görə bütün nümayəndələrə, qonaqlara, onların təmsil etdikləri müxtəlif ölkələrdə olan Azərbaycan icmalarına təşəkkür edirəm.

Biz, azərbaycanda yaşayan azərbaycanlılar öz həmvətənlərimiz haqqında daimi düşünmüşük.Uzun illər Sovet İttifaqı kimi böyük bir super dövlətin tərkibində ikən xaricdəki soydaşlarımızla, həmvətənlərimizlə əlaqə saxlamaq mümkün olmadığı halda, biz daima düşünmüşük ki, müxtəlif ölkələrdə azərbaycanlılar necə yaşayırlar, nə edirlər və məhdud imkanlardan istifadə edərək onlarla əlaqələr qurmağa çalışmışıq.

1991-ci ildə Sovetlər İttifaqının dağılması və Sovetlər İttifaqının tərkibində olan 15 müttəfiq respublikanın öz müstəqilliyini əldə etməsi, Azərbaycan xalqının milli azadlıq arzularının yerinə yetməsi, Azərbaycanın öz istiqlaliyyətini bəyan etməsi və 1920-ci ildə itirilmiş müstəqilliyini bərpa etməsi bizə imkan verdi ki, müxtəlif ölkələrdə yaşayan azərbaycanlılarla öz əlaqələrimizi genişləndirmək, onlarla həmrəyliyimizi bildirək və dünya azərbaycanlılarının daha da həmrəy olması üçün öz xidmətlərimizi göstərək. Biz hələ müstəqilliyimizin ilk aylarında, 1991-ci il dekabr ayının 31-də

Dünya Azərbaycanlılarının Həmrəylik Günü haqqında qərar qəbul etdik. Biz o vaxtdan bu günü böyük bayram kimi qeyd edirik və o vaxtdan da dünyada yaşayan azərbaycanlılarla əlaqələrimiz tədricən inkişaf etməyə başladı. Bunlar hamısı Azərbaycan xalqının milli azadlığının nəticəsidir.

Azərbaycan xalqı böyük, qədim tarixə malikdir. Çoxəsrlik tariximizdə xalqımız bir çox sınaqlardan çıxmış, yaşamış, öz mənliyini itirməmiş, öz milliliyini itirməmiş, dünya sivilizasiyasına töhfələr vermiş, dünya sivilizasiyasını zənginləşdirmişdir. Ancaq tarixin müxtəlif mərhələlərində azərbaycanlılar bəzi məhrumiyyətlərə düçar olmuşlar. Ona görə də bütün dünyaya səpələnmiş azərbaycanlıların birliyi, həmrəyliyi indi bizim üçün xüsusi əhəmiyyət kəsb edir.

Azərbaycan öz dövlət müstəqilliyini elan edəndən sonra çox böyük, şanlı-şöhrətli, eyni zamanda məşəqqətli yol keçmişdir. Biz bu günlər Azərbaycanın dövlət müstəqilliyinin elan olunmasının 10-cu ildönümü böyük təntənə ilə bayram etdik, əldə etdiyimiz nailiyyətləri bəyan etdik, eyni zamanda qarşımızda duran vəzifələri müəyyən etdik. Hələ həll olunmamış bir çox problemləri təhlil edib, onların həll olunması üçün lazımi tədbirlər görməyə başladıq.

Azərbaycanın müstəqilliyi və on il müstəqil dövlət kimi yaşaması bizim çoxəsrlik tariximizdə ən əhəmiyyətli,ən vacib, ən dəyərli bir hadisədir. Bizim üçün, müstəqil Azərbaycan üçün bu 10 il asan yol olmayıbdır. Biz Azərbaycanda yeni həyat qurmağa başlamışıq. Azərbaycanın demokratiya yolu ilə getməsini bəyan etmişik. Azərbaycanda hüquqi, demokratik, dünyəvi dövlət qurulması işinə başlamışıq. Azərbaycanın iqtisadiyyatını dünya iqtisadiyyatı, inkişaf etmiş ölkələrin iqtisadiyyatı ilə inteqrasiya etmək, bazar iqtisadiyyatı sisteminə keçmək prosesinə başlamışıq. Bunlar hamısı Azərbaycanın ağır və çətin bir şəraitdə yaşadığı zaman baş vermişdir.

Məlumdur ki, Azərbaycan öz dövlət müstəqilliyini əldə edərkən, yəni bəyan edərkən Ermənistan tərəfindən hərbi təcavüzə məruz qalmışdı və dörd il idi ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi davam edirdi. Azərbaycanın ayrılmaz hissəsi olan Dağlıq Qarabağ bu illərdə demək olar ki, Azərbaycanın nəzarətindən çıxmış, Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunmuş və onun ətrafında olan yaşayış məntəqələrində də təcavüzlər başlanmışdı. Məhz belə bir tarixi şəraitdə Azərbaycan öz dövlət müstəqilliyini elan etmişdir. Təbii ki,belə bir şəraitdə müstəqil dövlət qurmaq çox ağır və çətin bir iş idi. Eyni zamanda Azərbaycanın həm müstəqilliyini elan etməsi ərəfəsində, həm də özünü müstəqil dövlət elan etdikdən sonra Azərbaycanın həyatında çox mürəkkəb proseslər baş vermişdir. Ermənistan silahlı qüvvələri torpaq iddiası ilə çıxış edərək, Azərbaycanın Dağlıq Qarabağ vilayətini ələ keçirmək məqsədilə hərbi əməliyyatlara başladığı və ermənilərin hamısı bu amal ətrafında bir yumruq kimi birləşdiyi halda, təəssüf ki, Azərbaycanda bu olmamışdır.

Çünki o illər Azərbaycanda bütün xalqı birləşdirib, səfərbər edib torpaqlarımızı qorumaq və Ermənistan silahlı qüvvələrinə lazımi cavab vermək əvəzinə, hakimiyyət mübarizəsi getmiş, daxili çəkişmələr mövcud olmuş, ayrı-ayrı siyasi qüvvələrə məxsus silahlı dəstələr meydan sulamışlar. Bu da təbii ki, Azərbaycanın, -xalqın birliyini zəiflətmiş və nəhayət, 1993-cü ildə Azərbaycan vətəndaş müharibəsi ilə üzləşmiş, Azərbaycanın varlığı təhlükə altına düşmüş və ölkəmizin parçalanması artıq başlamışdır. Buna görə də müstəqillik elan olunandan sonra Azərbaycanda dövlət quruculuğu işi çox zəif getmişdir.

Bunlar hamısı Azərbaycanda ictimai-siyasi sabitliyi pozmuş, xalqın rifah halını ağırlaşdırmışdır. Bizim üçün bunların ən zərərli nəticəsi o idi ki, bu fürsətdən istifadə edən Ermənistan silahlı qüvvələri Azərbaycanın Dağlıq Qarabağ ətrafında olan inzibati rayonlarının bir neçəsini işğal etmiş, o torpaqlarda yaşayan azərbaycanlıları zorla öz yerindən-yurdundan çıxarmışdır.

Beləliklə, Azərbaycan torpaqlarının 20 faizi Ermənistan silahlı qüvvələrinin işğalı altına düşmüş, həm Ermənistan ərazisindən çıxarılmış, həm də işğal olunmuş torpaqlardan çıxarılmış bir milyondan artıq azərbaycanlı indiyədək ağır vəziyyətdə çadırlarda yaşayır. Azərbaycan belə bir şəraitdə müstəqil dövlət kimi ilk illərini yaşamışdır. Ona görə də bizim qarşımızda duran vəzifə ondan ibarət idi ki, mənfi proseslərin qarşısı alınsın, Azərbaycanın torpaqlarının müdafiə olunması üçün bütün güclər, səylər sə-

fərbər olunsun və Azərbaycan müstəqil dövlət kimi yaşasın, inkişaf etsin.

Azərbaycanda ondan sonrakı dövr ictimai-siyasi sabitliyin yaranması dövrü olubdur. Biz ondan sonra da - 1994-cü ilin oktyabrında, 1995-ci ilin martında hakimiyyəti silahla devirmək cəhdləri ilə rastlaşdıq. Bunların qarşısı alındı, ancaq bunlar da Azərbaycana zərbələr vurdu.

Biz Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həll edilməsi ilə ciddi məşğul olaraq, 1994-cü ilin mayında atəşkəs haqqında razılığa gəldik. İndi 7 ildən artıqdır ki, müharibə getmir, qan tökülmür. Ancaq eyni zamanda Azərbaycanın torpaqlarının bir qismi Ermənistan silahlı qüvvələrinin işğalı altındadır və o torpaqlardan çıxarılmış qaçqınlar, köçkünlər ağır vəziyyətdə yaşayırlar.

Azərbaycanın müstəqilliyinin on ilinin sonrakı mərhələsi ölkəmizin daxilində ictimai-siyasi vəziyyəti sabitləşdirməkdən, Azərbaycanın dünyada mövqeyini möhkəmləndirməkdən, Azərbaycanı bir müstəqil dövlət kimi yaşatmaq və inkişaf etdirməkdən ibarət olubdur. Biz çox çətin, ağır yollardan keçərək ötən on il müddətində buna nail olmuşuq. İndi dünyada on yaşı olan müstəqil Azərbaycan dövləti var. Onun milli Dövlət Bayrağı var, milli Himni var, milli Gerbi var. Azərbaycan dünya birliyində özünə layiq yer tutubdur. Azərbaycanın dövlət bayrağı bütün beynəlxalq təşkilatların iqamətgahları qarşısında dalğalanır, müstəqil Azərbaycanın başı üstündə dalğalanır və daim dalğalanacaqdır, bu yüksəkliklərə qalxmış bayraq bundan sonra heç vaxt enməyəcəkdir.

Güman edirəm ki, bizim qonaqlarımız, xarici ölkələrdə yaşayan azərbaycanlılar Azərbaycanın həyatı ilə maraqlanırlar, Azərbaycanda gedən prosesləri izləyirlər və bizim əldə etdiyimiz nailiyyətlərdən xəbərdardırlar. Ancaq eyni zamanda, bu gün birinci qurultayda mən bir daha demək istəyirəm ki, Azərbaycan müstəqil dövlət kimi, özünün dövlət quruculuğu prosesini həyata keçirir.

Azərbaycanda demokratik, hüquqi, dünyəvi dövlət qurulubdur. Azərbaycan tarixdə ilk dəfə özünün milli Konstitusiyasını qəbul edibdir, azad seçkilər vasitəsilə Milli Məclisini - parlamentini seçibdir, ölkənin prezidentini seçibdir. Azərbaycanda bütün sahələrdə islahatlar həyata keçirilir.



Məlumdur ki, Azərbaycan 70 il SSRİ kimi böyük dövlətin tərkibində olmuş və başqa ölkələrdəkindən tamamilə fərqli olan siyasi-iqtisadi sistem şəraitində yaşamışdır. Bu gün qeyd etmək lazımdır ki, o illər biz müstəqilliyimizdən məhrum olsaq da, Azərbaycan xalqımızın, millətimizin daxili potensialını hərəkətə gətirərək inkişaf etmiş, böyük nailiyyətlər əldə etmiş və müstəqilliyi elan edərkən böyük iqtisadi və intellektual potensiala malik olmuşdur. Azərbaycan müstəqil dövləti onun böyük iqtisadi və intelektual potensialı üzərində qurulubdur. Ancaq indi biz tamamilə başqa sistem yolu ilə gedirik. Keçmişdəkiləri dəyişdirmək, onlardan imtina etmək, yeni sistemdə iş qurmaq, onu həyata keçirmək - bu, ağır, çətin bir prosesdir. Bu bizim keçid dövrümüzün böyük problemləri var.

Birinci, insanların şüurunda çox böyük dəyişiklər baş verməlidir. İkincisi, iqtisadi siyasət uğurla getməlidir.

Bunun üçün isə gərək, keçmiş iqtisadi şəraitdən yeni iqtisadi şəraitə keçid uğurlu olsun. Biz bütün bunlar üçün islahatlar həyata keçirik. Siyasi, iqtisadi, sosial, humanitar sahələrdə bir çox islahatlar həyata keçirmişik və onların müsbət nəticələrini əldə etmişik. Bütün çətinliklərə baxmayaraq, biz yeni iqtisadi siyasətin həyata keçirilməsində uğurlar qazanmışıq. Özəlləşdirmə planını həyata keçirmişik və keçiririk. Azərbaycan üçün çox böyük əhəmiyyət kəsb edən torpaq islahatı aparmışıq.

Məlumdur ki, Azərbaycan əhalisinin təxminən yarısı kənd yerində yaşayır və kənd təsərrüfatı ilə məşğuldur. 70 il hökm sürən kolxoz-sovxoz sistemini dağıtmaq, torpağı sahibinə - kəndlilərə vermək, onlar üçün torpaqdan səmərəli istifadə etmək şərait yaratmaq - bunlar hamısı çox ağır və çətin proseslərdir. Ancaq biz buna nail olmuşuq. Azərbaycanda bazar iqtisadiyyatı inkişaf edir. Beləliklə, Azərbaycan 1990-cı ildən başlamış iqtisadi tənəzzülün qarşısını 1995-1996-cı illərdə ala bilmiş, ondan sonrakı dövr isə Azərbaycan həyatında inkişaf dövrü olmuşdur.

Biz inkişaf edirik. Azərbaycanda iqtisadiyyatın bütün sahələri uğurla inkişaf edir. Bu, təkcə bizim fikrimizdə deyil, beynəlxalq iqtisadi - maliyyə mərkəzlərinin, yəni bu işlərə nəzarət edən

mərkəzlərin də fikrində. Ancaq hələ bizim qarşımızda çox böyük problemlər və böyük çətinliklər var. Hələ ki, biz Azərbaycanda əhalinin rifah halını istənilən səviyyəyə qaldıra bilməmişik .

Sovetlər İttifaqı vaxtı Azərbaycanda yaradılmış böyük sənaye müəssisələrinin bir qismi indi işləmir, bir qismi isə çox az gücü ilə işləyir. Bu, böyük işsizlər dəstəsi yaradılıb. Bu da Azərbaycanın əsas problemlərindən biridir. Qeyd etdiyim kimi, bir milyondan artıq qaçqını, köçkünü bir tərəfdən, onlar işlə təmin olunmayıblar və dövlətin yardımı, humanitar təşkilatın yardımı ilə yaşayırlar. Bu da bizim üçün böyük bir problemdir. Ancaq biz bu problermləri ardıcıl surətdə həll edirik. Biz əldə etdiyimiz nailiyyətlər haqqında danışarkən, eyni zamanda, heç də həyatımızda olan çətinlikləri, problemləri, çatışmazlıqları, nöqsanları gizlətmək məqsədi daşımır. Biz onları Azərbaycanın vətəndaşlarına da, bütün dünyaya da açıq-aydın etiraf edirik. Məhz bu yol ilə biz Azərbaycanın qarşısında duran problemləri həll edə və ölkənin inkişafını daim təmin edə biləcəyik.

Bu sahədə görülən işlər sırasında Azərbacanın dövlət neft strategiyasının xüsusi əhəmiyyəti var. Biz bu strategiyasını 1993-1994-cü illərdə hazırlayıb həyata keçiməyə başlamışıq, Azərbaycanın zəngin sərvətləri olan neft və qaz yataqlarının dünyanın böyük, müasir texnikaya, texnologiyaya malik olan neft şirkətləri ilə müştərək işlənməsini təmin etmişik. İndi bu işlər gedir. Azərbaycanın Xəzər dənizindəki yataqların, ümumiyyətlə, Azərbaycan ərazisində olan neft-qaz yataqlarının müştərək işləməsi üçün 21 müqavilə imzalanıbdır, xarici ölkələrdən 32 böyük neft şirkəti bu müqavilələrin iştirakçısıdır. Artıq biz gördüyümüz işlərin, neft stategiyasının real nəticələrini əldə etmişik. Artıq biz nefti yeni yerlərdən hasil edirik, xarici şirkətlərlə bərabər dünya bazarlarına çıxarırıq. Bunun üçün çox əhəmiyyətli olan neft və qaz kəmərləri yaradırıq. İki neft kəməri - biri şimal istiqamətində Bakı-Novorossiysk, biri ildə qərb istiqamətində Bakı-Supsa yaranıbdır və Azərbaycan neftinin ixracı, dünya bazarlarına ixracı üçün Bakı-Tbilisi-Ceyhan neft kəmərinin inşasına artıq başlamış, Azərbaycanın zəngin "Şahdəniz" yatağında hasil olacaq qazın da Türkiyəyə ixracı üçün lazımı müqavilələr imzalamışıq və qaz kəmərinin inşasına başlayırıq. Bizim neft strategiyamız təkcə bilavasitə neft



hasilatı ilə məşgul olan şirkətlərin yox, eyni zamanda bir çox başqa şirkətlərin Azərbaycanda çalışması üçün və beləliklə, ölkəyə külli miqdarda xarici investisiyanın daxil oması üçün şərait yaradıbdır. Bu, Azərbaycanın müstəqilliyi şəraitində ola bilərdi.

Bilirsiniz ki, Azərbaycan nefti dünyada məşhurdur. Hələ 150 il bundan öncə dünyada ilk dəfə Azərbaycanda sənaye üsulu ilə neft hasil olubdur. Sonrakı illərdə neft hasilatı artıb, ancaq bu, Azərbaycan xalqına məxsus olmayıbdır. Bizim hasil etdiyimiz zəngin neft və qaz 70 il Sovetlər İttifaqının ümumi iqtisadiyyatına qatılıbdır. Biz bundan lazım olan bəhrələri götürə bilməmişik. Məhz dövlət müstəqilliyi, mili azadlığımız, taleyimizi özümüzün həll etmək imkanları bizə bu şəraiti yaradıbdır və biz də bu şəraitdən səmərəli istifadə edirik.

Azərbaycan çox mühüm bir coğrafi-strateji mövqeyə malikdir. Bunun həm iqtisadi əhəmiyyəti var. Bu baxımdan, biz Avropa Birliyi ilə,başqa beynəlxalq təşkilatlarla müştərək işlər görürük. Bu sırada, Avropa Birliyinin TRASEKA proqramının həyata keçirilməsi, tarixi Böyük İpək Yolunun bərpa olunması sahəsində Azərbaycan çox işlər görmüşdür və biz, həm də bütün dünya bunun müsbət nəticələrini əldə edirik. Ancaq gələcəkdə bu proqram çox böyük müsbət nəticələr verəcəkdir.

Böyük İpək yolunun bərpası, TRASEKA proqramının həyata keçirilməsi ilə əlaqədar 1998-ci ildə Azərbaycanda Avropa Birliyi ilə ilk beynəlxalq konfrans keçirildi. Şərqdə Yaponiyaya, Qərbdə İspaniyaya qədər olan 32 dövlətin, 14 beynəlxalq təşkilatın nümayəndələri bu konfransda iştirak etdilər və biz İpək Yolunun bərpası, TRASEKA proqramının həyata keçirilməsi üçün ilk sazişin imzalanmasının şahidi olduq. Bu sahədə görülən işlər, yenə deyirəm, gələcəkdə böyük nəticəsini verəcəkdir.

Bunlar Azərbaycanın həyata keçirdiyi qlobal layihələrdir. Ancaq Azərbaycanın gündəlik həyatında çoxsaylı işlər görülür və güman edirəm ki,siz burada olduğunuz zaman təqdim edilən materiallardan və başqa vasitələrdən bunları özünüz görəcəksiniz və bunlarla tanış olacaqsınız.

Dünya azərbaycanlılarının I qurultayının keçirilməsi həm Azərbaycan üçün, həm də bütün dünya azərbaycanlıları üçün çox əhəmiyyət kəsb edir. Azərbaycanlılar dünyada gedən miqrasiya

prosesi nəticəsində bir çox ölkələrə səpələnmişlər. Bu, təbii bir prosesdir, onun qarşısını almaq olmaz, almaq da lazım deyil və ümumən müsbət xarakter daşıyır. Doğrudur, indi müstəqil olandan sonra bəzi müxalifət dairələri bizi tənqid edirlər ki, Azərbaycan əhalisinin xeylisi - biri deyir 1 milyon, biri deyir 2 milyon kənarda yaşayır. Ancaq mən bunu heç də mənfi bir hadisə kimi qəbul edə bilmərəm. Çünki hər bir millət, hər bir xalq yalnız öz doğma torpağı çərçivəsində, milli məhdudiyyət şəraitində yaşaya bilməz. Bir də qeyd edirəm, dünyada miqrasiya prosesi bütün ölkələrə, xalqlara aiddir. Əgər azərbaycanlılar bu proses nəticəsində dünyanın bir çox ölkələrində məskunlaşıblarsa, orada özləri üçün həyat qurublarsa, özlərinin həyat şəraitini təmin ediblərsə - bunlar hamısı dünyada azərbaycanlıların nə qədər geniş şəkildə yayıldığını göstərir.

Biz hesab edirik ki, müxtəlif ölkələrdə yaşayan azərbaycanlıların hər biri yaşadığı ölkədə həyatını özü istədiyi kimi qurub yaşayır. Yaşadığı ölkənin vətəndaşıdır, onun qanun-qaydaları ilə yaşamalıdır və istədiyi yol ilə getməlidir.

Ancaq eyni zamanda, indi azərbaycanlıların bir müstəqil dövləti mövcud olduğu halda, dünyanın müxtəlif ölkələrində yaşayan azərbaycanlıların bir-biri ilə daha da sıx əlaqə qurması, öz həmrəyliklərini bəyan etməsi və müstəqil Azərbaycan dövləti ilə əlaqələr yaratması tarixin bu mərhələsində çox əhəmiyyətli bir vəzifə kimi meydana çıxır. Bizim vəzifəmiz, Azərbaycan dövlətinin vəzifəsi ondan ibarətdir ki, bütün ölkələrdə yaşayan azərbaycanlılara mümkün olan qayğını, diqqəti göstərsin, onların həyatı ilə maraqlansın və dövlətimiz də ayrı-ayrı ölkələrdə olan Azərbaycan icmaları arasında əlaqələri daha da inkişaf etdirsin. Azərbaycanın xaricində yaşayan azərbaycanlılar isə gərək, indi müstəqil Azərbaycan ilə daha da sıx əlaqələr qursunlar. Bunlar hamısı dünyada olan bütün azərbaycanlıların birliyinin, həmrəyliyinin təmin olunması üçün əsas şərtlərdir.

Biz indi böyük məmnuniyyətlə qeyd edə bilərik ki, dünyanın bir çox ölkələrində - Avropada, Şimali Amerikada artıq böyük Azərbaycan icmaları yaranıbdır. Son illər bu icmalar get-gedə təşkilatlanır, genişlənir və azərbaycanlıların yaşadıqları ölkələrdə onların birliyini, həmrəyliyini təmin edir. Son illər bu proses sürətlə gedir. Güman edirəm ki, məhz müstəqil Azərbaycanın varlığı bu həmrəyliyin inkişafının əsasını təşkil edir.



Biz istəyirik ki, müxtəlif ölkələrdə yaşayan azərbaycanlılar həmin ölkələrin vətəndaşı kimi, istədikləri kimi yaşasınlar. Ancaq heç vaxt öz milli köklərini, milli mənsubiyyətlərini itirməsinlər. Bizim hamımızı, azərbaycanlıları birləşdirən milli mənsubiyyətimizdir, tarixi köklərimizdir, milli-mənəvi dəyərlərimizdir, milli mədəniyyətimizdir - ədəbiyyatımız, incəsənətimiz, musiqimiz, şeirlərimiz, mahnılarımız, xalqımıza mənsub olan adət-ənənələrdir.

İnsan hansı ölkədə yaşamasından asılı olmayaraq, gərək öz milliliyini qoruyub saxlasın. Dünyada, eyni zamanda, assimilyasiya prosesi də var. İnsanlar - mən azərbaycanlılar haqqında danışıram - gərək, yaşadıqları ölkədə, yenə deyirəm, o şəraiti mənimsəyərək, orada özləri üçün yaxşı mövqelər tutsunlar. Ancaq daim öz milli-mənəvi dəyərlərinə, milli köklərinə sadiq olsunlar. Bizim hamımızı birləşdirən məhz bu amillərdir. Bizim hamımızı birləşdirən, həmrəy edən azərbaycançılıq ideyasıdır, azərbaycançılıqdır.

Azərbaycan dövlət müstəqilliyini əldə edəndən sonra azərbaycançılıq aparıcı ideya kimi həm Azərbaycanda, həm də bütün dünyada yaşayan azərbaycanlılar üçün əsas ideya olubdur. Biz həmişə bu ideya ətrafında birləşməliyik. Azərbaycançılıq öz milli mənsubiyyətini qoruyub saxlamaq, milli-mənəvi dəyərlərini qoruyub saxlamaq, eyni zamanda onların ümumbəşəri dəyərlərlə sintezindən, inteqrasiyasından bəhrələnmək və hər bir insanın inkişafını təmin etmək deməkdir.

Bizim bu qurultayı keçirməkdə məqsədimiz məhz bundan ibarət olmuşdur. Güman edirəm ki, qurultay nümayəndələri, dünyanın bir çox uzaq ölkələrindən Azərbaycana, doğma Vətənə gəlmiş soydaşlarımız burada, qurultay günlərində bir-biri ilə daha da sıx ünsiyyətdə olacaqlar, bir-birini anlamağa çalışacaqlar, müxtəlif ölkələrdə olan icmaların bir diaspor kimi formalaşmasında daha fəal iştirak edəcəklər və Azərbaycan ilə dünyada,digər ölkələrdə olan azərbaycanlıların əlaqələrini möhkəmləndirəcəklər. Hesab edirəm ki, qurultay bu sahədə, azərbaycanlılıq ideyalarının həyata keçirilməsi üçün, dünya azərbaycanlılarının həmrəyliyinin

genişləndirilməsi və inkişaf etdirilməsi üçün, çox mühüm tarixi bir mərhələdir.

Ümid edirəm ki, bu qurultay bizim qarşımızda duran vəzifələrin yerinə yetirilməsində çox böyük rol oynayacaqdır, öz xidmətlərini göstərəcəkdir.

Müstəqil dövlət kimi Azərbaycan öz milli mənafelərinə uyğun olan müstəqil xarici siyasət aparır. Müstəqil xarici siyasət aparmaq müstəqilliyi daha da möhkəmləşdirmək deməkdir. Biz həm xarici əlaqələrdə, həm də Azərbaycanın daxilində bir çox çətinliklərlə rastlaşmağımıza baxmayaraq, öz müstəqilliyimizi qoruyaraq dünyada müstəqil siyasət aparırıq.

Azərbaycan sülhsevər dövlətdir. Biz dünyanın bütün ölkələri ilə lazım olan səviyyədə iqtisadi, siyasi, ictimai, elmi, humanitar əlaqələr yaratmışıq, yaradırıq və bu əlaqələri inkişaf etdiririk və etdirəcəyik. Ancaq Azərbaycan heç vaxt öz müstəqil siyasətindən geri çəkilməyəcəkdir. Onun müstəqil xarici siyasəti Azərbaycanın müstəqilliyinin əsas rəmzidir, əsas göstəricisidir.

Azərbaycan dünyanın bütün beynəlxalq təşkilatlarının üzvüdür. Bilirsiniz ki, ilin əvvəlində Azərbaycan möhtəbər Avropa Şurasının da həqiqi üzvü seçilibdir. Bunlar Azərbaycanın xarici siyasətinin, eyni zamanda Azərbaycanın həyatında aparılan demokratik dəyişikliklərin, bütün sahələrdə tətbiq olunan islahatların məntiqi nəticəsidir.

Azərbaycan dünyavi dövlətdir və dünyavi dövlət kimi dünyada yerini tutubdur. Bu, bizim strateji yolumuzdur. Hüquqi, demokratik və dünyavi dövlət - bizim dövlət quruculuğunda əsas prinsipimiz budur. Biz bu yol ilə gedirik və bundan sonra da gedəcəyik.

Sizə deyə bilərəm ki, biz bir çox ağır və çətin məsələləri həll etdik və qarşıda duran üfüqləri də çox yaxşı görürük. Azərbaycanın böyük təbii sərvətləri, əlverişli coğrafi-strateji mövqeyi, güclü iqtisadi, intellektual potensialı və azərbaycanlıların yüksək mədəni səviyyəsi müstəqil ölkəmizin gələcəyinin çox xoşbəxt və firavan olmasını təmin edəcəkdir. Əmin ola bilərsiniz ki, bu yol, qarşısında duran üfüqlər, perspektiv tam realdır. Apardığı iqtisadi siyasət sayəsində bir neçə ildən sonra Azərbaycan zəngin ölkələrdən biri olacaqdır. Azərbaycan xalqının rifah halı çox yaxşılaşacaqdır.



Azərbaycanda hər kəs sərbəst, azad yaşayacaqdır. Azərbaycanda demokratik quruculuq işləri, söz azadlığı, insan azadlığı, vicdan azadlığı, mətbuat azadlığı - bütün azadlıqlar təmin olunub və bundan sonra da təmin olacaqdır. Yəni siyasi dünyagörüşündən asılı olmayaraq, hər bir Azərbaycan vətəndaşı burada, doğma vətənində rahat, özü istədiyi kimi yaşayacaqdır.

Ancaq bizim üçün ən çətin problem, bizi ən çox narahat edən Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsidir, işğal edilmiş torpaqlarımızın azad olunması, Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsidir. Biz bu sahədə çox işlər görmüşük və beynəlxalq təşkilatlarda bu məsələləri qaldırmışıq və lazımi qərarlar qəbul olunub. 1993-cü ildə Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurası Ermənistan silahlı qüvvələrinin işğal etdiyi torpaqlardan qeyd-şərtsiz çıxması barədə dörd qətnamə qəbul etmişdir. Təhlükəsizlik Şurası sədrinin altı bəyanatı var. Ancaq Ermənistan bunlara məhəl qoymur.

1996-cı ilin dekabr ayında ATƏT-in Lissabon zirvə görüşündə Azərbaycanın ərazi bütövlüyünün təmin olunması və Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə həlli haqqında çox əhəmiyyətli bir sənəd qəbul edilmişdir.

ATƏT-in tərkibində olan 54 dövlətdən 53-ü buna səs vermiş, təkcə Ermənistan etiraz etmişdir. Ancaq təəssüflər olsun ki, bu mötəbər təşkilatın, ATƏT-in zirvə görüşünün irəli sürdüyü qərar yenə də Ermənistan tərəfindən qəbul olunmur.

Biz məsələni sülh yolu ilə həll etmək üçün daima çalışırıq. Bilirsiniz ki, hələ 1994-cü ildə Ermənistan-Azərbaycan münaqişəsini həll etmək üçün ATƏT-in Minsk Qrupu yaranıbdır. Minsk Qrupuna 1997-ci ilin əvvəlindən üç böyük dövlət - Rusiya, Amerika Birləşmiş Ştatları, Fransa rəhbərlik edir.

Biz ötən illər bu təşkilatla, Minsk Qrupu ilə, onun həmsədrləri ilə çox işlər görmüşük. Üç-dörd gün bundan öncə həmsədrlər - Rusiya, Amerika Birləşmiş Ştatlarının, Fransanın təmsilçiləri yenə də bölgəmizdə olmuş, bizimlə görüşüb danışıqlar aparmış, Ermənistanda olmuşlar. Biz bir daha sübut etmişik ki, məsələnin sülh yolu ilə həll olunmasının tərəfdarıyıq və bunu hər iki tərəfdən müəyyən kompramislər nəticəsində həll etmək olar. Ancaq bu, beynəlxalq hüquq normaları əsasında, dünyada hamı tərəfin-

dən tanınmış prinsiplər - ölkələrin ərazi bütövlüyü, suverenlyi və sərhədlərinin toxunulmazlığı prinsipləri əsasında həll olunmalıdır. Biz bu işi davam etdirəcəyik. Əmin olduğumu bildirmək istəyirəm ki, biz münaqişənin də ləğv olunmasına, aradan götürülməsinə nail olacağıq, Azərbaycanın ərazi bütövlüyü bərpa olunacaqdır, işğal olunmuş torpaqlar azad ediləcək, yerindən-yurdundan didərgin düşmüş qaçqınlar öz doğma torpaqlarına qayıdacaqlar.

Təbiidir ki, bu sahədə beynəlxalq təşkilatlarla yanaşı, Azərbaycan diasporuna da böyük ehtiyacımız var. Məmnuniyyətlə qeyd edirəm ki, Azərbaycan diasporu son illər təşkilatlanır və Azərbaycan icmaları, diasporu yaşadıqları ölkələrdə, ümumiyyətlə, beynəlxalq aləmdə artıq özlərini göstərirlər. Amma bizim diasporun formalaşmasının ilkin mərhələsidir. Hamımız - siz də, biz də çox iş görməliyik ki, Azərbaycanın güclü diasporu yaransın. Müxtəlif ölkələrdə yaşayan azərbaycanlılar daha da güclənsinlər. İqtisadi cəhətdən daha da möhkəmlənsinlər, yaşadıqları ölkələrin ictimai-siyasi həyatında öz təsirlərini göstərə bilsinlər. Beləliklə də, müxtəlif ölkələrdə Azərbaycanın müstəqilliyini, onun xarici siyasətini təbliğ etməklə yanaşı, Azərbaycanın problemlərinin həll olunmasına yardım etsinlər. Hesab edirəm ki, dünya azərbaycanlıları bu yol ilə getməlidir və bu yolda hələ istifadə olunmamış böyük imkanlar vardır. Bu gün işinə başlayan qurultay da məhz bu məqsədi daşıyır.

Bir də qeyd edirəm ki, biz dünyanın müxtəlif ölkələrində yaşayan azərbaycanlıların hər birinin öz ölkəsində yaxşı yaşamasını, öz mövqeyini möhkəmləndirməsini, öz rifah halını yaxşılaşdırmasını arzulayırıq. Arzulayırıq ki, hər bir azərbaycanlı yaşadığı ölkədə ictimai-siyasi həyatda fəal iştirak etsin, özünə görkəmli bir yer tutsun, müəyyən təsir imkanına malik olsun. Biz bunları arzu edirik.

Bu barədə müəyyən xidmətlər göstərmək üçün biz dövlətimizin tərkibində Azərbaycan diasporu ilə iş üçün xüsusi bir orqanın yaradılması haqqında da qərar qəbul edəcəyik. Güman edirəm ki, belə mərkəzləşmiş bir orqan, yəni Azərbaycan icmaları ilə daim əlaqə saxlayan orqan həm icmaların və ümumiyyətlə Azərbaycan diasporunun formalaşmasına, həm də bizim əlaqələrimizin daha da inkişafına xidmət edəcəkdir.



**Əziz həmvətənlər!**

Öz ürəyimdən gələn fikirləri bir daha bildirmək istəyirəm ki, hər bir insan üçün milli mənsubiyyət onun qürur mənbəyidir. Həmişə fəxr etmişəm ki, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam.

Müstəqil Azərbaycan dövlətinin əsas ideası azəbaycançılıqdır. Hər bir azərbaycanlı öz milli mənsubiyyətinə görə qürur hissi keçirməlidir və biz azərbaycançılığı - Azərbaycanın dilini, mədəniyyətini, milli-mənəvi dəyərlərini, adət-ənənələrini yaşatmalıyıq. Azərbaycan dilinin inkişafı haqqında bizim qəbul etdiyimiz geniş qərar məhz bu məqsədi daşıyır. Biz Azərbaycanın latın əlifbasına keçməsi haqqında qərar qəbul etdik. İndi Azərbaycanda hamı, bütün dövlət orqanları yalnız latın əlifbasından istifadə edir. Bu da bizim milliliyimizi, azərbaycançılığımızı göstərən çox mühüm bir amildir. Biz bundan sonra da Azərbaycan dilinin inkişaf etdirilməsi üçün səylərimizi davam etdirəcəyik.

Bilirsiniz, hər bir millətin dili onun üçün çox əzizdir. Bizim üçün Azərbaycan dili, ana dilimiz həddindən artıq əzizdir. Çünki çox illər ana dilimiz, Azərbaycan dili həyatımızda geniş yer ala bilməmişdir. Amma buna baxmayaraq, hər bir azərbaycanlı dilin qorunub saxlanmasında az da olsa, çox da olsa, öz xidmətini göstərməlidir. Xüsusən, bizim yazıçılarımız, ədəbiyyatçılarımız, şairlərimiz o ağır dövrdə Azərbaycan dilinin yaşamasında böyük xidmətlər göstərmişlər. Mən bu gün böyük iftixar hissi ilə deyə bilərəm ki, Azərbaycan dili XX əsrdə böyük inkişaf yolu keçmişdir. İndi baxın, bizim dilimiz nə qədər zəngindir, nə qədər məlahətlidir, nə qədər şirindir və bütün fikirləri ifadə etməsi üçün nə qədər böyük söz ehtiyatına malikdir.

Biz Azərbaycanda Azərbaycan dilinin hakim olmasını, Azərbaycan dilinin getdikcə inkişaf etməsini təmin edəcəyik. Ancaq eyni zamanda, arzu edirik ki, hansı qitədə, hansı ölkədə yaşamasından asılı olmayaraq hər bir azərbaycanlı o ölkənin dilini də mənimsəsin, o ölkənin adət və ənənələrindən də istifadə etsin, o ölkənin şəraitinə də uyğunlaşsın. Hamı Azərbaycan dilini yaşatsın və inkişaf etdirsin.

Xalqları dil qədər, milli-mənəvi ənənələr qədər, dəyərlər qədər birləşdirən başqa bir vasitə yoxdur. Xüsusən, başqa ölkələrdə

yaşayan azərbaycanlılar. Ona görə də mən arzu edirəm ki, hər bir ölkədə Azərbaycan icmasında azərbaycanlılar həmrəy olsunlar, bir-birilərinə dayaq olsunlar, bir-birinə yardım etsinlər, bir-birinin dərdinə yansınlar və bizim milli adət-ənənələrimizi, milli dəyərlərimizi birlikdə gözləsinlər, milli bayramlarımızı qeyd etsinlər. Təkcə müstəqillik bayramını, Novruz bayramını deyil, bütün başqa bayramları da qeyd etsinlər. Azərbaycan dilini yeni nəslə, uşaqlara çatdırmaq üçün müəyyən tədris imkanları yaratsınlar. Biz bu barədə kömək edəcəyik ki, bizdən sonra gələn nəsillər, sizin övladlarınız, bizim övladlarımız azərbaycançılığı daha da yüksəklərə qaldırsınlar, Azərbaycan dilini,milli mənəvi dəyərlərimizi daim yaşatsınlar.

**Əziz dostlar!**

Əmin ola bilərsiniz ki, müstəqil bir dövlət kimi Azərbaycan 10 ildir ayaq üstə möhkəm durubdur. Ötən dövrdə biz Azərbaycanın müstəqilliyini inkişaf etdirmişik və bu gün bəyan edirəm ki, Azərbaycanın müstəqilliyi əbədidir, dönməzdir və daimidir.

Əziz dostlar, müstəqil Azərbaycan həmişə sizin dayaq yeriniz olacaq, pənah gətirdiyiniz yer olacaq və təbiidir ki, Azərbaycanda biz də sizi özümüzün elçiləri hesab edirik, sizə çox ümidlər bəsləyirik, sizə arxalanaraq, sizi özümüzə dayaq hesab edirik .

Müstəqil Azərbaycan dövləti gənc olduğu kimi, Azərbaycanın həmrəyliyi də, dünya azərbaycanlılarının birliyi də, müxtəlif ölkələrdəki Azərbaycan icmaları da gənclərdir. Ancaq indi biz yeni bir mərhələyə keçmişik. Biz formalaşırıq, müstəqilliyimiz möhkəmlənir , xarici ölkələrdə yaşayan azərbaycanlılar daha tez, daha sürətlə təşkilatlanır və bizim hamımız birlikdə azərbaycançılığı yaşadacağıq və daimi edəcək, əbədi edəcəyik!

Əziz dostlar!

Mən sizin hamınıza can sağlığı və səadət arzulayıram. Xarici ölkələrdən gəlmiş nümayəndələrdən və qonaqlardan xahiş edirəm ki, Azərbaycan xalqının, onun dövlətinin, prezidentinin salamlarını, sevgisini, məhəbbətini bütün Azərbaycan icmalarına, hər bir azərbaycanlıya çatdırasınız.

Sizin hər birinizə işlədiyiniz sahədə, gördüyünüz işdə, yaşadığınız yerlərdə uğurlar arzulayıram. Harada yaşamasından asılı



olmayaraq, hər bir ailəyə, hər bir azərbaycanlıya xoşbəxt həyat və xoşbəxt gələcək arzulayıram. Qoy, çaylarımız qurumasın! Qoy, ağaclarımız kəsilməsin! Qoy, çırağımız sönməsin !

**Azərbaycan xalqına eşq olsun!**
**Yaşasın müstəqil Azərbaycan, Azərbaycan, Azərbaycan!**

# DÜNYA AZƏRBAYCANLILARININ I QURULTAYININ QƏBUL ETDİYİ SƏNƏDLƏR

## DÜNYA AZƏRBAYCANLILARININ I QURULTAYININ QƏTNAMƏSİ

Biz, dünyanın müxtəlif ölkələrində yaşayan azərbaycanlıları təmsil edən qurultay nümayəndələri, Dünya Azərbaycanlılarının I Qurultayının müstəqil Azərbaycan Respublikasının paytaxtı Bakı şəhərində çağrılmasından böyük qürur hissi keçiririk. Qurultayın Azərbaycan Respublikasının müstəqilliyinin bərpa olunmasının 10-cu ildönümü günlərinə təsadüf etməsi bizi sevindirir. Bu yüksək forumun çağrılması qərarı, onun səmərəli keçirilməsi, bütün dünya azərbaycanlılarının nümayəndələrinə taleyüklü məsələlər ətrafında geniş, sərbəst fikir mübadiləsi aparmaq fürsətinin verilməsi müstəqil Azərbaycan dövləti və onun Prezidenti cənab Heydər Əliyevin tarixi xidmətlərindən biri kimi qiymətləndirilməlidir. Bu fürsəti bizə verdiklərinə görə Azərbaycan dövləti və onun Prezidentinə, Azərbaycan hökumətinə, Qurultayın hazırlanmasında zəhməti olan bütün insanlara dərin minnətdarlığımızı bildiririk.

Qurutay qeyd edir ki, XX əsrin son onilliyi dünyanın geosiyasi xəritəsində əhəmiyyətli dəyişikliklərin baş verməsi, dünya siyasətində yeni üfüqlərin açılması ilə əlamətdar olmuşdur. Beynəlxalq aləmdə gedən qlobal hadisələr nəticəsində Azərbaycan xalqı əsrlərlə arzuladığı müstəqilliyinə yenidən qovuşmuş və son illər ərzində aparılan uzaqgörən, məqsədyönlü siyasət nəticəsində öz müstəqilliyini möhkəmləndirmişdir.

Dünya mədəniyyəti xəzinəsinə böyük dühalar bəxş etmiş Azərbaycan xalqı artıq başa çatmış XX əsrin əvvəlində öz zəngin dövlətçilik ənənələrini inkişaf etdirərək Şərqdə ilk demokratik parlamentli respublika yaratmış, əsrin sonunda öz dövlət müstəqilliyini bərpa etmiş və XXI əsrə Avropa xalqları ailəsinin bərabərhüquqlu üzvü kimi qədəm qoymuşdur. Azərbaycan xalqı inkişaf etmiş müasir sivilizasiyalı xalqlarla birgə, demokratiyanın hakim olduğu cəmiyyətdə yaşamaq əzmini bütün dünyaya nümayiş etdirmişdir.

Müstəqil Azərbaycan Respublikası qısa bir müddətdə əsrlərlə bərabər şərəfli yol keçmişdir. Bütün çətinliklərə baxmayaraq xalqımızın misilsiz milli sərvəti olan müstəqilliyin qorunub möhkəmləndirilməsi, milli və vətəndaş birliyinin təmin edilməsi, demokratik, hüquqi, dünyəvi dövlət quruculuğunun həyata keçirilməsi, yeni iqdisadi münasibətlər sisteminin yaradılması, ölkədə ictimai-siyasi sabitliyin bərqərar edilməsi, əhalinin təhlükəsizliyinin və rifahının təmin edilməsi sahəsində qazanılmış nailiyyətlər Azərbaycanın intensiv inkişaf dövrünə qədəm qoymasına imkan vermişdir. Azərbaycan müstəqil inkişaf yolu ilə inamla irəliləyir və tam qətiyyətlə demək olar ki, heç bir qüvvə onu bu yoldan döndərə bilməz.

Dünya Azərbaycanlılarının I Qurultayının iştirakçıları Azərbaycan Respublikasının, onun Prezidenti cənab Heydər Əliyevin Azərbaycanın tərəqqisi, xalqımızın firavan həyatı naminə yeritdiyi xarici və daxili siyasətin bütün dünya azərbaycanlılarının mənafeyinə uyğun gəldiyini bildirir, onu ürəkdən bəyənir və dəstəkləyir.

Qurultay iftixar hissi ilə bəyan edir ki, bu gün harada yaşamasından asılı olmayaraq bütün azərbaycanlılar Azərbaycan Respublikasının tərəqqisi, çiçəklənməsi naminə əllərindən gələni əsirgəmirlər. Azərbaycan Respublikasının iqdisadi, siyasi və mədəni inkişafı, beynəlxalq münasibətlərin bərabərhüquqlu üzvü kimi çıxış etməsi, nüfuzlu iqdisadi və siyasi qurumlar inteqrasiyası, bəşər sivilizasiyasında layiqli yer tutması yolunda atılan addımlar dünya azərbaycanlılarının birgə maraqlarına cavab verir və tərəfimizdən daima dəstəklənəcəkdir.

Qurultay hesab edir ki, bu gun Azərbaycanın demokratik inkişafına mane olan ən başlıca problemlərdən biri Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsidir. Ermənistanın Azərbaycana qarşı təcavüzü nəticəsində torpaqlarımızın 20 faizinin işğalı, bunun nəticəsi kimi bir milyonadək soydaşımızın qaçqın-köçkün vəziyyətinə düşməsi Azərbaycanın müstəqil inkişafı yolunda ciddi maneəyə çevrilib.

Azərbaycan xalqı sülhsevər xalqdır. O, regionda vəziyyəti

gərginləşdirməyə çalışan qüvvələrin bütün təxribatlarına təmkinlə, beynəlxalq hüququn tələblərinə uyğun cavab verir. Lakin Azərbaycanın haqq işinin qələbəsinə hərtərəfli yardım olmalıdır ki, problemin sülh yolundan başqa həllinə yer qalmasın. Bu işdə respublikadan kənarda yaşayan soydaşlarımızın da fəal olmasına, ümumiyyətlə onların daha mütəşəkkil şəkildə təşkilatlanaraq bu və ya digər məsələnin həllində fəal mövqe tutmasına ehtiyac duyulur.

Azərbaycanlıların ayrı-ayrı ölkələrdə mühacirət tarixi XX əsrin əvvəlindən başlasa da, Azərbaycan diasporunun formalaşması işi xeyli gecikmişdir. Təəssüf hissi ilə qeyd edilməlidir ki, onun formalaşması Azərbaycan Respublikasının dövlət müstəqilliyini bərpa etməsindən sonrakı illərə, daha dəqiq desək, 1993-cü ildən sonrakı dövrə təsadüf edir. Məhz bu dövrdən etibarən Azərbaycan Respublikasının Prezidentinin xarici ölkələrə səfərləri zamanı həmin ölkələrdəki Azərbaycan icmaları nümayəndələri ilə keçirdiyi görüşlərdə Azərbaycan diasporunun formalaşması və təşkilatlanması zərurəti bir vəzifə kimi qarşıya qoyuldu.

Azərbaycan Respublikası Prezidentinin çıxış və nitqlərində, imzaladığı sənədlərdə, hər il dekabrın 31-də dünya azərbaycanlılarına müraciətlərində Azərbaycan diasporunun məqsəd və vəzifələri, onun formalaşmasının ideya zəmini-azərbaycançılıq ideologiyası yaradılmışdır. Beləliklə, müstəqil Azərbaycan Respublikasının simasında istinad ediləsi möhkəm dayaq və azərbaycançılıq kimi möhkəm ideya zəmini əldə etməklə Azərbaycan diasporunun yaradılması yolunda konkret tədbirlər həyata keçirilməyə başlandı.

Dünyanın indiki inkişaf mərhələsində diasporun əhəmiyyəti danılmazdır. Bu baxımdan Azərbaycanın da xarici ölkələrdə mütəşəkkil və güclü diasporu olmalıdır. Güclü diasporun mövcudluğu doğma Vətənin güclənməsinə xidmət etməklə bərabər, həm də dünya azərbaycanlıları arasında geniş əlaqələrin yaradılmasına, onların milli və vətəndaş hüquqlarının qorunmasında səylərin birləşdirilməsinə zəmin yaradır. Diasporun Vətənlə və bir-biri ilə əlaqələrinin möhkəmliyi diasporun saflığına və milli birliyinə xidmət edən amil, Vətənindən ayrı düşmüş insanların milli mənəvi dəyərlərə bağlılığını qoruyub artıran vasitədir. Diaspor öz vətəni



ilə mövcud olduğu ölkələr arasında səmərəli dostluq və əməkdaşlıq münasibətlərinin bərqərar olmasında müstəsna əhəmiyyətə malikdir. Diaspor bu gün Azərbaycan üçün çox vacib olan lobbiçilik fəaliyyətinin formalaşdırılmasında və onun Azərbaycanın həyati maraqlarına yönəldilməsində də mühüm rol oynaya bilər. Buna görə də Qurutay müstəqil Azərbaycan Respublikasının diasporla bağlı xüsusi siyasət yeritməsini, onun dövlət səviyyəsinə qaldırılmasını dəstəkləyir və bu istiqamətdə işlərin davam etdirilməsini zəruri hesab edir.

Dünya azərbaycanlılarının 2001-ci il noyabrın 9-10-da Azərbaycan Respublikasının paytaxtı Bakı şəhərində keçirilən I qurultayının başlıca məqsədləri ayrı-ayrı ölkələrdə yaşayan azərbaycanlıların həmrəyliyinin möhkəmləndirilməsi, müstəqil Azərbaycan Respublikası ilə əlaqələrinin genişləndirilməsi, onların ictimai təşkilatlarının fəaliyyətinin əlaqələndirilməsindən ibarətdir.-Qurultay dünyanın müxtəlif ölkələrindən gəlmiş nümayəndələrin mülahizələrini, çoxsaylı təkliflərini, eləcə də azərbaycanlıların müasir dünyadakı sosial-siyasi, iqdisadi, mədəni və s. mövqeyini, azərbaycançılıq platformasına söykənən maraqlarını, tarixən yaranmış mənəvi birlik ehtiyacını nəzərə alaraq qərara alır:

1. Dünya azərbaycanlıları müstəqil Azərbaycan Respublikasının on il ərzində müxtəlif sahələrdə əldə etdiyi nailiyyətləri yüksək qiymətləndirir, Azərbaycan dövlətinin daxili və xarici siyasətini tam dəstəkləyir.

2. Azərbaycanlıların müstəqil Azərbaycan dövləti ilə mədəni, ictimai-siyasi, iqtisadi və s. əlaqələri daha da gücləndirilsin və bu zaman nəzərə alınsın ki, müstəqil Azərbaycan Respublikası dünyanın harasında məskunlaşmasından asılı olmayaraq, bütün azərbaycanlıların mənəvi dayağı,milli-mədəni maraqlarının ifadəçisidir. Azərbaycanın ərazi bütövlüyünün qorunması, müstəqil respublikaya hər hansı formada, daxildən, yaxud xaricdən göstərilən təcavüzün qarşısının alınması, onun demokratik, dünyəvi, hüquqi, milli bir dövlət olaraq inkişaf edib möhkəmlənməsi, yalnız respublika vətəndaşlarının deyil, habelə dünyanın müxtəlif ölkələrində yaşayan soydaşlarımızın, hər bir azərbaycanlının müqəddəs işidir.

3. Azərbaycanlılar məskunlaşdıqları ölkələrin ictimai-siya-

si, iqtisadi-təsərrüfat, mədəni-mənəvi həyatında fəal iştirak etməklə yanaşı onların etnik-tarixi dəyərlərə, milli ənənələrə sədaqət naminə xüsusi diaspor yaratmalarına, lobbiçilik fəaliyyəti ilə məşğul olmalarına böyük ehtiyac vardır.

4. Azərbaycan dilinin, milli-əxlaqi dəyərlərin, azərbaycanlıların bir xalq, millət kimi formalaşdığı tarixi Vətənin şərəfini qorumaq, harada yaşamasından aslı olmayaraq, hər bir Azərbaycan icmasının, hər bir azərbaycanlının müqqədəs vəzifəsidir.

5. Müasir dünya inteqrasiya, intensiv millətlərarası əlaqələr, qlobal münasibətlər, milli sərhədləri aşıb keçən hadisələr dünyası olduğundan müxtəlif ölkələrdə yaşayan azərbaycanlılar beynəlxalq təşkilatlarda təmsil olunmağa,milli maraqları müdafiə etməyə səy göstərməlidirlər.

6. Azərbaycanda uzun əsrlər boyu ümumbəşəri dəyərlərə hörmətlə yanaşılaraq, yüksək tolerantlıq, dözümlülük nümayiş etdirilmiş və ölkədə bu zəmində formalaşmış milli-mənəvi mühit böyük nailiyyət sayılmışdır.Gələcəkdə də bunların qorunub saxlanılması ən ümdə vəzifələrdən biri hesab olunmalıdır.

7. Dünyanın müxtəlif ölkələrində məskunlaşmış azərbaycanlıların təşkilatlanması,onların hüquqlarının müdafiəsi, milli-mənəvi dəyərlərin birgə qorunması məqsədi ilə xüsusi koordinasiya mərkəzi-Dünya Azərbaycanlılarını Əlaqələndirmə Şurası yaradılsın.

8. Dünya azərbaycanlıların qurutayları hər üç ildən bir keçirilsin.

Qurutay əmin olduğunu bildirir ki, müxtəlif ölkələrdə yaşayan azərbaycanlılar həmrəylik nümayiş etdirərək Qurutayın qərar və tövsiyələrinin yerinə yetirilməsi işində var qüvvələrini sərf edəcəklər.

***Qətnamə Dünya azərbaycanlılarının I qurutayında qəbul olunmuşdur. Bakı şəhəri, 10 noyabr 2001-ci il.***



## DÜNYA AZƏRBAYCANLILARININ I QURULTAYI NÜMAYƏNDƏLƏRİNİN AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ CƏNAB HEYDƏR ƏLİYEVƏ MÜRACİƏTİ

**Zati-aliləri!**

Dünya Azərbaycanlılarının I Qurultayının nümayəndələri dərin minnətdarlıq duyğuları ilə Sizə müraciət edirlər. Dünyanın hər tərəfindən bu tarixi məclisə yığılmış dünya azərbaycanlılarının nümayəndələri bugünkü qurultayı Sizin tarixi xidmətiniz, xalqımız, millətimiz, Vətənimiz yolunda göstərdiyiniz növbəti fədakarlıq nümunəsi hesab edirlər. Sizin təşəbbüsünüz sayəsində təşəkkül tapmış diaspor hərəkatı getdikcə genişlənərək, bu gün öz gerçək bəhrələrini verməkdədir.

Bu gün müstəqil Azərbaycan Respublikasında yeridilən müdrik daxili və xarici siyasət nəticəsində ölkə dünya birliyində layiqli yerini tutmuş, beynəlxalq aləmdə tanınmış, onun iqtisadi və mənəvi-intellektual imkanları dünyaya açılmış, o, beynəlxalq sistemə inteqrasiya olunmuşdur. Qurultay münasibətilə doğma Azərbaycana səfər müddətində tarixən az bir zaman kəsiyi - on il ərzində Azərbaycanın əldə etdiyi nailiyyətlərin bir çoxu ilə əyani şəkildə tanış olduq. Biz burada möhkəm siyasi sabitliyin, demokratik, sivil, hüquqi dövlət quruculuğunun, intensiv iqtisadi inkişafın, düşünülmüş investisiya siyasətinin bəhrələrini öz gözlərimizlə gördük. Bütün bunlar bizi sevindirir, qəlbimizdə müstəqil Azərbaycan üçün böyük iftixar və qürur hissi doğurur. Biz - dünya azərbaycanlıları Azərbaycan Respublikasının yeritdiyi rəsmi daxili və xarici siyasəti bəyənir və dəstəkləyirik.

**Möhtərəm Prezident!**

Azərbaycanın dövlət müstəqilliyinin möhkəmləndirilməsi, ölkədə aparılan iqtisadi və hüquqi islahatlar, demokratikləşmə prosesləri, Azərbaycanın Qafqazda və bütün regionda mühüm siyasi qüvvəyə, beynəlxalq iqtisadi layihələrin mərkəzinə çevrilməsi və qüdrətinin getdikcə artması Azərbaycanın dünya sivilizasiyası-

na inteqrasiyasının sübutudur. Bu, dünya azərbaycanlılarının da mütəşəkkilliyinin və həmrəyliyinin artmasına, onların Azərbaycan xalqına mənsubluq hissinin güclənməsinə və azərbaycançılıq ideyaları ətrafında daha sıx birləşməsinə güclü təkan verəcəkdir. Biz əmin olduğumuzu bildiririk ki, Azərbaycan Respublikası həmişə bütün dünya azərbaycanlılarının ümid və məhəbbətlə üz tutduğu müqəddəs məkan, onların layiqli təmsilçisi, beynəlxalq hüquq normalarında əks edilmiş əsas insan hüquqları və azadlıqlarının müdafiəçisi və ifadəçisi olacaqdır.

Dünya azərbaycanlıları müstəqil Azərbaycan Respublikasının dərdlərini, problemlərini öz dərdi kimi qəbul edirlər. Biz Azərbaycan torpaqlarının 20 faizinin erməni qəsbkarları tərəfindən işğalı, bir milyonadək qaçqının ağır şəraitdə yaşaması faktı ilə heç cür barışmır və buna qəti etirazımızı bildiririk.

Erməni millətçilərinin Azərbaycan xalqına qarşı təcavüzü, Dağlıq Qarabağ münaqişəsinin mahiyyəti Azərbaycan dövlətinin ardıcıl siyasi fəaliyyəti sayəsində beynəlxalq aləmə çatdırılmış, təcavüzkar erməni millətçiləri ifşa olunmuşdur. Yaxın zamanda münaqişənin ədalətli həllinə nail olunacağına da şübhə yoxdur. Bununla belə, dünya azərbaycanlıları bütün mümkün vasitələrdən istifadə etməklə, Azərbaycan torpaqlarının sülh yolu ilə azad edilməsi işində öz səylərini daim artıracaqlar.

**Möhtərəm Prezident!**

Qurultay dünya azərbaycanlılarının fəaliyyətində yeni bir mərhələ açdı. Dünya azərbaycanlıları Azərbaycan dövlətini qəti əmin edirlər ki, dəfələrlə bəyan olunan və qurultayın təsbit etdiyi məqsəd və vəzifələr - ümumbəşəri dəyərləri mənimsəməklə yanaşı, milli dəyərlərin qorunub-saxlanılması, Azərbaycan dilinin, adət və ənənələrin, milli mədəniyyət və incəsənətin yaşadılması, inkişaf etdirilməsi, təbliğ olunması yolunda yorulmadan çalışacaq, onların gələcək nəsillərə ötürülməsi üçün öz səylərini əsirgəməyəcəklər. Dünya azərbaycanlıları müxtəlif ölkələrdə yaşayan Azərbaycan icmalarının azərbaycançılıq ideyaları ətrafında birləşməsini, onların həmrəyliyinin möhkəmləndirilməsini, müstəqil Azərbaycan Respublikası ilə əlaqələrinin genişləndirilməsini, Azərbaycan diasporunun daha mütəşəkkil qüvvəyə çevrilməsini özlərinin amalı, vətəndaşlıq borcu hesab edirlər.



**Möhtərəm Prezident!**

Biz - Dünya Azərbaycanlılarının I Qurultayının iştirakçıları müstəqil Azərbaycan dövlətinin əldə etdiyi nailiyyətləri yüksək qiymətləndirir, onun beynəlxalq aləmdə qazandığı nüfuzundan böyük qürur və iftixar hissi duyaraq bəyan edirik ki, müstəqillik, milli birlik, həmrəylik amallarına, ümumbəşəri və milli dəyərlərə əsaslanan azərbaycançılıq ideyalarının bərqərar olması naminə bütün səylərimizi səfərbər edəcəyik.

*Müraciət Dünya azərbaycanlılarının*
*I qurultayında qəbul olunmuşdur.*
*Bakı şəhəri, 10 noyabr 2001-ci il.*

## DÜNYA AZƏRBAYCANLILARININ I QURULTAYI NÜMAYƏNDƏLƏRİNİN DÜNYA AZƏRBAYCANLILARINA MÜRACİƏTİ

**Əziz həmvətənlər!**

Biz - dünya azərbaycanlılarının 2001-ci il noyabrın 9-10-da Azərbaycan Respublikasının paytaxtı Bakı şəhərində keçirilən I qurultayının iştirakçıları sizə müraciət edərək bildiririk ki, hər bir xalqın milli varlığının əsas şərtlərindən biri onun həmrəyliyi, etnik-siyasi mütəşəkkilliyidir. Tarix dönə-dönə sübut etmişdir ki, həmrəylikdən, etnik-siyasi mütəşəkillikdən məhrum olan xalqlar tez-gec güclü millətlərin təsiri altına düşərək assimilyasiya olunur və öz milli simasını itirir. Müasir dünyanın qabaqcıl xalqlarından, millətlərindən biri olmaq üçünsə güclü milli əzm, siyasi iradə nümayiş etdirmək, bir millət kimi beynəlxalq nüfuz qazanmaq lazım gəlir. Odur ki, həm öz tarixi vətənində - Azərbaycanda yaşayan, həm də bu və ya digər səbəbdən dünyanın müxtəlif ölkələrinə səpələnmiş azərbaycanlılar xalqımızın, millətimizin gələcəyi naminə möhkəm həmrəylik və mütəşəkkillik nümayiş etdirməlidir.

Azərbaycan xalqının tarixi qədim, mədəniyyəti isə zəngindir. Onun Nizami, Nəsimi, Füzuli, Mirzə Fətəli Axundov, Hüseyn Cavid, Səməd Vurğun kimi böyük mütəfəkkirləri mənsub olduqları xalqın istedadını tarixin ayrı-ayrı dövrlərində bütün dünyaya nümayiş etdirmişlər. Azərbaycanlılar XX əsrin əvvəllərində qədim və tarixi dövlətçilik ənənəsinə söykənərək, Şərqdə ilk demokratik dövlət - Azərbaycan Xalq Cümhuriyyəti yaratmışdır. XX əsrin sonunda müstəqil Azərbaycan Respublikası da həmin möhtəşəm dövlətçilik təcrübəsi əsasında yaranmış və tarixən azərbaycanlılara xas olan dövlətçilik ənənələrini müasir şəraitdə bütün dünyada sübut etmişdir.

Dünya azərbaycanlılarının harada məskunlaşmalarından asılı olmayaraq, ən mühüm, ən müqəddəs vəzifələrindən biri Azərbaycan xalqının tarixi nailiyyəti, bütün dünya azərbaycanlılarının mənəvi-siyasi iradəsinin nəticəsi olan müstəqil dövlətçiliyi qoruyub saxlamaqdan, milli dövlətimizin dünya birliyində özünəməxsus yer tutmasına çalışmaqdan ibarətdir. Unutmaq olmaz ki,



müstəqil Azərbaycan dövlətinin mövcudluğu, onun demokratik, dünyəvi, hüquqi dövlət quruculuğu yolu ilə inamla irəliləməsi yalnız Azərbaycan Respublikası vətəndaşlarının deyil, bütün dünya azərbaycanlılarının milli müstəqillik və dövlətçilik təfəkkürünün inkişafına, onların həmrəyliyinə təkan verir, mədəni bir etnos kimi Azərbaycan xalqına beynəlxalq nüfuz gətirir.

Dünyanın müxtəlif ölkələrinə səpələnmiş azərbaycanlıların mədəni-siyasi birliyi, həmrəyliyi müstəqil Azərbaycan Respublikasının və bütün dünya azərbaycanlılarının mənafeyinə uyğundur və onun əsas strateji məqsədlərindən biridir. Ona görə də vətəndən ayrı düşmüş hər bir azərbaycanlı əmin olmalıdır ki, onun nüfuzunu, şərəfini qorumağa həmişə hazır olan bir dövlət - Azərbaycan Respublikası vardır. Azərbaycan dövləti Azərbaycan xalqının tarixən dünya mədəniyyətinə verdiyi zəngin maddi, mənəvi-əxlaqi, ideoloji sərvətlərin, Azərbaycan adının etibarlı müdafiəçisi və sahibidir. Yer üzərində mövcud olan milyonlarla azərbaycanlının əsas ünsiyyət vasitəsi olan Azərbaycan dili - Azərbaycan Respublikasının dövlət dilidir. Odur ki, azərbaycançılıq amalı və müstəqil dövlətçilik ətrafında yaranan milli birlik, milli həmrəylik harada yaşamasından asılı olmayaraq, hər bir azərbaycanlının mənafeyinə tam uyğundur. İndi hər bir dünya azərbaycanlısının üz tutmağa, sevgisini, məhəbbətini bildirməyə Azərbaycan adında doğma, müqəddəs bir ocaq, sözünü deməyə, qayğılarını, dərdlərini bölüşməyə isti bir yurd var. Hər bir azərbaycanlı bu ocağa ərklə üz tutduğu kimi, eyni zamanda məsuliyyətlə dərk etməlidir ki, vətən sevgisini işdə sübut etmək, vətənin problemlərindən xəbərdar olmaq, bunları aradan qaldırmaq üçün yollar aramaq, vətənlə nəfəs almaq, onun təəssübünü çəkmək və qayğıları ilə yaşamaq lazımdır. Dünya Azərbaycanlılarının I Qurultayı məhz bu danılmaz həqiqəti, tarixi zərurəti əyani ifadə etdi.

Azərbaycan Respublikasının vətəndaşları olan qardaş və bacılarımız kimi, vətəndən kənarda yaşayan dünya azərbaycanlılarının da öz ölkəsi, vətəndaşı olduğu öz dövləti vardır. Biz hərəmiz bir ölkənin vətəndaşıyıq. Lakin bizim hamımızı azərbaycanlı olmaq kimi böyük bir məsuliyyətli hiss, amal birləşdirir. Vətəndaşlıq borcu bizi yaşadığımız ölkə qarşısında hansı məsuliyyətə sövq edirsə, milli mənsubluq hissi, azərbaycançılıq amalı bizim hər bi-

rimizi müstəqil Azərbaycan dövləti, ata-baba yurdu qarşısında eyni məsuliyyətə sövq edir. Odur ki, azərbaycanlı adını biz həm öz ölkəmiz qarşısında, həm də müstəqil Azərbaycan qarşısında layiqincə doğrultmalıyıq. Elə bu məqsədlə də biz həm müstəqil Azərbaycan dövləti ətrafında, həm də öz aramızda sıx birləşməyə, təşkilatlanmağa çalışmalı, mütəşəkkil qüvvəyə çevrilməliyik. Bugünkü qurultay Azərbaycan diasporunun yaranması və mütəşəkkil bir qüvvəyə çevrilməsi mərhələsinin başlanğıcını qoydu.

Bu gün dünyanın hər yerində yaşayan azərbaycanlılar müxtəlif dövrlərdə mühacirət etmiş insanların övladlarını, nəsillərini və Azərbaycandan kənarda yaşayan digər soydaşlarımızı təmsil edir. Soydaşlarımızın əksəriyyəti özgə millətlər içərisində azərbaycançılığı, milli xüsusiyyətlərimizi, adət-ənənələrimizi, dilimizi qoruyub-saxlaya bilmiş və övladlarına ötürmüşlər. Amma bir həqiqət qeyd olunmalıdır ki, ayrı-ayrı cəhdlərə baxmayaraq, uzun bir tarixi əhatə edən dövr ərzində dünya azərbaycanlıları yaşadıqları dövlətlərdə bir-biri ilə birlik nümayiş etdirə bilməmiş, təşkilatlanmamış, icmalar, diaspor şəklində təmsil olunmamış, dağınıq şəkildə yaşamışlar. Bu da sözsüz ki, milli əlaqələrin və müvafiq olaraq milli varlığın zəifləməsinə şərait yaratmışdır.

On il əvvəl müstəqil Azərbaycan Respublikasının yaranması bütövlükdə Azərbaycan xalqının, o cümlədən dünya azərbaycanlılarının taleyində dönüş nöqtəsi olmuşdur. Bütün dünya azərbaycanlılarını tarixi vətənin, Azərbaycan xalqının ayrılmaz hissəsi hesab edən Azərbaycan dövləti və onun prezidenti cənab Heydər Əliyev dünya azərbaycanlılarının milli birlik və həmrəylik problemini dövlət siyasəti səviyyəsinə qaldırmış, Azərbaycan diasporunun formalaşdırılması, dünya azərbaycanlılarının bir-biri ilə və vətənlə əlaqələrinin yaradılması və möhkəmləndirilməsi məsələlərini bilavasitə gündəmə gətirmişdir.

Bu gün dünya azərbaycanlılarının əsl milli özünüdərk və ümummilli ideya - azərbaycançılıq, müstəqil dövlətçilik və milli mənəvi dəyərlər ətrafında birləşməsi prosesi başlanmışdır. Azərbaycan Respublikasının müstəqilliyinin və dövlətçiliyinin möhkəmləndirilməsi, onun mövqeyinin dünya müstəvisində gücləndirilməsi, erməni təcavüzünə məruz qalmış Azərbaycan xalqının haqq səsinin dünyaya çatdırılması, Dağlıq Qarabağ probleminin



ədalətli həllinə nail olunması və digər ümummilli məsələlərin həlli dünyada yaşayan bütün soydaşlarımızın birliyini və həmrəyliyini daha zəruri edir. Bundan başqa, dünya azərbaycanlılarının birliyi, həmrəyliyi onların yaşadığı ölkələrdə və bütün dünyada güclü və monolit bir qüvvə kimi çıxış etmələrinə, öz milli və vətəndaş haqlarını daha dolğun qorumalarına da əhəmiyyətli təsir göstərə bilər.

**Əziz həmvətənlərimiz!**

Azərbaycan adlı müstəqil dövlətin varlığı bizim ən böyük tarixi sərvətimiz, XX yüzillikdə bütün azərbaycanlıların qazandığı ən böyük nailiyyətdir. Xalqımız nəinki ata-babalarımızın yolunu davam etdirərək müstəqil dövlətçiliyimizi bərpa etmiş, həmçinin on il ərzində onu qoruyaraq hərtərəfli möhkəmləndirmiş, iqtisadi, hüquqi, siyasi, mənəvi baxımdan inkişaf etdirmişdir. Bu gün dünya birliyinə daxil olan müstəqil, suveren Azərbaycan Respublikası millətimizin dünyada yeganə dövləti olub bütün dünya azərbaycanlılarının həm mənəvi pənahı, həm də məbədgahıdır. Odur ki, hər bir azərbaycanlı tarixi vətənin, Azərbaycan dövlətinin taleyində iştirak etməli, onun müstəqilliyi, inkişafı yolunda durmadan çalışmalı, fəaliyyət göstərməlidir.

Azad, firavan, qüdrətli Azərbaycan Respublikası bütün dünya azərbaycanlıları üçün cazibə mərkəzidir. Hər bir azərbaycanlı onu da bilməlidir ki, onun arxasında Azərbaycan Respublikası kimi azad, müstəqil dövlət durur. Azərbaycanı özlərinin tarixi vətəni hesab edən insanlar Azərbaycan dövlətçiliyi ideyaları ətrafında birləşməli, ümummilli məsələlərdə sarsılmaz həmrəylik nümayiş etdirməlidirlər. Xarici ölkələrdə təşkilatlanma prosesinin ilk mərhələsini yaşayan azərbaycanlı icmalarının, mədəniyyət mərkəzlərinin və dostluq cəmiyyətlərinin imkanlarından geniş istifadə olunmalıdır.

Yaxın-uzaq ölkələrin tarixi əyani şəkildə sübut edir ki, mütəşəkkil icmalar halında dünyanın müxtəlif ölkələrində yaşayan, məqsədyönlü fəaliyyət göstərən soydaşlar öz ölkələrinə böyük kömək göstərir, yaşadıqları ölkələrlə tarixi vətən arasında münasibətlərdə güclü amil kimi çıxış edirlər. Bu sahədə bizim istifadə olunmamış zəngin potensialımız vardır və bu potensial mütləq hərəkətə gətirilməlidir.

Müstəqil Azərbaycan Respublikasının 20 faiz ərazisi işğal altındadır. Bir milyonadək soydaşımız öz doğma yurdundan didərgin düşərək ağır qaçqın həyatı yaşamaqdadır. Qarabağ torpağı müqəddəs vətənimizin sadəcə olaraq bir parçası deyil, eyni zamanda milli mədəniyyətimizin incilərini yaşadan mühüm mədəni-tarixi bölgədir. Bu ərazidə cəmləşən nadir mədəniyyət, tarixi abidələrimiz, təkrarsız təbiət incilərimiz erməni işğalçıları tərəfindən vəhşicəsinə dağıdılır, məhv edilir. Hər bir azərbaycanlı xalqımıza qarşı erməni təcavüzü və Dağlıq Qarabağ probleminin ədalətli həlli yolunda haqq səsini ən yüksək beynəlxalq kürsülərdə ucaltmalı, yorulmadan çalışmalı, yaşadığı dövlətin parlamentinə, hökumətinə, ictimaiyyətinə həqiqəti çatdırmalıdır. Yalnız bütün Azərbaycan xalqının birgə səyi ilə münaqişənin ədalətli və beynəlxalq hüquq prinsipləri əsasında həllinə nail olmaq olar.

Bu gün Azərbaycan diasporunun formalaşması, təşəkkül tapması bilavasitə Azərbaycan dövləti və onun Prezidenti cənab Heydər Əliyev tərəfindən dövlət səviyyəsində həyata keçirilir. 1991-ci ildən başlayaraq ilk dəfə onun təşəbbüsü ilə Naxçıvanda, sonra isə bütün Azərbaycan miqyasında hər il 31 dekabr - Dünya Azərbaycanlılarının Həmrəylik Günü kimi xüsusi qeyd edilir. Bu bayram ərəfəsində bütün dünya azərbaycanlıları üçün xüsusi tədbirlər təşkil olunur, qəbullar keçirilir və ölkə başçısının müraciəti səsləndirilir. 1994-cü ildən başlayaraq xarici ölkələrə səfərlər zamanı - Fransada, Böyük Britaniyada, Türkiyədə, ABŞ-da, Almaniyada, Rusiyada, Ukraynada, Polşada, Rumıniyada, Belçikada, Norveçdə, Bolqarıstanda və bir çox digər ölkələrdə yaşayan soydaşlarımızla maraqlanan, görüşlər keçirən Azərbaycan Prezidenti cənab Heydər Əliyev xaricdə yaşayan həmvətənlərimizi daim milli ideya ətrafında birləşməyə, təşkilatlanmağa, icmalar, milli-mədəni cəmiyyətlər yaratmağa səsləyir. İnanırıq ki, 1993-cü ildən başlayaraq bu günə qədər davam edən ardıcıl, məqsədyönlü, getdikcə genişlənən milli diaspor hərəkatı Dünya Azərbaycanlılarının I Qurultayından sonra daha da güclənəcək, bu hərəkatın gerçək nəticələri, təşkilatlanma səviyyəsi yüksələcəkdir.

**Əziz soydaşlarımız!**

Dünya azərbaycanlılarının qarşısında duran tarixi vəzifələr hər bir azərbaycanlını tarixi vətəni - müstəqil Azərbaycan Respublikası ilə fəxr etmək, onun həyatında yaxından iştirak etmək, sıx əlaqə saxlamaqla yanaşı, yaşadığı ölkədə azərbaycançılığı ehtiva edən milli dəyərləri qorumaq, tanıtmaq, yaşatmaq, inkişaf etdirmək kimi məsuliyyətə səsləyir. Bu, hər şeydən əvvəl, Azərbaycan dilinin qorunması, yaşadılması, soydaşlarımız arasında təbliğ olunmasına aiddir. Dünya azərbaycanlıları buna yaşadıqları ərazilərdə məktəblər, təhsil və tərbiyə ocaqları, mədəniyyət mərkəzləri açmaqla nail ola bilərlər. Bundan başqa, harada yaşamasından asılı olmayaraq, sağlam milli adət və ənənələrin, mədəni dəyərlərin qorunub saxlanılması, yeni nəsillərə ötürülməsi dünya azərbaycanlılarının mənəvi borcudur. Qurultayın gedişindən və ölkə Prezidenti cənab Heydər Əliyevin nitqindən də göründü ki, müstəqil Azərbaycan Respublikası bu sahədə dünya azərbaycanlılarına hər cür yardım göstərməyə bundan sonra da hazırdır.

Dünya Azərbaycanlılarının I Qurultayı sübut etdi ki, hər bir xalq, millət yalnız mütəşəkkil olanda, birlik nümayiş etdirəndə, həmrəy olanda güclüdür. Ümumi məqsədlər ətrafında birləşmək, təşkilatlanmaq, yaşadığı dövlətdə icmalar, qurumlar, cəmiyyətlər şəklində bir-birilə sıx təmas qurmaq, siyasi və mədəni həyatda fəal iştirak etmək dünya azərbaycanlılarının bundan sonrakı fəaliyyətində ən ümdə məsələ olmalıdır. Həm tarixi vətənlə, həm də özləri arasında qırılmaz əlaqələr yaratmaq xaricdə yaşayan azərbaycanlıların və bütövlükdə Azərbaycan diasporunun qarşısında duran tarixi vəzifələrdir.

Harada yaşamasından, hansı ölkənin vətəndaşı olmasından asılı olmayaraq, bütün dünya azərbaycanlıları vahid bir xalqı, bir milləti, bir vətəni təmsil edirlər.

**Əziz həmvətənlərimiz!**

Gəlin ümummilli ideya - müstəqil Azərbaycan dövlətçiliyi, vahid milli-mənəvi dəyərlər, azərbaycançılıq ideyası ətrafında daha da sıx birləşək!

Yaşasın dünya azərbaycanlılarının sarsılmaz həmrəyliyi və birliyi!

***Müraciət Dünya Azərbaycanlılarının I Qurultayında qəbul olunmuşdur. Bakı şəhəri, 10 noyabr 2001-ci il.***

# DÜNYA AZƏRBAYCANLILARININ I QURULTAYI NÜMAYƏNDƏLƏRİNİN ERMƏNİSTAN-AZƏRBAYCAN, DAĞLIQ QARABAĞ PROBLEMİ İLƏ ƏLAQƏDAR DÜNYA İCTİMAİYYƏTİNƏ, BEYNƏLXALQ TƏŞKİLATLARA, XARİCİ ÖLKƏLƏRİN HÖKUMƏT RƏHBƏRLƏRİNƏ VƏ PARLAMENTLƏRİNƏ MÜRACİƏTİ

**Hörmətli xanımlar və cənablar!**

Dünya Azərbaycanlılarının I Qurultayının Azərbaycan Respublikasının paytaxtı Bakı şəhərində toplanmış nümayəndələri böyük inam hissi ilə Sizə müraciət edirlər.

Məlum olduğu kimi, XX əsrin sonlarında bir qrup erməni separatçılarının fəaliyyəti nəticəsində dünyanın siyasi leksikonuna yeni bir anlayış daxil oldu: "Dağlıq Qarabağ münaqişəsi". Azərbaycan mədəniyyətinin böyük dühalarının vətəni olan Dağlıq Qarabağ Azərbaycan xalqının bu gün də yaşadığı olduqca böyük faciənin və humanitar fəlakətin rəmzinə çevrildi. İndi Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi İsrail-Fələstin münaqişəsindən sonra ən uzun sürən münaqişə kimi tanınır.

Dağlıq Qarabağ ətrafında Ermənistan-Azərbaycan münaqişəsi, əslində, Ermənistanın Azərbaycana qarşı aşkar ərazi iddiaları, zaman-zaman həyata keçirilən qəsbkarlıq planlarının növbəti mərhələsinin başlanması idi.

Azərbaycanlılara qarşı müntəzəm yeridilən bədnam soyqırımı, deportasiya və işğal siyasətinin yüz illərlə ölçülən uzun tarixi vardır. XIX əsrin əvvəllərindən etibarən tarixi Azərbaycan torpaqlarında ermənilər kütləvi şəkildə məskunlaşdırılmağa başlanmış, azərbaycanlıların öz qədim torpaqlarından, ata-baba yurdlarından qovulması prosesi məqsədyönlü şəkildə həyata keçirilmişdir. Bədnam "Böyük Ermənistan" ideyasını gerçəkləşdirmək üçün saxta ideoloji tezislər formalaşdırılmış, bu məqsədi reallaşdırmaq üçün terrorçu təşkilatlar yaradılmışdır. Erməni əhalisi türk və Azərbaycan xalqına qarşı daim millətçilik, şovinizm ruhunda tərbiyə olunmuşdur.

Sovet hakimiyyəti illərində davam etdirilən deportasiya və soyqırımı siyasəti tarixi Azərbaycan torpaqlarının - Göyçə, Zəngəzur və başqa ərazilərin zorla Ermənistana verilməsi, yüz minlərlə azərbaycanlının doğma torpaqlarından çıxarılması ilə nəticələnmişdir. Sovet imperiyasının dağıldığı dövrdə erməni qəsbkarları həmin planların həyata keçirilməsi üçün yaranmış əlverişli şəraitdən istifadə etdilər.



Münaqişənin ilkin mərhələsində Ermənistanın azərbaycanlılardan etnik təmizlənməsi çox qısa müddətdə başa çatdırıldı. Etnik təmizləmə müdafiəsiz insanlara qarşı kütləvi zorakılıq və qətllərlə müşayiət olunurdu.

1988-ci ilin fevralından etibarən SSRİ rəhbərliyinin ədalətsiz mövqeyi və təcavüzkarı şirnikləndirmə siyasəti Ermənistanın, habelə Azərbaycanın Dağlıq Qarabağ Muxtar Vilayəti rəhbərlərinin millətçi-şovinist təbliğatına və yerli azərbaycanlı əhaliyə qarşı Konstitusiyaya zidd hərəkətlərinə rəvac verdi. Bu, Ermənistanın Azərbaycana qarşı genişmiqyaslı hərbi-siyasi təcavüzünün başlanğıcı idi.

SSRİ rəhbərliyi Azərbaycanın ərazi bütövlüyünün kobud şəkildə pozulmasına, Dağlıq Qarabağın Azərbaycandan qoparılmasına yönəldilmiş məqsədyönlü siyasətə qarşı çıxmağa cəsarət edən Azərbaycan xalqına qarşı açıq-aşkar zorakılıq yolunu seçdi. Sovet Ordusunun böyük kontingentinin, xüsusi təyinatlı bölmələrin və daxili qoşunların 1990-ci il yanvarın 20-də Bakını işğal etməsi görünməmiş qəddarlıq və vəhşiliklərlə müşayiət edildi. Ermənistanın qəsbkarlıq planlarına qarşı çıxmağa cəsarət etmiş Azərbaycan xalqının inamını və iradəsini qırmaq, sovet hərb maşınının gücünü nümayiş etdirmək məqsədi ilə törədilən 20 Yanvar faciəsi totalitar rejimin Azərbaycan xalqına qarşı dəhşətli cinayəti idi.

Mərkəzin dəstəyindən sonra daha da azğınlaşan Ermənistan Azərbaycanın Dağlıq Qarabağ regionunda Konstitusiyaya və beynəlxalq hüquq normalarına zidd hakimiyyət strukturları yaradaraq, separatçı, oyuncaq "Dağlıq Qarabağ Respublikası"nı elan etdi. Dağlıq Qarabağ Muxtar Vilayətində və onun ətrafında yerləşən sovet qoşunlarının bütün silahları qanunsuz olaraq əslində Ermənistan ordusunun bir hissəsi olan və "özünümüdafiə qüvvələri" adlandırılan erməni silahlı dəstələrinin sərəncamına verildi. Azərbaycana qarşı silahlı təcavüzü həyata keçirmək üçün əməliy-

yat meydanı yaradıldı, Ermənistan Azərbaycana qarşı hərbi təcavüz mərhələsinə qədəm qoydu.

1992-ci ilin fevralında Azərbaycanın qədim Xocalı şəhərində qocalar, qadınlar və uşaqlar da daxil olmaqla min nəfərə yaxın dinc sakin ermənilər tərəfindən vəhşicəsinə qətlə yetirildi. Xocalı soyqırımı XX əsr tarixinə ən dəhşətli faciələrdən biri kimi daxil oldu. Elə həmin ilin mayında Şuşa şəhərinin işğalı ilə Dağlıq Qarabağda etnik təmizləmə əməliyyatı başa çatdırıldı. 1992-ci ildə erməni təcavüzü Dağlıq Qarabağın inzibati hüdudlarından kənara çıxaraq Azərbaycanın qalan hissəsinə yayılmağa başladı. 1992-ci ilin mayında Laçın rayonu işğal olundu.

Azərbaycanın və Ermənistanın Birləşmiş Millətlər Təşkilatına üzv olması ilə Dağlıq Qarabağ problemi regional müstəvidən çıxaraq, ən gərgin beynəlxalq münaqişə ocaqlarından birinə çevrildi. Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurası 1993-cü il ərzində Dağlıq Qarabağla bağlı 822, 853, 874 və 884 nömrəli qətnamələrini qəbul etdi. Həmin qətnamələrdə Azərbaycanın suverenliyinə, ərazi bütövlüyünə və sərhədlərinin toxunulmazlığına hörmət ifadə edilərək, sərhədlərin dəyişdirilməsi üçün zor işlədilməsinin yolverilməzliyi təsdiq edildi. Təhlükəsizlik Şurası öz qətnamələrində silahlı əməliyyatlara və düşmənçilik hərəkətlərinə son qoyulmasını, erməni silahlı qüvvələrinin Azərbaycanın işğal olunmuş rayonlarından dərhal, tamamilə və qeyd-şərtsiz çıxarılmasını tələb etdi. Ermənistan Respublikası isə Təhlükəsizlik Şurasının tələblərinə məhəl qoymayaraq, Azərbaycan ərazisini hələ də işğal altında saxlamaqda və orada öz hərbi qüvvələrini artırmaqda davam edir.

Azərbaycan Respublikasına qarşı təcavüz nəticəsində 17 min kvadrat kilometrdən çox torpaq, yəni ölkə ərazisinin təqribən 20 faizi işğal edilmişdir. 18 min nəfərdən çox adam həlak olmuş, 50 mindən çox adam yaralanmış və ya əlil olmuşdur. Yüzlərlə yaşayış məntəqəsi, iqtisadi obyekt, məktəb, tibb müəssisəsi və sair dağıdılmış və ya talan edilmişdir. Azərbaycanın işğal olunmuş ərazilərindən didərgin düşən məcburi köçkünlərin və Ermənistandan gələn qaçqınların sayı bir milyon nəfərdən çoxdur. Səkkiz milyon əhalisi olan bir ölkədə bu rəqəm dünyanın oxşar vəziyyətdə olan regionları ilə müqayisədə çox yüksək göstəricidir



və Azərbaycanın necə böyük bir humanitar fəlakətlə üzləşdiyindən xəbər verir.

Bütün bu illər ərzində Ermənistan- Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin dinc yolla nizamlanması üçün xeyli səylər göstərilmişdir. ATƏT-in bu məqsədlə yaradılmış xüsusi təsisatı olan Minsk Qrupunun bu istiqamətdə apardığı iş, Azərbaycan və Ermənistan prezidentlərinin birbaşa görüşləri hələ konkret nəticə verməmişdir. ATƏT-in Lissabon sammiti münaqişəni Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll etməyi qərara alsa da, Ermənistan Respublikası bu nüfuzlu təşkilatın tələblərinə məhəl qoymur. Əksinə, Azərbaycanın işğal olunmuş ərazilərində özünün silahlı qüvvələrini və döyüş texnikasını kəmiyyət və keyfiyyətcə artırmaqda davam edir.

Dağlıq Qarabağ münaqişəsinin acı təcrübəsi göstərir ki, vasitəçilərin qətiyyətsizliyi, qeyri-prinsipial mövqeyi və işğalçı ilə təcavüzə məruz qalmış tərəf arasında tarazlıq yaratmaq cəhdləri təcavüzkarın əməllərini nəinki şirnikləndirmək deməkdir, həm də bütün Qafqaz regionunda əmin-amanlıq və sabitlik üçün təhlükədir.

Bu il sentyabrın 11-də Amerika Birləşmiş Ştatlarında baş vermiş dəhşətli terror aktlarından sonra dünyada yaranmış yeni siyasi vəziyyət, dünya hadisələrinə yeni kontekstdən baxış da Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tezliklə nizama salınmasını zəruri edir və bunun üçün əlavə imkanlar yaradır. Dağlıq Qarabağda tüğyan edən təcavüzkar erməni separatçılığı təkcə Azərbaycan üçün, Qafqaz regionu üçün deyil, bütün dünya üçün təhlükəli nəticələrə gətirib çıxara bilər. Çünki beynəlxalq terrorizmi qidalandıran əsas mənbələrdən, onun başlıca komponentlərindən biri məhz təcavüzkar separatçılıqdır.

Azərbaycan xalqı sülhsevər xalqdır. Milliyyətindən, irqindən, dilindən və dinindən asılı olmayaraq, bütün xalqların nümayəndələri Azərbaycanda həmişə böyük səmimiyyət, mehribanlıq və dostluq şəraitində yaşamışlar. Xalqımızın tarixi onun yüksək tolerantlığı və sülhsevərliyi faktları ilə zəngindir. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin dinc yolla tənzimlənməsi məsələsində də Azərbaycan xalqı böyük səbr və təmkin nümayiş etdirir, möhkəm və ədalətli sülhün bərqərar olması və re-

gionda təhlükəsizlik üçün təminat yaradılması yolunda yorulmadan səylər göstərir. Lakin bügünkü reallıq ondan ibarətdir ki, Ermənistanın təcavüzünün nəticələri Azərbaycan üçün əsl milli faciəyə çevrilmişdir. Bu gün Azərbaycanda müharibə getmir, lakin Ermənistanla daimi sülh də bərqərar edilməmişdir. "Nə müharibə, nə də sülh" vəziyyəti - Azərbaycan torpaqlarının işğal altında qalması, çadır düşərgələri, minlərlə qocanın, qadının və uşağın məşəqqəti, bədbəxtliyi, çoxsaylı itkilər isə məyusluq yaradır.

Dünya Azərbaycanlılarının I Qurultayının iştirakçıları bütün dünya ictimaiyyətinə, beynəlxalq təşkilatların rəhbərlərinə, ayrı-ayrı ölkələrin dövlət, hökumət və parlament rəhbərlərinə, üzvlərinə, bütün sülhsevər insanlara müraciət edərək, Azərbaycan xalqının haqq işinin müdafiə olunması, regionda, həmçinin dünyada sülh və əmin-amanlıq üçün təhlükə törədən Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin dinc yolla, beynəlxalq hüquq və ədalət prinsiplərinə uyğun nizama salınması üçün davamlı səylər göstərməyə çağırır. Sizi tarixən regionda öz pozuculuq fəaliyyəti ilə problemlər yaratmış davakar erməni millətçilərinin, dünyanın bir çox ölkəsində fəaliyyət göstərən erməni diasporu və lobbisinin heç bir hüquqi və məntiqi əsasa söykənməyən iddialarının, arqumentsiz tələblərinin əsl mahiyyətinə bələd olmaq üçün problemlə daha yaxından tanış olmağa, təcavüzkar Ermənistanla işğala məruz qalmış Azərbaycana fərqli münasibət nümayiş etdirməyə səsləyirik. Ümid edirik ki, dünyada sülhün və əmin-amanlığın bərqərar olması, xalqların dinclik və təhlükəsizlik şəraitində yaşaması üçün səmərəli fəaliyyət göstərən beynəlxalq təşkilatlar, ayrı-ayrı dövlətlər və dünya ictimaiyyəti səsimizə səs verəcək, Qafqaz regionundakı bu təhlükə ocağının ləğv edilməsi, münaqişənin qarşılıqlı kompromislər əsasında, beynəlxalq hüququn hamılıqla qəbul edilmiş normalarına uyğun nizama salınması üçün bütün potensial imkanlardan istifadə edəcəklər.

Sizə əvvəlcədən öz dərin minnətdarlığımızı bildiririk.

***Müraciət Dünya azərbaycanlılarının I qurultayında qəbul olunmuşdur. Bakı şəhəri, 10 noyabr 2001-ci il.***



## DÜNYA AZƏRBAYCANLILARININ I QURULTAYI NÜMAYƏNDƏLƏRİNİN 2001-Cİ İL SENTYABRIN 11-DƏ AMERİKA BİRLƏŞMİŞ ŞTATLARINDA TÖRƏDİLMİŞ QANLI TERROR HADİSƏLƏRİ İLƏ BAĞLI AMERİKA XALQINA MÜRACİƏTİ

**Hörmətli xanımlar və cənablar!**

Dünya azərbaycanlılarının Azərbaycan Respublikasının paytaxtı Bakı şəhərində keçirilən I qurultayının nümayəndələri bildirir ki, 2001-ci il sentyabrın 11-də Amerika Birləşmiş Ştatlarında törədilmiş terror hadisələri və bu hadisələrdə həyatını qurban vermiş insanların faciəsi dünyanın bütün tərəqqipərvər insanları kimi, biz azərbaycanlıları da hiddətləndirmiş və məyus etmişdir. 2001-ci il noyabrın 9-10-da Bakı şəhərində Dünya Azərbaycanlılarının I Qurultayına toplaşmış 36 ölkənin nümayəndələri Azərbaycan Respublikasının Prezidenti cənab Heydər Əliyevin terror hadisələrindən dərhal sonra Amerika xalqına və konqresmenlərinə, ABŞ prezidenti cənab Corc Buşa ünvanladığı müraciətə qoşulur, bu məsələ ilə bağlı onun prinsipial mövqeyini dəstəkləyirlər.

Kütləvi insan faciəsi ilə müşayiət olunan terrorizm Azərbaycan xalqına yaxşı tanışdır. 1988-ci ildən başlayaraq qonşu Ermənistan və onun millətçi, separatçı qüvvələri tərəfindən dinc Azərbaycan əhalisinə qarşı yüzlərlə belə qanlı terror aktları törədilmişdir. Odur ki, Amerika Birləşmiş Ştatlarında törədilmiş terror hadisələri Azərbaycan xalqı tərəfindən daha kəskin hiddətlə qarşılanmışdır.

Qurultay nümayəndələri 11 sentyabr terroru qurbanlarının xatirəsini dərin hüznlə yad edir və Amerika xalqına başsağlığı verirlər. Əminik ki, Amerika xalqının azadlıq əzmini, sülhsevər və ədalətli mövqeyini heç bir terror aktı ilə qırmaq olmaz. Ümidvarıq ki, bütün bəşəriyyət üçün ciddi təhlükə doğuran beynəlxalq terrorizmə dünya ölkələrinin birgə səyi ilə birdəfəlik son qoyulacaqdır.

**Sizə dərin hörmət və məhəbbətlə,**

***Dünya azərbaycanlılarının I qurultayı nümayəndələri. Bakı şəhəri, 10 noyabr 2001-ci il.***

# DÜNYA AZƏRBAYCANLILARININ II QURULTAYI

## «DÜNYA AZƏRBAYCANLILARININ II QURULTAYININ KEÇİRİLMƏSİ HAQQINDA» AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Müstəqillik dövründə Azərbaycan Respublikası milli dövlət quruculuğu sahəsində mühüm nailiyyətlər əldə etmiş, özünün hüquqi-siyasi, sosial-iqtisadi dayaqlarını möhkəmləndirmiş, iqtisadi potensialına, demokratik inkişaf səviyyəsinə, beynəlxalq aləmdə tutduğu mövqeyə görə regionun lider dövlətinə çevrilmişdir.

Qazanılmış nailiyyətlər ölkə daxilində milli birliyin təmin olunmasına, dünya azərbaycanlıları arasında həmrəyliyin güclənməsinə səbəb olmuşdur. Ölkəmizin irəliyə doğru atdığı hər bir addım, qazandığı nailiyyət dünyanın müxtəlif ölkələrində yaşayan soydaşlarımızı daha da ruhlandırmış, onların müstəqil dövlətimizə inamını, milli hisslərini və gələcəyə ümidlərini artırmış, Azərbaycan Respublikasının milli maraqları ətrafında sıx birləşmələri üçün zəmin yaratmışdır.

Dünya azərbaycanlılarının müstəqil dövlətimiz və vahid məqsəd ətrafında birləşdirilməsi ideyasının müəllifi ümummilli liderimiz Heydər Əliyev olmuşdur. O, xaricdə yaşayan azərbaycanlıların birliyi və təşkilatlanması məsələsini daim diqqət mərkəzində saxlamış, müxtəlif xarici ölkələrə etdiyi çoxsaylı səfərlərdə Azərbaycan diasporunun nümayəndələri ilə görüşlər keçirmiş, onların problem və qayğıları ilə yaxından maraqlanmışdır. Heydər Əliyevin Sərəncamı ilə 2001-ci il noyabrın 9-10-da Bakıda keçirilmiş Dünya Azərbaycanlılarının I Qurultayı xaricdəki soydaşlarımızın azərbaycançılıq ideyası ətrafında birləşərək təşkilatlanması baxımından tarixi əhəmiyyət kəsb etmiş, diaspor hərəkatının inkişafında yeni mərhələnin başlanğıcını qoymuşdur.

Qurultaydan bir neçə ay sonra, Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 5 iyul tarixli Fərmanı ilə Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsi yaradılmış, 2002-ci il dekabr ayının 27-də isə "Xaricdə yaşayan azərbaycanlılarla bağlı dövlət siyasəti haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul edilmişdir. Dünyada fəaliyyət göstərən Azərbaycan icmaları ilə məşğul olan dövlət orqanının yaradılması və mü-

vafiq qanunun qəbulu dünya azərbaycanlılarının milli birliyi və təşkilatlanması prosesini daha da sürətləndirmiş, soydaşlarımızın öz tarixi Vətəni ilə əlaqələrinin genişləndirilməsini təmin etmiş, ölkəmizin tarixi və müasir həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılmasına stimul vermişdir.

Azərbaycan Respublikası xarici ölkələrdə yaşayan azərbaycanlılarla əlaqələri dövlət siyasətinin prioritet istiqamətlərindən biri elan etmişdir. Diaspor quruculuğu konkret bir dövrlə məhdudlaşmayan, strateji əhəmiyyətə malik, daimi fəallıq və zəhmət tələb edən uzunmüddətli prosesdir. Elə buna görə də bu sahədə qazanılmış nailiyyətləri və qarşıda duran vəzifələri vaxtaşırı müzakirə etməyə ehtiyac yaranır.

Xarici ölkələrdə yaşayan azərbaycanlıların problem və qayğılarını, onların birliyi və təşkilatlanması sahəsindəki mövcud vəziyyəti təhlil etmək, Azərbaycan Respublikası ilə əlaqələrinin daha da möhkəmlənməsi, ölkəmizlə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, diaspor quruculuğu işinin təkmilləşdirilməsi sahəsində qarşıda duran vəzifələri müzakirə etmək məqsədi ilə qərara alıram:

1. 2006-cı il mart ayının 16-da Bakı şəhərində Dünya Azərbaycanlılarının II Qurultayı keçirilsin.

2. Azərbaycan Respublikası Prezidentinin İcra Aparatı Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsi ilə birlikdə qurultayın keçirilməsi məqsədi ilə iş planı hazırlayıb təsdiq etsin və onun yerinə yetirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti.***
***Bakı şəhəri, 8 fevral 2006-cı il.***



# «DÜNYA AZƏRBAYCANLILARININ HƏMRƏYLİYİ SAHƏSİNDƏ FƏALİYYƏTİNƏ GÖRƏ BİR QRUP İCTİMAİ XADİMİN TƏLTİF EDİLMƏSİ HAQQINDA» AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

**Dünya azərbaycanlılarının həmrəyliyi sahəsində fəaliyyətlərinə görə aşağıda adları çəkilən ictimai xadimlər təltif edilsinlər:**

**"Şöhrət" ordeni ilə**

Bağırov Natiq Nadir oğlu
Əfəndiyev Oqtay Ziya oğlu
Əliyev Məmmədbağır Cavad oğlu
Tomris Azəri
Yücel Artantaş

**"Tərəqqi" medalı ilə**

Abbasov Qurbanəli Həsən oğlu
Abdullayev Sərdar Süleyman oğlu
Ağalarov Araz İsgəndər oğlu
Ağamirov Natiq İsmayıl oğlu
Akkan Suver
Başar Ali Kemal oğlu Kömür
Bəhram Atabəyli
Cavad Dərəxti
Erix Fayql
Əfəndiyev Eldar Faiq oğlu
Gülməmmədov Akif Çərkəz oğlu
Heybətov Əşrəf Nəzir oğlu
Həmzəyev Mahir Canmirzə oğlu
Xəlilov İsgəndər Ağasəlim oğlu
İsmailoff Səid Kamil oğlu
İsmayılov Telman Mərdanoviç
Qulamrza Səbri Təbrizi

Qurbanov Seyfəddin Əli oğlu
Məmişov Vaqif İmam oğlu
Məmmədov Sərraf Əbilfət oğlu
Miron Fel
Nüreddin Aras
Sadıqov Söyün Qasım oğlu
Səfərov Firudin Səttar oğlu
Səid İrandust
Şamil Ayrım
Şıxlinski Şahin Mutvəli oğlu
Yevdayev Nobert

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti.***
***Bakı şəhəri, 13 mart 2006-cı il.***



## DÜNYA AZƏRBAYCANLILARININ II QURULTAYINDA AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ

**- Hörmətli xanımlar və cənablar!**
**Hörmətli qonaqlar!**
**Əziz həmvətənlər!**

Mən sizin hamınızı Dünya azərbaycanlılarının II qurultayının açılışı münasibətilə ürəkdən təbrik edirəm, hər birinizə cansağlığı, xoşbəxtlik arzulayıram.

Dünya azərbaycanlılarının qurultayı çox böyük tarixi hadisədir. Bu gün burada gözəl film nümayiş etdirildi. Biz o gözəl anları yenidən yada saldıq. Məhz xalqımızın ümummilli lideri Heydər Əliyevin təşəbbüsü ilə beş il bundan əvvəl Dünya azərbaycanlılarının I qurultayı keçirilmişdir. Qurultayın Azərbaycanın müasir tarixində müstəsna rolu olmuşdur. Aparılmış müzakirələr, fikir mübadiləsi, qurultayın qərarları bütün dünyada yaşayan azərbaycanlıları bir-biri ilə daha da sıx birləşdirdi. Məhz o qurultaydan sonra Heydər Əliyevin qərarı ilə Azərbaycanda Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsi yaradıldı. Komitə Azərbaycan diasporlarının təşkilatlanmasında çox uğurlu fəaliyyət göstərir. 2002-ci ildə «Xaricdə yaşayan azərbaycanlılarla bağlı dövlət siyasəti haqqında» Qanun qəbul edilmişdir və bu da öz növbəsində, bu işin hüquqi bazasını təşkil etdi. Bütün bu tədbirlər, bütün bu addımlar öz bəhrəsini verməkdədir. Dünyada yaşayan soydaşlarımız təşkilatlanır, yaşadıqları ölkələrin həyatında daha da fəal rol oynayırlar. Əlbəttə ki, bu, həm onların mövqelərini möhkəmləndirir, eyni zamanda, müstəqil Azərbaycan Respublikasının mövqeyini gücləndirir, əhəmiyyətini artırır.

Biz çox şadıq ki, müxtəlif ölkələrdə yaşayan azərbaycanlılar o ölkələrin həyatında, iqtisadiyyatında çox mühüm rol oynayırlar və demək olar ki, artıq çox möhkəm mövqelərə malikdirlər. Eyni zamanda, hesab edirəm ki, yaşadıqları ölkələrin ictimai-siyasi həyatında da çox mühüm rol oynamalıdırlar. Çünki buna bütün imkanlar var. Müstəqil Azərbaycan Respublikası bütün ölkələrlə çox işgüzar, səmərəli münasibətlər qurmaqdadır. Belə olan halda,

əlbəttə ki, xaricdə yaşayan azərbaycanlılar da bunu öz gündəlik həyatında hiss edirlər.

Mənim müxtəlif ölkələrə çoxsaylı səfərlərim çərçivəsində, demək olar ki, həmişə Azərbaycan diasporu ilə görüşlərim, açıq söhbətlərim olubdur. Mən həmişə qeyd etmişəm, bu gün də demək istəyirəm ki, Azərbaycan dövlətinin möhkəm olması dünyada yaşayan azərbaycanlıların da mövqeyini möhkəmləndirir.

Eyni zamanda, xaricdə yaşayan azərbaycanlılar bizim üçün də dayaqdır. Çünki Azərbaycan gənc müstəqil dövlətdir. Biz yalnız 15 ildir müstəqillik şəraitində yaşayırıq və təəssüflər olsun ki, bu günədək bir çox ölkələrdə Azərbaycan haqqında kifayət qədər dolğun məlumat yoxdur. Bu məlumatı, Azərbaycan həqiqətlərini, Azərbaycanın problemlərini, eyni zamanda ölkəmizin artan nüfuzunu, önəmini dünya ictimaiyyətinə, çatdırmaq, əlbəttə ki, bizim ümumi işimizə çox böyük töhfə olacaqdır.

Mən əminəm ki, artıq mövcud olan gözəl meyillər bu qurultaydan sonra daha da güclənəcəkdir. Azərbaycanlılar daha da möhkəm təşkilatlanacaq, yaşadıqları ölkələrdə daha da möhkəm mövqelərə sahib olacaqlar və beləliklə, dünyadakı 50 milyonluq Azərbaycan xalqı daha da yaxşı yaşayacaq, öz məqsədlərinə nail olacaqlar.

Mən qeyd etdim ki,, bu təşkilatlanma prosesi dünya azərbaycanlılarını bir araya dəvət etmək təklifi və təşəbbüsü ulu öndər Heydər Əliyev tərəfindən irəli sürülmüşdür. Heydər Əliyevin həyat və fəaliyyəti Azərbaycan xalqına xidmət etməkdən ibarət olmuşdur. Xalqımızın lideri ictimai-siyasi quruluşdan asılı olmayaraq, bütün dövrlərdə Azərbaycanın inkişafına xidmət edirdi. 1970-ci illərdə Azərbaycan Sovet İttifaqı çərçivəsində bir respublika kimi yaşayırdı. O illərdə də Azərbaycanın inkişafına böyük töhfələr verilmişdir.

1969-cu ildə Heydər Əliyev Azərbaycana rəhbər seçilmişdi. Azərbaycan o vaxt bütün müttəfiq respublikalar arasında ən geridə qalmış yerdə idi. 1982-ci ildə o, bu vəzifəsini başa çatdıranda Azərbaycan artıq ən qabaqcıl yerlərdə idi. Məhz o illərdə Azərbaycanın güclü sənaye, iqtisadi potensialı yaranmışdır və bu, indi müstəqil Azərbaycana xidmət edir. Baxmayaraq ki, Azərbaycan müstəqil dövlət deyildi, ancaq o illərdə bir çox sahələrdə məhz



Azərbaycanda müstəqillik əlamətləri tətbiq olundu. Müxtəlif istiqamətlərdə atılan addımlar elə bil ki, gələcəyə yönəldilmişdir. Elə bil ki, Heydər Əliyev görürdü, bir gün Azərbaycan müstəqil olacaq və bu müstəqil ölkəyə güclü iqtisadi potensial, ordu lazım olacaqdır. Ona görə o, kadrların hazırlanmasında, Azərbaycanda iqtisadi və sənaye potensialının yaranmasında müstəsna xidmətlər göstərmişdir.

Ancaq Azərbaycan öz dövlət müstəqilliyini bərpa edəndə ölkəmiz yenə çox böyük problemlərlə üzləşmişdi. 1991-ci ildə Sovet İttifaqı dağılanda Azərbaycan, demək olar ki, ən çətin vəziyyətdə olan ölkə idi: iqtisadi böhran, siyasi böhran, hərbi böhran, vətəndaş müharibəsi, Ermənistanın Azərbaycana qarşı etdiyi təcavüz və bunun nəticəsində torpaqların işğal olunması, vətəndaş qarşıdurması. Bütövlükdə, Azərbaycanın dövlətçiliyi sual altında idi.

1993-cü ildə Heydər Əliyev xalqın tələbi ilə Azərbaycana rəhbərliyə qayıdandan, Prezident vəzifəsinə seçiləndən sonra ölkədə ictimai-siyasi vəziyyət normallaşdı, sabitləşdi. Ölkəni narahat edən, təhlükə törədən problemlər aradan qaldırıldı və dinamik inkişafa qədəm qoyuldu. Məhz o illərdən sonra Azərbaycan dünya birliyində möhkəm yerini tuta bilmişdir.

Azərbaycanda başlanmış iqtisadi islahatlar çox sürətlə aparılır və indi Azərbaycan iqtisadi inkişaf sürətinə görə nəinki, keçmiş sovet respublikaları arasında, həm də dünyada birinci ölkədir. Bütün bunlar bir daha onu göstərir ki, ictimai-siyasi quruluşdan asılı olmayaraq, Heydər Əliyev bütün zamanlarda, bütün dövrlərdə Azərbaycan xalqına ləyaqətlə xidmət etmişdir. Azərbaycanın müstəqilliyinin əbədi, dönməz olmasında, iqtisadi potensialının möhkəmlənməsində, bölgədə və dünyada nüfuzunun artmasında onun müstəsna xidmətləri var. Hazırda bu siyasət davam etdirilir. Bu gün Heydər Əliyev bizimlə deyil, ancaq onun siyasəti yaşayır, onun qurduğu müstəqil Azərbaycan yaşayır və möhkəmlənir.

Müstəqillik böyük sərvətdir. Bəzən deyirlər ki, Azərbaycanın sərvətləri onun təbii ehtiyatları, coğrafi vəziyyətidir, yaxud da bölgədə mövcud olan mövqeləridir. Azərbaycanın ən böyük sərvəti onun müstəqilliyidir. Biz uzun illər, əsrlər boyu bu müstəqillikdən məhrum olmuşduq. Azərbaycan uzun illər ərzində çar Rusi-

yasının müstəmləkəsi idi. Ondan sonra Sovet İttifaqının respublikası idi. Bu gün isə biz müstəqil dövlətik, Azərbaycan dünya birliyinin üzvüdür. Biz gərək bu müstəqilliyi möhkəmləndirək.

Mən dəfələrlə demişəm, bu gün də qeyd etmək istəyirəm ki, müstəqillik yalnız dövlət atributları ilə ölçülmür. Müstəqillik rəmzləri ilə ölçülmür. Müstəqillik o deməkdir ki, dövlət və ölkənin rəhbərliyi öz xalqının maraqlarına tam cavab verən müstəqil siyasət aparmaq iqtidarında olsun. Bu gün bu var və bunun təməli məhz 1990-cı illərin ortalarında qoyulmuş, Azərbaycan bütün potensialını işə sala bilmişdir. Bu gün bizim artan nüfuzumuz, gücümüz imkan verir ki, Azərbaycan tam şəkildə müstəqil siyasət aparsın. Bu siyasət Azərbaycan xalqının milli maraqlarının qorunmasına, dünya azərbaycanlılarının birliyinin möhkəmlənməsinə yönəldilibdir.

Heydər Əliyev siyasəti Azərbaycanda hər bir sahədə davam etdirilir. Xarici siyasətimiz çox uğurludur, çox fəaldır. Azərbaycan beynəlxalq təşkilatlarda çox önəmli yer tutur, bizim mövqelərimiz möhkəmlənir. Son illər ərzində müxtəlif beynəlxalq təşkilatlarda, xüsusilə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı bizim xeyrimizə, yəni ədalətli qərarlar qəbul edilibdir. Biz qonşu ölkələrlə çox gözəl münasibətlərimizi saxlaya bilmişik, onları möhkəmləndiririk və bu, bizim inkişafımız üçün çox vacibdir. Çünki biz bu bölgədə yaşayırıq və bölgədə sülhün, təhlükəsizliyin bərqərar olması, regional əməkdaşlığın inkişafı bizim maraqlarımıza xidmət edir.

Azərbaycanın addımları bütün sahələrdə, o cümlədən xarici siyasətdə müsbət nəticələrini verməkdədir. Sizə bildirmək istəyirəm ki, son iki il ərzində Azərbaycanın 21 səfirliyinin açılması haqqında qərarlar verilibdir. İndi Azərbaycanın müxtəlif ölkələrdə 46 səfirliyi olacaq ki, onların da 21-nin açılması haqqında son iki ildə qərar verilibdir. Onların bəziləri açılıb fəaliyyət göstərir, bəziləri isə bu yaxınlarda açılacaqdır. Bu, nə deməkdir?! O deməkdir ki, Azərbaycan öz xarici siyasətini daha da dolğun, hərtərəfli şəkildə aparacaqdır. Çünki, - yəqin siz də bunu hiss edirsiniz, biz də bunu bilirik, - əfsuslar olsun ki, Azərbaycan həqiqətləri dünya ictimaiyyəti tərəfindən o qədər də yaxşı dərk edilmir. Məlumat qıtlığı var, bəzi hallarda informasiya blokadası ilə də üzləşirik. Çünki bizim əleyhimizə dünyanın erməni lobbisi fəaliyyət göstərir və hər vəchlə çalışır ki, Azərbaycanı ləkələsin, Azərbaycanda gedən proseslərə mənfi don geyindirsin və beləliklə, Azərbaycanı təcrid edilmiş vəziyyətə salsın. Yəni bu da var.



Ancaq, eyni zamanda, ümumiyyətlə, məlumatsızlıq da var. Ona görə səfirliklərin açılması, Azərbaycanın çox fəal xarici siyasəti, diasporların möhkəmlənməsi və artan nüfuzu Azərbaycanı dünya birliyinə olduğu kimi təqdim edir. Bizə məhz bu lazımdır. Bizə o lazımdır ki, Azərbaycanda gedən proseslər dünya üçün açıq olsun. Son iki il yarım ərzində mən çoxsaylı xarici səfərlər etmişəm. Mənim müxtəlif qonaqlarla çox görüşlərim olubdur. Görürəm ki, Azərbaycana ilk dəfə gələn qonaqlar tam başqa fikirlə gəlirlər. Amma burada reallıqları, ab-havanı görəndə, Azərbaycanın ümumi inkişafını, cəmiyyətdə hökm sürən dözümlülüyü, tolerantlığı, qonaqpərvərliyi, vətəndaş həmrəyliyini görəndə Azərbaycandan tamamilə başqa fikirlə ayrılırlar. Ona görə, diasporun fəaliyyəti məhz bu istiqamətdə də öz töhfəsini verməlidir və bunu etmək üçün diaspor daha da möhkəm təşkilatlanmalıdır.

Bir sözlə, xarici siyasət sahəsində biz öz xəttimizi aparırıq. Amma bu işdə, əlbəttə ki, sizin də fəaliyyətinizə, fəal olmağınıza böyük ehtiyac var. Son illər ərzində mən hiss edirəm ki, bu iş artıq əlaqələndirilmiş şəkildə aparılır. Xarici İşlər Nazirliyinin, Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsinin, Azərbaycan diasporlarının fəaliyyəti, müxtəlif ölkələrdə Azərbaycanla bağlı keçirilən tədbirlər, konfranslar, simpoziumlar, aksiyalar - bütün bunlar bizim mövqelərimizi möhkəmləndirir, digər tərəfdən Azərbaycan haqqında real məlumatı da dünya birliyinə çatdırır.

Azərbaycanda son illər ərzində iqtisadi inkişaf sahəsində də böyük irəliləyiş var. Ölkəmiz bu istiqamətdə böyük uğurlar əldə edibdir. Bizim iqtisadiyyatımız dünyada ən yüksək sürətlə artır. Keçən il iqtisadi artım 26 faizdən çox olub və bu, dünyada ən yüksək göstəricidir. 2005-ci ildə Azərbaycanda sənaye istehsalı 33 faizdən çox artıbdır. Bu da dünyada ən yüksək göstəricidir. Keçən il əhalinin pul gəlirləri 27 faiz artmışdır. Son iki il yarım ərzində Azərbaycanda 340 min yeni iş yeri açılmışdır. Bu, işsizliyin aradan qaldırılmasına böyük kömək göstərir. Azərbaycanda iki il

bundan əvvəl yoxsulluğun səviyyəsi 49 faiz idi, yəni keçən ilin sonuna 29 faizə düşübdür. Yenə də bu, böyük rəqəmdir. Mən demişəm, nə üçün Azərbaycan vətəndaşları yoxsulluq şəraitində yaşamalıdırlar? Prezident seçiləndən sonra vəzifə qoymuşam ki, Azərbaycanda bir nəfər də yoxsul insan olmamalıdır. Biz buna nail olacağıq. Mən əminəm ki, 2006-cı ildə görülən işlər imkan verəcək ki, yoxsulluq şəraitində yaşayanların sayı kəskin şəkildə aşağı düşsün.

Azərbaycanda regional inkişaf proqramı çox sürətlə həyata keçirilir. Bakı, bizim doğma paytaxtımız çox sürətlə inkişaf edir. Eyni zamanda, regionlarda inkişaf çox sürətlidir. Yeni elektrik stansiyaları, qaz xətləri, yollar, su kəmərləri tikilir, bütün təsərrüfat və sənaye infrastrukturu yeniləşir. Eyni zamanda, humanitar sahədə də böyük işlər görülübdür. İndi bütün bölgələrdə ən müasir xəstəxanalar tikilir. Təkcə 2005-ci ildə Azərbaycanda 300-dən çox yeni məktəb tikilmişdir. Ən müasir, ən yüksək səviyyədə idman kompleksləri, üzgüçülük hovuzları, poliklinikalar inşa olunmuşdur. Bütün bunlar Azərbaycanın ümumi inkişafını müəyyən edir.

Biz güclü olmalıyıq, zəngin dövlət yaratmalıyıq. Bunu etmək üçün, ilk növbədə, iqtisadi potensial möhkəmlənməlidir. Bu istiqamətdə biz öz işimizi düşünülmüş konsepsiya şəklində qururuq. Proqram tərtib edirik və sonra o, icra olunmağa başlayır. İndi Bakı şəhərinin inkişafına dair iki mühüm proqram qəbul edilibdir. Onlar artıq icra olunmağa başlayır.

Bir sözlə, iqtisadi sahədə Azərbaycanın davamlı və dayanıqlı inkişafı təmin olunacaq və ölkəmiz ildən-ilə möhkəmlənəcək, büdcəmiz artacaqdır. Mən sizə bildirmək istəyirəm ki, 2005-ci ildə büdcəmiz 2004-cü ilə nisbətən 70 faiz artmışdır. 2006-cı ildə 2005-ci ilə nisbətən yenə 70-80 faiz artmışdır. Büdcə xərcləri artır, deməli, Azərbaycanda investisiya layihələri icra olunur, insanların rifah halı yaxşılaşır, maaşlar, pensiyalar mütəmadi qaydada qaldırılır və qaldırılacaqdır. Minimum əmək haqqı insanın minimum tələbatını ödəməlidir. Biz buna nail olacağıq və o gün uzaqda deyildir.

Bir sözlə, iqtisadi potensialın güclənməsi bizim bütün planlarımızı gerçəyə çevirəcəkdir. Planlarımız da çoxdur. Biz ölkəmizi hərtərəfli inkişaf etdirməliyik. Həm bölgələr, həm şəhərlər, kəndlər inkişaf etməli, həm də bütün infrastruktur ən müasir tələblərə cavab verməlidir. Bizim bu istiqamətdə çoxlu fikirlərimiz, planlarımız var.



Bildiyiniz kimi, 10 ildən artıqdır ki, Azərbaycanda Heydər Əliyevin neft strategiyası həyata keçirilir. Neft böyük sərvətdir, təbii ehtiyatdır. Ancaq bu, o zaman xalqa xidmət edir ki, dənizin dibindən çıxarılsın və ondan sonra dünya bazarlarına çatdırılsın. Azərbaycanın neft strategiyasının məğzi məhz bunda idi: xarici sərmayəni cəlb etmək, Azərbaycanda əlverişli sərmayə mühiti yaratmaq və böyük enerji şirkətlərini Azərbaycana cəlb etmək. Bu gün bu var. Azərbaycanda neft hasilatı ildən-ilə artır. Neft Fondu yaradılıbdır və o, şəffaf, ictimaiyyət üçün açıq bir qurumdur. Neft Fonduna nə qədər vəsait yığıldığını Azərbaycanın hər bir vətəndaşı bilir. Çünki bu barədə mütəmadi qaydada məlumat dərc olunur. Bu şəffaflıq, aşkarlıq, əlbəttə ki, bizə çox lazımdır. Hamı bilməlidir ki, ölkənin nəyi var, haraya və necə xərclənir. İctimai nəzarət çox güclü olmalıdır. Xüsusilə Azərbaycana daha böyük həcmdə vəsaitin daxil olacağı indiki mərhələdə.

Azərbaycanın neft strategiyası uğurla icra edilir. Bakı-Tbilisi-Ceyhan neft kəməri, Bakı-Tbilisi-Ərzurum qaz kəməri bu il istismara veriləcəkdir. Bizim enerji daşıyıcılarımız dünya bazarına, Avropa bazarına çatdırılacaqdır. İlk növbədə, biz bundan çox böyük iqtisadi mənfəət götürəcəyik. Bu, bizə imkan verəcək ki, ölkəmizi ən yüksək səviyyədə inkişaf etdirək və müasirləşdirək. Digər tərəfdən, o da heç bir şübhə doğurmur ki, Azərbaycanın bölgədəki, qitədəki, dünyadakı mövqeləri möhkəmlənəcəkdir. Çünki Azərbaycan Avropa və dünya istehlakçıları üçün çox önəmli ölkəyə çevrilir. Bu, bizim gücümüzü, önəmimizi artırır, sözümüzün çəkisini artırır və milli maraqlarımıza xidmət edir. Bu il başa çatacaq o nəhəng layihələr eyni zamanda regionda gedən proseslərə çox müsbət təsir göstərəcəkdir. Çünki regional inkişaf meyilləri artıq çox aydındır. Azərbaycan regional inkişaf kontekstində çox fəal rol oynayır, bütün regional layihələrin iştirakçısı və bir çoxunun təşəbbüskarıdır. Bizim iştirakımız olmadan regionda heç bir - nə siyasi, nə enerji, nə iqtisadi layihə, nə də nəqliyyat layihəsi həyata keçirilə bilər.

Azərbaycan Asiyanı Avropa ilə birləşdirən körpüdür. Biz

indi öz nəqliyyat infrastrukturumuzu möhkəmləndiririk. Müxtəlif şəhərlərdə yeni hava limanları tikilir, magistral yollar salınır. Bizim dəniz nəqliyyatımıza, dəmir yolumuza böyük investisiyalar qoyulur. Bir sözlə, nəqliyyat sektoru gələcəkdə çox mühüm rol oynayacaqdır. Regionda digər mühüm layihə də məhz bununla bağlıdır. Türkiyəni Azərbaycanla dəmir yolu ilə birləşdirmək - Bakı-Tbilisi-Qars dəmir yolunu işə salmaq indi bizim əsas vəzifəmizdən biridir və buna nail olacağıq. Belə olan halda, həm Azərbaycanla Türkiyə dəmir yolu ilə birləşir, bütün yükdaşımalar bu marşrutla aparılacaqdır. Eyni zamanda, bu da aydındır ki, bizim torpaqlarımızı zəbt edən, bizə qarşı təcavüz edən işğalçı dövlət - Ermənistan bütün bu layihələrdən kənarda qalacaqdır.

Biz heç vaxt imkan verə bilmərik ki, torpaqlarımızı zəbt edən ölkə bizimlə regional əməkdaşlıq etsin. Biz Ermənistanı bütün regional layihələrdən təcrid etmişik. Çünki bizim iştirakımız olmadan heç bir beynəlxalq layihə işləyə bilməz.

Yenə də buna qayıtmaq istəyirəm, bu beynəlxalq, regional layihələr indi təkcə Azərbaycanın, yaxud da onun qonşularının maraqlarını təmin etmir, geniş mənada, dünya üçün əhəmiyyətli layihələrə çevrilir. Azərbaycanın rolu getdikcə artacaqdır. Bizim də məqsədimiz budur. Biz istəyirik ki, Azərbaycan qüdrətli dövlət olsun, Azərbaycan xalqı yaxşı, sülh şəraitində yaşasın, rifah içində yaşasın. Biz istəyirik ki, bütün qonşularımızla münasibətlərimiz yüksək səviyyədə olsun ki, bölgədə sabitlik pozulmasın, əməkdaşlıq olsun. Bizim siyasətimiz məhz buna istiqamətləndirilibdir. Bütün sahələrdə də biz uğurları, nailiyyətləri görürük və əminəm ki, gələcəkdə bunlar daha da artacaqdır.

Bizim büdcəmiz ildən-ilə artır. İndi Azərbaycan öz iqtisadiyyatını tam şəkildə bazar prinsipləri əsasında qurubdur və ümumi daxili məhsulun çəkisində özəl sektorun payı təxminən 75 faizdir. Nəzərə alsaq ki, bizim ümumi daxili məhsulun böyük hissəsini təmin edən neft-qaz sənayesi dövlət inhisarındadır, bu, çox yüksək göstəricidir. Onu göstərir ki, Azərbaycanda iqtisadiyyat liberallaşıb, sahibkarlıq çox sürətlə inkişaf edir, özəl sektor inkişaf edir. Beləliklə, Azərbaycanda bazar iqtisadiyyatı prinsipləri artıq çox dərin köklər salır.

Amma bununla yanaşı, sosial məsələlərə də böyük diqqət



göstərilir. Əgər büdcəmizin strukturuna nəzər salsaq görərik ki, Azərbaycan büdcəsi sosialyönümlüdür. Yəni, bu nə deməkdir? O deməkdir ki, büdcənin əsas hissəsi sosial məsələlərə istiqamətləndirilibdir. Maaşlar, pensiyalar, sosial müavinətlər, humanitar sahəyə - təhsilə, səhiyyəyə və s. ayrılan xərclər artır. Bu, sintezdir. Bazar iqtisadiyyatının önəmini heç kim inkar edə bilməz. Uzun illər sosializm və kapitalizm sistemlərinin toqquşması da nə ilə nəticələndi, biz hamımız onu yaxşı bilirik. Yəni hər bir ölkənin uğurlu, uzunmüddətli inkişafını ancaq bazar iqtisadiyyatı prinsipləri təmin edə bilər. Ancaq əgər biz öz fəaliyyətimizi yalnız bu sahə ilə məhdudlaşdırsaq, onda Azərbaycanda ədalətli inkişaf gedə bilməz. Biz sosial sektora, sosial sahəyə daim çox böyük diqqət göstərməliyik. Çünki biz insanlar üçün yaşayırıq. Bizim məqsədimiz insanlara xidmət etməkdir. Mən şəxsən öz vəzifəmi məhz bunda görürəm. Bu, böyük vəzifədir, böyük məsuliyyətdir, xalq qarşısında məsuliyyətdir. Mən xalq qarşısında məsuliyyət daşıyıram. Ona görə çalışmalıyam ki, Azərbaycan xalqı, onun hər bir vətəndaşı gündəlik həyatında korluq, çətinlik çəkməsin, problemlə üzləşməsin.

Yoxsulluq şəraitində yaşayanların sayının kəskin şəkildə aşağı salınması, işsizliyin aradan qaldırılması bu məqsədləri güdür. Ona görə sosial sahə bizim işimizdə çox böyük yer tutur və gələcəkdə bu sahəyə daha da böyük investisiyalar qoyulacaqdır.

İndi o dövr keçir ki, Azərbaycanın yalnız və yalnız xarici sərmayədən asılı olduğu, yaxud da ölkənin inkişafını xaricdən gələn sərmayənin müəyyən etdiyi dövr indi arxada qalır. Biz artıq o dövrü yavaş-yavaş bitiririk. Ancaq yenə də çox maraqlıyıq və çalışmalıyıq ki, Azərbaycana daha da böyük həcmdə xarici sərmayə gətirək. Sizə bir rəqəm də gətirə bilərəm, xarici sərmayələrin adambaşına düşən həcminə görə Azərbaycan bütün bölgədə ən birinci yerdədir. Yəni bizim liberal siyasətimiz, sərmayə mühitinin əlverişli olması, sərmayələrin qorunması bu nəticələrə gətirib çıxarıbdır. Ancaq indi öz imkanlarımız da var, biz daha çox öz gücümüzə güvənməliyik. Çünki buna imkan var. Bir də ki, 15 illik müstəqillik tarixi bizə hər şeyi açıq-aydın göstərdi. Biz özümüz möhkəmlənməliyik, güclənməliyik. Yalnız o təqdirdə Azərbaycan zəngin, qüdrətli dövlətə çevriləcəkdir.

Əlbəttə ki, sosial sahədə də işlər davam etdiriləcəkdir. Diqqətimizin böyük hissəsi Azərbaycanda ən çətin vəziyyətdə yaşayan insanların həyat səviyyəsinin yaxşılaşdırılmasına yönəldilibdir. Ermənistanın işğalından əziyyət çəkən qaçqınlar, köçkünlər ən çətin vəziyyətdə yaşayanlardır. Onlar üçün yeni şəhərciklər salınır, yeni binalar tikilir. Bu yaxınlarda Ağdam rayonunda yeni qəsəbənin açılışında iştirak edirdim. Mən iki il yarım bundan əvvəl demişəm ki, Azərbaycanda bir dənə də çadır şəhərciyi qalmayacaqdır. Bu istiqamətdə işlər görülür. Yəqin ki, gələn il bütün çadır şəhərcikləri ləğv ediləcək və onların əvəzinə ən müasir tələblərə cavab verən evləri, xəstəxanaları, uşaq bağçaları, məktəbləri, yolları, su, enerji təchizatı, bir sözlə bütün infrastrukturu olan gözəl şəhərciklər salınacaqdır. Bu, bizim vəzifəmizdir və onu yerinə yetirəcəyik.

Ancaq bunlar müvəqqəti tədbirlərdir. Bizim torpaqlarımız işğaldan azad olunandan sonra yeni şəhərlər tikəcəyik. Çünki işğal olunmuş torpaqlarda bütün binalar dağıdılıbdır. Erməni vandalları bütün binaları, orada olan bütün qəbiristanlıqları, məscidləri, məktəbləri, tarixi abidələri - hamısını dağıdıblar. Bu, vəhşilikdir. Biz torpaqlarımızı azad edəndən sonra o bölgələri yenidən bərpa edəcəyik. Bizim iqtisadiyyatımız buna imkan verəcəkdir.

Bildiyiniz kimi, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi uzun illərdir ki, öz həllini tapmır. Düzdür, danışıqlar gedir, atəşkəs əldə ediləndən sonra danışıqların mərhələləri olubdur. Bir neçə dəfə sanki tərəflərin mövqeləri də yaxınlaşmışdır. Ancaq nəticə etibarilə münaqişə öz həllini tapmır. Biz 12 ildir ki, sülh danışıqlarına sadiqik. 12 ildir Ermənistanla Azərbaycan arasında atəşkəs rejimi var. Biz bu danışıqların bir nəticə verəcəyini ümid edərək, onlarda iştirak edirik. Ancaq nə vaxta qədər?! Bu proses əbədi ola bilməz. Çünki Azərbaycan xalqının və iqtidarının səbri tükənir. Biz sülh prosesinə sadiqik, danışıqlarda iştirakımız bunu bir daha göstərir. Biz istəyirik ki, bu məsələni müharibə yolu ilə yox, sülh yolu ilə həll edək. Bizim bütün səylərimiz, addımlarımız buna yönəldilibdir.

Amma biz görəndə ki, Ermənistan tərəfi konstruktiv mövqe tutmur, danışıqlarda özünü səmimi aparmır, dünya ictimaiyyətini aldatmaq istəyir, çaşdırmaq istəyir, onda bizim ayrı yolumuz qalmır. Bizim başqa yolumuz yoxdur. Biz nə vaxta qədər sülh prosesində iştirak edəcəyik?! Mən demişəm, necə deyərlər, əgər son ana qədər, son sınağa qədər biz hiss etsək ki, imkan var, sülh prosesində iştirak edəcəyik. Əgər görsək ki, bu proses, sadəcə, imitasiya xarakteri daşıyır, Azərbaycan bu prosesdə iştirak etməyəcəkdir. Bu münaqişə yalnız və yalnız beynəlxalq hüquq normaları əsasında öz həllini tapa bilər.



Tarixi baxımdan Dağlıq Qarabağ Azərbaycan torpağıdır və həmişə Azərbaycan torpağı olubdur. Ermənilər oraya XIX əsrin ortalarına qədər köçürülmüşlər. Hətta Dağlıq Qarabağın özündə bunu təsdiq edən, 1978-ci ildə qoyulmuş və ermənilərin Qarabağa köçürülməsinin ildönümünü əks etdirən abidə də var idi. Sonra ermənilər onu vurub dağıtdılar. Ermənilər bizim torpaqlarımıza qonaq kimi gəlmişdilər. Ondan sonra orada əhali baxımından üstünlük əldə edərək, separatizm meyllərinə təkan verdilər. Davakar separatizm və Ermənistanın təcavüzkar, işğalçı siyasəti indi Azərbaycan torpaqlarının işğal olunmasına gətirib çıxarıbdır.

Beynəlxalq hüquq normaları hamı üçün eyni olmalıdır. Heç kim heç bir müstəsna yanaşmaya, yaxud da hüquqa malik ola bilməz. Beynəlxalq hüquq normaları tələb edir ki, Azərbaycanın ərazi bütövlüyü bərpa olunmalıdır. Bizim ərazi bütövlüyümüz bütün dünya tərəfindən qəbul edilir, Birləşmiş Millətlər Təşkilatı tərəfindən, bütün təşkilatlar tərəfindən tanınmışdır. Ona görə Ermənistanın işğalçı qüvvələri işğal olunmuş torpaqlardan çıxmalıdır, Azərbaycan vətəndaşları öz dədə-baba torpaqlarına, o cümlədən Dağlıq Qarabağa qayıtmalıdırlar. Ondan sonra Ermənistanla Azərbaycan arasında normal münasibətlər bərpa oluna bilər. Biz ancaq bu yolla sülh sazişinə imkan verə bilərik. Biz Dağlıq Qarabağın heç vaxt - nə bü gün, nə sabah, nə 10 ildən sonra, nə də 100 ildən sonra Azərbaycandan ayrılmasına razılıq verməyəcəyik.

Biz zərərçəkən tərəfik. Ermənistan bizə qarşı etnik təmizləmə siyasəti aparıbdır və vaxt gələcək, onlar buna görə beynəlxalq ictimaiyyət qarşısında cavab verəcəklər. Biz onlara imkan veririk ki, əgər onlar konstruktiv təkliflərə razılıq versələr, Minsk Qrupunun həmsədrləri tərəfindən irəli sürülmüş yeni çərçivəyə razılıq versələr, Praqa prosesində səmimi şəkildə iştirak etsələr, onda,

Dağlıq Qarabağdakı ermənilərin təhlükəsizliyi, rahat yaşaması təmin olunacaqdır.

Dünyada mövcud olan çox müsbət təcrübə - milli azlıqlar üçün muxtariyyət təcrübəsi. Avropanın özündə də muxtariyyətlər var. Bir sıra başqa ölkələrdə də var. Muxtariyyət o demək deyil ki, sən separatizmlə məşğul olasan və yaşadığın torpağı o ölkədən ayırasan. Müxtəlif ölkələrdə muxtariyyət var, onun öz qayda-qanunları, tənzimləyici mexanizmləri var. Ancaq muxtariyyət bir, separatizm isə tamamilə başqa şeydir. Muxtariyyət mümkündür və dünyada mövcud olan müsbət təcrübə, əlbəttə, münaqişə ilə əlaqədar da tətbiq olunmalıdır.

Yenə də deyirəm, bu, bizim prinsipial mövqeyimizdir və bu mövqedən heç vaxt dönməyəcəyik. Ancaq o da həqiqətdir ki, 12 ildir atəşkəs rejimi var və münaqişə öz həllini tapmır. Belə olan halda biz nə etməliyik? Bu barədə artıq Azərbaycanda, iqtidarda məsləhətləşmələr gedir. Əgər biz görsək ki, Ermənistan sülh prosesini pozmaq niyyətindədir və buna gətirib çıxaracaq, onda, əlbəttə ki, Azərbaycan öz siyasətində sülh prosesində iştirak məsələsinə yenidən baxmalı olacaqdır.

Ancaq bununla yanaşı, iqtisadiyyatı inkişaf etdirməklə yanaşı, biz ordu quruculuğunu da möhkəmləndiririk. Son illər ərzində bu sahəyə böyük diqqət göstərilir. Sizə deyə bilərəm ki, Azərbaycanın hərbi büdcəsi ildən-ilə artır. 2005-ci ildə 2004-cü ilə nisbətən 70 faiz artmışdır. 2006-cı ildə 2005-ci illə müqayisədə 100 faiz, yəni 2 dəfə artmışdır. 2007-ci ildə daha da çox artacaqdır. İndi bizim hərbi büdcəmiz 600 milyon dollara bərabərdir. Mən vəzifə qoymuşam ki, yaxın zamanlarda bizim hərbi büdcəmiz Ermənistanın bütün büdcəsinə bərabər olsun. Ermənistan bizimlə heç vaxt rəqabət apara bilməyəcəkdir. Ermənistan rəhbərliyi bunu nə qədər tez başa düşsə, onlar üçün də bir qədər sərfəli olacaqdır. Çünki Azərbaycan inkişafdadır. Azərbaycanda siyasi proseslər sürətlə gedir və demokratikləşmə prosesləri gedir. Beynəlxalq təşkilatlarla əməkdaşlığımız möhkəmlənir. Avratlantik strukturlarına inteqrasiya siyasətimiz uğurla gedir. Avropa İttifaqı ilə "Yeni qonşuluq siyasəti" çərçivəsində tədbirlər planı hazırlanır. NATO ilə "Fərdi tərəfdaşlığın fəaliyyət planı" hazırdır və yaxın vaxtlarda icra ediləcəkdir.



Digər beynəlxalq təşkilatlarda Azərbaycan mövqelərini möhkəmləndirir. Avropa Şurası keçən ilin yanvarında Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə dair çox mühüm qətnamə qəbul etmişdir və orada ilk dəfə qeyd olunmuşdur ki, Ermənistan Azərbaycan torpaqlarını zəbt edibdir. Bu vaxta qədər müxtəlif təşkilatlarda deyilirdi ki, hansısa erməni qüvvələri və bu, çox mücərrəd bir termin idi. Avropa Şurasının qətnaməsində açıq göstərilmişdir ki, Avropa Şurasının üzvü olan bir ölkə Avropa Şurasının üzvü olan digər ölkəyə qarşı təcavüz edib və bu təcavüz nəticəsində etnik təmizləmə halları olub, torpaqların 20 faizi işğal edilib və bir milyon qaçqın-köçkün yaranıbdır. Yəni, bu, çox mühüm bir qətnamədir.

Azərbaycan İslam Konfransı Təşkilatında çox fəaldır və İslam dünyası ilə əlaqələrimiz daha da möhkəmlənir. Bu sahəyə böyük önəm veririk. Müsəlman ölkələrinə mənim səfərlərim və o ölkələrdən qonaqların Azərbaycana səfərləri bizim həmrəyliyimizi daha da möhkəmləndirir. Biz digər təşkilatlarda regional müstəvidə GUAM təşkilatında, MDB-də də fəalıq. Yəni siyasi proseslər, Azərbaycanın artan mövqeləri, artan önəmi və ölkədə gedən demokratikləşmə, xalqla iqtidar arasında olan birlik, vəhdət bizim mövqelərimizi möhkəmləndirir.

Digər tərəfdən iqtisadi potensial baxımından Ermənistanla Azərbaycan arasında olan uçurum ildən-ilə daha da dərinləşəcəkdir. Bizim proqramlarımızın əsas məqsədi ondan ibarətdir ki, çox qısa müddət ərzində iqtisadi potensialımızı gücləndirək ki, Qarabağ məsələsində mövqelərimiz daha da möhkəm olsun. Əgər bu olmasa, əgər iqtisadi artım olmasa, maliyyə intizamı möhkəmlənməsə, Azərbaycanda çox cəsarətli iqtisadi islahatlar aparılmasa, biz büdcəni haradan dolduracağıq, orduya bu qədər pulu haradan ayıra biləcəyik? İqtisadi potensial da bizim tərəfimizdədir və ildən-ilə bizim büdcəmiz artacaq və bütün hərbi xərclər də artacaqdır.

Məsələnin ikinci tərəfi. Azərbaycanın dünyada artan mövqeləri. Xüsusilə enerji daşıyıcıları ilə bağlı bəzi bölgələrdəki ixtilaflar, ziddiyyətlər və problemlər artıq Azərbaycanı dünyada alternativ enerji daşıyıcıları nəql edən ölkə kimi təqdim edir. Biz bunu hiss edirik. Əgər iki il bundan əvvəl biz Avropa ölkələri ilə

danışıqlarda, sadəcə olaraq, müəyyən istiqamətləri müəyyən edirdiksə və danışıqlar daha çox nəzəri xarakter daşıyırdısa, indi praktik xarakter daşıyır. İndi Azərbaycanın nefti və qazı Avropaya nəql ediləcək və hər iki tərəf bunda çox maraqlıdır. Yəni Azərbaycan dövlət kimi, əlbəttə ki, Ermənistanla heç cür müqayisə edilə bilməz. Ermənistan bütün regional layihələrdən təcrid olunmuş vəziyyətdədir. Ona görə ki, biz onları təcrid etmişik. Ermənistanın inkişaf potensialı çox məhduddur, faktiki olaraq yoxdur. İnvestisiya qoyulmur, əhali oradan gedir, yoxsulluq ölkəni bürüyür. Ermənistanın işğalçı siyasəti, əsassız iddiaları öz xalqına nə vaxta qədər mənfi təsir göstərəcəkdir?! Ona görə Dağlıq Qarabağ məsələsinin həlli, Azərbaycanın ərazi bütövlüyünün bərpası Ermənistan xalqına da xidmət göstərəcəkdir. Onlar da bu çətin vəziyyətdən çıxa, regionda gedən proseslərdə iştirak edə və ölkələrə normal qonşu ola bilərlər.

İndi baxın, onların hansı qonşu ilə normal münasibətləri var? Heç biri ilə. Azərbaycanın isə bütün qonşuları ilə çox açıq, səmimi münasibətləri var. Çünki biz əməkdaşlığa açığıq. Altdan-altdan heç kimə qarşı heç bir təxribat törətmirik, separatizmlə məşğul olmuruq. Əksinə, Azərbaycan ölkədə yaşayan bütün xalqların doğma vətənidir. Azərbaycan çoxmillətli ölkədir. Burada müxtəlif dinlərin nümayəndələri bir ailə kimi yaşayırlar. Azərbaycanda nə milli, nə dini zəmində heç vaxt problem olmamışdır və olmayacaqdır. Bu, bizim strateji xəttimizdir. Azərbaycanda bütün xalqlar, bütün dinlərin nümayəndələri bir ailə kimi yaşayırlar.

Amma Ermənistana baxın - monodövlətdir, orada heç bir başqa millət yaşaya bilmir. Orada sovet vaxtında deyəsən 90 faiz idi, indi doxsan doqquz onda neçə faiz erməni yaşayır. Başqa insanlar, başqa millətə mənsub olanlar orada yaşaya bilmirlər. Onlar bu siyasətdən əl çəkməlidirlər. Bu siyasət onları uçuruma aparır.

Biz öz tədbirlərimizi görməliyik, biz möhkəmlənməliyik. Azərbaycan öz iqtisadi potensialını, hərbi potensialını, siyasi imkanlarını tam şəkildə işə salır. Biz hər istiqamətdə çox sürətlə, düşünülmüş proqram və konsepsiya əsasında irəliləyirik. Yenə də qeyd etmək istəyirəm ki, bu istiqamətdə Azərbaycan diasporunun çox böyük rolu var. Mən istəyirəm ki, həm Azərbaycanın dünyada təbliğ edilməsində, Azərbaycan həqiqətlərinin dünya birliyinə çatdırılmasında, azərbaycanlıların yaşadıqları ölkələrin ictimai-siyasi həyatında fəal iştirakında bu rol daha da güclü olsun.



Məsələn, mən çox istəyirəm ki, azərbaycanlılar yaşadıqları bütün ölkələrin siyasi həyatında daha fəal rol oynasınlar. Siyasi partiyalara üzv olsunlar. Çalışsınlar ki, o ölkələrin qanunvericilik orqanlarına seçilsinlər. Bu, bizim mövqelərimizi möhkəmləndirir.

İqtisadi sahədə bizim mövqelərimiz çox möhkəmdir. Bu da çox önəmlidir və bizim imkanlarımızı daha da artırır. İndi gərək biz siyasi müstəvidə möhkəmlənək. Buna da gözəl zəmin var. Çünki iqtisadi baza olandan sonra siyasi proseslərdə iştirak etmək daha da asan olacaq və mən sizi bu işə də dəvət edirəm. Bizim diasporumuz həm siyasi, həm də iqtisadi proseslərdə fəal iştirak etməklə, Azərbaycanın mövqelərini daha da möhkəmləndirəcək ki, gücümüz daha da artsın. Bizim gücümüz sizin fəaliyyətinizdir. Sizin isə gücünüz Azərbaycan dövlətinin güclü olmasıdır. Azərbaycan dövləti nə qədər güclü olsa, sizin mövqeləriniz də bir o qədər güclü olacaqdır. Azərbaycanlıların yığcam yaşadıqları, yaxud da çox böyük sayda yaşadıqları ölkələrin dövlət, hökumət başçıları ilə mənim bu barədə çox geniş söhbətlərim olubdur. Elə bir görüş olmayıbdır ki, biz bu məsələyə toxunmayaq. Elə bir tədbir olmayıb ki, mən bu mövzunu dilə gətirməyim. Hər dəfə bunu edirəm və edəcəyəm. Çünki bu, bizim xalqımızın nüfuzunu möhkəmləndirir.

Azərbaycan xalqı böyük xalqdır. Biz 50 milyonuq. Bu, dünya miqyasında böyük xalqdır. Bizim hamımızın bir Vətəni var - Azərbaycan. Çalışmalıyıq ki, doğma Vətənimizi möhkəmləndirək, zənginləşdirək, qüdrətli dövlətə çevirək. Bu işdə hamımıza uğurlar diləyirəm.

**Sağ olun.**

# DÜNYA AZƏRBAYCANLILARININ II QURULTAYININ SƏNƏDLƏRİ

## DÜNYA AZƏRBAYCANLILARININ II QURULTAYININ QƏTNAMƏSİ

Dünya azərbaycanlılarının II qurultayı Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin nitqini, Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsinin hesabatını və nümayəndələrin çıxışlarını dinləyərək qeyd edir ki, I qurultaydan ötən dövrdə xaricdəki soydaşlarımızın təşkilatlanması və öz tarixi Vətəni olan Azərbaycanla əlaqələrinin genişləndirilməsi sahəsində məqsədyönlü tədbirlər həyata keçirilmişdir. Qurultay məmnunluqla bildirir ki, son illər Azərbaycan Respublikası iqtisadi inkişaf yolu ilə inamla irəliləmiş, ümumi daxili məhsulun və sənaye istehsalının artım tempinə görə dünyanın lider dövlətinə çevrilmişdir. Həyata keçirilən iqtisadi islahatlar və qlobal əhəmiyyətli transregional layihələr ölkəyə investisiya axınını sürətləndirmiş, adambaşına düşən xarici sərmayələrin həcminə görə Azərbaycanı MDB və Şərqi Avropa məkanında ön mövqelərə çıxarmışdır. Qısa vaxt ərzində respublikanın əksər şəhər və rayonlarının, xüsusən Bakı şəhərinin siması kökündən dəyişmiş, əhalinin rifahının yaxşılaşdırılması istiqamətində təsirli tədbirlər görülmüşdür.

Ölkənin hərbi qüdrəti ildən-ilə artmış, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində görülən tədbirlər davam etdirilmişdir.

Aparılan hüquqi və siyasi islahatlar Azərbaycanın demokratik dövlət, vətəndaş cəmiyyəti quruculuğu yolu ilə inamla addımladığını təsdiqləmiş, onun beynəlxalq nüfuzunu yüksəltmişdir. 2003-cü ilin prezident və 2005-ci ilin parlament seçkiləri Azərbaycan dövlətinin və onun vətəndaşlarının demokratik ənənələrə sadiqliyini bir daha sübut etmişdir.

BMT, ATƏT, Avropa Şurası, İslam Konfransı Təşkilatı, Müstəqil Dövlətlər Birliyi kimi nüfuzlu təşkilatların bərabərhüquqlu üzvü olan Azərbaycan Respublikası beynəlxalq münasibətlər sistemində özünə layiqli yer tutmuş, dünya birliyinə daha sıx inteqrasiya olunmuşdur.



Qazanılan uğurlar ölkədə milli birliyin təmin olunmasına öz töhfəsini vermiş, dünyanın müxtəlif guşələrində yaşayan azərbaycanlıların daxili inamını və qürur hissini gücləndirmiş, tarixi Vətənin maraqları naminə daha sıx birləşərək fəaliyyət göstərmələri üçün zəmin yaratmışdır.

Qurultay nümayəndələri dünya azərbaycanlılarının vahid məqsəd ətrafında birləşdirilməsi ideyasının ümummilli lider Heydər Əliyev tərəfindən irəli sürüldüyünü bir daha dərin minnətdarlıq hissi ilə qeyd edirlər. Məhz Heydər Əliyevin təşəbbüsü ilə Naxçıvan MR Ali Məclisi 1991-ci ilin sonunda 31 dekabrı Dünya azərbaycanlılarının həmrəylik və birlik günü elan etmiş, onun bütün ölkə miqyasında dövlət bayramı kimi qeyd olunması üçün Azərbaycan Respublikasının Ali Soveti qarşısında vəsatət qaldırmışdı. 1993-cü ildə yenidən ali siyasi hakimiyyətə qayıdan Heydər Əliyev xaricdə yaşayan azərbaycanlıların təşkilatlanması, məskunlaşdıqları ölkələrin ictimai-siyasi həyatında fəal iştirak etməsi, tarixi Vətənlə əlaqələrinin genişləndirilməsi məsələlərini daim diqqət mərkəzində saxlamış, onların problemlərinin həllini və hüquqlarının müdafiəsini təmin etmək üçün dövlətin imkanlarını səfərbər etmişdi.

Heydər Əliyevin təşəbbüsü ilə 2001-ci ilin noyabrında Bakıda keçirilmiş Dünya azərbaycanlılarının I qurultayı xaricdəki soydaşlarımızın ümumi məqsəd, vahid azərbaycançılıq ideyası ətrafında birləşməsi yolunda mühüm əhəmiyyət kəsb etmiş, diaspor hərəkatının tarixində keyfiyyətcə yeni mərhələnin başlanğıcını qoymuşdur. Qurultay nümayəndələrinin çoxsaylı təkliflərini nəzərə alan ümummilli liderimiz diasporla iş sahəsində dövlət siyasətinin həyata keçirilməsini, dövlət orqanlarının və qeyri-hökumət təşkilatlarının bu sahə ilə bağlı fəaliyyətinin əlaqələndirilməsini təmin etmək üçün 2002-ci il iyulun 5-də «Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsinin yaradılması haqqında» Fərman imzalamışdır. Həmin ilin dekabrında qəbul edilmiş "Xarici ölkələrdə yaşayan azərbaycanlılarla bağlı dövlət siyasəti haqqında" Qanun isə bu sahədə həyata keçirilən dövlət siyasətinin prioritet istiqamətlərini və hüquqi prinsiplərini müəy-

yən etmişdir. Bilavasitə diaspor problemləri ilə məşğul olan dövlət orqanının təsis edilməsi və müvafiq qanunun qəbulu dünya azərbaycanlılarının təşkilatlanması prosesini daha da sürətləndirmiş, Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması üçün yeni imkanlar yaratmışdır.

Təqdirəlayiq haldır ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev ümummilli liderimiz tərəfindən müəyyənləşdirilmiş siyasi xəttə sadiq qalaraq, dünya azərbaycanlıları ilə əlaqələrin möhkəmləndirilməsi, güclü Azərbaycan diasporunun və lobbisinin yaradılması məsələlərinə xüsusi diqqət yetirir, bu prosesin təkmilləşdirilməsi istiqamətində zəruri tədbirlərin görülməsini təmin edir. Prezident İlham Əliyevin xarici səfərləri zamanı diasporumuzun nümayəndələri ilə keçirdiyi çoxsaylı görüşlərdə, azərbaycanlı icmalarının təşkil etdiyi forum və konfranslara təbrik məktublarında, Dünya azərbaycanlılarının həmrəyliyi günü münasibətilə müraciətlərində öz əksini tapan fikirlər azərbaycançılıq ideyalarının davam etdirildiyini və uğurla həyata keçirildiyini təsdiq edir.

Son illər Azərbaycan dövlətinin diaspor quruculuğu sahəsində apardığı ardıcıl və məqsədyönlü işin nəticəsində Amerika, Avropa, Asiya və Şimali Afrikanın ayrı-ayrı ölkələrində 80-dən çox yeni azərbaycanlı icması yaradılmış, bununla da xaricdəki soydaşlarımızı birləşdirən qurumların sayı 300-ü ötmüşdür. Hazırda bir ölkə daxilində fəaliyyət göstərən ayrı-ayrı icma və qurumların tədricən vahid mərkəzdə birləşməsi prosesi başlanmışdır. Ukrayna (1997-ci il) və Rusiyanın (2000-ci il) ardınca, 2004-cü ilin mayında 18 icma və təşkilatı birləşdirən Türkiyə Azərbaycan Dərnəkləri Federasiyasının təsis konfransı keçirilmiş, 2005-ci ilin aprelində Kanadada Azərbaycan Təşkilatları Federasiyası yaradılmışdır. 2004-cü ilin aprelində Avropa Azərbaycanlıları Konqresinin təsis edilməsi isə soydaşlarımızın artıq qitə miqyasında təşkilatlanmağa başladıqlarını nümayiş etdirmişdir. Görülmüş tədbirləri qənaətbəxş sayan qurultay bu istiqamətdə aparılan işlərin digər ölkə və qitələr üzrə də davam etdirilməsini, proses qitələr üzrə başa çatdıqdan sonra isə dünya azərbaycanlılarının vahid təşkilatının yaradılması üçün müvafiq addımların atılmasını tövsiyə edir.



Qurultay təşkilatlanmış azərbaycanlı cəmiyyətlərinin fəaliyyət göstərdikləri ölkələrin ictimai-siyasi və mədəni həyatında fəal iştirak etmələrini diaspor quruculuğu işinin ən mühüm istiqamətlərindən biri hesab edir. Bir sıra ölkələrin qanunvericilik, icra hakimiyyəti və yerli özünüidarə orqanlarında soydaşlarımızın təmsil olunması, onların yığcam yaşadıqları ərazilərdə "Bazar günü" məktəblərinin açılması, müxtəlif icma və birliklərin nəzdində 27 qəzet, 10 jurnal, 3 radio və 1 televiziyanın fəaliyyət göstərməsi, Azərbaycan Evlərinin, hüquq müdafiə mərkəzlərinin yaradılması, tanınmış elm, ədəbiyyat, mədəniyyət və dövlət xadimlərinin yubileylərinin keçirilməsi, Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması məqsədi ilə müxtəlif tədbirlərin (yürüş, piket, nümayiş, imzatoplama kampaniyası, elmi konfrans, dəyirmi masa və s.) təşkil edilməsi həmvətənlərimizin ictimai-siyasi fəallığının artmasının göstəricisi kimi dəyərləndirilə bilər. Bu istiqamətdə görülmüş işləri yüksək qiymətləndirən qurultay, soydaşlarımızın yaşadıqları ölkələrin ictimai-siyasi və mədəni həyatına daha sıx inteqrasiya olunmalarını alqışlayır və bu işə mütəmadi dəstək verilməsini zəruri sayır.

Son illər dünyadakı türk diaspor təşkilatları ilə əməkdaşlığın dərinləşdirilməsi istiqamətində müəyyən addımlar atılmış, bir sıra məsələlərdə Azərbaycan və türk diasporlarının eyni mövqedən çıxış etməsi, birgə aksiyalar keçirməsi təmin edilmişdir. Azərbaycana dost münasibətdə olan digər millətlərin nümayəndələri, dövlət, elm və mədəniyyət xadimləri, qeyri-hökumət təşkilatlarının təmsilçiləri ilə əlaqələr davam etdirilmiş, Vətənimiz haqqında həqiqətlərin dünyaya çatdırılması, Azərbaycan Respublikasının maraqlarının ayrı-ayrı ölkələrdə və beynəlxalq təşkilatlarda müdafiə edilməsi üçün onların potensialından istifadə olunmuşdur. Qurultay bu sahədə aparılan işlərin davam etdirilməsini, birgə fəaliyyət strategiyasının hazırlanması üçün türk və Azərbaycan diaspor təşkilatlarının birgə forumunun keçirilməsini, Azərbaycan lobbisinin təşkilinə yardım edə biləcək şəxslərlə məqsədyönlü iş aparılmasını tövsiyə edir.

Son illər xaricdə yaşayan soydaşlarımız, o cümlədən iş adamları Azərbaycan Respublikasının sosial-iqtisadi inkişafına öz töhfələrini verməyə çalışır, iqtisadiyyatın müxtəlif sahələrinə

investisiyalar qoyur, doğulduqları bölgələrdə infrastrukturun yeniləşməsinə, abadlıq və quruculuq işlərinə müəyyən kömək göstərirlər. Qurultay sosial-iqtisadi inkişaf proqramlarının həyata keçirilməsinə xaricdə yaşayan azərbaycanlı iş adamlarını geniş cəlb etmək məqsədi ilə onlar üçün hərtərəfli şərait yaradılmasını məqsədəuyğun hesab edir, yaxın gələcəkdə onların forumunun keçirilməsini tövsiyə edir.

Qeyd edilənləri nəzərə alaraq, Dünya azərbaycanlılarının II qurultayı

**QƏRARA ALIR:**

1. I qurultaydan ötən dövr ərzində xarici ölkələrdə yaşayan azərbaycanlıların təşkilatlanması, onların ictimai-siyasi fəallığının artırılması və yaşadıqları cəmiyyətlərə inteqrasiyası, diaspor təşkilatları arasında əməkdaşlıq münasibətlərinin dərinləşdirilməsi sahəsində aparılmış işlər qənaətbəxş hesab edilsin.

2. Xarici ölkələrdə yaşayan azərbaycanlıların təşkilatlanması prosesini keyfiyyətcə təkmilləşdirmək, diaspor təşkilatlarının fəaliyyətini daha səmərəli şəkildə əlaqələndirmək, Azərbaycanla bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması işinin müasir tələblər səviyyəsində qurulmasını təmin etmək, soydaşlarımız arasında ideya birliyinin möhkəmləndirilməsinə və onların tarixi Vətənlə əlaqələrinin gücləndirilməsinə nail olmaq məqsədi ilə Azərbaycan diasporunun fəaliyyət konsepsiyasının hazırlanması məqsədəuyğun hesab edilsin.

3. Azərbaycan Respublikasının aidiyyəti dövlət qurumlarına və diaspor təşkilatlarına tövsiyə edilsin ki, Dünya azərbaycanlılarının III qurultayına qədərki dövrdə aşağıdakı məsələlərə xüsusi diqqət yetirsinlər:

- bir ölkə daxilində ayrı-ayrılıqda fəaliyyət göstərən icma və qurumların vahid mərkəzdə birləşdirilməsi;
- diaspor təşkilatlarının qitələr üzrə birləşdirilməsi prosesinin davam etdirilməsi, Amerika Azərbaycanlıları Konqresinin və Asiya Azərbaycanlıları Konqresinin təsis edilməsi;
- qitələr üzrə diaspor təşkilatlarının birləşdirilməsi prosesi başa çatdıqdan sonra dünya azərbaycanlılarının vahid təşkilatının yaradılması istiqamətində iş aparılması;



- Azərbaycan və türk diasporlarının birgə fəaliyyət strategiyasını müəyyənləşdirmək məqsədi ilə iki ölkənin diaspor təşkilatlarının forumunun keçirilməsi;
- xarici ölkələrin parlamentlərində, dövlət və yerli özünüidarə orqanlarında azərbaycanlıların daha geniş təmsil olunmaları üçün tədbirlərin görülməsi;
- azərbaycanlı icmalarının fəaliyyət göstərdikləri ölkələrin kütləvi informasiya vasitələri ilə əlaqələrinin yaxşılaşdırılması, yeni müstəqil qəzet, jurnal, radio, televiziya və informasiya agentliklərinin yaradılması prosesinin davam etdirilməsi;
- soydaşlarımızın öz dilinə, mədəniyyətinə, tarixi köklərinə və milli-mənəvi dəyərlərinə bağlılığını qoruyub saxlamaları üçün "Bazar günü" məktəblərinin, teatrların, kitabxanaların açılması, Azərbaycanın elm, ədəbiyyat və incəsənət xadimlərinin iştirakı ilə xarici ölkələrdə ədəbi-bədii gecələrin, konsertlərin və digər tədbirlərin müntəzəm olaraq təşkil edilməsi;
- xaricdə yaşayan iş adamlarının imkanlarından istifadə etməklə icma üzvləri içərisində elm, təhsil, mədəniyyət, incəsənət, idman və digər sahələrdə istedadı olan uşaq, yeniyetmə və gənclərin aşkar edilməsi, onların öz imkan və bacarıqlarını reallaşdıra bilmələri üçün şəraitin yaradılması məqsədi ilə xüsusi proqramların hazırlanıb həyata keçirilməsi, müvafiq fondların yaradılması;
- dünyanın ayrı-ayrı bölgələrində yaşayan azərbaycanlı uşaq və gənclərin ana dilini dərindən öyrənmələri, öz Vətənlərinin təbiəti, tarixi, mədəniyyəti, Azərbaycan xalqının adət-ənənələri və məişəti ilə yaxından tanış olmaları üçün kompleks tədbirlərin görülməsi, onların Azərbaycana səfərlərinin təşkil olunması, yay istirahət düşərgələrində dincəlmələri üçün şəraitin yaradılması;
- bir sıra ölkələrdə yaşayan azərbaycanlıların, habelə əmək miqrasiyası ilə bağlı müvəqqəti olaraq həmin ölkələrə getmiş Azərbaycan vətəndaşlarının hüquqlarının qorunması, zəruri hallarda onlara hüquqi yardımın göstərilməsi məqsədi ilə hüquq müdafiə mərkəzlərinin yaradılması;
- ölkəmizlə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılmasında fəal iştirak edən və Azərbaycan lobbisinin təşkilinə yardım göstərə biləcək insanlarla, soydaşlarımızın yaşadıqları ölkələrin və digər dövlətlərin qeyri-hökumət təşkilatlarının təmsilçiləri

ilə sıx əlaqələrin qurulması, onlarla ardıcıl və məqsədyönlü iş aparılması;

- xaricdə yaşayan azərbaycanlı iş adamlarının respublikanın sosial-iqtisadi inkişaf proqramlarına geniş cəlb olunması;

4. Redaksiya komissiyasına tapşırılsın ki, qurultayda səslənmiş fikir və təklifləri ümumiləşdirərək, Azərbaycan Respublikasının müvafiq dövlət orqanlarına və diaspor təşkilatlarına təqdim etsin.

5. Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsindən xahiş edilsin ki, qurultayın materiallarının ayrıca kitab halında nəşr olunmasını və bütün qurultay nümayəndələrinə göndərilməsini təmin etsin.

6. Dünya azərbaycanlılarının növbəti qurultayları hər beş ildən bir Bakı şəhərində keçirilsin. Dünya Azərbaycanlılarını Əlaqələndirmə Şurası ildə bir dəfədən az olmayaraq, öz hesabat yığıncağını keçirsin.

Qurultay qəbul olunmuş qərarların yerinə yetirilməsi üçün azərbaycanlıların icma və təşkilatlarının bütün səy və bacarıqlarını əsirgəməyəcəklərinə, dünya azərbaycanlılarının birliyi ideyasının həyata keçirilməsi üçün öz qüvvələrini birləşdirəcəklərinə, Azərbaycan dövlətinin milli maraqlarını ləyaqətlə müdafiə edəcəklərinə əminliyini ifadə edir.

***Qətnamə Dünya azərbaycanlılarının***
***II qurultayında qəbul olunmuşdur.***
***Bakı şəhəri, 16 mart 2006-cı il.***



# DÜNYA AZƏRBAYCANLILARININ II QURULTAYI NÜMAYƏNDƏLƏRİNİN AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ CƏNAB İLHAM ƏLİYEVƏ MÜRACİƏTİ

**Zati-aliləri!**

Dünya azərbaycanlılarının I qurultayında qarşıya qoyulmuş vəzifələrin yerinə yetirilməsinə qiymət vermək, gələcək fəaliyyətimizin yeni istiqamətlərini müəyyənləşdirmək məqsədi ilə növbəti ali məclisimizin keçirilməsinə yüksək səviyyədə dəstək verdiyinizə görə Sizə dərin minnətdarlığımızı bildiririk.

Görülmüş işləri təhlil etdikdə bir daha əmin oluruq ki, qloballaşan dünyada ümumbəşəri dəyərlərə yiyələnməklə yanaşı, milli varlığımızı qoruyub saxlamaq, mədəniyyətimizi, dilimizi və adət-ənənələrimizi gələcək nəsillərə ötürmək, azərbaycançılıq ideyası ətrafında sıx birləşərək, güclü diaspor hərəkatı formalaşdırmaq üçün başlıca şərt müstəqil dövlətimizin - Azərbaycan Respublikasının qorunması və daha da gücləndirilməsidir. Bu baxımdan Sizin rəhbərliyiniz altında Vətənimizin qazandığı uğurlar hər birimizin qəlbində böyük iftixar hissi doğurur, xalqımızın işıqlı gələcəyinə ümidlərimizi artırır.

Əsası ümummilli liderimiz Heydər Əliyev tərəfindən qoyulmuş daxili və xarici siyasətin uğurla davam etdirilməsi nəticəsində Azərbaycan dinamik inkişaf yoluna çıxaraq, Cənubi Qafqazın aparıcı dövlətinə çevrilmişdir. Ölkədə hökm sürən ictimai-siyasi sabitlik və demokratiyanın inkişafı sosial-iqtisadi və hüquqi islahatların dərinləşdirilməsinə əlverişli imkan yaratmışdır.

Neft strategiyasının uğurla həyata keçirilməsi nəticəsində ölkəyə daxil olan vəsaitlərin şəffaf şəkildə idarə olunması, qeyrineft sektorunun inkişaf etdirilməsi, ölkə infrastrukturlarının yenidən qurulması, vətəndaşların hüquq və azadlıqlarının ardıcıl təmin edilməsi müstəqil Azərbaycan dövlətinin qüdrətini artırmaqla yanaşı, beynəlxalq nüfuzunu da yüksəltmişdir. İndi Azərbaycan davamlı inkişaf yoluna qədəm qoymuş, insan hüquq və azadlıqlarına dönmədən əməl edən, aydın inkişaf perspektivlərinə malik ölkə imicini qazanmışdır.

Sosial-iqtisadi və ictimai-siyasi sahədə qazanılmış uğurlar

ölkə daxilində milli birliyin möhkəmlənməsinə təkan vermiş, xaricdə fəaliyyət göstərən azərbaycanlı icmalarının potensialını milli maraqlarımızın müdafiəsinə cəlb etmək üçün əlverişli şərait yaratmışdır.

**Möhtərəm Prezident!**

Qurultay nümayəndələri xaricdə yaşayan azərbaycanlıların birliyinin təmin olunması, onların hüquq və mənafelərinin qorunması istiqamətində Sizin gördüyünüz işləri yüksək qiymətləndirir və müdafiə edirlər.

Qurultay nümayəndələri Sizin səsləndirdiyiniz "Azərbaycanın qarşısında bu gün Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsindən başqa heç bir ciddi problem qalmamışdır" fikri ilə tam razıdırlar. Biz bu problemin həlli yönündə atdığınız addımları dəstəkləyir və bəyan edirik ki, heç vaxt torpaqlarımızın Ermənistan tərəfindən işğal olunması, bir milyona qədər soydaşımızın qaçqın və köçkün vəziyyətində yaşaması faktı ilə barışmayacaq, bundan dövlətimizə qarşı təzyiq vasitəsi kimi istifadə olunmasına yol verməyəcəyik.

Təqdirəlayiq haldır ki, Azərbaycan dövlətinin məqsədyönlü fəaliyyəti sayəsində son illər dünya ictimaiyyəti və beynəlxalq təşkilatlar ölkəmizlə bağlı bəzi həqiqətləri anlamağa və etiraf etməyə başlamışlar. İslam Konfransı Təşkilatı və Avropa Şurası Parlament Assambleyasında Azərbaycan torpaqlarının Ermənistan tərəfindən işğalı faktının tanınması, bu məsələnin BMT Baş Məclisinin sessiyasının gündəliyinə salınması, ATƏT-in faktaraşdırıcı missiyasının işğal olunmuş ərazilərdə ermənilərin qeyri-qanuni olaraq məskunlaşdırılmasını təsdiqləməsi Ermənistanın təcavüzkar siyasətinin ifşası istiqamətində qazanılan mühüm diplomatik nailiyyətlərdir.

Biz münaqişəni sülh yolu ilə nizama salmaq üçün ATƏT-in Minsk Qrupu və Praqa prosesi çərçivəsində aparılan danışıqlara böyük ümidlər bəsləyirdik. Lakin Ermənistan rəhbərliyinin qeyri-konstruktiv mövqe tutması ucbatından danışıqlar prosesinin indiyədək heç bir nəticə verməməsi hər birimizi dərindən narahat edir. Qurultay nümayəndələri yaranmış vəziyyətdə Sizin ən doğru qərar verəcəyinizə inanır və Zati-alilərinizi əmin edirlər ki, dünya azərbaycanlılarını bu qərarın dəstəklənməsinə səfərbər edəcəklər.



**Cənab Prezident!**

Sizin çıxışınızda səslənən fikir və tövsiyələr, II qurultayın qəbul etdiyi qərarlar Azərbaycan diaspor hərəkatının gələcək inkişafına mühüm təsir göstərəcəkdir. Biz qurultayın irəli sürdüyü vəzifələrə uyğun olaraq, milli mənafelərimizin qorunması üçün bütün səylərimizi birləşdirəcəyik. Ümidvarıq ki, bu vəzifələrin gerçəkləşdirilməsi yolunda Siz, həmişə olduğu kimi, bundan sonra da Azərbaycan dövlətinin imkanlarından geniş istifadə edəcəksiniz.

**Möhtərəm Prezident!**

Dünya azərbaycanlılarının II qurultayının bütün iştirakçıları müstəqil Azərbaycan Respublikasının nail olduğu uğurları yüksək qiymətləndirir, Azərbaycan diasporunun gücləndirilməsi üçün gördüyünüz işləri alqışlayır, azərbaycançılıq ideyalarının daim yaşaması və hər bir azərbaycanlının həyat normasına çevrilməsi naminə səylərini əsirgəməyəcəklərini bəyan edirlər.

***Müraciət Dünya azərbaycanlılarının II qurultayında qəbul olunmuşdur. Bakı şəhəri, 16 mart 2006-cı il.***

# DÜNYA AZƏRBAYCANLILARININ II QURULTAYI NÜMAYƏNDƏLƏRİNİN DÜNYA AZƏRBAYCANLILARINA MÜRACİƏTİ

**Əziz həmvətənlər!**
**Hörmətli soydaşlarımız!**

Xalqımız bütün tarixi boyu milli birlik və həmrəylik arzuları ilə yaşamışdır. Lakin dünya azərbaycanlılarının təşkilatlanması, onların həmrəyliyinin güclənməsi müstəqil Azərbaycan Respublikası və ümummilli liderimiz Heydər Əliyevin adı ilə bağlıdır. Heydər Əliyev dünyada yaşayan azərbaycanlıların milli birlik və həmrəylik hisslərinin güclənməsi, onların ümummilli ideyalar, Azərbaycan dövlətçiliyi ətrafında sıx birləşməsi üçün daim geniş fəaliyyət göstərmiş, özünün bütün bilik və bacarığını sərf etmişdir. O, hələ Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri olarkən, 1991-ci il dekabrın 16-da ilk dəfə rəsmi olaraq, 31 dekabrı Dünya azərbaycanlılarının həmrəylik və milli birlik günü elan etmiş, sonrakı illərdə isə Azərbaycan xalqının, bütün dünya azərbaycanlılarının milli bayramına çevrilməsi üçün xüsusi səy göstərmişdir.

Bir toplum kimi dünya azərbaycanlıları qarşısında duran vəzifələr Heydər Əliyev tərəfindən aydın və dəqiq müəyyənləşdirilmişdir. Müxtəlif ölkələrdə yaşayan azərbaycanlılar, ilk növbədə, öz milli kimliklərini dərk və hifz etməli, Azərbaycanın dilini, mədəniyyətini, mütərəqqi adət-ənənələrini, tarixini yaşatmalı və inkişaf etdirməlidirlər. Bu, bütün dünyada yaşayan soydaşlarımızın mədəni-mənəvi birliyinin mühüm şərtidir.

Digər mühüm istiqamət dünya azərbaycanlılarının Azərbaycan Respublikası ilə əlaqələrinin möhkəmləndirilməsi, bu əlaqələrin hüquqi, siyasi, ictimai və mədəni əsaslarının gücləndirilməsidir. Hər bir azərbaycanlı dünyanın hansı ölkəsində yaşamasından asılı olmayaraq, Azərbaycan dövlətinin, cəmiyyətinin problemləri ilə yaşamalı, onların həlli üçün mənəvi məsuliyyət hiss etməlidir. Eyni zamanda, Azərbaycan hökuməti də Vətənimizin getdikcə artan maddi və mənəvi gücündən, siyasi nüfuzundan bütün dünya



azərbaycanlılarının bəhrələnməsinə şərait yaratmalı, onların hüquqlarının qorunması üçün istifadə etməlidir.

Azərbaycan diasporunun təşkilatlanması, Vətənlə əlaqələrinin möhkəmlənməsi üçün Heydər Əliyev sözün tam mənasında coşqun fəaliyyət göstərmişdir. Azərbaycanlıların həmrəyliyi ideyası ictimai təşəbbüslərdən və arzulardan əməli iş səviyyəsinə qaldırılmış, dövlət siyasətinin ən mühüm istiqamətlərindən birinə çevrilmişdir. 2001-ci ilin noyabrında Dünya azərbaycanlılarının I qurultayının yüksək səviyyədə keçirilməsi və Azərbaycan rəhbərliyinin sonrakı məqsədyönlü siyasəti müxtəlif ölkələrdə azərbaycanlı icmalarının mütəşəkkilliyinin və fəallığının artmasına, tarixi Vətənlə əlaqələrinin möhkəmlənməsinə gətirib çıxarmışdır.

I qurultaydan ötən dövrdə dünya azərbaycanlılarının həmrəyliyinin məzmunca zənginləşdirilməsi, təşkilati-hüquqi əsaslarının təkmilləşdirilməsi üçün çox iş görülmüşdür. Xaricdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsi yaradılmış, soydaşlarımızla bağlı dövlət siyasətini tənzimləyən ayrıca qanun qəbul edilmişdir. Azərbaycanlıların təşkilatlanması işi daha da güclənmiş, milli-mənəvi və ümumbəşəri dəyərləri üzvi şəkildə birləşdirən, Azərbaycan xalqına və dövlətinə bağlılıq hissinə əsaslanan azərbaycançılıq ideyası bütün dünyada yaşayan həmvətənlərimiz arasında geniş yayılmışdır.

İndi xaricdə yaşayan azərbaycanlılarla bağlı dövlət siyasətinin həyata keçirilməsində, soydaşlarımızın birlik və həmrəyliyinin möhkəmləndirilməsində yeni mərhələ yaşanmaqdadır. Bu, bir tərəfdən Azərbaycanın iqtisadi və siyasi cəhətdən güclənməsi, onun regionda lider dövlətə çevrilməsi, beynəlxalq nüfuzunun artması ilə, digər tərəfdən isə xaricdə yaşayan azərbaycanlılarla işin keyfiyyətinin yüksəlməsi, qarşıya yeni vəzifələrin qoyulması ilə əlaqədardır.

Müxtəlif ölkələrdə fəaliyyət göstərən icma və qurumlar tədricən vahid mərkəzlərdə birləşir, soydaşlarımız artıq qitələr üzrə təşkilatlanmağa başlayırlar. Hazırda Azərbaycan dövləti öz qarşısına həmvətənlərimizin hüquq və azadlıqlarının müdafiəsi, yaşadıqları ölkələrdə təsirli qüvvəyə çevrilməsi, dünya azərbaycanlılarının taleyi üçün məsuliyyət daşıması kimi vəzifələr qoyur. Buna görə də azərbaycanlı icmalarının yaşadıqları ölkələrin müxtəlif

hakimiyyət və ictimai strukturlarında layiqli təmsil olunması və aparıcı dövlətlərdə nüfuzlu Azərbaycan lobbisinin formalaşdırılması Azərbaycan Respublikasının və xaricdə yaşayan soydaşlarımızın qarşısında duran mühüm vəzifələrdəndir.

Azərbaycanın milli-mənəvi dəyərlərinin, mütərəqqi ənənələrinin qorunub saxlanması və təbliğ edilməsi, mədəniyyət, hüquq müdafiə mərkəzlərinin yaradılması və onların səmərəli fəaliyyət göstərməsi üçün məqsədyönlü, müntəzəm tədbirlər həyata keçirilməlidir.

Azərbaycanlı icmalarının yaşadıqları ölkələrin kütləvi informasiya vasitələri ilə əlaqələri gücləndirilməli, soydaşlarımız üçün müntəzəm surətdə kütləvi-mədəni tədbirlər təşkil olunmalıdır. Eyni zamanda, soydaşlarımızın Azərbaycanın iqtisadi və ictimai-mədəni həyatında real iştirakı təmin edilməli, məskunlaşdıqları ölkələrlə tarixi Vətən arasında əlaqə və münasibətlərin möhkəmləndirilməsində onların rolu artırılmalıdır.

Azərbaycana dost münasibətdə olan icmalar, ayrı-ayrı dövlət, elm və mədəniyyət adamları, ictimai təşkilatların nümayəndələri ilə əlaqələr yeni səviyyəyə qaldırılmalı, Azərbaycan həqiqətlərinin beynəlxalq ictimaiyyətə çatdırılması, Azərbaycanın maraqlarının ayrı-ayrı ölkələrdə və beynəlxalq qurumlarda müdafiəsi üçün bu əlaqələrdən bacarıqla istifadə edilməlidir.

Xaricdə yaşayan azərbaycanlılar həmçinin məkrli erməni təbliğatının planlarını və fitnə-fəsadlarını vaxtında ifşa etməli, tariximizi və mədəni irsimizi saxtalaşdırmaq, dünya ictimaiyyətini çaşdırmaq cəhdlərinin qarşısını daha qətiyyətlə almalıdırlar. Onlar bu məsələdə fəal mövqe tutmalı, öz fəaliyyətlərini Azərbaycanın müvafiq təşkilatları ilə əlaqələndirməlidirlər.

Bu gün Azərbaycan diasporu böyük iqtisadi, mədəni, intellektual qüvvəyə malikdir, ölkələrin ictimai-siyasi həyatına onların təsiri getdikcə daha artıq hiss olunur. Məmnunluq hissi ilə qeyd edilməlidir ki, Müstəqil Dövlətlər Birliyi ölkələrində, Avropada, Asiyada, Amerikada çoxsaylı azərbaycanlı icmaları və cəmiyyətləri əvvəlki dövrlərlə müqayisədə xeyli səmərəli fəaliyyət göstərirlər. Lakin xüsusi vurğulanmalıdır ki, onların geniş imkanları, istifadə olunmamış potensialı vardır və bu potensialdan milli maraqlar naminə maksimum yararlanmaq lazımdır.



İndi dünya azərbaycanlılarının həmrəylinin və mütəşəkkilliyinin güclənməsi, onların ümummilli ideyalar ətrafında sıx birləşməsi üçün daha əlverişli şərait yaranmışdır. Azərbaycan Respublikası beynəlxalq münasibətlər sistemində layiqli yer tutur, dünya birliyinə qəti şəkildə inteqrasiya olunur, həyatın bütün sahələrini qabaqcıl dünya meyarlarına uyğunlaşdırır. 2003-cü ilin prezident və 2005-ci ilin parlament seçkiləri Azərbaycan cəmiyyətinin demokratik inkişaf yolu ilə inamla irəlilədiyini bir daha sübut etmişdir.

2005-ci ildə Azərbaycan iqtisadiyyatı ən yüksək inkişaf templərinə malik olmuşdur. Ümumi daxili məhsulun həcmi 26 faizdən çox artmış və bu göstəriciyə görə ölkəmiz dünyada birinci yeri tutmuşdur. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquq normalarına uyğun ədalətli həlli istiqamətində səylər gücləndirilmişdir, bu istiqamətdə yeni imkanlar axtarılır.

Dövrümüzün nəhəng enerji layihələri olan Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft və Bakı-Tbilisi-Ərzurum qaz kəmərlərinin 2006-cı ildə istismara verilməsi, Qars-Tbilisi-Bakı dəmir yolunun reallaşdırılmaqda olan çəkilişi bütün regionun simasını dəyişəcək və dünya azərbaycanlıları qarşısında yeni imkanlar açacaqdır. Qazanılan uğurlar həm ölkə daxilində, həm də xaricdə yaşayan azərbaycanlılar arasında birlik və həmrəyliyin möhkəmlənməsinə əlverişli şərait yaratmış, onların tarixi Vətənlə bağlılığına yeni stimul vermişdir.

Bütün bu nailiyyətlər göstərir ki, Azərbaycan düz yoldadır, onun daxili və xarici siyasəti davamlı və dayanıqlı inkişaf üçün başlıca şərtdir. Azərbaycanın sürətlə artan potensialı bütün problemlərimizin həllində, o cümlədən dünya azərbaycanlıları ilə bağlı vəzifələrin həyata keçirilməsində güclü amil olacaqdır.

**Əziz azərbaycanlılar!**
**Hörmətli soydaşlar!**

Qurultay sizə müraciət edərək, qəbul olunmuş qərarların yerinə yetirilməsi üçün bütün imkanlarınızdan istifadə etməyə, dünya azərbaycanlılarının birliyi və həmrəyliyi ideyalarının həyata keçirilməsi üçün öz qüvvələrinizi birləşdirməyə çağırır, hər birini-

zə cansağlığı, firavanlıq, əmin-amanlıq və Vətənimizin tərəqqisi yolunda uğurlar arzulayır.

*Müraciət Dünya Azərbaycanlılarının*
*II Qurultayında qəbul olunmuşdur.*
*Bakı şəhəri, 16 mart 2006-cı il.*



# DÜNYA AZƏRBAYCANLILARININ II QURULTAYI NÜMAYƏNDƏLƏRİNİN ERMƏNİSTAN-AZƏRBAYCAN, DAĞLIQ QARABAĞ MÜNAQİŞƏSİ İLƏ ƏLAQƏDAR DÜNYA İCTİMAİYYƏTİNƏ, BEYNƏLXALQ TƏŞKİLATLARA, XARİCİ ÖLKƏLƏRİN PARLAMENTLƏRİNƏ, DÖVLƏT VƏ HÖKUMƏT BAŞÇILARINA MÜRACİƏTİ

**Hörmətli xanımlar və cənablar!**

Biz - Dünya azərbaycanlılarının II qurultayının nümayəndələri böyük inam və ehtiram hissi ilə sizə müraciət edərək bildiririk ki, qonşu Ermənistanın Azərbaycana qarşı 18 il əvvəl başlanmış və bu günədək davam edən hərbi təcavüzü Qafqaz regionunda sülh və sabitlik üçün böyük təhlükəyə çevrilmiş, münaqişə nəticəsində Azərbaycan ərazilərinin 20 faizi işğal olunmuş, 1 milyona yaxın insan doğma torpaqlarından didərgin salınaraq, qaçqın və məcburi köçkün vəziyyətinə düşmüşdür.

Dünyada gedən qloballaşma prosesinin sivilizasiyalararası dialoqu zərurətə çevirdiyi bir vaxtda Ermənistan Respublikası beynəlxalq hüququn norma və prinsiplərinə etinasızlıq göstərməkdə davam edir, öz silahlı qüvvələrini işğal edilmiş Azərbaycan ərazilərindən çıxarmaq istəmir. Təcavüzkarın aqressiv separatizmi dəstəkləməsi və davakar millətçilik siyasətindən əl çəkməməsi Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə nizamlanması yolunda başlıca maneədir.

"Böyük Ermənistan" xülyası ilə yaşayan erməni millətçilərinin qəsbkarlıq planlarının, azərbaycanlılara qarşı həyata keçirdikləri deportasiya və soyqırımı siyasətinin yüz illərlə ölçülən tarixi vardır. XIX əsrin əvvəllərindən etibarən ermənilər bəzi xarici dövlətlər tərəfindən məqsədyönlü şəkildə Azərbaycan torpaqlarına köçürülmüş, soydaşlarımızın həmin ərazilərdən sıxışdırılıb çıxarılması prosesi başlanmışdır.

Azərbaycanlılara qarşı etnik təmizləmə siyasəti Sovet İttifaqının dağıldığı illərdə daha da güclənmişdir. 1988-ci ildən etibarən açıq şəkildə Azərbaycana qarşı ərazi iddiaları irəli sürən Er-

mənistanın hərbi təcavüzünün miqyası sürətlə genişlənmiş, Dağlıq Qarabağın inzibati hüdudlarından kənara çıxaraq, Azərbaycanın digər ərazilərinin işğalı ilə nəticələnmişdir.

Ermənistanın Azərbaycana hərbi təcavüzü böyük insan tələfatı, ağır maddi və mənəvi itkilərə səbəb olmuşdur. 1992-ci ilin fevralında azərbaycanlıların ən qədim tarixi məskənlərindən biri olan Xocalı şəhəri erməni silahlı qüvvələri tərəfindən amansızlıqla dağıdılmış, qocalar, qadınlar və uşaqlar da daxil olmaqla, 600 nəfərdən çox insan işgəncələrlə qətlə yetirilmişdir. Xocalı soyqırımı daim özlərini dünya ictimaiyyətinə məzlum göstərməyə çalışan erməni millətçilərinin riyakarlığını, insanlıq və bəşəriyyət əleyhinə cinayətlərini bir daha açıb göstərmişdir.

Ümumiyyətlə, hərbi təcavüz zamanı 20 minədək azərbaycanlı həlak olmuş, 50 mindən çox insan yaralanmış və ya əlil olmuşdur. 890 yaşayış məntəqəsi, 150 min ev, 7 min inzibati bina, 693 məktəb, 855 uşaq bağçası, 695 sağlamlıq mərkəzi, 927 kitabxana, 44 məbəd, 9 məscid, 9 tarixi yer, 464 tarixi abidə və muzey, 40 min muzey eksponatı, 6 min sənaye və kənd təsərrüfatı müəssisəsi, 160 körpü, 2300 km su kəməri, 2000 km qaz kəməri, 15 min km elektrik xətti, 280 min hektar meşə, 1 milyon hektar əkin sahəsi, 1200 km irriqasiya sistemi dağıdılaraq məhv edilmişdir. Dağlıq Qarabağ və onun ətrafındakı işğal olunmuş ərazilər nəzarətsiz zonaya və transmilli cinayətkar qruplar üçün əlverişli dayaq nöqtəsinə çevrilmişdir.

Sovet İttifaqının dağılmasından sonra Azərbaycanın və Ermənistanın müstəqil dövlət kimi Birləşmiş Millətlər Təşkilatına üzv olması ilə Dağlıq Qarabağ problemi regional çərçivəni aşaraq, beynəlxalq müstəviyə çıxmışdır. Birləşmiş Millətlər Təşkilatı Təhlükəsizlik Şurasının Dağlıq Qarabağla bağlı 822, 853, 874 və 884 saylı qətnamələrində Azərbaycanın suverenliyinə, ərazi bütövlüyünə və sərhədlərinin toxunulmazlığına hörmət ifadə edilmiş, zor işlədilməklə sərhədlərin dəyişdirilməsinin yolverilməzliyi qeyd olunmuşdur. Bu sənədlərdə silahlı əməliyyatlara və düşmənçilik hərəkətlərinə son qoyulması, erməni silahlı qüvvələrinin Azərbaycanın işğal olunmuş ərazilərindən dərhal, tamamilə və qeyd-şərtsiz çıxarılması tələb edilmişdir.



Son bir ildə bəzi nüfuzlu beynəlxalq təşkilatlar münaqişənin sülh yolu ilə aradan qaldırılması istiqamətində müəyyən qərarlar qəbul etmişlər. Avropa Şurası Parlament Assambleyasının 2005-ci il 1416 saylı qətnaməsində Azərbaycan ərazilərinin ermənilər tərəfindən işğal olunduğu və separatçı qüvvələrin Dağlıq Qarabağ bölgəsinə nəzarət etdiyi göstərilmiş, münaqişə ilə bağlı Birləşmiş Millətlər Təşkilatı Təhlükəsizlik Şurasının qətnamələrində əks olunmuş tələblərin yerinə yetirilməsinin və silahlı qüvvələrin işğal olunmuş ərazilərdən çıxarılmasının vacibliyi vurğulanmışdır. Bu tələblər AŞPA-nın 2005-ci il 1690 saylı tövsiyəsində də öz əksini tapmışdır. ATƏT-in faktaraşdırıcı missiyası nümayəndələrinin 2005-ci ilin martında Azərbaycanın işğal olunmuş ərazilərinə səfəri zamanı orada ermənilərin kütləvi şəkildə qeyri-qanuni məskunlaşdırıldığı təsdiq olunmuş və bu fakt təşkilatın yekun hesabatında özünə yer almışdır.

Təəssüf ki, münaqişənin nizamlanması üçün xeyli səylər göstərilməsinə baxmayaraq, indiyədək bu sahədə əsaslı irəliləyişə nail olunmamışdır. Münaqişənin aradan qaldırılması üçün yaradılmış ATƏT-in Minsk Qrupunun fəaliyyəti Ermənistanın qeyri-konstruktiv mövqeyi üzündən səmərə verməmiş, Azərbaycan və Ermənistan prezidentlərinin görüşlərində prinsipial məsələlər üzrə razılıq əldə etmək mümkün olmamışdır. Beynəlxalq təşkilatların, vasitəçi dövlətlərin siyasi iradə nümayiş etdirməməsi, qətiyyətsiz mövqe tutması, bəzən də ikili standartlardan çıxış edib işğalçı ilə təcavüzə məruz qalmış tərəf arasında tarazlıq yaratmaq cəhdləri münaqişənin tezliklə və dinc yolla nizamlanmasını çətinləşdirmişdir.

Bütün millətlərlə səmimi dostluq və mehribanlıq şəraitində yaşamaq, digər xalqların milli-mənəvi dəyərlərinə və adət-ənənələrinə hörmətlə yanaşmaq Azərbaycan xalqına xas olan əsas keyfiyyətlərdəndir. Azərbaycan xalqı Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə tənzimlənməsi məsələsində də böyük səbr və təmkin nümayiş etdirir, problemin aradan qaldırılması, regionda sülhün və təhlükəsizliyin təmin olunması üçün davamlı səylər göstərir.

Bu gün Azərbaycan müstəqil dövlət quruculuğu sahəsində mühüm nailiyyətlər əldə etmiş, iqtisadi potensialına, demokratik

ınkişaf səviyyəsinə və beynəlxalq aləmdə tutduğu mövqeyə görə regionun lider dövlətinə çevrilmişdir. Lakin münaqişənin indiyədək həllini tapmaması, xalqımızın hələ də "nə müharibə, nə də sülh" şəraitində yaşaması, ərazilərin beşdə birinin işğal altında, əhalinin səkkizdə birinin qaçqın və məcburi köçkün vəziyyətində olması respublikamızın öz iqtisadi potensialından, maddi və mənəvi resurslarından daha səmərəli istifadə etməsinə böyük maneçilik törədir.

Dünya azərbaycanlılarının II qurultayının iştirakçıları beynəlxalq təşkilatların rəhbərlərinə, ayrı-ayrı ölkələrin parlamentlərinə, dövlət və hökumət başçılarına, bütün tərəqqipərvər insanlara müraciət edərək, Azərbaycan xalqının üzləşdiyi tarixi ədalətsizliyin aradan qaldırılması, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə, beynəlxalq hüquq prinsiplərinə uyğun həll edilməsi üçün ardıcıl səylər göstərməyə çağırırlar.

Hörmətli xanımlar və cənablar!

Sizi regionda milli düşmənçilik və ədavət yaradan təcavüzkar erməni separatçılığının, erməni diasporu və lobbisi tərəfindən irəli sürülən əsassız iddiaların və tarixi saxtakarlıqların əsl mahiyyətinə bələd olmaq üçün problemlə daha yaxından tanış olmağa çağırırıq. İnanırıq ki, dünyada sülhün və təhlükəsizliyin təmin olunmasına, xalqların mehriban dostluq və qonşuluq şəraitində yaşamasına böyük töhfələr vermiş beynəlxalq təşkilatlar və ayrı-ayrı dövlətlər dünya azərbaycanlılarının çağırışlarını dəstəkləyəcək, münaqişənin beynəlxalq hüququn tələblərinə uyğun nizama salınması üçün qətiyyətli və prinsipial mövqe tutacaqlar.

***Müraciət Dünya azərbaycanlılarının II qurultayında qəbul olunmuşdur. Bakı şəhəri, 16 mart 2006-cı il.***



# DÜNYA AZƏRBAYCANLILARININ II QURULTAYININ BMT-NİN TƏHSİL, ELM VƏ MƏDƏNİYYƏT MƏSƏLƏLƏRİ ÜZRƏ TƏŞKİLATINA (YUNESKO) MÜRACİƏTİ

Dünya azərbaycanlılarının II qurultayının nümayəndələri dərin ehtiram və ümid hissi ilə sizə müraciət edərək, diqqətinizə çatdırırlar ki, Ermənistanın Azərbaycan Respublikasına qarşı ərazi iddiaları xalqımız üçün ağır humanitar faciələrə gətirib çıxarmışdır. Ermənistan ərazisində yığcam yaşayan 250 min azərbaycanlı 1988-ci ildən başlanmış etnik təmizləmələr və zorakılıq hərəkətləri nəticəsində deportasiya edilmiş, onların yaşadıqları bölgələrdə toponimlər süni şəkildə erməniləşdirilmiş, maddi mədəniyyət abidələri məhv edilmişdir. Ermənistan Respublikası silahlı qüvvələrinin Azərbaycanın beynəlxalq birlik tərəfindən tanınmış ərazisinin 20 faizini işğal etməsi həmin torpaqlarda yaşayan 700 minədək azərbaycanlının məcburi köçkün vəziyyətinə düşməsinə, 20 mindən çox insanın həlak olmasına, 50 min nəfərin xəsarət almasına səbəb olmuşdur. Erməni əsirliyində saxlanılan 783 azərbaycanlının taleyi haqqında isə hələ də heç bir məlumat verilmir.

Ermənistan terroru dövlət siyasəti səviyyəsinə qaldıraraq, xüsusi xidmət orqanları vasitəsilə hərbi əməliyyatların keçirilmədiyi Azərbaycan şəhərlərində də böyük insan itkisi ilə nəticələnən terror aktları törətmişdir.

Təcavüzün Azərbaycan xalqına vurduğu ən ağır zərbələrdən biri də onun zəngin mədəni irsinə dəymişdir. Xalqımızın qədim tarixi izlərinin məhvinə yönəlmiş məqsədli vandalizm aksiyaları nəticəsində işğal olunmuş ərazilərdə bəşər sivilizasiyasının tərkib hissəsi olan memarlıq abidələri, o cümlədən Kəlbəcər, Şuşa və Ağdam rayonlarının tarix-diyarşünaslıq muzeyləri, Zəngilandakı daş abidələr muzeyi dağıdılmış, Şuşadakı XVIII əsrə aid iki minarəli "Gövhər ağa" məscidi zədələnmiş, digər məscidlər isə yandırılaraq yerlə-yeksan edilmişdir. Xocalıda tunc dövrünə aid 100-dən çox abidə yer üzündən silinmiş, qiymətli kitablar və əlyazmalar oğurlanmışdır. Ümumilikdə, işğal altında olan rayonlarda 442 ta-

rixi memarlıq abidəsi, 22 muzey, 927 kitabxana, 85 uşaq musiqi məktəbi, 4 teatr, 4 incəsənət qalereyası, 2 konsert salonu, 1852 mədəniyyət və incəsənət mərkəzi və başqa mədəniyyət ocaqları dağıdılmışdır. Muzeylərdəki 40 minədək eksponatın bir hissəsi məhv edilmiş, digər hissəsi isə oğurlanaraq, qanunsuz yollarla xarici ölkələrə daşınmışdır. Nadir incəsənət nümunələri olan eksponatlar hazırda müxtəlif ölkələrin, o cümlədən Ermənistanın muzeylərində "erməni xalqına məxsus sənət inciləri" kimi nümayiş etdirilməkdədir.

Ermənilərin Dağlıq Qarabağın tarixini saxtalaşdırmaq, özlərinin guya Qarabağın yerli əhalisi olduğunu əsaslandırmaq məqsədi ilə işğal etdikləri Şuşa şəhəri ətrafında qanunsuz arxeoloji qazıntılar aparmaq planları böyük narahatlıq doğurur.

Biz işğal edilmiş ərazilərdə mədəniyyət abidələrinin vəhşicəsinə dağıdılmasını və oğurlanmasını insanlığa yaraşmayan, bəşəriyyətin mənəvi sərvətlərinə qarşı törədilən cinayət aktı kimi qiymətləndirir, Ermənistanın hərəkətlərinin beynəlxalq hüquq normalarına, o cümlədən 1954-cü ildə qəbul edilmiş "Silahlı münaqişələr zamanı mədəni dəyərlərin qorunması haqqında" Haaqa Konvensiyasının müddəalarına zidd olduğunu sizin nəzərinizə çatdırırıq. Min illər boyu yaradılmış mədəni irsin yalnız konkret bir xalqa və ya ölkəyə deyil, bütün bəşəriyyətə məxsus olduğunu bir daha vurğulayaraq, YUNESKO-nu erməni millətçilərinin və separatçı dairələrinin törətdiyi vandalizm aktlarına son qoyulması üçün səy göstərməyə, işğal olunmuş Azərbaycan ərazilərindəki tarixi abidələrin məhvinə və ya saxtalaşdırılmasına yönəlmiş hərəkətlərə qəti və birmənalı münasibət bildirməyə çağırırıq.

***Müraciət Dünya azərbaycanlılarının***
***II qurultayında qəbul edilmişdir.***
***Bakı şəhəri, 16 mart 2006-cı il.***



# DÜNYA AZƏRBAYCANLILARININ II QURULTAYININ AZƏRBAYCAN VƏ TÜRK DİASPOR TƏŞKİLATLARINA MÜRACİƏTİ

Biz - Dünya azərbaycanlılarının II qurultayının nümayəndələri eyni soykökə, müştərək milli-mənəvi dəyərlərə malik olan Azərbaycan və türk diaspor təşkilatlarının üzvlərinə müraciət edərək bildiririk ki, qardaş xalqlarımız öz tarixlərinin məsul anlarında bir-birinə dayaq olmuş, tarixi irslərini qoruyaraq zənginləşdirmiş, müstəqil dövlətləri olan Türkiyə Cümhuriyyətini və Azərbaycan Respublikasını yaşatmaqla ulu əcdadlarımızın bizə miras qoyduğu maddi-mədəni sərvətləri gələcək nəsillərə ötürmək üçün əlverişli imkan qazanmışlar.

Bu gün Azərbaycan xalqı istər 1918-ci ildə qurulmuş Azərbaycan Xalq Cümhuriyyətini, istərsə də 1991-ci ildə dövlət müstəqilliyini bərpa etmiş Azərbaycan Respublikasını tanıyan və onun müstəqilliyinin möhkəmlənməsinə əməli kömək göstərən ilk dövlətin qardaş Türkiyə olduğunu böyük minnətdarlıq hissi ilə xatırlayır.

Tarixi talelərı bir-birinə qırılmaz tellərlə bağlı olan xalqlarımız çətin məqamlarda çiyin-çiyinə verərək, qardaş köməyini bir-birindən əsirgəməmişlər. Türkiyənin azadlığını qoruyaraq, Çanaqqala döyüşlərində canından keçən azərbaycanlı könüllülər, 1918-ci ildə Azərbaycanın istiqlalı uğrunda gedən mübarizədə şəhid olan türk əsgərləri xalqlarımızın tarixi yaddaşında yaşayaraq, sonrakı nəsillərə örnək olmuşlar.

Türk dünyasının iki böyük şəxsiyyətinin - ulu öndər Mustafa Kamal Atatürkün "Azərbaycanın sevinci bizim sevincimiz, kədəri bizim kədərimizdir" və ümummilli lider Heydər Əliyevin "Biz bir millət, iki dövlətik" kəlamları qarşılıqlı əlaqələrimizin dərin tarixi köklərini ifadə edərək siyasi, iqtisadi və mədəni əməkdaşlığımızın təməl prinsiplərini müəyyənləşdirmişdir.

Müasir dövrdə müstəqil dövlət kimi inkişaf dövrünü yaşayan Azərbaycan Respublikası və Türkiyə Cümhuriyyəti tarixi ənənələrə sadiq qalaraq, siyasi müttəfiqlik münasibətlərinin, iqti-

sadi əməkdaşlığın və mədəni əlaqələrin dərinləşməsinə hərtərəfli səy göstərir, beynəlxalq təşkilatlarda ümumi mənafelərin birgə müdafiəsi üçün qüvvələrini əsirgəmirlər.

Əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş nəhəng beynəlxalq enerji layihələrinin - Bakı-Tbilisi-Ceyhan neft və Bakı-Tbilisi-Ərzurum qaz kəmərlərinin inşasının uğurla həyata keçirilməsi, Qars-Tbilisi-Bakı dəmir yolunun reallaşmaqda olan çəkilişi qardaş xalqlarımızı bir-birinə daha da yaxınlaşdırmış, onların sosial rifahının yaxşılaşması, siyasi-strateji maraqlarının uzlaşdırılması və birgə qorunması üçün yeni perspektivlər açmışdır.

Müstəqil dövlətlərimizin regionun aparıcı qüvvəsinə çevrilməsi, qlobal inteqrasiya proseslərinə fəal şəkildə qoşulması, xalqlarımızın öz milli-mənəvi dəyərlərini və mədəni sərvətlərini qoruyaraq inkişaf etdirməsi bir sıra bədxah qüvvələrin, xüsusən erməni millətçilərinin əsassız iddialarının və təxribatçı fəaliyyətinin güclənməsinə səbəb olmuşdur. Beynəlxalq ictimaiyyəti çaşdırmaqla Azərbaycan və Türkiyəni gözdən salmağa, öz xəbis niyyətlərini həyata keçirməyə çalışan məkrli erməni təbliğatının ifşa edilməsi zərurəti dünyanın müxtəlif bölgələrində mövcud olan diaspor təşkilatlarımızın birgə səylərinin artırılmasını və əməkdaşlığının möhkəmləndirilməsini şərtləndirir.

Bu gün azərbaycanlı və türk icmaları yaşadıqları ölkələrdə birgə mədəni-kütləvi tədbirlər, müxtəlif aksiyalar keçirir, həmrəylik nümayiş etdirərək, vahid mövqedən çıxış edirlər. Bununla belə, qloballaşan dünyanın gerçəklikləri bu əməkdaşlığın dərinləşdirilməsini, azərbaycanlı və türk icmalarının vahid fəaliyyət konsepsiyasının hazırlanmasını tələb edir.

Dünya azərbaycanlılarının II qurultayı azərbaycanlı və türk icmalarının birgə fəaliyyət imkanlarını araşdırmaq və onun səmərəsinin artırılması ilə bağlı müzakirələr aparmaq məqsədi ilə Azərbaycan və türk diaspor təşkilatları rəhbərlərinin forumunu keçirməyi məqsədəuyğun hesab edir və onları bu toplantının işində fəal iştirak etməyə çağırır.

Qurultay nümayəndələri əmin olduqlarını bildirirlər ki, birgə forumun keçirilməsi Azərbaycan və türk diasporlarının əməkdaşlığını daha da gücləndirəcək, qarşılıqlı əlaqələri yeni inkişaf səviyyəsinə qaldıracaq və xalqlarımızın mənafelərinin qorunmasında da mühüm rol oynayacaqdır.



***Müraciət Dünya azərbaycanlılarının***
***II qurultayında qəbul olunmuşdur.***
***Bakı şəhəri, 16 mart 2006-cı il.***

## DÜNYA AZƏRBAYCANLILARINI ƏLAQƏLƏNDİRMƏ ŞURASININ TƏRKİBİ

1. İlham Əliyev - Azərbaycan Respublikasının Prezidenti

2. Akif Allahverdiyev - Qırğızıstandakı azərbaycanlıların "Azəri" ictimai birliyinin prezidenti, tibb elmləri namizədi, Qırğızıstan Respublikasının əməkdar həkimi
3. Ağamusa Axundov - Azərbaycan Milli Elmlər Akademiyası İctimai və humanitar elmlər bölməsinin akademik-katibi
4. Araz Ağalarov - Ümumrusiya Azərbaycan Konqresinin vitse-prezidenti, "Krokus-İnternational" şirkətinin prezidenti
5. Abbas Abbasov - Azərbaycan Respublikası Baş nazirinin sabiq birinci müavini
6. Akif Gülməmmədov - Ukrayna Azərbaycanlıları Konqresi sədrinin birinci müavini, Avropa Azərbaycanlıları Konqresinin vitse-prezidenti
7. Abel Məhərrəmov – Milli Məclisin deputatı, Bakı Dövlət Universitetinin rektoru
8. Akif Ağatalıbov - Azərbaycan Mədəniyyət Mərkəzləri Assosiasiyasının sədri (Özbəkistan)
9. Azay Quliyev - Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının sədri, Azərbaycan Respublikası Milli Məclisinin deputatı
10. Anar Rzayev - Azərbaycan Yazıçılar Birliyinin sədri, xalq yazıçısı
11. Aslan Aslanov - Azərbaycan Dövlət Teleqraf Agentliyinin (AzərTAc) baş direktoru
12. Afaq Məsud - yazıçı
13. Bahar Muradova - Azərbaycan Respublikası Milli Məclisi sədrinin müavini
14. Bahəddin Kaya - Avropa Azərbaycanlıları Konqresinin fəxri prezidenti (Almaniya)
15. Başar Kömür - Avropa Azərbaycanlıları Konqresinin prezidenti, "Maynts-Azərbaycan" Cəmiyyətinin sədri
16. Bəhram Atabəyli - İsveç Akademik Birliyinin sədri



17. Bülənt Gürcam - Belçika-Azərbaycan Evinin sədri
18. Cəlal Əliyev - Azərbaycan Respublikası Milli Məclisinin deputatı, akademik
19. Cəmil Əliyev - Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun kafedra müdiri, Respublika Elmi Onkoloji Mərkəzinin direktoru
20. Cavad Derəxti - Dünya Azərbaycanlıları Konqresinin keçmiş sədri (İsveç)
21. Elçin Əfəndiyev - Azərbaycan Respublikası Baş nazirinin müavini
22. Etibar Babayev - "Bakı" Teleradio Şirkətinin prezidenti
23. Eldar Əfəndiyev - Estoniya parlamentinin deputatı, "Bakı" klubunun həmsədri
24. Elman Muradov - Avstriya Akademik Birliyinin sədri
25. Eldar Qasımov - həkim, professor (İsveçrə)
26. Elmar Məmmədyarov - Azərbaycan Respublikasının Xarici İşlər naziri
27. Əli Əhmədov - Azərbaycan Respublikası Milli Məclisinin deputatı, Yeni Azərbaycan Partiyası sədrinin müavini
28. Əlirza Hüseynov - "Azəri-Vəhdət" Cəmiyyətinin sədri (Latviya)
29. Əflatun Amaşov - Azərbaycan Mətbuat Şurasının sədri
30. Əkrəm Əylisli - Azərbaycan Respublikası Milli Məclisinin deputatı, xalq yazıçısı
31. Əli Həsənov - Azərbaycan Respublikası Prezidenti Administrasiyasının İctimai-siyasi məsələlər şöbəsinin müdiri
32. Əli Abbasov - Azərbaycan Respublikasının Rabitə və İnformasiya texnologiyaları naziri
33. Əbülfəs Qarayev - Azərbaycan Respublikasının Mədəniyyət və Turizm naziri
34. Əbülfəz Xamedov - Qazaxıstandakı Azərbaycanlıların "Turan" Konqresinin sədri
35. Fərid Mansurov - Olimpiya çempionu
36. Fatma Abdullazadə - Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Humanitar siyasət məsələləri şöbəsinin müdiri

37. Firudin Səfərov - Azərbaycan və Özbəkistan respublikalarının xalq artisti, Azərbaycan Mədəniyyət Mərkəzləri Assosiasiyası İdarə heyətinin üzvü (Özbəkistan)
38. Gülçöhrə Məmmədova - Azərbaycan Memarlıq və İnşaat Universitetinin rektoru
39. Gülşən Kazımova - Avropa Qafqaz Elm və Mədəniyyət Mərkəzinin sədri (Hollandiya)
40. Gültəkin Hacıyeva - Azərbaycan Respublikası Milli Məclisinin deputatı
41. Hacıbala Abutalıbov - Bakı Şəhər İcra Hakimiyyətinin başçısı
42. Havar Məmmədov - Azərbaycan Texniki Universitetinin rektoru
43. Hidayət Orucov - Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri
44. Həvva Məmmədova - Azərbaycan Respublikası Milli Məclisinin deputatı, Dünya Azərbaycanlıları Konqresi Qadınlar Şurasının sədri
45. İsa Həbibbəyli - Azərbaycan Respublikası Milli Məclisinin deputatı, Naxçıvan Dövlət Universitetinin rektoru
46. İlham Axundov - Kanada-Azərbaycan Əməkdaşlıq Assosiasiyasının sədri, Hamilton Universitetinin professoru
47. İsgəndər Xəlilov - Ümumrusiya Azərbaycan Konqresinin vitse-prezidenti, "LUKoyl" neft şirkətinin vitse-prezidenti
48. İqbal Hacıyev - Rumıniya-Azərbaycan Gənclər və Mədəniyyət Assosiasiyasının sədri
49. İsmayıl Ömərov - İctimai Televiziya və Radio Yayımları Şirkətinin baş direktoru
50. Kamal Abdulla - Bakı Slavyan Universitetinin rektoru
51. Kərim Rismankar (Urmulu) - Danimarka-Azərbaycan Kültür Dərnəyi İdarə heyətinin sədri
52. Qulamrza Səbri Təbrizi - Edinburq Universitetinin professoru (Böyük Britaniya)
53. Mehriban Əliyeva - Heydər Əliyev Fondunun prezidenti, Azərbaycan Respublikası Milli Məclisinin deputatı, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri



54. Məmmədbağır Əliyev - Ümumrusiya Azərbaycan Konqresinin prezidenti, Rusiya Tibb Akademiyasının müxbir üzvü, Rusiya Dövlət mükafatı laureatı
55. Məsud Əliyev - Kvebek Azərbaycanlıları Assosiasiyasının sədri (Kanada)
56. Mikayıl Oyta - Avstraliya Azərbaycan Cəmiyyətinin sədri
57. Mahir Həmzəyev - Litva Azərbaycanlıları Cəmiyyətinin sədri
58. Müslüm Həmidov - "Dostluq" Cəmiyyətinin sədri (Tacikistan)
59. Maqsud İbrahimbəyov - Azərbaycan Respublikası Milli Məclisinin deputatı, xalq yazıçısı
60. Mahmud Kərimov - Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti
61. Mübariz Məsimov - İstanbul Azərbaycan Kültür və Dayanışma Dərnəyinin sədri (Türkiyə)
62. Natiq Bağırov - Belarus Azərbaycan İcmaları Konqresinin sədri
63. Natiq Ağamirov - Avropa Azərbaycanlıları Konqresinin fəxri prezidenti (Rusiya)
64. Nizami Cəfərov - Azərbaycan Respublikası Milli Məclisinin deputatı, Azərbaycanda Atatürk Mərkəzinin müdiri
65. Nüsrət Delbəstəh - Almaniyadakı Azərbaycan Cəmiyyətləri Federasiyasının sədri
66. Nazim İbrahimov - Diasporla İş üzrə Dövlət Komitəsinin sədri
67. Novruz Məmmədov - Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Xarici əlaqələr şöbəsinin müdiri
68. Niyazi Hacıyev - Estoniya Azərbaycan İcmasının fəxri sədri
69. Nizami Xudiyev - Azərbaycan Respublikası Milli Məclisinin deputatı,
70. Oqtay Əfəndiyev - Ukrayna, iş adamı
71. Rafiq Əliyev – fəlsəfə elmləri doktoru, professor
72. Ramiz Mehdiyev - Azərbaycan Respublikası Prezidentinin Administrasiyası rəhbəri

73. Rafael Hüseynov - Azərbaycan Respublikası Milli Məclisinin deputatı, Azərbaycan Milli Elmlər Akademiyası Nizami adına Ədəbiyyat Muzeyinin direktoru

74. Rauf Zeyni – Azərbaycan Milli QHT Forumunun sədri

75. Firəngiz Əlizadə - Azərbaycan Bəstəkarlar İttifaqının sədri

76. Səid İsmailoff - "Azərbaycan Evi" Assosiasiyasının sədri (Fransa)

77. Sevil Əliyeva - "Sevil" Qadınlar Məclisinin sədri, "SOS" Uşaq Kəndləri –Azərbaycan Assosiasiyasının fəxri prezidenti

78. Svetlana Abdullayeva - Macarıstan-Azərbaycan Dostluq Cəmiyyətinin sədri

79. Səttar Mehbalıyev - Azərbaycan Respublikası Milli Məclisinin deputatı, Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri

80. Sahil Qasımov - Niderland Azərbaycan Cəmiyyətinin sədri (Hollandiya)

81. Sabir Rüstəmxanlı - Azərbaycan Respublikası Milli Məclisinin deputatı

82. Söyün Sadıxov - Azərbaycan Milli-Mədəni Muxtariyyətinin sədri (Rusiya)

83. Səməd Seyidov - Azərbaycan Respublikası Milli Məclisinin deputatı, Azərbaycan Dövlət Dillər Universitetinin rektoru

84. Səyavuş Kərimi - Azərbaycan Milli Konservatoriyasının rektoru

85. Şirin Məlikoff - Paris Beynəlxalq Diplomatiya Akademiyasının əməkdaşı, filologiya elmləri doktoru (Fransa)

86. Şahin Şıxlinski - Ümumrusiya Azərbaycan Konqresinin (ÜAK) vitse-prezidenti, ÜAK-ın Ural Dairə Şurasının sədri, Ural Vəkillər Kollegiyası Rəyasət heyətinin sədr müavini

87. Şamil Ayrım - Türkiyə-Azərbaycan Dostluq və Əməkdaşlıq Fondunun vitse-prezidenti, sabiq millət vəkili (Türkiyə)

88. Şakir Göyüşov – Rusiya, iş adamı

89. Turqut Arat - İzmir Azərbaycan Kültür Evi və Dayanışma Cəmiyyətinin sədri, Avropa Azərbaycanlıları Konqresi Şurasının üzvü (Türkiyə)



90. Tuqay Əhmədzadə - Azərbaycan-Norveç Assosiasiyasının sədri (Norveç)

91. Təranə Nəzərova - Azərbaycan-Finlandiya Dostluq Cəmiyyətinin sədri (Finlandiya)

92. Telman İsmayılov - Ümumrusiya Azərbaycan Konqresinin vitse-prezidenti, "ACT" holdinq şirkətinin prezidenti (Rusiya)

93. Tofiq Mirzəyev - Hayfa-Bakı Cəmiyyətinin nümayəndəsi (İsrail)

94. Tağı İbrahimov - "Azad Azərbaycan" Teleradio Şirkətinin prezidenti

95. Tomris Azəri - Amerika Azərbaycanlıları Cəmiyyətinin prezidenti

96. Tale Heydərov - London Azərbaycan Cəmiyyətinin sədri (Böyük Britaniya)

97. Vaqif Səmədoğlu - Azərbaycan Respublikası Milli Məclisinin deputatı, xalq şairi

98. Vasif Talıbov - Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri

99. Vaqif Məmişov - Sankt-Peterburq Azərbaycan Milli-Mədəni Muxtariyyətinin prezidenti (Rusiya)

100. Valeh Hacıyev - S.Orbeliani adına Tbilisi Pedoqoji Universitetinin kafedra müdiri, professor (Gürcüstan)

101. Vahid Mustafayev - "ANS" Şirkətlər Qrupunun prezidenti

102. Vüqar Qaradağlı - jurnalist

103. Yücel Artantaş - Türkiyə Azərbaycan Dərnəkləri Federasiyasının fəxri sədri, Türkiyə Böyük Millət Məclisinin sabiq deputatı

104. Yaqub Mahmudov - Azərbaycan Respublikası Milli Məclisinin deputatı, AMEA-nın Tarix İnstitutunun direktoru

105. Zeynal Nağdəliyev - Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Regional idarəetmə və yerli özünüidarəetmə orqanları ilə iş şöbəsinin müdiri

106. Zeynəb Xanlarova - Azərbaycan Respublikası Milli Məclisinin deputatı, xalq artisti

107. Zəlimxan Yaqub - Xalq şairi

## DÜNYA AZƏRBAYCANLILARINI ƏLAQƏLƏNDİRMƏ ŞURASININ İDARƏ HEYƏTİ

1. Anar Rzayev - Azərbaycan Yazıçılar Birliyinin sədri
2. Azay Quliyev - Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının sədri, Azərbaycan Respublikası Milli Məclisinin deputatı
3. Başar Kömür - Avropa Azərbaycanlıları Konqresinin prezidenti, "Maynts-Azərbaycan" Cəmiyyətinin sədri
4. Cavad Derəxti - Dünya Azərbaycanlıları Konqresinin keçmiş sədri (İsveç)
5. Eldar Əfəndiyev - Estoniya parlamentinin deputatı, "Bakı" klubunun həmsədri
6. Elmar Məmmədyarov - Azərbaycan Respublikasının Xarici İşlər naziri
7. Əli Həsənov - Azərbaycan Respublikası Prezidenti Administrasiyasının İctimai-siyasi məsələlər şöbəsinin müdiri
8. Əli Əhmədov - Azərbaycan Respublikası Milli Məclisinin deputatı, YAP sədrinin müavini, icraçı katibi
9. Əbülfəs Qarayev - Azərbaycan Respublikasının Mədəniyyət və Turizm naziri
10. Əbülfəz Xamedov - Qazaxıstan azərbaycanlılarının "Turan" Konqresinin sədri
11. İsa Həbibbəyli - Azərbaycan Respublikası Milli Məclisinin deputatı, Naxçıvan Dövlət Universitetinin rektoru
12. Kamal Abdulla - Bakı Slavyan Universitetinin rektoru
13. Qulamrza Səbri Təbrizi - Edinburq Universitetinin professoru (Böyük Britaniya)
14. Mahmud Kərimov - Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti
15. Məmmədbağır Əliyev - Ümumrusiya Azərbaycan Konqresinin prezidenti, Rusiya Tibb Akademiyasının müxbir üzvü, Rusiya dövlət mükafatı laureatı
16. Nazim İbrahimov - Diasporla İş üzrə Dövlət Komitəsinin sədri



17. Natiq Bağırov - Belarus Azərbaycan İcmaları Konqresinin sədri
18. Natiq Ağamirov - Avropa Azərbaycanlıları Konqresinin fəxri prezidenti (Rusiya)
19. Oqtay Əfəndiyev – iş adamı
20. Rafael Hüseynov - Azərbaycan Respublikası Milli Məclisinin deputatı, AMEA Nizami adına Ədəbiyyat Muzeyinin direktoru
21. Səid İsmailoff - "Azərbaycan Evi" Assosiasiyasının sədri (Fransa)
22. Tomris Azəri - Amerika Azərbaycanlıları Cəmiyyətinin sədri
23. Yücel Artantaş - Türkiyə Azərbaycan Dərnəkləri Federasiyasının fəxri sədri, Türkiyə Böyük Millət Məclisinin sabiq deputatı

# DÜNYA AZƏRBAYCAN VƏ TÜRK DİASPOR TƏŞKİLATLARI RƏHBƏRLƏRİNİN I FORUMU



## DÜNYA AZƏRBAYCAN VƏ TÜRK DİASPOR TƏŞKİLATLARI RƏHBƏRLƏRİNİN I FORUMUNDA AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ

**- Hörmətli xanımlar və cənablar!**

**Əziz qonaqlar!**

Mən sizin hamınızı Azərbaycanda ürəkdən salamlayıram.

Ölkəmizə, öz doğma vətəninizə xoş gəlmisiniz!

İndi nümayiş etdirilən bu kiçik filmdə bir daha gördük ki, Türkiyə-Azərbaycan birliyi nə qədər güclüdür, xalqlarımızın həyatında onun nə qədər böyük əhəmiyyəti var. Biz əsrlər boyu bir yerdə olmuşuq. Amma müxtəlif tarixi hadisələr bizim xalqlarımızı bir-birindən ayrı salmışdır. Yalnız Azərbaycanın dövlət müstəqilliyinin bərpasından sonra bizim birliyimiz də bərpa olundu və bu gün Türkiyə və Azərbaycan - iki qardaş ölkə bərabər addımlayır. Biz bütün tədbirlərdə bərabər iştirak edirik, aramızda ən yüksək fikir birliyi var. Bəlkə də dünyada ikinci belə ölkələr yoxdur ki, bir-birinə bu qədər bağlı olsun. Həm xalqların etnik mənsubiyyəti baxımından, həm siyasi baxışlar, həm də ortaq maraqlar baxımından. Biz elə etməliyik ki, birliyimiz daha da güclənsin, hərtərəfli olsun. Təbii ki, bu işlərdə xaricdə yaşayan soydaşlarımızın da fəaliyyəti çox əhəmiyyətlidir.

Azərbaycan müstəqilliyinin 15 ilini yaşamışdır. Artıq bu kiçik tarix göstərdi ki, ölkəmiz müstəqil dövlət kimi yaşaya, inkişaf edə bilir. Əgər biz müstəqilliyimizin ilk illərinə nəzər salsaq görərik ki, o vaxt ölkəmizin durumu çox acınacaqlı idi. İqtisadi tənəzzül, siyasi böhran, Azərbaycanda gedən xoşagəlməz proseslər ölkəmizin bütövlükdə müqəddəratını sual altında qoymuşdu. İlk illərdə qardaş Türkiyənin dəstəyi bizim üçün həlledici oldu. Türkiyə Azərbaycanın müstəqilliyini tanıyan birinci ölkə olmuşdur və ilk illərdən Azərbaycana öz qardaş əlini uzatdı. Buna görə mən Türkiyəyə, bütün türk xalqına Azərbaycan xalqı adından dərin minnətdarlığımı bildirirəm.

Xatırlayıram ki, müstəqilliyimizin ilk illərində Azərbaycan səfirlikləri Türkiyə səfirliklərinin binalarında yerləşmişdi. Bizim

binalarımız yox idi, imkanlarımız yox idi. Ancaq bu gün Azərbaycanın müxtəlif ölkələrdə 51 səfirliyi vardır. Bu onu göstərir ki, ölkəmiz çox dinamik şəkildə inkişaf edir. Əgər 1991-ci ildə Sovetlər Birliyində, keçmiş respublikalar arasında Azərbaycan axırıncı yerdə idisə, bu gün ən qabaqcıl yerlərdədir. 15 il ərzində siyasi proseslər normal məcraya düşdü. Azərbaycanda siyasi sabitlik tam şəkildə bərqərar olundu, iqtisadi inkişafa qədəm qoyduq və bu gün Azərbaycan iqtisadi artım baxımından dünyada birinci ölkədir. Artıq üçüncü ildir ki, Azərbaycanın iqtisadiyyatı dünyada ən sürətlə artan iqtisadiyyatdır. 2005-ci ildə iqtisadiyyatımız 26 faiz, 2006-cı ildə 34 faiz artmışdır. Bu il də təxminən buna oxşar rəqəmlər olacaqdır. Bu artım, bu inkişaf Azərbaycanın hər bir bölgəsində özünü göstərir. Ölkəmiz möhkəmlənir, öz iqtisadi potensialını gücləndirir, siyasi imkanlarımız artır, bölgədə gedən proseslərdə biz daha da fəal iştirak edir və onlara təsir edirik. Beləliklə, ölkəmizin güclənməsi artıq reallıqdır. Əminəm ki, bizim güclənməyimiz bütün türk dünyasının güclənməsinə böyük dəstək, böyük töhfədir.

Türkiyəni Azərbaycanla birləşdirən tarixi əlaqələr çox güclüdür. Ancaq indiki zamanədə siyasi proseslər, siyasi əlaqələr onu daha da gücləndirir. Həm siyasi, həm də iqtisadi, mədəni, hərbi - bütün sahələrdə bizim aramızda ən yüksək işbirliyi, anlaşma var. Belə forumların keçirilməsi bizim birliyimizi daha da gücləndirir. Bütün türk dünyasının birliyini gücləndirir. Biz böyük qüvvəyik. Gərək elə edək ki, maraqlarımız tam şəkildə təmin olunsun, bizi narahat edən problemlər aradan qaldırılsın, ədalət zəfər çalsın və xalqlarımız rahat yaşasınlar. Biz buna layiqik və birgə səylərlə, birgə işlərlə buna nail olacağıq. Bu gün Azərbaycana bütün türk dünyasının nümayəndələrinin və qonaqların gəlməsi bu gözəl birliyin əyani sübutudur. Öz maraqlarımızı təmin etmək üçün biz güclü olmalıyıq.

Bizim gücümüz iqtisadi potensialımızdır. Son illər ərzində Türkiyədə aparılan çox ciddi iqtisadi islahatlar ölkədə bir neçə il bundan əvvəl yaşanan iqtisadi böhrana son qoydu. Bu gün Türkiyə ən sürətlə, dinamik inkişaf edən ölkələrdəndir. Bizim birgə enerji layihələrimiz var. Bakı-Tbilisi-Ceyhan və Bakı-Tbilisi-Ərzurum neft və qaz kəmərlərinin uğurla inşa edilməsi bizim bölgədə də, dünyada da önəmimizi artırır. Biz də bundan istifadə etməliyik və edirik. Azərbaycanın zəngin təbii sərvətləri Türkiyə ərazisi ilə dünya bazarlarına çıxarılır. Azərbaycan qazı - "Şahdəniz" yatağından çıxarılan qaz bu yaxınlarda Türkiyəyə və oradan da Avropa ölkələrinə nəql ediləcəkdir. Bu, bizim önəmimizi artırır, siyasi və iqtisadi potensialımızı gücləndirir, xalqlarımızı daha da birləşdirir. Biz iqtisadi imkanlardan istifadə edərək, öz maraqlarımızı daha da dolğun şəkildə təmin etməliyik.

Artıq Türkiyə və Azərbaycanın təşəbbüsü ilə ölkələrimiz və bütövlükdə bölgə üçün önəmli bir sıra layihələr həyata keçirilir. Onlardan biri də Bakı-Tbilisi-Qars dəmir yolunun tikilməsidir. Uzun illər ərzində bu məsələ bizim ölkələrimizdə, beynəlxalq maliyyə qurumlarında, sadəcə, müzakirə olunurdu. Bu önəmli layihə faktik olaraq, icra edilmirdi. Bizim birgə səylərimiz, Türkiyə, Gürcüstan və Azərbaycan rəhbərliklərinin iradəsi nəticəsində biz bu məsələnin həllinə də nail olmuşuq. Bu yaxınlarda imzalanan önəmli sənədlər imkan verəcək ki, yaxın zamanlarda tikinti başlansın və beləliklə, Bakı-Tbilisi-Qars dəmir yolu layihəsi uğurla həyata keçirilsin. Bu bizi Türkiyə ilə dəmir yolu vasitəsilə birləşdirəcəkdir. Türkiyəni Orta Asiya ilə, bizim dəhlizdən keçməklə Asiyanı Avropa ilə birləşdirəcəkdir. Şübhəsiz ki, bunun çox böyük, həm iqtisadi, həm də siyasi önəmi var. Biz bunları edirik.

Bu, bizim gücümüzü göstərir. Onu göstərir ki, bölgədə elə məsələ yoxdur ki, biz onu həll edə bilməyək. Onu göstərir ki, bizim qəbul etdiyimiz qərarlar icra olunur. Baxmayaraq ki, bəzi hallarda müqavimətlə, ədalətsiz təzyiqlərlə rastlaşırıq, biz özümüzü çox inamlı hiss edirik. Bizim gücümüz ondadır ki, bir-birimizə arxalanırıq. Müstəqilliyimizin ilk illərində Azərbaycanın dəstəyə çox böyük ehtiyacı vardı və biz onu yalnız Türkiyədən aldıq. Bu gün isə Azərbaycanın artan imkanları, potensialı, siyasi çəkisi, bölgədə oynadığı rolu və iqtisadi imkanları, öz növbəsində, Türkiyənin mövqelərinə də dəstəkdir. Bu qarşılıqlı qardaşlıq münasibətləri, qarşılıqlı maraq əsasında, dərin tarixi köklər əsasında qurulmuş münasibətlər artıq beynəlxalq siyasətin amilinə çevrilibdir. Biz nə qədər güclü olsaq, aramızda nə qədər möhkəm birlik olsa, maraqlarımızı da bir o qədər təmin edəcəyik. Maraqlarımız da üst-üstə düşür və biz istəyirik ki, xalqlarımız rifah içində yaşa-

sın. İstəyirik ki, ölkələrimizdə və bölgədə sülh, əmin-amanlıq bərqərar edilsin. Biz istəyirik ki, qonşularla mehribanlıq şəraitində yaşayaq və buna nail oluruq, qonşu dövlətlərlə münasibətlərimiz çox uğurlu şəkildə qurulur. Beləliklə, Azərbaycan-Türkiyə birliyinin güclənməsinin həm ölkələrimiz, xalqlarımız, bütün türk dünyası üçün və həm də bütövlükdə, dünyada gedən proseslər üçün çox böyük əhəmiyyəti var.

Bizim ölkələrimizi fərqləndirən cəhət ondadır ki, ölkələrimizdə çox güclü tolerantlıq, dözümlülük var. Ölkələrimizdə bütün xalqlar bir ailə kimi yaşayırlar, nə dini, nə də etnik baxımdan heç bir ayrı-seçkilik yoxdur. Onu da bilirik ki, heç də hər bir ölkədə belə deyildir. Hətta dünyanın ən inkişaf etmiş ölkələri kimi tanınan dövlətlərdə də dini, yaxud da ki, etnik zəmində qarşıdurmalar var, gərginlik artır. Bir tərəfdən, sivilizasiya olaraq, dialoq məsələsi gündəmə salınıb və geniş müzakirə olunur, digər tərəfdən, qarşıdurma da artır. Bizim örnəyimiz tədqiq edilməli və əsas götürülməlidir. Bu, bizim gücümüzdür və ölkələrimizdə yaşayan bütün xalqlar bizim qardaşlarımızdır. Biz elə etməliyik ki, ölkələrimizin həm siyasi, həm iqtisadi durumu daha da yaxşı olsun ki, burada yaşayan bütün xalqlar özlərini daha da rahat hiss etsinlər.

Avropa ilə, böyük dövlətlərlə münasibətlərdə də bizim baxışlarımız üst-üstə düşür və bu, bizim birləşməyimiz üçün, birgə fəaliyyət planının olması üçün də çox böyük əhəmiyyət kəsb edir.

Xaricdə yaşayan soydaşlarımızın fəallığı bizi çox sevindirir. Biz də buna çalışırıq və əlimizdən gələni edirik ki, bu proseslər daha da sürətlə getsin. Azərbaycanda iki dəfə - 2001-ci ildə və 2006-cı ildə dünya azərbaycanlılarının qurultayları keçirilmiş və bunların nəticəsi çox müsbət olmuşdur. Təşkilatlanma prosesi sürətlə gedir. Bildiyiniz kimi, azərbaycanlılar başqa ölkələrdə əvvəllər də yaşayıblar. Amma Sovet İttifaqı zamanı xaricdə yaşayan azərbaycanlılar mədəni dərnəklər çərçivəsində fəaliyyət göstərirdilər. Azərbaycan müstəqil ölkə olandan sonra təşkilatlanma prosesi başlanmışdır və indi sürətlə gedir. Azərbaycanlılar yaşayan bütün xarici ölkələrdə təşkilatlanma prosesi gedir və bu gün Azərbaycan diaspor təşkilatları artıq böyük bir gücdür, Azərbaycanla onların çox sıx əlaqələri var. Bütün fəaliyyət planı müzakirə olunur, əlaqələndirilir və biz vahid mövqedən çıxış edirik. Ona görə xaricdə yaşayan soydaşlarımızın fəallığı çox önəmli bir faktdır.



İlk növbədə, biz, dövlətlər onların rahat yaşaması üçün əlimizdən gələni etməliyik. Biz nə qədər güclü olsaq, onların da orada yaşaması daha da rahat olacaqdır. Ölkələrimizin çəkisi artdıqca, onlara da münasibət daha yaxşı olacaqdır. Digər tərəfdən, onlar Azərbaycanın və Türkiyənin həqiqətlərini çatdırmalıdırlar və bunu edirlər. Çünki əfsuslar olsun ki, bu günə qədər geniş mənada dünya ictimaiyyətində bizim haqqımızda tam həqiqəti əks etdirən rəy yoxdur. Bunun da səbəbləri var. Bizim əleyhimizə çox güclü erməni lobbisi fəaliyyət göstərir. O, Türkiyə və Azərbaycana düşmənçilik mövqeyindədir və bizi ləkələmək, ölkələrimizdə gedən prosesləri təhrif etmək, yalan, böhtan kampaniyasını aparmaq onların əsas peşəsidir. Biz bunun qarşısına öz siyasətimizi, öz təbliğat mexanizmimizi qoymalıyıq və qoyuruq. Ona görə xaricdə yaşayan soydaşlarımız daha da güclənməlidir, təşkilatlanma prosesi daha da sürətlə aparılmalıdır. Onlar yaşadıqları ölkələrin siyasi dairələrinə, siyasi təsisatlarına daha da fəal inteqrasiya etməlidirlər. Biz bunu türk diasporunun timsalında görürük, onların çox böyük uğurları var. Türk qardaşlarımız artıq müxtəlif ölkələrin qanunvericilik orqanlarında təmsil olunurlar, onlardan hökumət nümayəndələri var, ictimai təşkilatlarda fəaldırlar.

Biz də buna çalışırıq. Biz indi ilkin mərhələdəyik, xaricdə yaşayan azərbaycanlıların təşkilatlanma prosesi hələ davam edir. Bildiyiniz kimi, bu məqsədlə 2002-ci ildə ulu öndər Heydər Əliyev tərəfindən Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsi yaradılıb və bu komitə bütün diaspor təşkilatlarının fəaliyyətinin əlaqələndirilməsi ilə məşğuldur.

Bir sözlə, fəallıq göstərmək, siyasi proseslərdə iştirak etmək, biznes aləmində yüksək yer tutmaq və buna nail olmaq üçün bizim imkanlarımızdan faydalanmaq lazımdır. Türkiyənin çox böyük siyasi və iqtisadi potensialı var, Azərbaycanda iqtisadiyyat çox sürətlə inkişaf edir və qardaşlarımız bizim imkanlarımızdan faydalanmalıdırlar. Onsuz da, bizim ölkələrimizdə xaricdən çoxlu iş adamları fəaliyyət göstərirlər, çoxlu şirkətlər var. Biznes mühiti Azərbaycanda da, Türkiyədə də çox münasibdir. Bilirsiniz ki, biz bizneslə məşğul olmaq istəyənləri alqışlayırıq və onların fəaliyyə-

tini dəstəkləyirik. Çox istərdim ki, onların arasında, xarici vətəndaşların arasında bizim soydaşlarımızın sayı çoxalsın.

Biz bu yolla onlara dəstək verməliyik, yaşadıqları ölkələrdə onların siyasətini gücləndirməliyik. Müxtəlif tədbirlər keçirilir və keçirilməlidir. Konfranslar, kitabların nəşri, bizim tariximizi, keçmişi və bu günü əks etdirən həqiqətlərin yayılması - bu, daimi proses olmalıdır. Xaricdə fəaliyyət göstərən bütün qeyri-hökumət təşkilatları ilə çox ciddi işbirliyi qurulmalıdır. Bir daha demək istəyirəm, hökumət üzvləri, parlament üzvləri ilə daim bu iş aparılmalıdır. Əgər biz istəyiriksə ki, səsimiz daha da ucadan gəlsin, bizi narahat edən problemlər daha da asanlıqla öz həllini tapsın, haqq-ədalət bərpa olunsun, mütləq bunu etməliyik. Xaricdəki türk, Azərbaycan diasporu artıq çox böyük gücə çevrilibdir. Bugünkü forumun ən böyük önəmi və deyə bilərəm ki, tarixi nailiyyəti ondadır ki, artıq biz öz fəaliyyətimizi birləşdiririk. Əminəm ki, bu gündən sonra türk və Azərbaycan diaspor təşkilatları vahid orqanizm kimi çalışacaqlar. Bütün işlərdə öz fəaliyyətini əlaqələndirəcək, bizimlə, dövlətlərlə məsləhətləşmələr aparacaqlar. Xarici siyasət baxımından, ictimai proseslərin inkişafı baxımından daim bu əlaqələr olmalıdır. Düzdür, xaricdə yaşayan insanların böyük əksəriyyəti yaşadıqları ölkələrin vətəndaşlarıdır və bu da təbiidir. Amma onlar türkdürlər, azərbaycanlıdırlar və bizim millətə xas olan vətənpərvərlik, öz vətəninə bağlılıq, öz milli mənəvi dəyərlərinə olan hörmət, ənənələrin qorunması, əlbəttə ki, onların milli mənsubiyyətini qoruyub saxlayacaqdır. Bilirik ki, bəzi hallarda assimilyasiya prosesləri də gedir. Buna imkan vermək olmaz. Biz bunun qarşısını necə ala bilərik? Ancaq vətənlə güclü əlaqələrin saxlanması ilə, Türkiyədən, Azərbaycandan Avropaya və başqa ölkələrə mütəmadi qaydada heyətlərin - iş adamlarının, siyasətçilərin, parlament üzvlərinin, incəsənət xadimlərinin göndərilməsi ilə. Bu əlaqələr çox güclü olmalıdır ki, xaricdə yaşayan soydaşlarımız öz vətənləri ilə əlaqələrini kəsməsinlər. Onların başqa ölkələrdə dünyaya gələn, yaşayan övladları, uşaqları, nəvələri də bizə bağlı olsunlar. Bu, çox ciddi məsələdir və bunun üzərində biz birgə çalışmalıyıq. Əminəm ki, birgə səylər nəticəsində biz bütün bu məsələlərə nail olacağıq.



Bizi narahat edən problemlər də var. İlk növbədə, bir daha demək istəyirəm ki, bizə - Türkiyəyə, Azərbaycana qarşı çox mütəşəkkil, böyük maliyyə imkanlarına malik olan dünya erməni diasporu, erməni lobbisi işləyir.

Bəlkə də yeganə ölkələrik ki, bizim əleyhimizə dünyanın istənilən yerində güclü təbliğat maşını, yenə də deyirəm, böhtan, yalan və tarixi təhrif edərək, bizi ləkələmək istəyən qüvvə işləyir.

Bir tərəfdən bu problem, digər tərəfdən Azərbaycanın işğal olunmuş torpaqları. Türkiyəyə qarşı əsassız ittihamlar, qondarma "soyqırımının" tanıdılması cəhdləri - bütün bunlar bizim xalqlarımıza qarşı yönəldilən əməllərdir. Xocalı soyqırımını törədən vəhşilər bizi soyqırımda ittiham edirlər və bəzi hallarda onların yalan təbliğatı uğurlar gətirir. Bir çox hallarda xarici ölkələrin onlar tərəfindən pulla, rüşvətlə ələ alınmış riyakar siyasətçiləri onların səsinə səs verirlər. Bu, ədalətsizliyin zirvəsidir. Bu, mənəviyyatsızlığın zirvəsidir. Biz buna qarşı mübarizə aparmalıyıq, aparmalıyıq və aparmalıyıq! Türk diplomatlarını qətlə yetirən, onlara qarşı terror aktları törədən erməni terrorist təşkilatları, nədənsə qınaq obyektinə çevrilmir. Onların məkrli hərəkətləri, nədənsə qınaq obyektinə çevrilmir. Avropa ölkələrində həbs olunmuş erməni terroristləri, nədənsə bir müddətdən sonra azadlığa buraxılırlar. Bəs, orada qətlə yetirilən bizim soydaşlarımız insan deyilmi? Biz bu ikili standartlara nə qədər göz yummalıyıq? Biz bununla nə qədər barışmalıyıq? Biz görürük ki, bəzi hallarda ədalət prinsipi tamamilə aradan qaldırılır. Biz bunun qarşısına nəyi çıxarmalıyıq? Ancaq öz gücümüzü, başqa amil yoxdur! Biz güclənməliyik, hərtərəfli - hərbi, iqtisadi, siyasi cəhətdən, bütün cəhətlərdən və birgə fəaliyyət göstərməliyik!

Ermənistan on ildən artıqdır ki, Azərbaycan torpaqlarını işğal edib, indi Azərbaycanı işğal siyasətində ittiham edir. Bizim ata-baba torpağımız olan İrəvan xanlığı, Zəngəzur mahalı, digər torpaqlar indi Ermənistan dövləti üçün torpaq olubdur. Bunlar bizim tarixi torpaqlarımızdır, ancaq biz Ermənistana qarşı torpaq iddiası irəli sürmürük. Halbuki, sürə bilərik. Çünki indiki Ermənistanın yerləşdiyi ərazi qədim türk, Azərbaycan torpaqlarıdır. Əgər onlar öz xalqının gələcəyi haqqında düşünürlərsə, öz siyasətində dəyişiklik etməlidirlər. Azərbaycanın işğal olunmuş torpaq-

larından qeyd-şərtsiz çıxmalıdırlar və Türkiyəyə qarşı əsassız ittihamlardan əl çəkməlidirlər. Əks təqdirdə, Ermənistanın özünün müqəddəratı sual altına düşə bilər. Azərbaycan heç vaxt Dağlıq Qarabağın itirilməsinə razılıq verməyəcək, nəyin bahasına olursa-olsun, doğma torpaqlarını azad edəcək, ərazi bütövlüyünü bərpa edəcək.

Dağlıq Qarabağ əzəli Azərbaycan torpağıdır. Ermənilər oraya XIX əsrin əvvəllərində köçürülmüşlər. Bir dəfə Azərbaycan, türk torpağında erməni dövləti yaradılıb, burada ikinci erməni dövlətinin yaranmasına biz heç vaxt imkan verməyik. Hüquqi cəhətdən haqq-ədalət bizim tərəfimizdədir, çünki Azərbaycanın ərazi bütövlüyü bütün dünya tərəfindən tanınır. Birləşmiş Millətlər Təşkilatı Təhlükəsizlik Şurasının 4 qətnaməsi qəbul edilib və orada göstərilir ki, Ermənistanın işğalçı qüvvələri Azərbaycanın zəbt olunmuş torpaqlarından qeyd-şərtsiz çıxmalıdır. Ermənistan buna əməl etmir. Yəni hüquqi əsaslar tam imkan verir ki, Azərbaycan öz dövlət suverenliyini, ərazi bütövlüyünü bərpa etsin.

Biz uzun illər ərzində danışıqlar yolu ilə çalışırıq ki, məsələni həll edək. Amma hələ ki, buna müvəffəq olmamışıq. Biz öz siyasətimizi aparacağıq. Azərbaycanın ərazi bütövlüyü danışıqlar predmeti deyil, olmayıb və heç vaxt olmayacaqdır. Azərbaycanın suverenliyi, ərazi bütövlüyü bərpa ediləcəkdir.

**Əziz dostlar! Əziz qardaşlar!**

Mən bu gün çox xoşbəxtəm, çox şadam ki, Azərbaycanda, Bakıda belə mötəbər tədbir keçirilir. Bu Forumun çox böyük əhəmiyyəti var. Çünki ilk dəfədir ki, türk və Azərbaycan diaspor təşkilatları artıq belə geniş formatda bir araya gəlir. Əminəm ki, burada, Bakıda qəbul edilmiş sənədlər, qərarlar qısa müddət ərzində öz bəhrəsini verəcəkdir. Forum dünən öz işinə başlamışdır və bildiyimə görə, çox səmərəli çıxışlar olmuş, müzakirələr aparılmışdır. Bu gün isə forum öz işini davam etdirəcəkdir. Forumun nəticəsi olaraq, bizim birliyimiz daha da möhkəmlənəcək, daha da güclənəcək, xaricdə yaşayan soydaşlarımız özlərini daha da rahat hiss edəcəklər. Hər zaman əmin olmalıdırlar ki, onların Türkiyə kimi, Azərbaycan kimi dayağı var. Biz sizin dayağınızıq, sizsə, xaricdə bizim dayağımızsınız.



Forumun bütün iştirakçılarına və qonaqlara bir daha öz səmimi salamlarımı yetirmək istəyirəm. Türk və Azərbaycan xalqlarının inkişafı naminə, çiçəklənməsi naminə biz birlikdə işləməliyik və işləyəcəyik.

## AZƏRBAYCAN VƏ TÜRK DİASPOR TƏŞKİLATLARI RƏHBƏRLƏRİNİN I FORUMUNUN BAKI BƏYANNAMƏSİ

Qloballaşan dünyanın müasir reallıqları bütün türk xalqlarının qarşısında mühüm və taleyüklü vəzifələr qoymuşdur. Dövlətlər və xalqlar arasında gedən inteqrasiya prosesləri, planetin siyasi mənzərəsində baş vermiş dəyişikliklər bəşər sivilizasiyasının yeni bir inkişaf mərhələsinə qədəm qoyduğunu göstərir. Türk dünyasının bu mürəkkəb və ziddiyyətli mərhələdən müvəffəqiyyətlə çıxması eyni tarixi köklərə malik olan xalqlarımız arasında birliyin və həmrəyliyin səviyyəsindən əhəmiyyətli dərəcədə asılıdır. Bu sahədə bütün türk dövlətlərinin, xüsusilə də Azərbaycan və Türkiyənin üzərinə böyük məsuliyyət düşür.

Tarixi müttəfiqlik xarakteri daşıyan Azərbaycan-Türkiyə münasibətləri yeni dünyanın tələblərinə uyğun olaraq günü-gündən möhkəmlənməkdə və inkişaf etməkdədir. Çoxəsrlik dil, din, qan qardaşlığına, ortaq etno-mədəni dəyərlərə söykənən bu münasibətlər ölkələrimizin qloballaşan dünyaya inteqrasiyasının ən mühüm dayaqlarından birini təşkil edir.

Sovetlər İttifaqının süqutu nəticəsində dünyanın siyasi düzənində baş vermiş dəyişikliklərdən sonra Azərbaycan və Türkiyə arasında ictimai-siyasi və iqtisadi həyatın bütün sahələrində dostluq, əməkdaşlıq münasibətləri daha da dərinləşərək, yüksək inkişaf səviyyəsinə qədəm qoymuşdur. Ölkələrimiz regionda həyata keçirilən qlobal iqtisadi layihələrdə strateji tərəfdaş olmaqla yanaşı, bölgədə sülhün, təhlükəsizliyin və sabitliyin bərqərar edilməsi ilə bağlı məsələlərdə eyni mövqedən çıxış edir. Azərbaycan və Türkiyənin ortaq milli maraqları xalqlarımızın bir-birinə daha da yaxınlaşmasına, onlar arasındakı qardaşlıq tellərinin möhkəmlənməsinə təkan verir.

Azərbaycan və Türk diaspor təşkilatları rəhbərlərinin I forumu yeni tarixi şəraitdə türk xalqlarının qarşısında duran vəzifələri, xarici ölkələrdəki azərbaycanlı və türk icmaları arasında əlaqələrin perspektivlərini, habelə onların digər türkdilli xalqların diaspor təşkilatları ilə əməkdaşlığının prinsip və istiqamətlərini,



milli maraqlarımızın müdafiəsi, zəngin mədəni irsimizin təbliği sahəsində səylərin birləşdirilməsi kimi mühüm məsələləri müzakirə etmişdir.

Forum iştirakçıları onlara bir araya gəlmək, qarşıda duran problem və vəzifələri birlikdə müzakirə etmək imkanı yaratdıqlarına və toplantının işində iştirak etdiklərinə görə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə, Türkiyə Respublikasının Baş naziri cənab Rəcəb Tayyib Ərdoğana, Şimali Kipr Türk Respublikasının Milli lideri cənab Mehmet Əli Tələtə dərin minnətdarlıqlarını bildirirlər. Azərbaycan və Türk diaspor təşkilatlarının rəhbərləri əmindirlər ki, bu toplantı dünyanın müxtəlif ölkələrində yaşayan milyonlarla azərbaycanlını və türkü vahid məqsəd ətrafında daha sıx birləşdirəcək, onlara dövlətlərimizin və xalqlarımızın milli maraqlarının qorunması naminə qüvvələrini səfərbər etmək imkanı verəcəkdir.

Azərbaycan və türk diaspor təşkilatlarının rəhbərləri

- Azərbaycan və Türk xalqlarının ortaq tarixə, etno-mədəni dəyərlərə malik olduğunu nəzərə alaraq,
- türkdilli xalqlar arasında əlaqələrin daha da möhkəmləndirilməsinin əhəmiyyətini başa düşərək,
- Azərbaycan və Türkiyə arasındakı strateji müttəfiqlik münasibətlərini əsas götürərək,
- azərbaycanlı və türk icmalarının əməkdaşlığının dərinləşməsini tarixi zərurət kimi qiymətləndirərək,
- Azərbaycan və Türkiyə haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması işinin təkmilləşdirilməsinin vacibliyini dərk edərək,
- Dünya azərbaycanlılarının II qurultayının «Azərbaycan və türk diaspor təşkilatlarına müraciət»inə qoşularaq, bəyan edirlər:

1. «Azərbaycan və türk diaspor təşkilatlarının birgə fəaliyyət strategiyası» təsdiq edilsin.
2. «Azərbaycan və türk diaspor təşkilatlarının birgə fəaliyyət strategiyası»ndan irəli gələn vəzifələrin yerinə yetirilməsini əlaqələndirmək, habelə azərbaycanlı və türk icmalarının fəaliyyətinin səmərəliliyini təmin etmək məqsədilə Azərbaycan və Türk diaspor təşkilatlarının Koordinasiya Şurasının yaradılması məqsədəuyğun hesab edilsin.

1. Koordinasiya Şurasına Azərbaycan və türk diaspor təşkilatları arasında əməkdaşlığın inkişaf etdirilməsi məqsədilə aşağıdakı məsələlərə diqqət yetirmək tövsiyə olunsun:

- Azərbaycan və Türk diaspor təşkilatlarının birgə fəaliyyət strategiyasından irəli gələn məsələlərin həlli məqsədilə tədbirlərin həyata keçirilməsi;

- Azərbaycan və Türkiyənin, habelə digər türk dövlətlərinin milli maraqlarının müdafiəsi;

- Xarici ölkələrdə yaşayan azərbaycanlıların və türklərin ictimai-siyasi fəallığının artırılması, seçki və referendumlarda fəal iştirakının təmin olunması və bu məqsədlə seçkili orqanlara namizədlərin irəli sürülməsi və dəstəklənməsi, onların seçki kampaniyalarının təşkili;

- xarici ölkələrdə yaşayan azərbaycanlıların və türklərin təşkilatlanması prosesinə dəstək verilməsi;

- xarici ölkələrdə yaşayan azərbaycanlıların və türklərin insan hüquq və azadlıqlarının təmin olunması məsələsinin diqqətdə saxlanılması;

- lobbi quruculuğu sahəsində əməkdaşlığın inkişafı, xarici ölkələrin parlament və hökumət üzvləri, ictimai təşkilatların və siyasi partiyaların nümayəndələri ilə əlaqələrin qurulması;

- Azərbaycan və Türkiyə haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması istiqamətində azərbaycanlı və türk icmalarının həyata keçirdiyi tədbirlərin koodinasiya edilməsi;

- Ermənistanın Azərbaycana təcavüzünün nəticələri barədə beynəlxalq ictimaiyyətin məlumatlandırılması məqsədilə Azərbaycan və Türk icmalarının iştirakı ilə təbliğat xarakterli tədbirlərin həyata keçirilməsi;

- «erməni soyqırımı» iddiaları ilə bağlı əsl həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması;

- Türkdilli xalqların yaşadığı regionlarda mövcud olan münaqişələr haqqında beynəlxalq ictimaiyyətə obyektiv məlumatların çatdırılması, Türk dünyasının ortaq problemlərinin diqqət mərkəzində saxlanılması;

- Türk xalqlarının qədim tarixinin və zəngin mədəni irsinin təbliği, xarici ölkələrdə yaşayan azərbaycanlı, türk və digər türkldilli xalqların milli-mənəvi dəyərlərinin qorunub saxlanılması;



- azərbaycanlı və türk iş adamlarının forumlarının keçirilməsi, xarici sərmayəçilərin Azərbaycan və Türkiyəyə investisiya qoymağa təşviq edilməsi;

2. Koordinasiya Şurasına tövsiyə edilsin ki, görülmüş işlərin nəticələrini müzakirə etmək və qarşıda duran vəzifələri müəyyənləşdirmək üçün Şura üzvlərinin ən azı üçdə ikisinin iştirakı ilə ildə bir dəfədən az olmayaraq öz toplantılarını keçirsin.

3. Azərbaycan Respublikası və Türkiyə Respublikasının müvafiq dövlət orqanları tərəfindən «Azərbaycan və türk diaspor təşkilatlarının birgə fəaliyyət strategiyası», habelə bu bəyannamədən irəli gələn məsələlərin həllində Koordinasiya Şurasına dəstək verilməsi xahiş edilsin.

4. Forumun təşkilatçılarından xahiş edilsin ki, Azərbaycan və Türk Diaspor Təşkilatları Rəhbərlərinin I Forumunun materiallarının ayrıca kitab halında nəşr olunaraq xarici ölkələrdəki azərbaycanlı və türk icmalarına göndərilməsini təmin etsin.

5. Azərbaycan və Türk diaspor təşkilatları rəhbərlərinin forumları iki ildən bir keçirilsin və növbəti Forumun 2009-cu ildə Türkiyə Respublikasında keçirilməsi məqsədəuyğun hesab edilsin.

Forum işitrakçıları əmindirlər ki, Azərbaycan və Türk diaspor təşkilatları qəbul olunmuş qərarların yerinə yetirilməsi üçün bütün səy və bacarıqlarını əsirgəməyəcək, Türk dünyasının birliyi naminə qüvvələrini birləşdirəcək, dövlətlərimizin milli maraqlarının ləyaqətlə müdafiəsinə, ölkələrimiz arasında strateji tərəfdaşlıq münasibətlərinin inkişafına töhfə verməyə çalışacaq, Azərbaycan və Türkiyə haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması üçün bütün imkanlarını səfərbər edəcəklər.

***Bəyannamə Azərbaycan və Türk diaspor təşkilatları rəhbərlərinin I forumunda qəbul edilmişdir. Bakı şəhəri, 9 mart 2007-ci il.***

# AZƏRBAYCAN VƏ TÜRK DİASPOR TƏŞKİLATLARI KOORDİNASİYA ŞURASININ AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ CƏNAB İLHAM ƏLİYEVƏ VƏ TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ CƏNAB ABDULLA GÜLƏ MÜRACİƏTİ

**Möhtərəm cənab Prezidentlər!**

Vahid etnik mənşəyə, ortaq milli-mənəvi dəyərlərə və tarixə malik türkdilli xalqlar arasında əməkdaşlığın müasir inkişaf səviyyəsi ölkələrimizin gələcəyi üçün etibarlı zəmin yaratmaqdadır. Tarixin ağır sınaqlarına mətanətlə sinə gərmiş xalqlarımız öz milli-mənəvi dəyərlərini qorumaqla yanaşı, qloballaşan dünyaya sürətlə inteqrasiya edir, sivilizasiyalararası dialoqun, beynəlxalq aləmdə sülhün və təhlükəsizliyin təmin edilməsində önəmli rol oynayır.

Türkdilli ölkələrin ortaq strateji maraqları öz ideoloji məzmununu və tarixi mənasını xalqlarımızın vahid etnomədəniyyət xəzinəsindən götürür. Türk xalqlarının birliyinin möhkəmləndirilməsi dünyada sülhün və təhlükəsizliyin təmin olunması baxımından mühüm əhəmiyyətə malikdir. Bizim xalqlarımız öz qədim və şərəfli tarixi ərzində daim sülhün və əmin-amanlığın təminatçısı olmuşlar.

Bu gün regionda həyata keçirilməkdə olan transmilli layihələrdə Azərbaycan və Türkiyə, eləcə də digər türkdilli dövlətlərin aparıcı rol oynaması ölkələrimizin sarsılmaz ittifaqının təzahürüdür. Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan neft və Bakı-Tbilisi-Ərzurum qaz kəmərlərinin, Bakı-Tbilisi-Qars-Axalkalaki dəmir yol xəttinin inşası nəinki regionda, eyni zamanda bütün dünyada qlobal iqtisadi inteqrasiya proseslərinin inkişafına öz töhfəsini verməkdədir.

Cənab Prezidentlər!

Türkdilli ölkələrin dövlət və hökumət başçılarının zirvə toplantıları, Türk Dövlət və Cəmiyyətlərinin Dostluq, Qardaşlıq və Əməkdaşlıq qurultayları, 2008-ci ildə Bakı şəhərində Azərbaycan Respublikası Prezidentinin təşəbbüsü ilə təşkil olunmuş Azərbaycan və Türk diaspor təşkilatlarının I forumu və bir sıra digər tədbirlər Türk dünyasının birliyi ideyasının reallaşmaqda olduğuna parlaq sübutlardır. Türkdilli ölkələrin Parlament Assambleyasının və Zirvə Toplantıları Katibliyinin yaradılması istiqamətində dövlətlərimizin göstərdiyi əzm və iradə Azərbaycan və Türk xalqlarının bu məsələdə son dərəcə qərarlı və qətiyyətli olduğunu bir daha təsdiq edir.



Qloballaşma proseslərinin vüsət aldığı müasir dünyamızda sivilizasiyalararası barışıq, xalqların qarşılıqlı inteqrasiyası zamanın tələbinə çevrilmişdir. Türkdilli xalqların birliyi ideyası bu tələbin təzahürü kimi meydana çıxmaqdadır. Bu mənada Azərbaycan və Türk diaspor təşkilatları arasında son illərdə inkişaf etməkdə olan əməkdaşlıq münasibətləri xalqlarımızın milli maraqlarından, dəyişməkdə və təkmilləşməkdə olan beynəlxalq münasibətlər sisteminin yeni reallıqlarından irəli gəlir.

Biz - 2008-ci ilin mart ayında Almaniya Federativ Respublikasının Berlin şəhərində keçirilmiş Azərbaycan və Türk Diaspor Təşkilatları Koordinasiya Şurası iclasının iştirakçıları bu yeni mərhələdə Türk dünyasının qarşısında duran taleyüklü vəzifələrin həlli istiqamətində qarşılıqlı əməkdaşlığın hazırkı səviyyəsini və mümkün inkişaf perspektivlərini müzakirə etdik. Biz bir daha əmin olduq ki, xarici ölkələrdə yaşayan azərbaycanlıların və türklərin, eləcə də digər türkdilli xalqların nümayəndələrinin cəmiyyətə inteqrasiyası, hüquq və azadlıqlarının müdafiəsi, ictimai-siyasi proseslərə təsir imkanlarının artırılması, milli-mənəvi dəyərlərimizin qorunub saxlanılması, xalqlarımızın tarixi və müasir həyatı ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, yalançı «erməni soyqırımı» təbliğatının ifşa edilməsi, Dağlıq Qarabağın işğalı, Kərkük türklərinin məruz qaldığı haqsızlıqlar, Şimali Kiprin beynəlxalq təcriddən çıxarılması, Ahıska türklərinin repatriasiyası sahəsində çətinliklər və bir sıra digər taleyüklü məsələlərin həlli sahəsində diasporların qarşısında da olduqca mühüm vəzifələr durur. Çünki Türk dünyasının birliyi ideyası konkret bir sahə ilə məhdudlaşmır, geniş sosial-fəlsəfi, ideoloji-siyasi və tarixi məna kəsb edir. Biz Əli bəy Hüseynzadə, Əhməd bəy Ağaoğlu, İsmayıl bəy Qaspıralı, Ziya Göyalpın miras qoyduğu, Mustafa Kamal Atatürk və Heydər Əliyevin ləyaqətlə davam etdirdiyi müqəddəs

ideyaların həyata keçirilməsi üçün bütün səy və bacarığımızı əsirgəməyəcəyik.

Möhtərəm prezidentlər!

Sizi əmin edirik ki, Azərbaycan və Türk Diaspor Təşkilatlarının Koordinasiya Şurası xalqlarımızın qarşısında duran taleyüklü vəzifələrin tarixi məsuliyyətini dərindən dərk edərək, dünyanın müxtəlif ölkələrində məskunlaşmış milyonlarla azərbaycanlı və türk qardaşlarımızı Türk dünyasının ümumi mənafeləri naminə birləşdirmək missiyasını bundan sonra da ləyaqətlə yerinə yetirməyə çalışacaqdır. Azərbaycan və Türkiyə prezidentlərinin, onların şəxsində iki dövlətin davamlı dəstəyi, diqqət və qayğısı, Türk xalqlarının birliyi naminə atdığı müdrik addımlar bu şərəfli missiyanı müvəffəqiyyətlə həyata keçirməyimizə zəmin yaradır.

Azərbaycan və Türk Diaspor Təşkilatlarının Koordinasiya Şurası Sizə - Azərbaycan və Türkiyə respublikalarının prezidentlərinə müraciət edərək, Türkdilli xalqların rifahı və birliyi naminə fəaliyyətinizi dəstəklədiyini bəyan edir. İnanırıq ki, xalqlarımızın birliyi, dövlətlərimizin müttəfiqliyi ortaq problemlərimizin həllinin ən düzgün yoludur. Bu yolda, cənab prezidentlər - Sizə və Sizin şəxsinizdə bütün türk dünyasına uğurlar arzulayırıq.

***Müraciət Azərbaycan və Türk Diaspor Təşkilatları Koordinasiya Şurasının iclasında qəbul edilmişdir. 27 mart 2008-ci il Almaniya, Berlin şəhəri.***



# AZƏRBAYCAN VƏ TÜRK DİASPOR TƏŞKİLATLARININ BİRGƏ FƏALİYYƏT STRATEGİYASI

## PREAMBULA

Bir millət, iki dövlət olan Azərbaycan və Türk xalqlarının dərin tarixi köklərə, ortaq milli-mədəni və mənəvi dəyərlərə, zəngin adət-ənənələrə söykənən qardaşlığı əsrlərin ağır sınaqlarından uğurla çıxaraq, müasir dövrümüzdə yeni ictimai-siyasi əhəmiyyət kəsb etməkdədir. Dostluq, qarşılıqlı əməkdaşlıq üzərində köklənən bu münasibətlərin fəlsəfəsi öz mənbəyini qədim, bəşər sivilizasiyasına layiqli töhvələr verən vahid və təkrarolunmaz etno-mədəni xəzinədən götürür.

**Azərbaycan və Türk diaspor təşkilatlarının rəhbərləri**

Müasir qloballaşma və inteqrasiya şəraitində qarşılıqlı əlaqələrin daha da möhkəmlənməsi və inkişafı məqsədilə səmərəli müzakirələr apararaq və aşağıdakı amilləri:

- Azərbaycan xalqının və türk xalqının ortaq mədəniyyətə, tarixə, vahid etnik mənşəyə malik olduğunu;
- xalqlarımızı bir-birinə bağlayan çoxəsrlik qardaşlıq ənənələrinin mövcudluğunu;
- müasir şəraitdə Azərbaycan xalqının və türk xalqının ortaq milli maraqlarını, Azərbaycan Respublikası və Türkiyə Respublikası arasındakı dostluq, qardaşlıq və strateji əməkdaşlıq münasibətlərini;
- qloballaşma prosesi kontekstində türkdilli xalqlar arasında əlaqələrin daha da möhkəmləndirilməsi zərurətini;
- Birləşmiş Millətlər Təşkilatı və digər beynəlxalq təsisatlar tərəfindən qəbul edilmiş beynəlxalq hüquqi aktlardan irəli gələn öhdəlikləri;
- regionun ictimai-siyasi və iqtisadi həyatında Azərbaycan Respublikasının və Türkiyə Respublikasının aparıcı rolunu;
- regionda sülh və təhlükəsizliyə qarşı yönəldilmiş təhdidlərə qarşı birgə mübarizənin vacibliyini;
- Azərbaycan və Türkiyə dövlətlərinin strateji inkişafında oxşar prioritet istiqamətləri;

- dövlətlərimizin və xalqlarımızın qarşılıqlı əməkdaşlıq və dostluq münasibətlərini daha da möhkəmləndirmək niyyətlərini;

- dünyada cərəyan edən mürəkkəb ictimai-siyasi proseslər kontekstində xarici ölkələrdəki Azərbaycan və Türk icmaları arasında əməkdaşlığın inkişafının vacibliyini;

- 2006-cı ilin mart ayında Bakı şəhərində keçirilmiş Dünya azərbaycanlılarının II qurultayında qəbul olunmuş «Azərbaycan və Türk diaspor təşkilatlarına müraciət»dən irəli gələn vəzifələri;

- 2006-cı il iyun ayının 7-də Türkiyə Respublikasının Antalya şəhərində imzalanmış «Azərbaycan və Türk diaspor təşkilatlarının birgə fəaliyyət strategiyası»nın hazırlanmasına dair Razılıq Protokolunun müddəalarını;

- ortaq maraqlar naminə gələcəkdə də birgə fəaliyyətin genişləndirilməsi zərurətini

nəzərə alaraq, 2006-cı ilin iyun ayının 7-də Türkiyə Respublikasının Antalya şəhərində yaradılmış İşçi qrupun təqdim etdiyi layihə əsasında «Azərbaycan və Türk diaspor təşkilatlarının birgə fəaliyyət strategiyası»nı bəyənir və təsdiq edirlər.

## 1. Qloballaşma şəraitində ortaq strateji mənafelər və onların təminatı

Zamanın çətin imtahanlarında möhkəmlənən qardaşlıq telləri XX əsrin əvvəllərində Azərbaycan və Türkiyə arasında münasibətlərin məzmununu müəyyənləşdirərək, hər iki xalqın istiqlaliyyətə qovuşmasında müstəsna rol oynamışdır. Azərbaycan xalqı 1918-ci ildə onun azadlıq mücadiləsinə qoşularaq canlarından keçmiş yüzlərlə türk şəhidinin xatirəsini daim uca tutur, misilsiz fədakarlığını böyük ehtiramla yad edir. Eyni zamanda, 1915-ci il Çanaqqala döyüşlərində iştirak etmiş azərbaycanlı könüllülərin göstərdiyi şücaət də türk xalqının yaddaşında silinməz iz buraxmışdır.

XX əsrin sonlarında dünyada gedən mürəkkəb siyasi və iqtisadi proseslər fonunda Azərbaycanın dövlət müstəqilliyini bərpa etməsindən sonra iki ölkə arasındakı münasibətlər yeni məzmun kəsb etməyə başlamışdır. 1991-ci ildə Azərbaycanın dövlət müstəqilliyinin bərpası haqqında Konstitusiya Aktını alqışlayan ilk dövlət də məhz Türkiyə Respublikası olmuşdur.



Müstəqilliyin möhkəmləndirilməsi, respublikanın iqtisadi gücünün artırılması və beynəlxalq aləmlə siyasi əlaqələrin qurulması üçün etibarlı tərəfdaşların dəstəyinə böyük ehtiyac duyulurdu və Azərbaycan ən çətin günlərində belə bir dəstəyi Türkiyədən almışdır.

Azərbaycanın dövlət müstəqilliyini bərpa etməsindən sonra iki qardaş ölkə arasında münasibətlər daha uğurla inkişaf etməyə başlamışdır. Tarixi yaxınlığa, din və dil birliyinə əsaslanan əlaqələr eyni zamanda müasir siyasi və iqtisadi reallıqlar nəzərə alınmaqla möhkəmlənməkdədir.

Azərbaycan və Türkiyə yalnız etnik, mədəni, mənəvi deyil, həm də siyasi və iqtisadi baxımdan etibarlı müttəfiqdirlər. Regionu əhatə edən mühüm layihələrdə bu iki dövlətin birgə iştirak etməsi, eyni zamanda, beynəlxalq müstəvidə əlaqələrin gücləndirilməsi Bakı ilə Ankara arasında qarşılıqlı etimadın yüksək səviyyədə olduğunu söyləməyə əsas verir. Əlbəttə, bu əlaqələr birdən-birə yaranmamışdır. Azərbaycan-Türkiyə münasibətlərinin bugünkü səviyyəsi hər iki qardaş xalqın tarixi mənafelərini və siyasi iradəsini ifadə edir.

Qarşılıqlı milli maraqlar, müştərək iqtisadi layihələrin perspektivləri, bir sıra sahələrdə birgə fəaliyyət zərurəti Azərbaycan və Türkiyəni ayrılmaz tarixi və strateji müttəfiqlərə çevirmişdir. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin «Biz bir millət, iki dövlətik!» və ulu öndər Mustafa Kamal Atatürkün «Azərbaycanın sevinci sevincimiz, kədəri kədərimizdir!» kəlamları dövlətlərimiz arasında münasibətlərin mahiyyətini özündə əks etdirir.

Türkiyə Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi istiqamətindəki haqlı mübarizəsini keçmişdə olduğu kimi gələcəkdə də dəstəkləməyə davam edəcəkdir.

Azərbaycanın isə öz növbəsində Şimali Kipr probleminə münasibətdə qardaş ölkənin mövqeyini qətiyyətlə dəstəkləməsi dövlətlərimizin vahid mövqedən çıxış etdiyini bir daha təsdiqləyir. Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan neft kəməri, Bakı-Tbilisi-Ərzurum qaz kəməri, Bakı-Tbilisi-Axalkalaki-Qars dəmir-yolu xətti kimi transregional iqtisadi layihələrdə ölkələrimizin yaxın tərəfdaş kimi çıxış etməsi xalqlarımız arasındakı münasibətlə-

ri yeni səviyyəyə qaldırmaqla onun siyasi-iqtisadi əhəmiyyətini xeyli artırır.

## 2. Azərbaycan və türk diasporunun formalaşması prosesi

**Azərbaycan diasporu:**

Azərbaycan diasporunun formalaşması prosesinin tarixi kifayət qədər dərin köklərə malikdir. Tarixi mənbələrə əsasən bu proses VII əsrin sonu - VIII əsrin əvvəllərindən başlanır. Həmin dövrdə Xilafət ordusunun Azərbaycana yürüşü ilə əlaqədar ərəbdilli elm və mədəniyyətin inkişafı, ticarət əlaqələrinin genişlənməsi, eyni zamanda, azərbaycanlı mütəfəkkirlərin Yaxın və Orta Şərqin şəhərlərinə mühacirəti diasporun təməlini qoymuşdur.

X-XIX əsrlərdə Yaxın Şərqin elm və mədəniyyət mərkəzlərində əslən Azərbaycandan olan yüzlərlə alim və tələbənin biliklərə yiyələnməsi, milli təfəkkürümüzün region xalqlarının intibahında qabaqcıl mövqeyə çıxması sayəsində xaricdə məskunlaşması daha geniş vüsət almışdır.

XIX əsr Azərbaycan diasporunun formalaşması tarixində xüsusi mərhələ olmuşdur. 1813-cü il Gülüstan və 1828-ci il Türkmənçay müqavilələrinin imzalanmasından sonra Azərbaycanın çar Rusiyasının tərkib hissəsinə çevrilməsi ilə razılaşmayan yüzlərlə azərbaycanlı xarici ölkələrə miqrasiya etmişdir. Rusiyanın Qafqazı hərbi və siyasi cəhətdən özünə tabe etdirməsi, Azərbaycanın bu ölkə ilə məcburi inteqrasiyasına gətirib çıxarmışdır.

Bununla belə, həmin dövrdə azərbaycanlılar arasında görkəmli dövlət, elm və mədəniyyət xadimləri, siyasətçilər də yetişmiş və Rusiyanın müxtəlif vilayətlərində məskunlaşmışlar. Bu dövrdə azərbaycanlı ictimai və siyasi xadimlərin hakimiyyət və dövlət strukturlarında təmsil olunması Azərbaycan ziyalılarının yeni nəslinin yetişməsindən xəbər verirdi. XIX əsrin əvvəllərindən etibarən Rusiya Xarici İşlər Nazirliyində xeyli azərbaycanlı çalışırdı. Çar ordusunda xidmət edən yüzlərlə azərbaycanlı zabit və general Azərbaycan diasporunun ən görkəmli nümayəndələri kimi tarixə düşmüşlər.

XIX əsrdə digər ölkələrdə də yüksək vəzifələrdə çalışmış və böyük nüfuz qazanmış soydaşlarımız xalqımızın dünya miqyasında tanınmasında mühüm rol oynamışlar.



XX əsrin əvvəllərində azərbaycanlıların xaricə axını daha geniş vüsət almağa başlamışdır. Qafqazda çar Rusiyasının antiislam və antitürk siyasəti məqsədli şəkildə regionda azərbaycanlı əhalinin üstün mövqeyinin zəiflədilməsinə yönəlmiş və 1905-1906-cı illərdə, habelə 1918-ci ildə ermənilərin törətdiyi məqsədli soyqırım, etnik təmizləmə siyasəti nəticəsində minlərlə soydaşımız qətlə yetirilmiş, tarixi torpaqlarını tərk etməyə məcbur olmuşdur.

1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin qurulması ilə xaricə axının miqyası xeyli azalsa da, demokratik respublikanın süqutu nəticəsində faciəli vəziyyət yaranmışdı. Xalq Cümhuriyyətinin qurucularının və tərəfdarlarının bolşeviklər tərəfindən ciddi təzyiq və təqiblərə məruz qalması onları ölkəni tərk etmək məcburiyyətində qoymuşdur. Təsadüfi deyildir ki, bu dövr tarixə azərbaycanlıların kütləvi miqrasiyası kimi düşmüşdür. XX əsrin əvvəllərində bolşeviklərin təqiblərindən qurtulub mühacirət edən nüfuzlu ziyalılarımız Azərbayan diasporunun təşkilatlanması prosesinin əsasını qoymuşlar.

II Dünya müharibəsi illərində almanlar tərəfindən əsir götürülmüş və Sovet cəza maşınının ölüm xofundan Vətənə dönə bilməyən azərbaycanlılardan ibarət icmaların yaranması diasporunun formalaşmasının növbəti mərhələsi kimi səciyyələndirilir.

XX əsrin müxtəlif mərhələlərində İranda baş verən ictimai-siyasi proseslərlə əlaqədar bu ölkədən on minlərlə azərbaycanlının Qərb ölkələrinə mühacirəti Azərbaycan diasporunun genişlənməsi ilə nəticələnmişdir. Nəhayət ötən əsrin axırlarında SSRİ-nin süqutu və Azərbaycanın müstəqillik qazanmasından sonra yüzlərlə soydaşımız Avropa ölkələrində məskunlaşmışdır. Bu, Azərbaycan diasporunun təşəkkülünün sonuncu mərhələsi kimi dəyərləndirilir.

Hazırda azərbaycanlıların təqribi sayı 50 milyon nəfərə yaxındır. Onların 10 milyon nəfərdən çoxu Vətəndən kənarda məskunlaşmışdır. Azərbaycanlılar Amerika qitəsinin Şimal, Mərkəzi və Cənub hissəsində daha çox məskunlaşmışlar. Onların sayı Amerika Birləşmiş Ştatlarında 1 milyona, Argentinada 12 minə, Braziliyada 75 minə, Kanadada 170 minə, Meksikada isə 27 minə çatır.

Amerika qitəsinin digər ölkələrində də soydaşlarımız məskunlaşmışlar. Burada məskunlaşan azərbaycanlıların əksəriyyəti müxtəlif vaxtlarda İrandan miqrasiya etmişlər. Azərbaycanlıların 1970-ci ildən etibarən Turkiyədən, 1991-ci ildən isə Azərbaycandan bu qitəyə axını Azərbaycan diasporunun sosial tərkibinə və fəaliyyətinə öz təsirini göstərmişdir.

Azərbaycan diasporunun yayılma coğrafiyası və say tərkibinə görə geniş olduğu ikinci qitə Avropadır. Statistik göstəricilərə əsasən, Avropada azərbaycanlıların sayı Türkiyə və Rusiyada milyonlarla, Ukrayna, Belarus, Almaniya, Böyük Britaniyada yüzminlərlə, Norveç, Danimarka, İsveç, Macarıstan, Fransa və İtaliyada on minlərlə, Polşa, İspaniya, Avstriya, Albaniya, Finlandiya və Portuqaliyada on min nəfərdən çox göstərilir. Digər Qərb ölkələrində məskunlaşmış azərbaycanlıların sayı müvafiq olaraq 2-10 min nəfər arasındadır.

Hollandiya, Belçika, Danimarka, İsveçrə və Almaniyada yaşayan soydaşlarımızın əksəriyyəti Türkiyədən köçmüş azərbaycanlılardır. Böyük Britaniya, Çexiya, Slovakiya, Polşa, Avstriya, Estoniya, Belarus, Rusiya, Ukrayna, Moldova və Fransadakı soydaşlarımız isə İrandan və Azərbaycan Respublikasından köçənlərdir. Hazırda İranda öz tarixi torpaqlarında 30 milyona yaxın azərbaycanlı yaşayır.

Azərbaycan diasporunun üçüncü böyük hissəsi Asiya qitəsində məskunlaşmışdır. Onların sayı Banqladeşdə, Hindistan, Əfqanıstan, Pakistan, İordaniya və Orta Asiya respublikalarında yüzminlərlə, İndoneziya, Yəmən Ərəb Respublikası, Yəmən Demokratik Respublikası, Çin, Birləşmiş Ərəb Əmirliklərində, Oman, Səudiyyə Ərəbistanı və Suriyada onminlərlə, İraqda isə yüzminlərlədir.

Afrika qitəsində məskunlaşmış azərbaycanlıların sayı Misir və Əlcəzairdə yüz min nəfərdən çox, Sudanda 17 min nəfərdir. Ümumilikdə, son zamanlar aparılan araşdırmalar nəticəsində Cənubi Afrika Respublikası və Zairdə də azərbaycanlıların məskunlaşdığı müəyyən edilmişdir. Avstraliya qitəsində isə təxminən 10 minə yaxın azərbaycanlının yaşadığı barədə məlumatlar var.

Azərbaycan Respublikasının müvafiq qanunvericilik aktlarına uyğun olaraq «xaricdə yaşayan azərbaycanlılar» anlayışı



Azərbaycan Respublikasının hüdudlarından kənarda yaşayan Azərbaycan Respublikasının vətəndaşlarına və onların övladlarına, əvvəllər Azərbaycan SSRİ-nin və ya Azərbaycan Respublikasının vətəndaşları olmuş, lakin hazırda xarici dövlətlərdə məskunlaşan şəxslərə və onların övladlarına, bu kateqoriyaya aid olmayan, lakin etnik, dil, mədəniyyət və ya tarixi əlaqələr baxımından özünü Azərbaycana bağlı və ya azərbaycanlı hesab edənlərə aid edilir.

**Türk diasporu:**

Türklərin xarici ölkələrə ilk miqrasiyası eramızdan əvvəlki dövrlərə təsadüf etsə də, Türk diasporunun formalaşma tarixi başlanğıcını Osmanlı İmperiyası dövrü və Türkiyə Respublikasının qurulmasından götürür. Öz dövrünün ən zəngin dövlətlərindən olan Osmanlı İmperiyasının təbələri digər dövlətlərdə olduğu kimi xoş güzəran ardınca başqa ölkələrə mühacirət etməmişdir.

XV əsrdən sonra Avropa, Asiya və Afrika qitələrində böyük ərazilərə malik olan Osmanlı İmperiyasında türklər nadir hallarda yaşadıqları əraziləri tərk edirdilər. Xarici dövlətlərdə məskunlaşmış türklər yalnız müvəqqəti olaraq (diplomatik fəaliyyət, dövlət qulluğu, əsgəri xidmətlə əlaqədar) vətəndən kənarda yaşayırdılar. Onların çoxu səlahiyyət və ya xidmət müddətləri bitdikdən sonra geri dönmüş, bir qismi isə çalışdıqları dövlətlərdə əlverişli şəraitə malik olduqlarından Vətənə qayıtmamışlar. Bu səbəbdən də tədqiqatçıların bir çoxu türk diaspor tarixini XV əsrdən götürür. Sonralar Osmanlı İmperiyası zəifləsə də türklərin müəyyən bir qismi məskunlaşdıqları ərazilərdə icmalar halında yaşamaqda davam etmişlər.

Avropaya türklərin geniş miqyaslı miqrasiyası isə 1950-ci illərdən başlayır. Bu tarixdən etibarən Avropa kütləvi şəkildə türk mühacirlərini qəbul etmişdir. Ailəvi köç edən ilk türk mühacirlər əməksevərlikləri sayəsində qısa zaman ərzində özlərinə iş tapırdılar. Onlar özləri ilə Avropaya türk ənənələrini, musiqisini gətirmiş, Vətənlə sıx əlaqələrin olmasına baxmayaraq, Avropa mühitinə uyğunlaşa bilmişlər.

Avropanın sosial-iqtisadi həyatının ayrılmaz hissəsi olan bö-

yük türk icması milli ənənələrə riayət edən etnik diasporlardan hesab edilir. Onların əməksevərliyi və işgüzarlığı Avropa dövlətlərinin Türkiyə ilə əmək müqavilələri imzalamasına səbəb olmuşdur. İlk belə müqavilə 1961-ci ildə Almaniya ilə bağlanmışdır. 1964-cü ildə Avstriya, Belçika, Niderland, 1965-ci ildə Fransa ilə də müvafiq sənədlər imzalanmışdır.

Türk diasporunun Avropada ictimai-siyasi fəaliyyəti 1970-ci illərdən başlayır. 1970-80-ci illərdə Almaniyada məqsədyönlü fəaliyyət nəticəsində Avropada türk təşkilatlarının sayı 156-ya çatmışdır. Həmin dövrədək yalnız Avropada 70 türk diaspor təşkilatı fəaliyyət göstərirdi ki, onların da demək olar ki, hamısı Almaniyada təşəkkül tapmışdı.

Türkiyə Xarici İşlər Nazirliyinin 1999-cu ildə yaydığı məlumata görə, xarici ölkələrdə türklərin sayı 4 milyondan çoxdur. Onlar dünyanın 70-dən çox ölkəsində məskunlaşmışlar. Türklərin sayca daha çox olduqları ölkələr aşağıdakılardır: Almaniya (2,5 milyon), ABŞ (450 min), Niderland (285 min), Fransa (275 min), Avstriya (150 min), Belçika (85 min), Danimarka (36 min), Böyük Britaniya (80 min), Norveç (10 min), İsveç (36 min), İsveçrə (80 min), Avstraliya (60 min), Səudiyyə Ərəbistanı (130 min), Liviya (6 min), Küveyt (3500), İsrail (20 min), Cənub-Şərqi Asiya (55 min), Kanada (35 min), İtaliya (15 min), Finlandiya (2 min), İspaniya (850-1000), İordaniya (1600).

Hazırda Almaniyada 3 milyona yaxın türk yaşayır. Bu ölkənin böyük şəhərlərində kompakt halda məskunlaşan türklər müxtəlif sahələrdə çalışır, ictimai-siyasi fəallıq göstərir. Bütün sosial təbəqələrdə təmsil olunan türklər Almaniyanın sosial-iqtisadi inkişafında önəmli rol oynamaqdadırlar.

Avstraliyaya türklərin mühacirət tarixi XX əsrin əvvəllərindən başlayır. 1911-ci ilin statistik məlumatına əsasən həmin dövrdə qitədə cəmi 332 nəfər türk yaşayırdı. 1954-cü ildə isə bu rəqəm 1036 nəfərə çatmışdı. Avstraliya türklərinin əksər hissəsini Kiprdən olanlar təşkil edirdi.

1960-ci ildən başlanan kütləvi türk mühacirəti ilə əlaqədar Türkiyə və Avstraliya arasında "Avstraliyada türklərin mövqeyi və fəaliyyəti haqqında Türkiyə Cümruhiyyəti hökuməti və Avstraliya Millətlər Topluluğu hökuməti arasında razılaşma" adlı əmək müqaviləsi imzalanmışdır. Bu sənəd türk mühacirlərinin Avstraliyaya maneəsiz köçməsinə hüquqi şərait yaradırdı. Nəticədə Avstraliyada türklərin sayı 1971-ci ildə 8 minə çatmışdır.



1880-ci ildən etibarən Kanadaya köçməyə başlayan türklər yalnız 1950-ci ildə diaspor halında təşkilatlanmağa başlamışlar. 2003-cü ilin məlumatına görə hazırda bu ölkədə türklərin sayı 13 minə yaxındır.

Amerikaya türklərin ilk gəlişi XVI-XVII əsrlərə təsadüf etsə də, bu prosesin kütləvi hal alması 1860-ci illərdən etibarən başlamışdır. Zəifləməkdə olan Osmanlı İmperatorluğunda müharibə və yoxsulluqdan əziyyət çəkən vətəndaşların bir çoxu ABŞ-a da üz tutmuşdur.

Rəsmi sənədlərdə 1860-1921-ci illər arasında Amerikaya 1 milyon 200 min nəfərin mühacirət etdiyi bildirilir. Bunların 200 min nəfəri türk və müsəlman, qalanları isə xristian xalqların nümayəndələri olmuşdur. Mühacirlər bu ölkəyə əsasən vaxtilə Osmanlı dövlətinin əraziləri olmuş Suriya, İordaniya və Şimali İraqdan gəlmişdilər. ABŞ Mühacirlər İdarəsinin məlumatına görə 1900-1920-ci illər arasında Türkiyədən bu ölkəyə 391.435 nəfər daxil olmuşdur.

### 3. Azərbaycan və türk diaspor təşkilatları arasında əməkdaşlığı zəruri edən amillər

Hazırda dünyanın müxtəlif ölkələrində milyonlarla azərbaycanlı və türk yaşayır. Bu böyük qüvvənin xalqlarımızın və dövlətlərimizin ümumi maraqlarının müdafiəsinə istiqamətləndirilməsi, Azərbaycan və Türkiyənin beynəlxalq aləmdə siyasi, iqtisadi mövqelərinin daha da möhkəmləndirilməsi, onun intellektual imkanlarından istifadə edilməsi müasir dövrün çağırışıdır.

Dövlətlərimizin etibarlı və sınanılmış strateji müttəfiqliyi Azərbaycan və Türk diaspor təşkilatları arasında əməkdaşlığın daha da fəallaşmasını, müasir tələblər səviyyəsində qurulmasını tarixi zərurətə çevirmişdir.

Azərbaycan və türk diaspor təşkilatları arasında əməkdaşlıq iki qardaş xalqın ortaq milli mənafelərinin, Azərbaycan və Türkiyə dövlətlərinin maraqlarının, xalqlarımızın etnik mənşə, dil, mədəniyyət, tarixi yaxınlığının məntiqi nəticəsi kimi meydana çıxır.

*Azərbaycan və türk diaspor təşkilatları arasında əməkdaşlığı zəruri edən amillər aşağıdakılardır:*

**3.1. Siyasi sahədə**

- Azərbaycan və Türkiyə dövlətlərinin beynəlxalq aləmdə ümumi maraqları;
- Regionda cərəyan edən proseslərlə bağlı Azərbaycan və Türkiyənin mövqelərini şərtləndirən geosiyasi şərait;
- Regionda həyata keçirilən qlobal əhəmiyyətli layihələrin transmilli xarakteri;
- Azərbaycan və Türkiyənin təhlükəsizliyinə qarşı yönəlmiş ümumi təhdidlər;
- Azərbaycan və Türkiyə dövlətləri arasında strateji müttəfiqlik münasibətləri;
- Hər iki ölkənin strateji inkişaf istiqamətlərinin yaxınlığı;
- Hər iki dövlətin digər ölkələrlə bərabərhüquqlu əməkdaşlığa, beynəlxalq sülhün və təhlükəsizliyin təminatına yönəldilmiş səyləri;
- Azərbaycan və Türkiyənin Avropa Birliyinə fəal inteqrasiyası;
- Azərbaycan və Türkiyə ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması işinin təkmilləşdirilməsi zərurəti;
- Azərbaycan və Türk diasporlarının məskunlaşdığı ölkələrin ictimai-siyasi həyatında iştirakının fəallaşdırılması;

**3. 2. İqtisadi sahədə**

- Azərbaycan və Türkiyənin ortaq iqtisadi maraqları;
- Hər iki ölkənin iştirakı ilə həyata keçirilən qlobal əhəmiyyətli layihələr;
- İqtisadi inkişaf modelləri arasındakı oxşarlıqlar, bazar iqtisadiyyatının inkişafı, onun hüquqi əsaslarının təkmilləşdirilməsi, daxili və xarici investisiyaların cəlb olunması istiqamətində səylərin birləşdirilməsi meyli;
- Xarici ölkələrdə fəaliyyət göstərən azərbaycanlı və türk iş adamları arasında əlaqələrin qurulması və onların hər iki ölkənin iqtisadiyyatına cəlb edilməsi zərurəti;



- Azərbaycan və Türk iş adamlarının məskunlaşdığı ölkələrin iqtisadi həyatında mövqelərinin gücləndirilməsi;

**3. 3. Sosial-mədəni sahədə**

- Etnik bağlılıq;
- Vahid dini mənsubiyyət;
- Xarici ölkələrdə yaşayan azərbaycanlıların və türklərin yerli cəmiyyətə inteqrasiyası prosesində meydana çıxan mənəvi-psixoloji maneələr;
- Xarici ölkələrdə yaşayan azərbaycanlıların və türklərin əsas insan hüquqları və əsas azadlıqlarının təminatı;
- Xarici ölkələrdəki azərbaycanlıların və türklərin təşkilatlanma prosesinin sürətləndirilməsi zərurəti;
- Təhsil, milli-mədəni irsin, Ana dilinin öyrənilməsi sahələrində problemlərin birgə həlli, xaricdə təhsil alan azərbaycanlı və türk tələbələr arasında əlaqələrin yaradılmasının vacibliyi.

**4. Azərbaycan və Türk diaspor təşkilatlarının birgə fəaliyyət strategiyasının məqsədi** Azərbaycan Respublikası ilə Türkiyə Cümhuriyyəti arasında strateji tərəfdaşlıq münasibətlərinə əsaslanaraq, diaspor quruculuğu sahəsində əməkdaşlığın dərinləşdirilməsi, hər iki xalqın tarixi, müasir həyatı, sosial-iqtisadi inkişaf səviyyəsi, mədəniyyəti ilə bağlı məlumatların dünya ictimaiyyətinə çatdırmaq, diaspor təşkilatlarının fəaliyyətinin səmərərliliyini artırmaq üçün onların imkanlarını vahid məqsədə doğru istiqamətləndirmək, xarici ölkələrdə məskunlaşmış azərbaycanlıların və türklərin yaşadıqları ölkələrdə ictimai-siyasi proseslərdə iştirak imkanlarını artırmaq, habelə bütün türk xalqları arasında münasibətlərin inkişafına töhfə verməkdən ibarətdir.

**5. Azərbaycan və Türk diaspor təşkilatları arasında əməkdaşlığın prinsipləri:**

- Beynəlxalq hüquq normalarına və bu strategiyanı həyata keçirəcək Azərbaycan və türk icmalarının fəaliyyət göstərdiyi xarici ölkələrin qanunvericilik aktlarının tələblərinə riayət etmək;
- Azərbaycan Respublikası və Türkiyə Cümhuriyyəti arasında strateji tərəfdaşlıq əlaqələrinin inkişafına əməli yardım göstərmək;

- Azərbaycan və Türkiyənin Avropaya inteqrasiya siyasətinə dəstək vermək;
- Azərbaycan və Türk icmalarının fəaliyyətini məqsədyönlü və səmərəli şəkildə əlaqələndirmək, bu sahədə mövcud olan boşluqları aradan qaldırmaq;
- Müasir informasiya texnologiyalarından istifadə etməklə Azərbaycan və Türkiyə haqqında həqiqətləri dünya ictimaiyyətinə çatdırmaq;
- Xarici ölkələrdə məskunlaşmış azərbaycanlıların və türklərin yerli cəmiyyətə inteqrasiyasını sürətləndirmək;
- Azərbaycan və Türk diaspor təşkilatlarının fəaliyyətinin səmərəliliyini artırmaq;
- Azərbaycan və Türk diaspor təşkilatları arasında təcrübə mübadiləsini təmin etmək.

**6. Azərbaycan və Türk diaspor təşkilatlarının birgə fəaliyyət strategiyasının əsas istiqamətləri:**

6.1. Siyasi sahədə. Azərbaycanlıların və türklərin kompakt yaşadığı ölkələrdə ictimai-siyasi fəallığın artırılması məqsədilə səylərin birləşdirilməsi, Azərbaycan və türk icmalarının cəmiyyətdə müəyyən nüfuza malik nümayəndələrinin seçkili orqanlara namizədliyinin birgə irəli sürülməsi və dəstəklənməsi, onların seçki kampaniyalarının təşkili.

6.2. İqtisadi sahədə. Xarici investisiyaların Azərbaycan və Türkiyəyə cəlb olunmasına yardım göstərmək. Bu məqsədlə azərbaycanlı və türk iş adamlarının forumlarının keçirilməsi, xarici sərmayəçilərin Azərbaycan və Türkiyəyə səfərlərinin təşkili.

6.3. Diaspor quruculuğu. Xarici ölkələrdə yaşayan azərbaycanlıların və türklərin təşkilatlanması prosesinə birgə dəstək verilməsi, onların mütəşəkkil, çevik və fəal qüvvəyə çevrilməsinə yardım göstərilməsi.

6.4. Lobbi qucuruluğu. Xarici ölkələrin parlament və hökumət üzvləri, ictimai təşkilatların və siyasi partiyaların nümayəndələri ilə əlaqələrin qurulması, onların Azərbaycana və Türkiyəyə səfərlərinin təşkili, habelə bu istiqamətdəki fəaliyyətin Azərbaycan və Türkiyənin xarici ölkələrdəki diplomatik nümayəndəlikləri ilə birgə məsləhətləşmələr şəklində həyata keçirilməsi.



6.5. Təbliğat sahəsində. Dünya ictimaiyyətində Azərbaycan və Türkiyə haqqında obyektiv rəyin yaradılması, xarici ölkələrdəki kütləvi informasiya vasitələri ilə səmərəli əlaqələrin qurulması, Azərbaycan və Türkiyə ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılmasına xidmət edən kütləvi informasiya vasitələrinin təsis edilməsi.

6.6. 1905-ci il hadisələri ilə əlaqədar erməni iddialarının ifşası istiqamətində. Ermənilərin tarixi həqiqətləri təhrif etdiyinə dair faktların mütəmadi olaraq beynəlxalq ictimaiyyətə çatdırılması, bu barədə kitab, broşur, plakat və digər nəşrlərin çap edilməsi, elmi-publisistik məqalələrin dərci və elmi-praktik konfransların keçirilməsi, Azərbaycan və türk icmalarının birgə təşəbbüsü və dəstəyi ilə sənədli film və sujetlərin xarici ölkələrin telekanallarında yayımına nail olunması.

Türkiyə Respublikası Baş nazirinin 2005-ci ilin aprel ayında irəli sürdüyü təklifə uyğun olaraq 1915-ci il hadisələri ilə əlaqədar erməni tarixçiləri və digər mütəxəssislərdən ibarət qurulacaq Komissiya tərəfindən yalnız Türkiyə və Ermənistandakı deyil, eyni zamanda əlaqədar üçüncü ölkələrdəki arxivlərdə aparılacaq araşdırmaların nəticələrinin beynəlxalq ictimaiyyətə çatdırılması ilə bağlı tədbirlərin həyata keçirilməsi.

6.7. Erməni terroru ilə bağlı dünya ictimaiyyətinin məlumatlandırılması. Ermənilərin türklərə və azərbaycanlılara qarşı tarixin müxtəlif mərhələlərində törətdikləri terror və soyqırım aktları, beynəlxalq terrorizmin tərkib hissəsi olan erməni terror təşkilatlarının fəaliyyəti barədə məlumatların dünya ictimaiyyətinin diqqətinə çatdırılması, alim və tədqiqatçıların bu mövzuda apardığı araşdırmaların nəticələrinin, məqalə və nəşrlərin, kitabların təbliğ olunması və yayılması.

6.8. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması. Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində yaranmış münaqişə ilə bağlı faktların, sənədlərin beynəlxalq ictimaiyyətə çatdırılması istiqamətində birgə səylər göstərilməsi, ermənilərin münaqişə zamanı törətdikləri vəhşiliklər haqqında materialların, audio-vizual təsvirlərin yayılması məqsədilə elmi-praktik konfransların təşkili, bununla əlaqədar siyasi dairələrlə fəal təşviqat işinin

aparılması, yerli qanunvericilik aktları çərçivəsində etiraz aksiyalarının təşkili.

6.9. İşğal olunmuş Azərbaycan ərizələrində mədəni abidələrə qarşı vandalizm aktlarının beynəlxalq miqyasda ifşası. Azərbaycan xalqının tarixi izlərinin məhvinə yönəlmiş məqsədli vandalizm aksiyaları nəticəsində işğal olunmuş ərazilərdə bəşər sivilizasiyasının tərkib hissəsi olan memarlıq abidələri, muzey və məscidlərin, inanc yerlərinin, məbədlərin dağıdılması, qeyri-qanuni arxeoloji qazıntıların aparılması faktlarının dünya ictimaiyyətinə çatdırılması, bu barədə əlaqədar beynəlxalq təşkilatlara müraciətlərin ünvanlanması, kitabların yayılması, fotosərgilərin təşkili, filmlərin nümayiş etdirilməsi.

**7. Azərbaycan və Türk diaspor təşkilatlarının birgə fəaliyyət strategiyasının aşağıdakı regionları əhatə etməsi nəzərdə tutulur:**

**7.1. Avropa regionu üzrə:**

- Azərbaycan və Türkiyə dövlətlərinin Avropaya inteqrasiya siyasətinin dəstəklənməsi;
- Azərbaycan və Türkiyənin Avropa ölkələri ilə ikitərəfli və çoxtərəfli münasibətlərinin inkişafına töhfə vermək;
- Avropanın ictimai-siyasi və iqtisadi həyatının spesifik xüsusiyyətlərini nəzərə alan birgə fəaliyyət mexanizminin qurulması;
- Avropa ölkələrində azərbaycanlıların və türklərin sıx yaşadığı bölgələrdə onların siyasi fəallığının artırılması;
- Azərbaycanlıların və türklərin seçkili orqanlarda, dövlət və biznes strukturlarında təmsil olunmasına nail olmaq üçün səylərin birləşdirilməsi;
- Avropa ölkələrində Ermənistanın Azərbaycana təcavüzünün nəticələri, Azərbaycan ərazilərinin işğalı zamanı törədilmiş terror və soyqırımı aktları, qondarma «erməni soyqırımı» iddiaları ilə bağlı obyektiv ictimai rəyin formalaşdırılması.

**7.2. Amerika Birləşmiş Ştatları və Kanada üzrə:**

- Azərbaycan və Türkiyənin ABŞ-la münasibətlərinin inkişafına dəstək verilməsi;



- ABŞ və Kanadada yaşayan azərbaycanlıların və türklərin təşkilatlanması prosesinə dəstək verilməsi;
- Türk diasporunun dəstəyi ilə ABŞ-dakı Azərbaycan icmalarının vahid mərkəzdə birləşməsinə nail olunması;
- ABŞ və Kanadadakı Azərbaycan və Türk icmaları ilə əlaqələrin qurulması, onların ictimai-siyasi həyata təsir imkanlarının genişləndirilməsi məqsədilə tədbirlərin həyata keçirilməsi;
- Azərbaycan və Türk diasporunun ABŞ və Kanadanın siyasi həyatına təsir imkanlarının artırılması;
- Ermənilərin azərbaycanlılara və türklərə qarşı törətdiyi terror və soyqırımı aktları barədə Amerika və Kanada ictimaiyyətinin məlumatlandırılması məqsədilə müxtəlif kampaniyaların təşkili;
- Erməni lobbisinin və diasporunun Azərbaycan və Türkiyə əleyhinə apardığı təbliğatın qarşısının alınması məqsədilə birgə tədbirlərin görülməsi;
- Seçkili orqanlarda, habelə dövlət və hökumət strukturlarında azərbaycanlıların, yaxud türklərin təmsil olunması üçün səylərin birləşdirilməsi;
- ABŞ və Kanadanın siyasi dairələri ilə işgüzar münasibətlərin yaradılması;
- Hər il ABŞ və Kanada parlamenti üzvlərinin (Amerikada yaşayan türklərin və azərbaycanlıların onların seçiciləri olduğunu xatırlatmaq şərtilə), siyasət və dövlət adamları, tanınmış ictimai xadimlərə Ermənistanın Azərbaycana təcavüzü, Türkiyəyə ərazi iddiaları, erməni terrorizmi, türklərə və azərbaycanlılara qarşı törədilmiş soyqırımı aktları barədə məlumatlandırılması və bu hadisələrə siyasi qiymət verilməsinin zəruriliyinin diqqətə çatdırılması;
- İslam dini və onun təlqin etdiyi mənəvi dəyərlər haqqında son vaxtlar genişlənmiş yalnış təsəvvürlərin aradan qaldırılması məqsədilə yerli ictimaiyyət arasında maarifləndirmə işinin aparılması.

**7.3. MDB regionu üzrə:**

- Azərbaycan və Türkiyənin regionda mövqelərinin möhkəmləndirilməsinə töhfə vermək məqsədilə səylərin birləşdirilmə;

- MDB məkanında yerləşən türkdilli ölkələr arasında əlaqələrin inkişaf etdirilməsinin dəstəklənməsi;

- Transregional layihələrin iqtisadi və siyasi əhəmiyyətinin təbliğində Azərbaycan və türk diaspor təşkilatlarının fəal iştirakına nail olunması;

- Regionda yaşayan türkdilli xalqların problem və qayğıları barədə dünya ictimaiyyətinin məlumatlandırılması;

- Gürcüstan azərbaycanlılarının problemlərinin həlli istiqamətində birgə tədbirlərin görülməsi, ortaq layihələrin işlənib hazırlanması;

- Türkdilli xalqların yaşadığı ərazilərdəki münaqişələrin ədalətli həlli istiqamətində səy göstərilməsi;

- Türkdilli ölkələrin sosial-iqtisadi və siyasi inkişafı prosesinə töhfə vermək məqsədilə tədbirlərin görülməsi;

- Türk xalqları arasında mədəni, siyasi və iqtisadi əlaqələrin dərinləşdirilməsi.

**7.4. Asiya və Afrika ölkələri üzrə:**

- Regionda yaşayan türkdilli xalqlar arasında qarşılıqlı əlaqələrin qurulması;

- Regionda yaşayan azərbaycanlıların və türklərin təşkilatlanması prosesinə dəstək verilməsi;

- Azərbaycan və Türk icmaları arasında əlaqələrin daha da möhkəmləndirilməsi;

- Azərbaycan icmalarının fəal olduğu ölkələrdə Türkiyənin milli maraqlarının və burada məskunlaşmış türklərin hüquq və azadlıqlarının müdafiəsi;

- Türk icmalarının fəal olduğu ölkələrdə Azərbaycanın milli maraqlarının və burada məskunlaşmış azərbaycanlıların hüquq və azadlıqlarının müdafiəsi;

- Asiya ölkələrində yaşayan türk xalqlarının, xüsusilə də İraq türkmənlərinin problemlərinin daim diqqət mərkəzində saxlanılması;

- Azərbaycan və Türk diaspor təşkilatları tərəfindən İraq türkmənlərinə davamlı mənəvi və siyasi dəstəyin göstərilməsi;

- İraq Türkmən Cəbhəsinin Bakı nümayəndəliyinin açılması təşəbbüsünün dəstəklənməsi;



- İraq türkmənlərinə tibbi yardımların göstərilməsi məqsədilə birgə yardım kampaniyalarının təşkili;

- İraq türkmənlərinin yaşadığı ərazilərdə yerləşən orta ümumtəhsil məktəblərinə ünvanlı kömək göstərilməsi;

- Telafər qaçqınlarına ərzaq, tibbi və digər yardımların göstərilməsi üçün birgə kampaniyaların təşkili;

- İraq türkmənlərinin Ana dilində ədəbiyyat və dərsliklərlə təmin edilməsi, onların milli-mənəvi dəyərlərinin qorunmasına yardım etmək məqsədilə mədəni-kütləvi tədbirlərin keçirilməsi;

- Kərkükdə yaradılması nəzərdə tutulmuş Füzuli Universitetinin təşkilinə maddi-texniki dəstəyin verilməsi;

- Türkmən televiziyalarına maddi yardımların göstərilməsi məqsədilə iş adamlarının bu telekanallarla reklam sahəsində işbirliyi qurmağa təşviq edilməsi.

**7.5. Avstraliya regionu üzrə:**

- Regionda yaşayan azərbaycanlıların və türklərin təşkilatlanması prosesinin sürətləndirilməsi;

- Azərbaycan və Türk icmaları arasında əməkdaşlıq əlaqələrinin qurulması;

- Azərbaycanlıların və türklərin yerli cəmiyyətə inteqrasiyası sahəsində mövcud olan problemlərin həlli məqsədilə səylərin birləşdirilməsi.

**7.6. Mərkəzi və Cənubi Amerika ölkələri üzrə:**

- Region ölkələrində yaşayan azərbaycanlı və türklərin sayının azlığını və ictimai fəallığının zəif olduğunu nəzərə alaraq birgə Azərbaycan-Türk icmalarının yaradılması;

- Digər regionlarda fəaliyyət göstərən Azərbaycan və türk icmaları ilə Mərkəzi və Cənubi Amerika ölkələrində yaşayan azərbaycanlılar və türklər arasında əlaqələrin qurulması.

**8. Azərbaycan və Türk diaspor təşkilatlarının Koordinasiya Şurasının yaradılması:**

- Koordinasiya Şurasının üzvləri xarici ölkələrdə fəaliyyət göstərən Azərbaycan və türk icmalarının rəhbərləri arasından seçilir;

- Koordinasiya Şurasına Azərbaycan Respublikasının və Türkiyə Respublikasının müvafiq dövlət orqanının hər birindən bir nəfər olmaqla məşvərətçi statusu ilə üzv seçilir;

- Koordinasiya Şurasına digər türk xalqlarının diaspor təşkilatlarının nümayəndələri də bərabərhüquqlu və məşvərətçi səslə üzv seçilə bilərlər;

- Şura bu strategiyada nəzərdə tutulmuş tədbirlərin həyata keçirilməsini əlaqələndirir, Azərbaycan və Türk diaspor təşkilatları rəhbərlərinin növbəti forumuna qədər görülmüş işlər haqqında hesabat hazırlayır;

- Şuraya üzvlük açıqdır və könüllülük prinsipinə əsaslanır;

- Şuranın işini təşkil etmək, üzvlərin fəaliyyətini əlaqələndirmək məqsədilə həmsədrlik institutu yaradılır:

- Azərbaycan və Türk diaspor təşkilatlarının rəhbərlərinin forumlarında Şuraya 2 həmsədr seçilir;

- Həmsədrlər rotasiya qaydası ilə müvafiq olaraq Avropa, Amerika, Asiya, MDB regionlarında fəaliyyət göstərən Azərbaycan və Türk diaspor təşkilatlarının rəhbərləri arasından seçilir;

**9. Azərbaycan və Türk diaspor təşkilatları bu strategiyada müəyyən edilmiş prinsiplər əsasında Koordinasiya Şurasının dəstəyi ilə müxtəlif sahələr üzrə yaxından əməkdaşlıq edəcəklər.**

**9.1. Siyasi sahədə** Azərbaycan və Türk diaspor təşkilatlarının birgə fəaliyyəti Azərbaycan və Türkiyə dövlətlərinin maraqlarının təmin olunması, xarici ölkələrdə yaşayan azərbaycanlıların və türklərin yaşadıqları ölkələrin ictimai-siyasi həyatında iştirak səviyyəsinin artırılmasına xidmət edəcəkdir.

Bu fəaliyyət aşağıdakıları nəzərdə tutur:

- Azərbaycan və Türkiyənin ortaq strateji maraqları, regiondakı əhəmiyyəti ilə bağlı birgə elmi-praktik konfransların təşkili;

- Azərbaycan və Türkiyənin qarşılaşdığı hərbi və siyasi xarakterli problemlərlə bağlı dünya ictimaiyyətinin obyektiv məlumatlandırılması məqsədilə birgə tədbirlərin keçirilməsi;

- Türkiyənin Avropa Birliyinə üzvlük məsələsində yaradılan süni problemlərin aradan qaldırılması üçün diaspor təşkilatlarının səylərinin birləşdirilməsi, birgə təbliğat kampaniyalarının aparılması, Türkiyənin Avropa Birliyi ölkələrində daha yaxından tanınmasına xidmət edən forum və konfransların təşkili;

- Azərbaycan Respublikası və Türkiyə Respublikasının dövlət və hökumət rəhbərlərinin xarici ölkələrə səfərləri zamanı diaspor təşkilatları nümayəndələri ilə görüşlərinin təşkili;

- Şimali Kiprin təcriddən çıxarılması istiqamətində Azərbaycan və Türkiyənin birgə səylərini dəstəkləmək məqsədilə təbliğat işinin aparılması;

- Azərbaycan və Türk diaspor təşkilatları rəhbərlərinin Şimali Kiprə səfərlərinin təşkili;

- İraq türkmənlərinin qarşılaşdığı problemlərin dünya ictimaiyyətinin diqqətinə düzgün və operativ çatdırılması;

- Gürcüstan azərbaycanlılarının ictimai-siyasi həyatda iştirak və hakimiyyət strukturlarında təmsilçilik imkanlarının genişləndirilməsinə dəstək verilməsi, onların problemlərinin diqqət mərkəzində saxlanılması;

- Azərbaycanlıların və türklərin məskunlaşdıqları ölkələrdə cəmiyyətə inteqrasiyasının sürətləndirilməsi məqsədilə müvafiq tədbirlərin görülməsi;

- Azərbaycanlıların və Türklərin sıx yaşadığı ölkələrdə ictimai-siyasi proseslərə təsir imkanlarını artırmaq üçün birgə fəaliyyət göstərilməsi, qarşılıqlı məsləhətləşmələrin aparılması, seçki və referendumlarda azərbaycanlıların və türklərin fəal iştirakının təmin olunması;

- Seçkili orqanlara namizədlərin qarşılıqlı olaraq müəyyənləşdirilməsi, irəli sürülməsi və müdafiəsi üçün birgə təşəbbüslə çıxış edərək təşviqat kampaniyalarının keçirilməsi;

- Seçkili orqanlarda təmsil olunan azərbaycanlı və türk siyasətçilərin fəaliyyətinin dəstəklənməsi, onlara hərtərəfli yardım göstərilməsi;

- Azərbaycanlılar və türklərin yaşadıqları ölkələrin ictimai-siyasi təşkilatlarında təmsilçiliyinin artırılması;

- Koordinasiya Şurasının dəstəyi ilə xarici ölkələrdə fəaliyyət göstərən azərbaycanlı və türk siyasət adamlarının, seçkili orqanlarda təmsil olunan şəxslərin siyahısının hazırlanması və nəşr edilməsi.

**9.2. İqtisadi və sosial sahədə** Azərbaycan və Türk diaspor təşkilatlarının birgə fəaliyyəti Azərbaycan və Türkiyə dövlətlərinin iqtisadi mənafelərinin təmin olunmasına, Vətəndən kənarda məskunlaşmış azərbaycanlı və türk iş adamları arasında qarşılıqlı əlaqələrin qurulmasına xidmət edəcəkdir.

Bu sahədə aşağıdakılar nəzərdə tutulur:

- Azərbaycan və Türkiyənin iqtisadi imkanları və inkişaf perspektivləri ilə bağlı dünya ictimaiyyətinin məlumatlandırılması prosesində fəal iştirak;
- Azərbaycanlı və türk iş adamları arasında işgüzar əlaqələrin qurulması istiqamətində səylərin artırılması;
- Xarici ölkələrdəki türk iş adamları birliklərinin toplantılarında azərbaycanlı iş adamlarının da iştirakına nail olmaq məqsədilə Azərbaycan və Türk icmalarının Koordinasiya Şurası tərəfindən müvafiq tövsiyələrin hazırlanması;
- Azərbaycan və Türk iş adamlarının birgə iqtisadi forumlarının təşkili;
- Xarici ölkələrdə yaşayan Azərbaycanlı və Türk İş Adamlarının Məşvərət Şurasının yaradılması;
- Azərbaycanlı və türk iş adamlarının Azərbaycan və Türkiyə iqtisadiyyatına sərmayə qoymağa təşviq edilməsi məqsədilə hər iki ölkəyə səfərlərinin təşkili, birgə iqtisadi və biznes forumlarının keçirilməsi;
- Azərbaycanlı və Türk iş adamlarının türk xalqlarının kompakt halda yaşadığı regionlara, o cümlədən İraqın Kərkük, Gürcüstanın Borçalı bölgələrinin, habelə Şimali Kiprin iqtisadiyyatına sərmayə qoymağa təşviq edilməsi;
- Xarici ölkələrin iş adamlarının Azərbaycana və Türkiyəyə işgüzar səfərlərinin təşkili;
- Xarici ölkələrdə yaşayan azərbaycanlı və türk iş adamları haqqında məlumat kitabçasının hazırlanması və nəşr edilməsi;
- Azərbaycandakı məcburi köçkünlərə, habelə İraq türkmənlərinə yardım edilməsi məqsədilə birgə kampaniyaların keçirilməsi;
- Azərbaycan və Türkiyədə qocalar və uşaq evlərinə, əlillərə yardım məqsədilə kampaniyaların təşkili;



**9.3. Mədəniyyət və turizm sahəsində** Azərbaycan və Türk diaspor təşkilatlarının birgə fəaliyyəti Azərbaycan və Türk xalqlarının zəngin mədəniyyətinin dünya miqyasında təbliğinə nail olmaq, ölkələrimizin turizm sahəsində imkanları barədə beynəlxalq ictimaiyyəti məlumatlandırmaq, Azərbaycanla Türkiyə arasında əlaqələrin inkişafına töhfə vermək məqsədinə xidmət edəcəkdir.

Bu məqsədlə aşağıdakı tədbirlər həyata keçiriləcəkdir:

- Azərbaycan və Türkiyənin müvafiq dövlət orqanlarının dəstəyi, habelə Azərbaycan və Türk icmalarının təşkilatçılığı ilə Azərbaycan və Türk xalqlarının qədim tarixinin, zəngin mədəni irsinin təbliği üçün birgə mədəni-kütləvi tədbirlərin - konsert proqramlarının, musiqi festivallarının, mədəniyyət günlərinin, rəsm sərgilərinin, Azərbaycan və ya Türk kinosu günlərinin təşkili;
- Müxtəlif ölkələrdə Azərbaycan və Türk mədəniyyəti günlərinin keçirilməsi;
- Müxtəlif ölkələrdə keçirilən Azərbaycan və ya Türk mədəniyyəti günlərində hər iki diasporun fəal iştirakının təmin olunması;
- Xarici ölkələrdə yaşayan nüfuzlu azərbaycanlı və türk mədəniyyət xadimləri arasında əlaqələrin qurulması;
- Azərbaycan və Türk xalqlarının tarixini və mədəniyyətini əks etdirən muzeylərin yaradılması;
- Dünyanın nüfuzlu muzeylərində Azərbaycan və Türk xalqlarının tarixi və mədəniyyəti haqqında eksponatları özündə əks etdirən guşələrin təşkil edilməsi;
- Beynəlxalq mədəniyyət festivallarında Azərbaycan və Türkiyənin layiqincə təmsil olunması üçün qarşılıqlı yardımlar göstərilməsi;
- Azərbaycanlı və türk rəssamlarının birgə sərgilərinin təşkili;
- Xalqlarımızın ortaq milli-mənəvi və mədəni dəyərləri mövzusuna həsr olunmuş birgə elmi-praktik konfransların və mədəni-kütləvi tədbirlərin təşkili;
- Azərbaycan və Türk mədəniyyətini təbliğ edən materialların xarici kütləvi informasiya vasitələrində yayımına nail olmaq

istiqamətində səylərin birləşdirilməsi;

- Qeyri-türk dövlətlərinin ərazisində kompakt halda öz tarixi torpaqlarında yaşayan türk xalqları (İraq, Gürcüstan) ilə mədəniyyət və təhsil sahəsində əməkdaşlığın inkişafı, onların mədəni irsinin qorunub saxlanılmasına yardım göstərilməsi;
- Azərbaycan və Türkiyənin tarixinə dair materialların - məqalə, monoqrafiya və kitabların yayılmasına nail olmaq, birgə elmi-praktik konfranslar keçirmək, sənədli və bədii filmlərin xarici dillərə tərcümə edilərək nüfuzlu telekanallar vasitəsilə nümayiş etdirilməsi istiqamətində tədbirlər görmək;
- Yerli televiziya kanallarında Azərbaycan və türk xalqlarının mədəniyyətindən bəhs edən filmlərin nümayiş etdirilməsi;
- Azərbaycan və Türk xalqlarının mədəniyyətinə həsr olunmuş elmi-praktik konfransların və simpoziumların təşkili;
- 25 noyabrın bütün dünyada Türklük günü elan olunması (Orxon-Yenisey mətnlərində ilk söz - «Tenqri» - Tanrı sözü 1893-cü il noyabrın 25-də oxunmuşdur), bu barədə Koordinasiya Şurası tərəfindən tədbirlərin təşkil edilməsi;
- Hər il Türklük günü ərəfəsində türkçülüyün təbliğində fəal iştirak etmiş elm, mədəniyyət və ictimai xadimlərin dövlət mükafatları ilə təltif olunması məqsədilə təkliflərin hazırlanması;
- Azərbaycanın və Türkiyənin görkəmli elm və mədəniyyət xadimlərinin yubileylərinin birgə qeyd edilməsi;
- Azərbaycan və Türkiyə ilə dünyanın müxtəlif ölkələri arasında mədəni sahədə əməkdaşlığın inkişafına töhfə vermək məqsədilə birgə mədəni-kütləvi tədbirlərin təşkili;
- Azərbaycan və Türkiyə şəhərləri ilə dünyanın müxtəlif iri şəhərləri arasında qardaşlaşma və əməkdaşlıq müqavilələrinin imzalanması məqsədilə birgə tədbirlərin həyata keçirilməsi;
- Azərbaycan və Türkiyənin turizm imkanlarını təbliğ etmək məqsədilə azərbaycanlı və türk iş adamlarını cəlb etməklə birgə turizm sərgilərinin keçirilməsi;
- Azərbaycan və Türkiyənin turizm imkanlarını nümayiş etdirən xüsusi kataloqların, broşur və jurnalların nəşri;
- Turizm sahəsində çalışan azərbaycanlı və türk iş adamları arasında əlaqələrin qurulmasına nail olmaq məqsədilə onların görüşlərinin təşkil edilməsi;



- Azərbaycan və Türk icmaları təmsilçilərinin, habelə digər millətlərin nümayəndələrinin Azərbaycana və Türkiyəyə turist səfərlərinin təşkili.

**9.4. Diaspor quruculuğu sahəsində** Azərbaycan və Türk diaspor təşkilatlarının birgə fəaliyyəti Azərbaycan və Türkiyə respublikalarının diaspor quruculuğu sahəsində dövlət siyasətinin həyata keçirilməsinə, icmalar arasında təcrübə mübadiləsinin genişləndirilməsinə xidmət edəcəkdir.

Bu sahə aşağıdakı tədbirləri nəzərdə tutur:

- Xarici ölkələrdə yaşayan azərbaycanlıların və türklərin təşkilatlanmasının dəstəklənməsi;
- Azərbaycan və Türk diaspor təşkilatları arasında diaspor quruculuğu sahəsində təcrübə mübadiləsinin aparılması;
- Azərbaycan və türk icmaları daxilində inteqrasiya prosesinin sürətləndirilməsinə yardım göstərilməsi;
- Azərbaycan və Türkiyənin müvafiq dövlət orqanları ilə birlikdə təşkilatlanma sahəsində mövcud olan problemlərin araşdırılması və çıxış yollarını əks etdirən təkliflər paketinin hazırlanması;
- Azərbaycan və Türk diaspor təşkilatlarının əməkdaşlığının zəruriliyi barədə maarifləndirmə və təbliğat işinin aparılması.

**9.5. Lobbi quruculuğu sahəsində** Azərbaycan və Türk diaspor təşkilatlarının birgə fəaliyyəti Azərbaycan və Türkiyənin milli maraqlarının təmin olunmasına, xarici ölkələrdə güclü lobbinin formalaşdırılmasına yönəldiləcəkdir.

Bu sahə aşağıdakıları nəzərdə tutur:

- Lobbi quruculuğu sahəsində qarşılıqlı faydalı əməkdaşlığın inkişaf etdirilməsi, təcrübə mübadiləsinin aparılması;
- Azərbaycanlı və türk seçicilərin yaşadıqları ölkələrdə təsirli siyasi amilə çevrilməsinin təmin edilməsi;
- Xarici ölkələrdə yaşayan azərbaycanlıların və türklərin siyasi fəallığının artırılmasına nail olmaqla seçkili orqanlara Azərbaycan və Türkiyəyə xoş münasibəti olan namizədlərin seçki kampaniyalarına birgə dəstək verilməsi;

- Xarici ölkələrin parlament və hökumət üzvləri, dövlət orqanlarının rəhbərləri ilə əlaqələr yaratmaq və bu sahədə qarşılıqlı faydalı əməkdaşlıq;

- Xarici ölkələrin parlament və hökumət üzvlərinin, dövlət orqanları təmsilçilərinin Azərbaycana və Türkiyəyə səfərlərinin təşkili;

- Türk dünyası ilə bağlı tədqiqatlar aparan elm adamları və KİV nümayəndələri ilə əlaqələr qurmaq, onların Azərbaycana və Türkiyəyə səfərlərinin təşkil edilməsi;

- Xarici ölkələrin siyasi partiyalarının rəhbərliklərində təmsil olunan şəxslərlə işgüzar əlaqə yaratmaq, onlarla Azərbaycan və Türk icmaları nümayəndələrinin görüşlərinin təşkili;

- Ayrı-ayrı ölkələrdəki siyasi xadimlərin, parlament və hökumət üzvlərinin, dövlət məmurlarının, elm adamlarının, habelə KİV nümayəndələrinin Azərbaycan və Türk icmalarında təmsil olunması üçün birgə fəaliyyət göstərilməsi;

- Azərbaycan və Türkiyə ilə yaxşı münasibətlərə malik digər xalqların diaspor təşkilatları ilə birgə əməkdaşlıq edilməsi.

**9.6. Təbliğat sahəsində** Azərbaycan və Türk diaspor təşkilatlarının birgə fəaliyyəti informasiya məkanında Azərbaycan və Türkiyənin milli maraqlarının qorunmasına, ölkələrimiz və xalqlarımız haqqında obyektiv rəyin formalaşdırılmasına, türk xalqlarının məruz qaldıqları haqsızlıqların dünya ictimaiyyətinə çatdırılmasına xidmət edəcəkdir.

Bu sahə aşağıdakı vəzifələri əhatə edir:

- Fəaliyyəti Azərbaycan və Türk diaspor təşkilatlarının Koordinasiya Şurası tərəfindən əlaqələndirilən və uzunmüddətli strateji fəaliyyət proqramına malik müştərək informasiya bürolarının yaradılması və onların zəruri məlumatları özündə əks etdirən materiallarla təmin edilməsi;

- Diaspor təşkilatlarının informasiya bazasının zənginləşdirilməsi istiqamətində daha intensiv iş aparılması, icmaların Azərbaycanın və Türkiyənin mədəniyyəti, tarixi, xalqlarımızın yaşadığı faciələr haqqında sənədlər, arxiv materialları, sənədli və bədii filmlər və s. ilə təmin edilməsi;

- Azərbaycan və Türkiyə həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılmasında müasir üsullardan, hər ölkənin öz mədəniyyətinə uyğun təbliğat texnologiyalarından istifadə etmək;

- Xarici ölkələrin kütləvi informasiya vasitələrində Azərbaycan və Türkiyə ilə bağlı həqiqətlərin obyektiv şəkildə işıqlandırılması üçün səylərin birləşdirilməsi;

- Xarici ölkələrin kütləvi informasiya vasitələri nümayəndələri ilə əlaqələrin qurulması, onların Azərbaycana və Türkiyəyə səfərlərinin təşkili;

- Azərbaycan və Türk xalqlarının məruz qaldıqları terror və soyqırımı aktları ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması;

- Xarici dillərdə Azərbaycan və Türkiyə haqqında məlumatları özündə əks etdirən yeni kütləvi informasiya vasitələrinin təsis edilməsi, İnternet saytlarının yaradılması;

- Azərbaycanlı və Türk iş adamlarının maliyyə dəstəyi, Azərbaycan və Türk icmalarının birgə təsisçiliyi ilə Avropa ölkələrinin birində Azərbaycan və Türkiyənin ictimai-siyasi həyatı, iqtisadi inkişaf perspektivləri, onların Qərbə inteqrasiyası ilə bağlı təhlillər aparan peşəkar araşdırma mərkəzinin yaradılması;

- Azərbaycan və Türk icmalarının təsis etdiyi kütləvi informasiya vasitələri arasında, eləcə də onların Türkiyə və Azərbaycan mətbuatı ilə əməkdaşlıq əlaqələrinin inkişaf etdirilməsi;

- Azərbaycan və Türkiyənin tarixi, mədəniyyəti, ədəbiyyatı, ictimai-siyasi və sosial-iqtisadi həyatı haqqında məlumatları özündə əks etdirən nəşrlərinin xarici ölkələrdə yayılması;

- Xarici ölkə yazıçılarının və alimlərinin Azərbaycan və Türkiyə haqqında əsərlərinin yayılması və təbliği;

- Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi və qondarma «erməni soyqırımı» ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması;

- Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı həqiqətləri özündə əks etdirən təbliğat materiallarının - filmlərin, kitabların, audio-vizual materialların yayılması;

- Ermənistanın Azərbaycana təcavüzünün faciəli nəticələrindən bəhs edən rəsm, film və foto sərgilərin təşkil edilməsi;

- Beynəlxalq təşkilatların mərkəzi qərargahları və xarici ölkələrdəki nümayəndəlikləri qarşısında Ermənistanın işğalçılıq si-

yasətinə qarşı birgə etiraz aksiyalarının təşkili;

- Nüfuzlu beynəlxalq təşkilatlara və xarici ölkələrin parlamentlərinə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı materialların operativ və müntəzəm olaraq təqdim edilməsi;

- Xarici televiziya kanallarında Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı həqiqətləri özündə əks etdirən filmlərin nümayiş etdirilməsinə nail olunması;

- Dünya ictimaiyyətinin ermənilərin Azərbaycan ərazilərində törətdikləri terror və soyqırım aktları, o cümlədən Xocalı soyqırımı haqqında məlumatlandırılması məqsədilə təbliğat sahəsində səylərin birləşdirilməsi;

- Ermənistanın Azərbaycana təcavüzü nəticəsində yurd-yuvalarından didərgin düşmüş qaçqın və məcburi köçkünlərin problemləri ilə bağlı məlumatların dünya ictimaiyyətinə çatdırılması;

- Xarici KİV nümayəndələrinin Azərbaycandakı qaçqın düşərgələri və döyüş bölgələrindəki vəziyyətlə tanış etmək məqsədilə səfərlərinin təşkili;

- Türkiyəyə qarşı bədnam «erməni soyqırımı» iddialarının ifşa edilməsi məqsədilə səylərin birləşdirilməsi;

- Qondarma «erməni soyqırımı» iddiaları ilə bağlı əsl həqiqətləri öz tədqiqatlarında üzə çıxarmış xarici ölkə alimlərinin məruzələri əsasında konfransların, elmi simpoziumların təşkili;

- Xarici ölkələrin parlamentlərinin «erməni soyqırımı» ilə bağlı qəbul etdiyi qərarlara etiraz olaraq birgə aksiyaların keçirilməsi;

- Azərbaycan və türk icmalarının fəaliyyət göstərdiyi ölkələrdə parlament və hökumət üzvləri, dövlət və siyasət adamları, elm xadimlərinə, kütləvi informasiya vasitələrinə, kitabxanalara Azərbaycan və Türk xalqlarının tarixi, mədəniyyəti, müasir həyatı, Ermənistanın terror, işğalçılıq və soyqırımı siyasəti ilə bağlı ədəbiyyatların göndərilməsinin təşkili;

- Türk xalqlarının tarixi, mədəniyyəti və müasir həyatı barədə dünya ictimaiyyətini daha dolğun məlumatlandırmaq məqsədilə mərkəzi Avropada olmaq şərtilə tərkibində muzey, rəsm qaleriyası və kitabxananı birləşdirən Türk Xalqlarının Mədəniyyət və Tarix Fondunun yaradılması üçün xüsusi layihənin hazırlanması və onun həyata keçirilməsi (Azərbaycan və Türkiyə respublikalarının müvafiq dövlət orqanlarının və qeyri-hökumət təşkilatlarının, habelə azərbaycanlı və türk iş adamlarının yardımı ilə), fondun dünyanın böyük şəhərlərində filiallarının yaradılması;

- Erməni diasporunun qondarma «erməni soyqırımı» iddiaları ilə bağlı hər il aprel ayının 24-də keçirdiyi etiraz aksiyaları zamanı əsil həqiqətləri özündə əks etdirən erməni terrorçuları tərəfindən törədilmiş soyqırımı aktları haqqında rəsm, film və foto sərgilərin nümayiş etdirilməsi;

- Azərbaycan və Türk icmaları Koordinasiya Şurasının təşkilatçılığı ilə hər il müəyyən edilmiş konkret bir tarixdə, eyni saatda Ermənistanın Azərbaycana təcavüzü və qondarma «erməni soyqırımı» iddiaları ilə bağlı Azərbaycan və Türk icmalarının birgə etiraz aksiyalarının təşkili;

- Hər il bir neçə dəfə xarici ölkələrin, xüsusilə də ATƏT-in Minsk Qrupunun üzvü olan dövlətlərin Azərbaycan və Türkiyədəki səfirliklərinə, habelə beynəlxalq təşkilatlardakı nümayəndəliklərinə Ermənistanın Azərbaycana təcavüzü, 1915-ci il hadisələri ilə bağlı erməni iddialarının əsassızlığı, erməni terrorizmi, azərbaycanlılara və yəhudilərə qarşı ermənilər tərəfindən törədilmiş soyqırımı aktları barədə materiallar təqdim etmək;

- Ermənistanın digər ölkələrə (məsələn Gürüstana) qarşı ərazi iddiaları ilə bağlı beynəlxalq ictimaiyyətin məlumatlandırılması;

- Ermənilərin digər xalqlara - yəhudilərə, ləzgilərə, avarlara, talışlara, kürdlərə qarşı törətdikdləri soyqırımı aktları barədə dünya ictimaiyyətinin məlumatlandırılması, bu barədə sənədlərin və materialların yəhudi diaspor təşkilatlarına təqdim edilməsi;

- Erməni terrorçuları tərəfindən 1918-1919-cu illərdə Azərbaycanın müxtəlif bölgələrində, xüsusilə Qubada dağ yəhudilərinə qarşı törədilmiş soyqırımı aktları qurbanlarının xatirəsinin əbədiləşdirilməsi məqsədilə birgə tədbirlərin həyata keçirilməsi.

**9.7. İnsan hüquq və azadlıqlarının təminatı sahəsində** Azərbaycan və Türk diaspor təşkilatlarının birgə fəaliyyəti xarici ölkələrdə yaşayan azərbaycanlı və türklərin insan hüquq və azadlıqla-

rının qorunması sahəsində mövcud olan problemlərin aradan qaldırılması üçün səylərin birləşdirilməsinə xidmət edir.

Bu fəaliyyət aşağıdakıları nəzərdə tutur:

- Xarici ölkələrdə yaşayan azərbaycanlı və türklərin hüquq və azadlıqların müdafiəsi sahəsində mövcud olan problemlərin müəyyən edilməsi və onların aradan qaldırılması istiqamətində təkliflərin hazırlanması;
- Azərbaycanlıların və türklərin hüquqlarının müdafiəsi sahəsində hakimiyyət orqanları ilə əməkdaşlıq əlaqələrinin qurulması;
- Hüquqi maarifləndirmə işinin səmərəli təşkili məqsədilə birgə hüquq-müdafiə mərkəzlərinin yaradılması;
- Xarici ölkələrə miqrasiya etmiş azərbaycanlıların və türklərin pasport-qeydiyyat, viza ilə bağlı məsələlərinin, işlə təmin olunması sahəsində meydana çıxan çətinlik və problemlərinin həllində qarşılıqlı faydalı əməkdaşlıq;
- Xarici ölkələrdə vətəndaşlıq, pasport-qeydiyyat məsələləri, miqrantların hüquq və azadlıqları ilə bağlı məlumatları özündə əks etdirən informasiya bülletenlərinin və broşurların nəşr edilməsi;
- Azərbaycanlıların və türklərin xarici ölkələrdə insan hüquq və azadlıqlarının təminatı ilə bağlı məlumatların toplanılması və operativ yardımların göstərilməsi məqsədilə qaynar xəttin yaradılması;
- Qeyri-türk dövlətlərinin ərazisində kompakt halda öz tarixi torpaqlarında yaşayan türk xalqlarının (İraq, Gürcüstan) hüquq və azadlıqlarının qorunması işinə dəstək verilməsi;

**9.8. Gənclərlə iş və təhsil sahəsində** Azərbaycan və Türk diaspor təşkilatlarının birgə fəaliyyəti xarici ölkələrdə yaşayan və təhsil alan azərbaycanlı və türk gənclərin potensialından daha səmərəli şəkildə istifadə etmək məqsədinə xidmət edir.

Bu fəaliyyət aşağıdakıları nəzərdə tutur:

- Dünyanın nüfuzlu ali təhsil ocaqlarında təhsil alan azərbaycanlı və türk tələbələrin siyahısını hazırlamaq, onlarla əlaqələr yaratmaq;
- Azərbaycanlı və türk gənclərin təhsil sahəsində meydana çıxan problemlərinin həllində birgə səylərin göstərilməsi;
- Avropada təhsil alan Azərbaycanlı və türk gənclərin birgə forumunun keçirilməsi;
- Təhsil aldıqları Universitetlərdə yüksək göstəricilər əldə etmiş azərbaycanlı və türk tələbələrə təqaüdlər ayrılması məqsədilə tədbirlərin görülməsi;
- Azərbaycanlı və türk gənclərin xarici ölkələrdə təhsil almağa təşviq edilməsi;
- Xarici ölkələrdə yaşayan azərbaycanlı və türk gənclərin milli-mənəvi dəyərlərə bağlılığını artırmaq üçün «Həftə sonu» məktəblərinin açılması və onların Ana dilində dərslik və ədəbiyyatlarla təmin edilməsi;
- Avropada təhsil alan azərbaycanlı və türk gənclərin diaspor quruculuğuna cəlb olunması, onların Azərbaycan və Türk icmalarının təşkil etdiyi tədbirlərdə fəal iştirakının təmin edilməsi;
- Azərbaycan və Türk diaspor təşkilatlarının Koordinasiya Şurasında azərbaycanlı və türk gənclərinin təmsil olunmasının təmin edilməsi;
- Azərbaycan və Türk icmalarının Koordinasiya Şurasının tərkibində azərbaycanlı və türk gənclər arasında əməkdaşlıq, onların diaspor quruculuğu sahəsindəki fəaliyyətini əlaqələndirən Gənclər Komissiyasının qurulması;
- Azərbaycan və Türk icmalarının Koordinasiya Şurasının Gənclər Komissiyası tərəfindən azərbaycanlı və Türk gənclərin əməkdaşlığına dair fəaliyyət proqramının hazırlanması;
- Azərbaycanlı və türk gənclərin Türk dünyasının tarixi, mədəniyyəti, müasir həyatı, türkdilli dövlətlərin strateji inkişaf istiqamətləri, beynəlxalq münasibətlər sistemində yeri barədə ətraflı məlumatlandırılması sahəsində tədbirlərin görülməsi, bu məqsədlə elmi-praktik konfransların, diskussiyaların, simpoziumların və digər maarifləndirici toplantıların təşkili;
- Azərbaycanlı və Türk gənclərinin yaşadıqları ölkələrdə gənclər təşkilatları ilə sıx əməkdaşlıq əlaqələrinin qurulması istiqamətində birgə səylər göstərilməsi;

10. Bu strategiyanın həyata keçirilməsi Azərbaycan və Türkiyə arasında münasibətlərin inkişafına təkan verəcək, xalqları-

mız arasında çoxəsrlik tarixə malik dostluq və qardaşlıq münasibətlərini daha da möhkəmləndirəcək, Azərbaycan və Türk diaspor təşkilatları arasında əməkdaşlığın vahid strateji xətt əsasında inkişafını stimullaşdıracaq, iki ölkənin milli maraqlarının müdafiəsi işində xaricdə yaşayan azərbaycanlıların və türklərin fəal iştirakına zəmin yaradacaq, onların yaşadıqları ölkələrin cəmiyyətə inteqrasiyası prosesini sürətləndirəcək və ictimai-siyasi həyatında iştirak imkanlarını genişləndirəcək, hüquq və azadlıqlarının qorunması sahəsində səylərin birləşdirilməsinə, Azərbaycan və Türkiyə haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması işinin səmərəliliyinin artırılmasına imkan verəcəkdir.

11. Azərbaycan və Türk icmalarının birgə fəaliyyət strategiyası 2007-ci ilin mart ayının 9-da Bakı şəhərində keçirilmiş Azərbaycan və Türk Diaspor Təşkilatları Rəhbərlərinin I Forumunda müzakirə və təsdiq edilmişdir.

12. Strategiyanın həyata keçirilməsinin koordinasiya edilməsi Azərbaycan və Türk diaspor təşkilatlarının Koordinasiya Şurasına həvalə edilir.

13. Koordinasiya Şurası bu strategiya çərçivəsində həyata keçirilmiş tədbirləri izləyəcək və Azərbaycan və Türk Diaspor Təşkilatları·Rəhbərlərinin II Forumuna nəticələr haqqında müvafiq hesabat hazırlayacaqdır.

*Sənədin hazırlanması zamanı İşçi qrup dünyanın müxtəlif ölkələrindəki Türk diaspor təşkilatlarının fəaliyyəti, onların iş prinsipləri, ictimai-siyasi həyatda rolu, habelə Türkiyə Respublikası ilə əlaqələri, xarici ölkələrdə yaşayan azərbaycanlıların məskunlaşma coğrafiyası, ictimai-siyasi həyatda iştirakı, yaşadıqları ölkələrin parlament və hökumət üzvləri ilə əlaqələri, Azərbaycan icmalarının fəaliyyət prinsipləri ilə bağlı əldə edilmiş məlumatları dəqiqləşdirmiş və sistemləşdirmişdir.*

*Sənəd Azərbaycan Respublikası və Türkiyə Respublikasının müvafiq dövlət orqanları, qeyri-hökumət təşkilatları, xarici ölkələrdə fəaliyyət göstərən bir çox Azərbaycan və Türk icmaları, diaspor sahəsində tədqiqatları ilə tanınan elm xadimləri və tədqiqatçılar, habelə bu sahə ilə bağlı mətbuatda araşdırmalarla çıxış etmiş tədqiqatçı jurnalistlərin rəy və təklifləri əsasında hazırlanmışdır.*

## AZƏRBAYCAN VƏ TÜRK DİASPOR TƏŞKİLATLARI RƏHBƏRLƏRİNİN I FORUMUNUN TÜRK XALQLARINA MÜRACİƏTİ

XX əsrdə dünya siyasi səhnəsində baş vermiş dəyişikliklər türk xalqlarının yeni siyasi və iqtisadi dirçəliş yoluna çıxmasına və onların arasında inteqrasiya meyillərinin güclənməsi üçün siyasi-ideoloji zəminin yaranmasına səbəb olmuşdur. Məhz bu dövrdə bir sıra görkəmli türk mütəfəkkirləri tərəfindən irəli sürülmüş «Fikirdə, dildə, işdə birlik» şüarı türkdilli xalqları bir-birinə bağlayan mənəvi, siyasi, iqtisadi və ideoloji telləri möhkəmləndirmiş, türkçülük ideyalarının inkişafı üçün etibarlı sosial-psixoloji şərait yaratmışdır.

Postsovet məkanında suveren türk dövlətlərinin təşəkkülü beynəlxalq siyasi leksikona Türk dünyası termininin daxil olması ilə nəticələnmişdir. Məhz bu dövrdən etibarən türk xalqları arasında əlaqələr yeni inkişaf dövrünə qədəm qoymuş, Türk dünyasında birliyin və həmrəyliyin möhkəmləndirilməsi istiqamətində mühüm addımlar atılmışdır.

Müasir dünyanın reallıqları Türk dünyası ölkələri arasında əməkdaşlığın genişləndirilməsini tarixi zərurətə çevirmişdir. Bu əməkdaşlıq demokratiya, insan hüquq və azadlıqları, şəffaf iqtisadi münasibətlər, milli və ümumbəşəri dəyərləri öz inkişafının prioritet istiqaməti elan etmiş türk dövlətlərinin dünya birliyinə inteqrasiyasının sürətləndirilməsinə, beynəlxalq münasibətlər sistemində yeri və mövqeyinin daha da möhkəmləndirilməsinə, eyni zamanda qarşılıqlı əlaqələrimizin vahid strategiyasının müəyyələşdirilməsinə yönəlmişdir.

Zaman keçdikcə xalqlarımızın birliyi ölkələrimizin mənafeyi üçün daha böyük əhəmiyyət kəsb etməkdədir. Bizi birləşdirən qardaşlıq telləri, təkcə vahid etno-mədəni kökə, ortaq milli-mənəvi amillərə əsaslanmır, həm də qloballaşan dünyanın universal dəyərlərinə uyğun olaraq möhkəmlənir, bəşər sivilizasiyasının ayrılmaz hissəsi kimi yeniləşir və zənginləşir.

Dünyada sülh və təhlükəsizlik məsələlərinin aktuallaşdığı, sivilizasiyalararası dialoqun zərurətə çervildiyi bir vaxtda türk xalqlarının birliyi ideyası daha ciddi əhəmiyyət daşıyır. İndi xalqlarımızın üzərinə düşən başlıca vəzifə bu birliyi daha da möhkəmləndirməkdən ibarətdir.



Biz - Azərbaycan və Türk diaspor təşkilatları rəhbərlərinin I Forumunun iştirakçıları türk xalqlarına müraciət edərək Türk dünyasının gələcəyi və tarixi mənafeləri naminə öz səylərini birləşdirməyə çağırırıq.

Forum ölkələrimiz arasında birgə tarix, mənşə, mədəniyyət və dil yaxınlığını nəzərə alaraq, dostluq, bərabərlik və qarşılıqlı faydalı əməkdaşlığın inkişaf etdirilməsi, beynəlxalq təhlükəsizliyə yönəlmiş ümumi təhdidlərə qarşı səylərin birləşdirilməsi, Kərkük və Ahıska türklərinin tarixi hüquqlarının müdafiəsi və bərpası, Şimali Kipr türklərinin təcriddən çıxarılması, Türkiyənin Avropa İttifaqına üzvlüyünə dəstək verilməsi, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquq normalarına uyğun ədalətli həlli ilə bağlı Türkdilli ölkələrin dövlət başçılarının Antalya bəyannaməsinin müddəalarını dəstəklədiyini bəyan edir.

Türk dünyasının birliyi ideyası bizim fəaliyyətimizin mühüm tərkib hissəsini təşkil etməlidir. Türk xalqları eyni zamanda dünyanın siyasi düzənində baş vermiş dəyişikliklərlə əlaqədar yaranmış yeni imkanları layiqincə dəyərləndirərək, öz milli kimliyini, mənəvi-əxlaqi dəyərlərini, dilini, mədəniyyətini qorumaq şərtilə ümumbəşəri proseslərə daha fəal şəkildə qoşulmalıdır.

Əminik ki, bu müraciət xalqlarımız arasında əməkdaşlığın dərinləşməsi, inteqrasiya proseslərinin sürətlənməsi, sosial-iqtisadi, ictimai-siyasi əlaqələrin inkişafına öz töhfəsini verəcəkdir.

***Müraciət Azərbaycan və Türk Diaspor Təşkilatları Rəhbərlərinin I Forumunda qəbul edilmişdir. Bakı şəhəri, 9 mart 2007-ci il.***

# AZƏRBAYCAN VƏ TÜRK DİASPOR TƏŞKİLATLARI RƏHBƏRLƏRİNİN I FORUMUNUN ERMƏNİSTAN - AZƏRBAYCAN, DAĞLIQ QARABAĞ MÜNAQİŞƏSİ İLƏ ƏLAQƏDAR DÜNYA İCTİMAİYYƏTİNƏ, BEYNƏLXALQ TƏŞKİLATLARA, XARİCİ ÖLKƏLƏRİN PARLAMENTLƏRİNƏ, DÖVLƏT VƏ HÖKUMƏT BAŞÇILARINA MÜRACİƏTİ

Biz - Azərbaycan və Türk diaspor təşkilatları rəhbərlərinin I Forumunun iştirakçıları sivilizasiyalararası dialoqun danılmaz tarixi zərurətə çevrildiyi, beynəlxalq sülhün və təhlükəsizliyin mühüm əhəmiyyət kəsb etdiyi, inteqrasiya proseslərinin sürətləndiyi bir vaxtda Ermənistanın Azərbaycan torpaqlarının 20 faizini işğal altında saxlamasından dərin narahatlığımızı bildiririk.

Ermənistanın Azərbaycana qarşı uzun illərdən bəri həyata keçirdiyi etnik təmizləmə, işğal və soyqırım siyasəti nəticəsində 20 min nəfər Azərbaycan sakini öldürülmüş, minlərlə insan itkin düşmüş, girov götürülmüş, bir milyondan çox azərbaycanlı öz yurd-yuvasından didərgin salınmışdır. Bilavasitə rəsmi Yerevan və onun dəstəklədiyi separatçı rejim tərəfindən törədilmiş bu cinayətlər Cənubi Qafqazda daimi sülhə və təhlükəsizliyə qarşı ciddi təhdidə çevrilmişdir. Azərbaycan öz ərazilərinin 20 faizinə nəzarət imkanlarını faktiki olaraq itirmiş, ölkəyə külli miqdarda maddi və mənəvi ziyan dəymişdir. Erməni hərbçilərinin insani dəyərlərlə kəskin ziddiyyət təşkil edən əməlləri kütləvi qətllər, soyqırımlar, qarətlər, terror aktları və maddi mədəniyyət abidələrinin vəhşicəsinə məhvi ilə müşayiət edilmişdir.

1992-ci ilin fevral ayında erməni silahlı birləşmələrinin Xocalı şəhərində törətdiyi tarixdə analoqu olmayan soyqırım cinayəti Ermənistanın təcavüzkarlıq əməllərinin miqyasını təsəvvür etməyə imkan verir. Həmin gün Xocalı şəhərində 613 nəfər dinc sakin vəhşicəsinə öldürülmüş, 487 nəfər ömürlük əlil olmuş, 1275 nəfər əsir götürülmüş, 150 nəfər itkin düşmüşdür. Qətlə yetirilənlərin 106 nəfərinin qadın, 63 nəfərinin isə uşaq olması erməni cinayətkarlarının bütün humanist hisslərdən məhrum olmasının göstəricisidir. Bu dəhşətli cinayət nəticəsində Xocalı şəhəri tamamilə yerlə yeksan edilmişdir.

Ümumilikdə, Ermənistanın Azərbaycana təcavüzü nəticəsində 20 minədək azərbaycanlı qətlə yetirilmiş, 50 mindən çox insan yaralanmış və əlil olmuşdur. 890 yaşayış məntəqəsi, 150 min ev, 7 min inzibati bina, 693 məktəb, 855 uşaq bağçası, 695 səhiyyə obyekti, 927 kitabxana, 44 məbəd, 9 məscid, 9 tarixi yer, 464 tarixi abidə və muzey, 40 min muzey eksponatı, 6 min sənaye və kənd təsərrüfatı müəssisəsi, 160 körpü, 2300 km su kəməri, 2000 km qaz kəməri, 15 min km elektrik xətti, 280 min hektar meşə, 1 milyon hektar əkin sahəsi, 1200 km irriqasiya sistemi dağıdılaraq məhv edilmişdir. Dağlıq Qarabağ və onun ətrafındakı işğal olunmuş ərazilər nəzarətsiz zonaya və transmilli cinayətkar qruplaşmalar üçün təlim mərkəzinə çevrilmiş, insan alveri, narkotik maddələrin əkini, emalı və tranziti üçün istifadə olunmaqdadır.

Lakin beynəlxalq birlik indiyə qədər təcavüzkarın cəzalandırılması, işğalçı qoşunların Azərbaycan ərazilərindən çıxarılması, yurd-yuvalarından didərgin düşmüş bir milyondan çox insanın hüquqlarının bərpası istiqamətində qəti addımlar atmamışdır. Cəzasızlıqdan azğınlaşan təcavüzkar tərəf münaqişənin sülh yolu ilə nizamlanması, qəsb olunmuş ərazilərin azad edilməsi ilə bağlı çağırışlara məhəl qoymamaqda davam edir. Ermənistanın qeyri-konstruktiv mövqeyi və beynəlxalq hüquq normalarına açıq-aşkar etinasızlığı regionda sülhün bərpasına mane olur.

Azərbaycan ərazilərinin beşdə birini işğal altında saxlayan, BMT tərəfindən qəbul edilmiş 822, 853, 874, 884 saylı qətnamələri yerinə yetirməyən Ermənistan sülhün əldə olunmasına yönəlmiş təşəbbüsləri bu və ya digər formada rədd etməkdədir. BMT, ATƏT, Avropa Şurası, Avropa Birliyi, İslam Konfransı Təşkilatı kimi nüfuzlu beynəlxalq qurumların qəbul etdikləri sənədlər müəyyən ümidlər yaratsa da konkret nəticələrə gətirib çıxarmamışdır. ATƏT-in Minsk Qrupunun vasitəçilik missiyası da vəziyyəti dəyişə bilməmişdir. Bu gün dünya öz inkişafında yeni mərhələyə qədəm qoymaqdadır. Qloballaşmanın reallıqlarına əsaslanan və xalqların ümumi rifahına xidmət edən bu mərhələdə münaqişələrin həll edilməmiş qalması dərin narahatlıq və təəssüf doğurur. Biz - Azərbaycan və Türk diaspor təşkilatları rəhbərlərinin

I Forumunun iştirakçıları əmin olduğumuzu bildiririk ki, beynəlxalq birlik Cənubi Qafqazda sabitliyin təmin edilməsi, region xalqlarının sülh və əmin-amanlıq şəraitində yaşaması, onlar arasında münasibətlərin dostluq və səmimi qonşuluq prinsipləri əsasında qurulması, münaqişələrin beynəlxalq hüquq normaları çərçivəsində həlli üçün zəruri tədbirlər görəcəkdir.

Biz dünya ictimaiyyətini Azərbaycanın ədalətli mövqeyini müdafiə etməyə və təcavüzkara qarşı müvafiq sanksiyalar tətbiq etməyə çağırırıq. Əminik ki, beynəlxalq birlik sülhün əldə olunması üçün bütün imkanlarını səfərbər edəcəkdir. Çünki bu, regionda sabit və təhlükəsiz mühitin yaradılması və regional inkişafın təmin edilməsi baxımından vacibdir.

***Müraciət Azərbaycan və Türk Diaspor Təşkilatları Rəhbərlərinin I Forumunda qəbul edilmişdir. Bakı şəhəri, 9 mart 2007-ci il.***



## 1918-Cİ İLİN MART AYINDA AZƏRBAYCANLILARA QARŞI TÖRƏDİLMİŞ SOYQIRIMININ 90-CI İLDÖNÜMÜ İLƏ ƏLAQƏDAR AZƏRBAYCAN VƏ TÜRK DİASPOR TƏŞKİLATLARI KOORDİNASİYA ŞURASININ BƏYANATI

Zəngin mədəni irsə, qədim tarixə malik türk xalqları daim regionda sülhün və sabitliyin təminatçısı kimi çıxış etmiş, beynəlxalq əməkdaşlığın, bölgədəki millətlər arasında dostluq və mehriban qonşuluq münasibətlərinin qurulmasında önəmli rol oynamışdır. Etnik və dini tolerantlıq Türk xalqlarını səciyyələndirən ən mühüm keyfiyyətlərdən olmuşdur. Lakin çox təəssüf ki, tarixin müxtəlif mərhələlərində Türk xalqları ən ağır bəşəri cinayətlərə - terror və soyqırım aktlarına məruz qalmışlar. 1918-ci ilin mart ayında Azərbaycanın müxtəlif bölgələrində «Böyük Ermənistan» avantürasını həyata keçirməyə çalışan erməni şovinist millətçiləri tərəfindən türk xalqlarına qarşı törədilmiş soyqırımı aktları ən ağır cinayətlərdən biri kimi tarixə düşmüşdür.

1917-ci ildə Rusiyada yaranmış gərgin ictimai-siyasi vəziyyət Cənubi Qafqazda da proseslərin drammatikləşməsinə rəvac verdi. Erməni millətçiləri Oktyabr çevrilişindən sonra keçmiş Çar Rusiyasına daxil olan bütün regionlarda öz hakimiyyətini bərqərar etməyə çalışan bolşeviklər ilə ittifaq yaradaraq, Azərbaycan xalqının keşməkeşli tarixində daha bir faciəli səhifə açmağa nail oldular. Erməni terrorçularından təşkil olunmuş Bakı Kommunası bütövlükdə Bakı quberniyasını azərbaycanlılardan təmizləmək məqsədilə 1918-ci ilin mart ayının 31-də bu mənfur planlarını bolşevik bayrağı altında reallaşdıraraq, Azərbaycanın ayrı-ayrı bölgələrində kütləvi qətllər həyata keçirdilər. Həmin günlərdə erməni millətçiləri tərəfindən törədilmiş vəhşiliklər Azərbaycan xalqının yaddaşında əbədi həkk olunmuşdur. Bakı, Şamaxı, Quba qəzalarında, Qarabağ, Zəngəzur, Naxçıvan və Lənkəranda törədilmiş kütləvi terror aktları nəticəsində minlərlə azərbaycanlı məhz milli mənsubiyyətinə görə öldürüldü, onlarla kənd yandırıldı, bir sıra milli-mədəni abidələr dağıdılaraq məhv edildi.

31 Mart soyqırımının statistikası bu bəşəri cinayətin dəhşəti

haqqında kifayət qədər aydın mənzərə yaradır. Belə ki, hadisələr zamanı Bakı, Şamaxı, Muğan, Quba və Lənkəranda 50 min azərbaycanlı xüsusi amansızlıqla qətlə yetirilmiş, 10 minlərlə insan öz torpaqlarından qovulmuşdur. Təkcə Bakıda erməni terrorçuları tərəfindən öldürülənlərin sayı 30 minə çatmışdır. Şamaxı qəzasında 58, Qubada 122, Qarabağın dağlıq hissəsində 150, Zəngəzurda 115, İrəvan quberniyasında 211, Qars əyalətində isə 92 kənd tamamilə yerlə yeksan edilmişdir. Şamaxı qəzasında 7 min nəfər öldürülmüşdür ki, onlardan 1653 nəfəri qadın, 965-i uşaq olmuşdur. Azərbaycanın tarixi ərazisi olan İrəvan quberniyasında 1920 ev yandırılmış, 131 min 900 nəfər isə qətlə yetirilmişdir.

Bütün bu cinayətlərə beynəlxalq ictimaiyyətin laqeyd münasibəti, erməni millətçiləri tərəfindən azərbaycanlılara qarşı növbəti soyqırım və deportasiya aktlarının törədilməsinə stimul verən əsas amillərdən biri olmuşdur. 1917-22-ci illər ərzində təkcə İrəvan Quberniyasının azərbaycanlı əhalisinin sayının 375 min nəfərdən 1922-ci ildə 70 min nəfərə qədər azalması, 1948-ci ildə yüz min nəfərdən çox azərbaycanlının Ermənistandan deportasiya edilməsi dünyanın bütöv bir xalqa qarşı həyata keçirilən zorakılıq siyasətinə biganəliyinin nəticəsidir.

Lakin azərbaycanlılara qarşı törədilmiş cinayətlər bununla da yekunlaşmır. 1992-ci ilin fevralında erməni millətçiləri daha bir dəhşətli soyqırıma - Xocalı cinayətinə imza atmışlar. Xocalı şəhəri bütövlüklə yandırıldı, dağıdıldı, dinc əhali amansız qırğına məruz qaldı, 613 nəfər, onlardan 56-sı xüsusi qəddarlıq və işgəncələrlə qətlə yetirilmiş, o cümlədən 106 qadın və 63 uşaq öldürülmüş, 487 nəfər şikəst olmuş, 230 ailə öz başçısını itirmiş, 150 nəfər itkin düşmüş, əsir götürülmüş 1275 nəfər soydaşımız amansız işgəncələrə məruz qalmışdır. Lakin bu rəqəmlər belə Xocalı soyqırımının dəhşətləri barədə tam təsəvvür yaratmaq gücündə deyil. Bu soyqırımı zamanı insanlar ən qəddar üsullarla öldürülmüş, adamların dərisi soyulmuş, qulaqları kəsilmiş, başlarının dərisi soyulub çıxardılmışdır. Qadınlara qarşı heç bir mənəviyyata, əxlaqa sığmayan, barbar ənənələrinə əsaslanan qətl metodlarından istifadə edilmişdir. İnsan hüquqları haqqında Ümumi Bəyannamə, İnsan Hüquqlarının və Əsas Azadlıqlarının Müdafiəsi haqqında Avropa Konvensiyası, BMT Baş Məclisinin



9 dekabr 1948-ci il tarixli 260 (III) saylı qətnaməsi qəbul edilmiş Soyqırımı Cinayətinin Qarşısının Alınması və Cəzalandırılması Haqqında Konvensiya Beynəlxalq Cinayət Məhkəməsinin Statutu (maddə. 6) və digər Beynəlxalq Hüquqi Aktlar 31 mart və Xocalı soyqırımlarının beynəlxalq cinayət kimi tanınması üçün əsas verən hüquqi sənədlərdir. Lakin təəssüf ki, beynəlxalq birliyin üzvü olan bəzi ölkələrin parlament və hökumətləri XX əsrin sonlarında bütün dünyanın gözü qarşısında törədilmiş, sənədlər, video və foto materiallarla təsdiq olunan bu cinayətlərə laqeyd qalmaqla yanaşı, 1915-ci ildə Türkiyə ərazisində törədildiyi iddia olunan sözdə «erməni soyqırımı» iddialarını fakt kimi qəbul etməyə üstünlük verir. Bütün bunlar isə beynəlxalq ictimaiyyətin ədalətli qərarını gözləyən türk xalqlarında dərin məyusluq hissi doğurmaqdadır.

Azərbaycan və Türk diaspor təşkilatlarının Koordinasiya Şurası bir daha beynəlxalq ictimaiyyətə müraciət edərək, erməni millətçilərinin türk xalqlarına, xüsusilə də azərbaycanlılara qarşı törətdikləri terror və soyqırımı aktlarını pisləməyə çağırır, beynəlxalq təşkilatları, dünya ölkələrini hadisələrə obyektiv qiymət verməyə dəvət edir. Koordinasiya Şurası əmindir ki, dünya birliyi regionda sülhə və təhlükəsizliyə ciddi təhdidlər yaradan təcavüzkar Ermənistanı öz işğalçılıq, terror və soyqırımı siyasətinə son qoyması üçün zəruri addımlar atacaq, bununla da regionda sabitliyin bərqərar edilməsinə öz töhfəsini verəcəkdir.

***Bəyanat Azərbaycan və Türk Diaspor Təşkilatları Koordinasiya Şurasının illik toplantısında qəbul edilmişdir. 27 mart 2008-ci il. Almaniya, Berlin şəhəri.***

# «ERMƏNİ SOYQIRIMI» İDDİALARI İLƏ BAĞLI AZƏRBAYCAN VƏ TÜRK DİASPOR TƏŞKİLATLARI RƏHBƏRLƏRİNİN I FORUMUNUN BƏYANATI

Biz - Dünya Azərbaycan və Türk diaspor təşkilatları rəhbərlərinin I Forumunun iştirakçıları beynəlxalq sülhün və təhlükəsizliyin, sivilizasiyalararası dialoqun, xalqların dinc və yanaşı yaşamaq, qarşılıqlı sosial-mədəni inteqrasiya istəyinin müstəsna əhəmiyyət kəsb etdiyi bir dövrdə bəzi qüvvələrin milli zəmində ədavət yaratmaqla dövlətləri məqsədli şəkildə qarşı-qarşıya qoymaq cəhdlərindən narahatlığımızı bildiririk. Region xalqları arasında səmimi qonşuluq, əməkdaşlıq səylərinin formalaşmasına neqativ təsir göstərən, yeni münaqişə və qarşıdurmalara səbəb ola bilən qondarma «erməni soyqırımı» iddiaları ilə bağlı bəzi ölkə parlamentlərinin və beynəlxalq təşkilatların qəbul etdiyi qərarları beynəlxalq hüququn normaları, demokratiya və söz azadlığı prinsipləri ilə yanaşı, tarixi həqiqətlər və sağlam məntiqlə də ziddiyyət təşkil edir.

Tarix təkcə onu yaradanlardan, hadisələri qələmə alan salnaməçilərdən deyil, uzaq və yaxın keçmişdə baş verənləri araşdırıb yaddaşlara qaytaran müasir tədqiqatçılardan və onlara müvafiq qiymət verən siyasətçilərdən də böyük məsuliyyət tələb edir. Tarixin məqsədli şəkildə təhrif olunması, qərəzli saxtakarlıq cəhdləri xalqlar və dövlətlər arasında münasibətlərin gərginləşməsinə, qarşıdurmaların dərinləşməsinə yol açır. 1915-1918-ci illərdə Türkiyə ərazisində baş verdiyi iddia olunan hadisələrin elmi baxımdan araşdırılması birmənalı şəkildə «erməni soyqırımı» iddiasının tarixi həqiqətə söykənmədiyini, siyasi məqsədlər daşıyan saxtakarlıq nümunəsi olduğunu dəfələrlə sübuta yetirmişdir. Eyni zamanda, Türkiyə Respublikası gerçəkliyin obyektiv mənzərəsinin bir daha bərpası üçün öz arxivlərini tədqiqatçıların üzünə açdığını rəsmən bildirmiş, Ermənistanla birgə araşdırma komissiyasının yaradılmasını təklif etmişdir. Lakin rəsmi Yerevan təklifdən imtina edərək müraciəti cavabsız qoymuşdur. Ermənistanın bu hərəkəti onun qondarma «erməni soyqırımı» haqqında həqiqətin dünya ictimaiyyətinə çatdırılmasından, iddialarının faktlara deyil,



uydurmalara söykəndiyinin bir daha sübuta yetiriləcəyindən ciddi narahatlıq keçirdiyinin göstəricisidir.

Tarixi faktlar - sənədlər, şahid ifadələri sübut edir ki, 1915-1918-ci illərdə soyqırım, etnik təmizləmə siyasətinə ermənilər deyil, məhz türklər məruz qalmışlar. Həmin illər Türkiyənin bir dövlət kimi müqəddəratının həll edildiyi dövr idi. Xarici dövlətlərin işğalçılıq yürüşləri ölkəni parçalanıb bölünmə və birdəfəlik süqut təhlükəsi ilə üz-üzə qoymuşdu. Türkiyənin erməni əhalisi işğalçıların yalançı vədlərinə uyaraq, yüzilliklər boyu yaşadığı torpağa xəyanət etmiş, düşmən tərəfinə keçərək dinc sakinləri xüsusi amansızlıqla qətlə yetirmişdir. Həmin illərdə təkcə rus ordusunun tərkibində 160 min erməni döyüşürdü. Bu dövrdə 2 milyondan çox türk Vətənin azadlığı uğrunda mübarizədə şəhid olmuşdur.

Ermənilərin və onların havadarlarının əli ilə Göyçə və Zəngəzur daxil olmaqla Azərbaycan ərazisində, habelə İranda yüzminlələ dinc sakin öldürülmüşdür. Ermənilər soyqırımı aktlarına təkcə etnik türkləri deyil, kürdləri, gürcüləri, yəhudiləri, ləzgiləri, avarları da məruz qoymuşlar. Qərbdəki erməni havadarlarının bu faktlara göz yumması acı təəssüf hissi doğurur. Həmin illərdə həlak olan ermənilərin böyük hissəsi Rusiya, İngiltərə, Fransa, Yunanıstan hərbi birləşmələrinin tərkibində Türkiyəyə, türklərə qarşı silah qaldıranlar olmuşlar. Məhz bu səbəbdən 1915-1918-ci illər ərzində ölən ermənilərin həqiqi sayı Ermənistan tərəfindən gizlədilir, dünya ictimaiyyətinə isə şişirdilmiş rəqəmlər təqdim olunur.

Yuxarıda göstərilənləri nəzərə alaraq hesab edirik ki, həqiqəti müəyyənləşdirmədən, dəqiqləşdirmədən tələsik qərarlar çıxarmaq ən yaxşı halda məsələyə təmənnalı, qərəzli yanaşmanın təzahürü olub, dövlətlərarası münasibətlərə xələl gətirir. Tarixi hadisələri araşdırıb qiymət vermək parlamentlərin, beynəlxalq təşkilatların deyil, tarixçilərin vəzifəsidir.

Türk xalqları hər zaman sülh tərəfdarı olmuş və tolerantlığı ilə seçilmişlər. Bu gün «erməni soyqırımı»nı tanıyan və ya bu addımı atmaq istəyən dövlətlərdə neofaşizm, ksenofobiya, irqçi və dini ayrı-seçkilik meyillərinin baş qaldırdığı halda Türkiyəni guya soyqırım törətməkdə ittiham etmək ən azı ədalətsizlikdir. 2007-ci ildə erməni mənşəli jurnalist Hrant Dinkin qətlinə Türkiyə ictimaiyyətinin reaksiyası türk xalqının nə qədər humanist, tolerant

və sülhsevər olduğunu bir daha bütün dünyaya nümayiş etdirdi.

Ötən əsrin əvvəllərində baş verdiyi iddia olunan, heç bir real tarixi fakta əsaslanmayan uydurma «soyqırım» yalanı barədə qərəzli müzakirə açanlar XX əsrin sonlarında, bütün dünyanın gözü qarşısında baş vermiş, sənədlər, foto və video çəkilişlər, şahid ifadələri ilə təsdiq edilən «Xocalı soyqırımı» kimi dəhşətli bir cinayəti görməməzliyə vururlar.

Biz - Azərbaycan və Türk diaspor təşkilatları rəhbərlərinin I forumunun iştirakçıları qondarma «erməni soyqırımı» yalanını müzakirə masası üzərinə gətirən parlamentarilərə və beynəlxalq təşkilatlara müraciət edərək bu ədalətsizliyə son qoyulmasını tələb edirik. Erməni diaspor və lobbisi tərəfindən türklərə qarşı irəli sürülmüş bu ittihamları bütün Türk dünyasına qarşı yönəlmiş təhdid və iftira kimi qiymətləndiririk.

Biz eyni zamanda, «erməni soyqırımı»nın baş verdiyini iddia edənləri Türkiyənin çağırışlarına qoşularaq birgə komissiya yaratmağa və məsələnin araşdırılmasını mütəxəssislərə həvalə etməyə çağırırıq. Forum iştirakçıları qondarma iddialar ətrafında aparılan siyasi oyunları yaxın keçmişdə milli zəmində kütləvi insan qırğını törətmiş bəzi dövlətlərin öz günahlarını gizlətmək, xalqlar və dinlər arasında dialoq və barışığa mane olmaq cəhdi kimi qiymətləndirir.

Biz həmin dövlət və təşkilatları, siyasətçiləri erməni diasporu və lobbisinin xalqlar arasında düşmənçilik və ədavət toxumu səpən tarixi saxtalaşdırmaq cəhdlərinə etiraz etməyə çağırırıq. Əminik ki, dünyada sülhün və təhlükəsizliyin təmin olunması, xalqların dostluq və mehriban qonşuluq şəraitində yaşamasında maraqlı olan bütün beynəlxalq təşkilatlar və dövlətlər bizim müraciətimizi dəstəkləyərək, hamı tərəfindən qəbul olunmuş hüquqi prinsiplərə uyğun ədalətli mövqedən çıxış edəcəklər.

***Bəyanat Azərbaycan və Türk Diaspor Təşkilatları Rəhbərlərinin I Forumunda qəbul edilmişdir.***
***Bakı şəhəri, 9 mart 2007-ci il.***



# AZƏRBAYCAN VƏ TÜRK DİASPOR TƏŞKİLATLARI KOORDİNASİYA ŞURASININ TOPLANTISI

## AZƏRBAYCAN VƏ TÜRK DİASPOR TƏŞKİLATLARI KOORDİNASİYA ŞURASININ BERLİN BƏYANNAMƏSİ

Müasir tarixi situasiya, dünyada baş verən bir sıra mühüm geosiyasi hadisə və proseslər, milli-mədəni inkişaf tendensiyaları, qloballaşmanın nəticələri Türk xalqları arasında əməkdaşlığın möhkəmləndirilməsini və davamlı inkişafını şərtləndirən əsas amillər kimi çıxış etməkdədir. Təqdirəlayiq haldır ki, xalqlarımız bu tarixi zərurəti layiqincə qiymətləndirərək, qarşılıqlı əlaqələrini inkişaf etdirir, siyasi, iqtisadi, sosial-mədəni və digər sahələrdə tərəfdaşlığı dərinləşdirməyə çalışır, ən mühüm strateji məsələlərdə bir-birini cəsarətlə dəstəkləyirlər. Son illərdə Türkdilli xalqların diaspor təşkilatları da bu prosesdə fəal iştirak edirlər.

2007-ci ilin mart ayında Bakı şəhərində keçirilmiş Azərbaycan və Türk diaspor təşkilatları rəhbərlərinin I forumu iki qardaş xalqın tarixində mühüm hadisə olmaqla, diasporların həyatında yeni bir səhifə açmışdır. Forumun qəbul etdiyi qərarlar Azərbaycan və Türk xalqlarının yalnız vahid etnomilli mədəniyyətə və tarixə deyil, həm də ortaq strateji maraqlara malik olduğunun parlaq təsdiqi olmuşdur. 2007-ci ilin noyabr ayında Bakı şəhərində keçirilmiş Türk Dövlət və Cəmiyyətlərinin XI Dostluq, Qardaşlıq və Əməkdaşlıq Qurultayı Azərbaycan və Türk xalqları arasında əməkdaşlığın daha geniş coğrafiyanı əhatə etdiyini, digər türkdilli xalqların da bu əməkdaşlıq zəncirinə daxil olduğunu göstərdi.

Biz, Azərbaycan və Türk diaspor təşkilatları Koordinasiya Şurasının 2008-ci ilin mart ayının 27-də Berlin şəhərində keçirilən illik iclasının iştirakçıları türkdilli xalqlar və onların diasporları arasında əlaqələrin inkişafı sahəsində nəzərə çarpan müsbət tendensiyaları yüksək qiymətləndiririk. Biz hesab edirik ki, Azərbaycan və Türkiyə dövlətlərinin ardıcıl, davamlı və məqsədyönlü dəstəyi türkdilli xalqların diaspor təşkilatlarının birgə fəaliyyəti üçün mühüm siyasi-ideoloji zəmin yaradır, onların vahid amal ətrafında birləşməsinə stimul verir.

Azərbaycan və Türk diaspor təşkilatları rəhbərlərinin I Forumunun Bakı Bəyannaməsinin, habelə həmin forumda qəbul



olunmuş «Azərbaycan və Türk diaspor təşkilatlarının birgə fəaliyyət strategiyası»nın müddəalarını;

- Türk Dövlət və Cəmiyyətlərinin XI Dostluq, Qardaşlıq və Əməkdaşlıq Qurultayının qərarlarını;
- Türkdilli dövlətlərin ortaq strateji maraqlarını;
- Dünyada, xüsusilə də türkdilli xalqların yaşadığı regionlarda cərəyan edən mürəkkəb geosiyasi proseslərin hazırki nəticələrini və mümkün inkişaf istiqamətlərini;
- Yeni tarixi şəraitdə türkdilli xalqların qarşısında duran mühüm sosial, siyasi, ideoloji vəzifələri;
- Habelə Koordinasiya Şurasının iclasında səslənmiş təklifləri nəzərə alaraq,

Azərbaycan və Türk diaspor təşkilatları Koordinasiya Şurası bəyan edir:

1.Türk Dövlət və Cəmiyyətlərinin XI Dostluq, Qardaşlıq və Əməkdaşlıq Qurultayında irəli sürülmüş Azərbaycan və Türkiyə Parlamentlərarası Assambleyasının yaradılması təşəbbüsünü alqışlayır.

2. Türkdilli ölkələrin dövlət başçılarının Zirvə toplantılarının Katibliyinin yaradılması ideyasını dəstəkləyir və onun həyata keçirilməsi üçün türkdilli ölkələrin hökumətlərini müvafiq addımlar atmağa çağırır.

3.Türkdilli xalqların ortaq televiziyasının yaradılması barədə Türk Dövlət və Cəmiyyətlərinin XI Dostluq, Qardaşlıq və Əməkdaşlıq Qurultayının qərarını dəstəkləyir.

4. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Türk Dövlət və Cəmiyyətlərinin XI Dostluq, Qardaşlıq və Əməkdaşlıq Qurultayında səsləndirdiyi Türk dünyasının birliyi haqqında bəyanatını yüksək qiymətləndirir.

5. 2008-ci ilin fevral ayında Almaniyanın Münhen şəhərində keçirilmiş 44-cü Təhlükəsizlik Konfransında Türkiyə Respublikasının Baş naziri cənab Rəcəb Tayyib Ərdoğanın Ermənistanın işğal olunmuş Azərbaycan ərazilərindən öz hərbi qüvvələrini qeyd-şərtsiz çıxarması barədə bəyanatını təqdir edir.

6. 2008-ci ilin fevralında Almaniyada yaşayan 9 nəfər türkün ölümü və bir neçə nəfərin yaralanması ilə nəticələnən yanğınları faşist təmayüllü qüvvələr tərəfindən alman və türk xalqları

arasındakı dostluq münasibətlərini pozmağa yönəlmiş cəhdlər kimi qiymətləndirir, bunu qəti şəkildə pisləyir, hüquq-mühafizə orqanlarının cinayətkarların cəzalandırılması üçün müvafiq addımlar atacağına inamını ifadə edir.

7. Azərbaycan torpaqlarının Ermənistan tərəfindən işğal edilməsi faktının beynəlxalq birliyə çatdırılması üçün Türkdilli xalqların diaspor təşkilatları tərəfindən daha qətiyyətli, ardıcıl, müasir təbliğat texnologiyaları əsasında tədbirlər görülməsini vacib hesab edir.

8. 1915-ci il hadisələri ilə bağlı erməni soyqırımı iddialarının ifşası istiqamətində Azərbaycan və Türk diaspor təşkilatlarının birgə fəaliyyətinin genişləndirilməsini zəruri sayır.

9. 2008-ci ildə ABŞ-da keçiriləcək Prezident seçkiləri ilə əlaqədar Azərbaycan və Türk icmalarının ictimai-siyasi proseslərdə fəal iştirakının təmin edilməsi üçün bu ölkədəki diaspor təşkilatlarının fəaliyyətlərini daha yüksək səviyyədə koordinasiya edəcəyinə əminliyini bildirir və bununla əlaqədar aşağıdakı tədbirlərin görülməsini məqsədəuyğun hesab edir:

Koordinasiya Şurası erməni diasporu və lobbisinin Amerikada keçirilən prezident seçkiləri ilə əlaqədar fəaliyyətini genişləndirməsini, ayrı-ayrı namizədlərə «erməni soyqırımı» iddialarını qəbul etməklə bağlı təsir göstərmək cəhdlərini nəzərə alaraq, azərbaycanlı və türk icmalarının seçkilərlə əlaqədar fəaliyyətinin koordinasiya edilməsi məqsədilə ABŞ-da fəaliyyət göstərən Azərbaycan və Türk diaspor təşkilatlarının nümayəndələrindən ibarət İşçi qrupun yaradılmasını tövsiyə edir.

Koordinasiya Şurası tərəfindən İşçi qrupa tövsiyə olunur:

- Aprel ayı ərzində seçkilərlə əlaqədar Amerikadakı Azərbaycan və Türk, habelə digər türkdilli xalqların diaspor təşkilatlarının birgə fəaliyyətinin taktika və strategiyasını müəyyən edən müvafiq sənəd hazırlayaraq, bütün icmalara təqdim etsin.
- Hazırlanmış sənəd əsasında Amerikadakı türkdilli xalqların diasporlarının hansı namizədi dəstəkləyəcəyinə dair birgə qərar qəbul olunsun;
- Qərar barədə prezidentliyə namizədə məlumat verilsin və icmaların namizədin seçki kampaniyasında fəal iştirakı istiqamətində tədbirlər görülsün.



10. Azərbaycan və Türk diaspor təşkilatları arasında əməkdaşlığın inkişafı sahəsində ötən bir il ərzində görülmüş işlər qənaətbəxş hesab edilir, bununla yanaşı, bu əməkdaşlığın inkişaf etdirilməsi üçün aşağıdakı tədbirlərin görülməsi məqsədəuyğun hesab olunur:

- Azərbaycan və Türkiyə həqiqətlərinin təbliği ilə bağlı Koordinasiya Şurasına üzv təşkilatların təklifləri əsasında müvafiq strategiyanın müəyyənləşdirilməsi;
- II Foruma qədər «Azərbaycan və Türk diaspor təşkilatlarının birgə fəaliyyət strategiyası»na uyğun olaraq xarici ölkələrdə yaşayan azərbaycanlı və türk iş adamlarının birgə forumunun keçirilməsi və Məşvərət Şurasının yaradılmasının təmin edilməsi;
- Xarici ölkələrdə yaşayan azərbaycanlıların və türklərin ictimai-siyasi fəallığının artırılması üçün Koordinasiya Şurasına üzv təşkilatlar tərəfindən xüsusi proqramların hazırlanması və növbəti forumda müzakirəyə çıxarılması;
- Xarici ölkələrdə yaşayan azərbaycanlıların və türklərin insan hüquq və azadlıqlarının qorunması sahəsində vəziyyətin öyrənilməsi, əldə olunmuş məlumatlar əsasında bu sahədə qarşıda duran vəzifələrin müəyyən edilməsi;
- Avropanın mərkəzi şəhərlərindən birində türkdilli xalqların tarixi və mədəniyyətini nümayiş etdirən muzeyin yaradılması barəsində Türk Dövlət və Cəmiyyətlərinin XI Dostluq, Qardaşlıq və Əməkdaşlıq Qurultayında qəbul olunmuş qərarın həyata keçirilməsi istiqamətində Azərbaycan və Türk icmalarının fəaliyyətinin səfərbər edilməsi;
- İraq türkmənlərinin hüquqlarının müdafiəsi, Ahıska türklərinin repatriasiyası sahəsində problemlərin həlli məsələlərinə beynəlxalq ictimaiyyətin diqqətinin cəlb olunması ilə bağlı «Azərbaycan və Türk diaspor təşkilatlarının birgə fəaliyyət strategiyası»ndan irəli gələn vəzifələrin yerinə yetirilməsi üçün tədbirlərin həyata keçirilməsi.

11. Azərbaycan və Türk diaspor təşkilatlarını öz fəaliyyətlərini daha intensiv və səmərəli şəkildə koordinasiya etməyə dəvət edir və Azərbaycan və Türk diaspor təşkilatları Koordinasiya Şurasının fəaliyyətinin operativliyini təmin etmək məqsədilə qərara alır:

Azərbaycan və Türk diaspor təşkilatları Koordinasiya Şurasının Katibliyi yaradılsın.

- Koordinasiya Şurası Katibliyinin Berlin şəhərində ofislə təmin edilməsi üçün Azərbaycan və Türkiyə Respublikalarının müvafiq dövlət orqanlarına müraciət edilsin.

- Katiblik Koordinasiya Şurasının üzvlərinin fəaliyyətini əlaqələndirmək, mütəmadi olaraq Koordinasiya Şurasının qarşısında duran məsələləri müzakirə etmək üçün İdarə Heyətinin iclaslarını təşkil etmək, Azərbaycan və Türk icmalarının təşkil etdikləri tədbirlərə, hazırladığı layihələrə ideoloji, mənəvi və maddi dəstək vermək, habelə müstəqil şəkildə müxtəlif layihələr hazırlayaraq İdarə Heyətinə təqdim etmək, kütləvi informasiya vasitələri, qeyri-hökumət təşkilatları, digər xalqların diaspor qurumları ilə əlaqələr qurmaq hüququna malikdir.

Koordinasiya Şurası üzvlərinin fəaliyyətinin əlaqələndirilməsini təkmilləşdirmək məqsədilə 9 nəfərdən ibarət İdarə Heyəti yaradılsın. İdarə Heyətinə tövsiyə edilsin:

- İldə 4 dəfədən az olmamaq şərtilə öz toplantılarını keçirsin;

- Katibliyin effektiv fəaliyyəti üçün zəruri tədbirlərin görülməsini təmin etsin;

- Keçirilmiş toplantıların yekunları və qəbul edilmiş qərarlar barədə Koordinasiya Şurasının bütün üzvlərini məlumatlandırsın.

12. Azərbaycan və Türk diaspor təşkilatları arasında əlaqələrin və informasiya mübadiləsinin operativliyini təmin etmək üçün Azərbaycan və Türkiyə respublikalarının müvafiq dövlət orqanlarının dəstəyi ilə beynəlxalq «Network» sistemi yaradılsın.

13. Koordinasiya Şurası Türk dünyasının görkəmli tarixi şəxsiyyəti, böyük dövlət xadimi, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 85 illiyi ilə əlaqədar Avropa ölkələrinin birində Azərbaycan və Türk diaspor təşkilatları tərəfindən birgə yubiley mərasiminin təşkil edilməsi ilə bağlı müvafiq tədbirlər görsün.

14. İdarə Heyəti Azərbaycan və Türk Diaspor Təşkilatları Rəhbərlərinin II Forumu ilə bağlı texniki-təşkilati məsələlərin həlli ilə əlaqədar Türkiyənin müvafiq dövlət orqanları ilə məsləhətləşmələrə başlasın və nəticələr barədə Koordinasiya Şurası üzvlərinə məlumat versin.



Koordinasiya Şurası iclasının iştirakçıları əmindirlər ki, dünyanın müxtəlif ölkələrində fəaliyyət göstərən Azərbaycan və Türk diaspor təşkilatları qəbul olunmuş qərar və tövsiyələrin yerinə yetirilməsi üçün səylərini əsirgəməyəcək, Türk xalqlarının ortaq problemləri ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması istiqamətində bütün imkanlarını səfərbər edəcək, türkdilli ölkələrin beynəlxalq aləmdə mövqelərinin möhkəmləndirilməsi, Türk dünyasının birliyi ideyalarının həyata keçirilməsinə öz töhfələrini verməyə çalışacaqlar.

***Bəyannamə Azərbaycan və Türk Diaspor Təşkilatları Koordinasiya Şurasının illik toplantısında qəbul edilmişdir. 27 mart 2008-ci il. Almaniya, Berlin şəhəri.***

# AVROPA AZƏRBAYCANLILARI KONQRESİ

## AVROPA AZƏRBAYCANLILARI KONQRESİNİN 2007-2009-CU İLLƏR ÜÇÜN FƏALİYYƏT PROQRAMI

Azərbaycan Respublikasının son illər ərzində əldə etdiyi siyasi və iqtisadi nailiyyətlər bütün dünya azərbaycanlıları tərəfindən qürur hissi ilə izlənilməkdədir. Prezident İlham Əliyev tərəfindən həyata keçirilmiş islahatların uğurlu nəticələri Azərbaycanın qüdrətli dövlət kimi dünya birliyində öz yerini möhkəmləndirməsinə, vətəndaşların sosial həyat şəraitinin əsaslı şəkildə yaxşılaşdırılmasına, cəmiyyətdə demokratikləşmə proseslərinin sürətli təşəkkülünə zəmin yaratmaqdadır.

Əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş neft strategiyasının müvəffəqiyyətlə yerinə yetirilməsi, neft gəlirlərindən səmərəli istifadə nəticəsində qeyri-neft sektorunun inkişafına stimul yaradan tədbirlərin uğurla həyata keçirilməsi dünya azərbaycanlılarınının istinadgahı olan Azərbaycan Respublikasının iqtisadi qüdrətini artırır, beynəlxalq aləmdə nüfuzunu daha da yüksəklərə qaldırır, hərbi potensialını genişləndirməyə imkan verir.

Azərbaycan Respublikasının əldə etdiyi bu nailiyyətlər təbii olaraq digər sahələrdə də əsaslı inkişafa nail olmaq üçün etibarlı baza rolunu oynayır. Bu baxımdan, xarici ölkələrdə yaşayan azərbaycanlıların təşkilatlanması, güclü diasporun formalaşması, xalqımızın qədim tarixi və müasir həyatı ilə bağlı həqiqətlərin, zəngin mədəni irsimizin təbliği, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı məlumatların dünya ictimaiyyətinə obyektiv şəkildə çatdırılmasının təmin edilməsi sahəsində son illər ərzində əldə olunmuş uğurlar Azərbaycanın daxili və xarici siyasətdə qazandığı uğurların məntiqi nəticəsidir.

2006-cı ilin mart ayının 16-da Bakı şəhərində keçirilmiş Dünya Azərbaycanlılarının II Qurultayı Azərbaycan diasporunun tarixində yeni bir səhifə açaraq, vəzifəsindən, ictimai statusundan, siyasi mənsubiyyətindən və dünyagörüşündən, vətəndaşlığından asılı olmayaraq hər bir azərbaycanlının diaspor quruculuğu işində fəal iştirak etməsinin vacib olduğunu təsdiqləmişdir. Bu qurultay Azərbaycan diasporunun qarşısında kifayət qədər

mühüm vəzifələrin durduğunu, xarici ölkələrdə yaşayan soydaşlarımızın milli dövlətçilik maraqlarımızın müdafiəsi uğrunda daha sıx birləşməsinin zəruriliyini bir daha nümayiş etdirmişdir. Azərbaycan Respublikası Prezidentinin tövsiyələri, Qurultayın qəbul etdiyi sənədlər yeni tarixi mərhələdə Azərbaycan diaspor təşkilatlarının qarşısında duran əsas vəzifələri müəyyənləşdirmiş, milli-mənəvi dəyərlərimizin qorunub saxlanılması, xalqımızın tarixi və müasir həyatı ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, doğma Vətənin milli maraqlarının müdafiəsi işinin təkmilləşdirilməsi zərurətini ortaya qoymuşdur.

2006-cı ilin iyun ayında keçirilmiş Dünya Azərbaycanlı Ziyalılarının Forumu müxtəlif ölkələrdə yaşayan azərbaycanlı mədəniyyət və incəsənət xadimlərinin müstəqil dövlətimizə bağlılığını nümayiş etdirmiş, onların daim dövlətin diqqət mərkəzində olduğunu göstərmiş, azərbaycanlı ziyalıların dünyanın hansı ölkəsində yaşamasından asılı olmayaraq Azərbaycan Respublikasının Prezidenti ətrafında sıx birləşdiyinin təsdiqi olmuşdur. Forum Azərbaycan dövlətinin xarici ölkələrdə yaşayan nüfuzlu ziyalılarımızın diaspor quruculuğu işinə daha geniş cəlb olunmasına xüsusi önəm verdiyini bir daha təsdiqləmiş oldu. Forumda müzakirə olunan məsələlər və qəbul olunmuş sənədlər azərbaycanlı ziyalıların diaspor quruculuğu işinə verdiyi yüksək qiymətin təzahürü kimi tarixə düşmüşdür.

2007-ci ilin mart ayının 9-da keçirilmiş Azərbaycan və Türk Diaspor Təşkilatları Rəhbərlərinin I forumu yalnız Azərbaycan diasporunun deyil, bütün Türk dünyasının həyatında mühüm hadisə kimi tarixə düşmüşdür. Forumda Türkdilli dövlətlərin dövlət rəsmilərinin, habelə dünyanın müxtəlif ölkələrində yaşayan türk xalqlarının təmsilçilərinin iştirakı Azərbaycan və Türk diaspor təşkilatlarının birliyi ideyasının inkişafına yeni bir təkan vermişdir. Forumda təsdiq edilmiş «Azərbaycan və türk diaspor təşkilatlarının birgə fəaliyyət strategiyası» Azərbaycan və türk icmaları arasında əməkdaşlığın əsas prinsip və istiqamətlərini müəyyənləşdirmişdir. Strategiyanın müddəaları iqtisadi, sosial, mədəniyyət, turizm, təbliğat, ermənilərin «soyqırımı» iddialarının ifşa edilməsi, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, insan hüquq



və azadlıqlarının qorunması kimi mühüm vəzifələrin yerinə yetirilməsi sahəsində qarşıda duran vəzifələri özündə ehtiva etmişdir. Bu sənədin əhəmiyyəti Azərbaycan və Türkiyə respublikalarının, habelə bütün türkdilli xalqların milli maraqlarının müdafiəsi işinə diaspor təşkilatlarını cəlb etməyə yönəldilməsindən ibarət olmuşdur.

Avropa Azərbaycanlıları Konqresi ötən müddət ərzində keçirilmiş bu tədbirləri Azərbaycan Prezidentinin diaspor quruculuğu işinə verdiyi önəmin təzahürü kimi qiymətləndirir. AAK hesab edir ki, bu forum və qurultaylarda qəbul olunmuş qərarlar, irəli sürülmüş ideya və təkliflər Azərbaycan diasporunun fəaliyyətində əhəmiyyətli keyfiyyət dəyişikliyinə səbəb olacaqdır. AAK eyni zamanda, həmin qərarların yerinə yetirilməsi istiqamətində üzərinə düşən vəzifələri aydın dərk edərək, onların həyata keçirilməsində fəal iştirak edəcəyini bəyan edir.

2007-ci ilin mart ayının 10-da Bakı şəhərində keçirilmiş Avropa Azərbaycanlıları Konqresinin II Qurultayı Azərbaycan dövlətinin diaspor quruculuğu işinə göstərdiyi diqqət və qayğıya əsaslanaraq yeni mərhələdə təşkilatın qarşısında duran əsas vəzifələri müəyyən etmiş və təşkilatın həyatında yeni mərhələnin əsasını qoymuşdur. Qurultayda AAK-ın Nizamnaməsinə edilmiş dəyişikliklər, aparılmış struktur islahatları qurumun fəaliyyətini daha da təkmilləşdirməyə əsaslı zəmin yaratmışdır.

Avropa Azərbaycanlıları Konqresi Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycan Respublikasının son illər ərzində qazandığı iqtisadi və siyasi nailiyyətləri alqışlayaraq, ölkənin inkişafına, xalqımızın sosial rifahının yaxşılaşdırılmasına, demokratik ənənələrin təşəkkülünə, vətəndaş cəmiyyəti quruculuğuna, regionda sülhün və sabitliyin təmin olunmasına istiqamətlənmiş islahatları dəstəklədiyini bəyan etmişdir.

Qurultay AAK-ın bundan sonra da Avropada yaşayan soydaşlarımızın təşkilatlanması, xalqımızın tarixi və müasir həyatı, eləcə də qarşılaşdığı problemlərlə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, zəngin mədəni irsinin təbliği sahəsində məqsədyönlü tədbirlər həyata keçirəcəyini bildirmişdir.

Qurultay Azərbaycan dövlətinin diaspor quruculuğu işinə verdiyi önəmi yüksək qiymətləndirmiş və bu sahədə həyata keçi-

rilmiş tədbirləri təqdir etdiyini bir daha bəyan etmişdir.

AAK yuxarıda qeyd edilənləri nəzərə alaraq öz fəaliyyətini Azərbaycan Respublikasının diaspor quruculuğu sahəsindəki siyasətinə dəstək vermək, Avropada yaşayan azərbaycanlıların təşkilatlanması istiqamətində keyfiyyət dəyişikliyinə nail olmaq, soydaşlarımızın hüquq və azadlıqlarının təmin olunması istiqamətində daha təsirli tədbirlər görmək, mədəni irsimizin təbliği işini genişləndirmək məqsədlərinə yönəldəcəkdir.

Yuxarıda qeyd olunanlara əsaslanaraq, Avropa Azərbaycanlıları Konqresi təşkilatın və onun üzvlərinin fəaliyyətini koordinasiya edəcək, onların yaxın iki ildəki məqsəd və vəzifələrini müəyyən edəcək aşağıdakı fəaliyyət Proqramını elan edir:

Avropa ölkələrində yaşayan azərbaycanlıların təşkilatlanma işini təkmilləşdirmək və Azərbaycan icmalarının fəaliyyətini daha səmərəli şəkildə koordinasiya etmək məqsədilə:

1.1. AAK-ın işlək quruma çevrilməsini təmin etmək məqsədilə struktur dəyişikliklərinin aparılması;

1.2. AAK-ın II Qurultayının qərarlarına uyğun olaraq Avropanın mərkəzi şəhərlərinin birində daimi ofisin yaradılması;

1.3. Avropanın ayrı-ayrı ölkələrində yaşayan azərbaycanlıların təşkilatlanması prosesinə dəstək vermək, yeni Azərbaycan icmalarının yaradılmasına nail olmaq üçün tədbirlərin həyata keçirilməsi;

1.4. Diaspor təşkilatlarına azərbaycanlı ziyalıların daha geniş cəlb olunması istiqamətində tədbirlərin görülməsi;

1.5. Azərbaycan diaspor təşkilatlarının fəaliyyətinin səmərəliliyini təmin etmək məqsədilə digər xalqların diasporlarının təcrübəsinin tətbiqi istiqamətində tövsiyələrin hazırlanması;

1.6. Avropa ölkələrində təhsil alan azərbaycanlı gənclərin diaspor quruculuğu işinə cəlb olunması ilə bağlı onlar arasında təşviqat işinin aparılması;

1.7. Avropada təhsil alan azərbaycanlı gənclərin I forumunun təşkil edilməsi;

1.8. Avropadakı Azərbaycan icmaları arasında daimi əlaqələrin yaradılmasını təmin etmək məqsədilə AAK-a üzv təşkilat rəhbərlərinin mütəmadi görüşlərinin təşkili;



1.9. Digər regionlardakı Azərbaycan icmaları ilə mütamadi əlaqələrin yaradılması, həmin təşkilatlarla AAK-ın fəaliyyətinin əlaqələndirilməsi.

2. Azərbaycan həqiqətlərinin dünyaya çatdırılması, xalqımızın tarixi və müasir həyatı ilə bağlı Avropa ölkələrinin ictimaiyyətinin obyektiv şəkildə məlumatlandırılmasını təmin etmək məqsədilə:

2.1. AAK nəzdində Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması, diaspora işinin elmi-metodoloji əsaslarının öyrənilməsi, strateji istiqamətlərinin müəyyənləşdirilməsi məqsədilə elmi-tədqiqat mərkəzinin yaradılması;

2.2. Təbliğat işində ən müasir texnologiyalardan və Avropa düşüncə və həyat tərzinə uyğun vasitələrdən istifadə etmək məqsədilə müvafiq fəaliyyət konsepsiyasının hazırlanması;

2.3. Azərbaycanda gedən sosial-iqtisadi inkişaf prosesləri, ölkəmizin müasir həyatı, nailiyyətləri, problem və çətinlikləri ilə bağlı elmi-praktik konfranslar, simpoziumların təşkili;

2.4. AAK-ın Avropa dillərinin birində (ingilis, fransız və ya alman) nəşr olunan peşəkar mətbuat orqanının yaradılması istiqamətində tədbirlərin görülməsi;

2.5. Qısa müddət ərzində AAK-ın Azərbaycan dilində və Avropa dillərinin birində yayımlanan rəsmi internet saytının yaradılması;

2.6. Avropada fəaliyyət göstərən kütləvi informasiya vasitələri ilə əlaqələrin yaradılmasına çalışmaq, bu məqsədlə avropalı jurnalistlərlə işgüzar münasibətlərin qurulmasına səy göstərilməsi, onların Azərbaycana səfərlərinin təşkili;

2.7. Azərbaycan haqqında məlumatların Avropa mətbuatında dərc olunmasına səy göstərilməsi;

2.8. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı həqiqətlərin Avropa ictimaiyyətinə çatdırılması məqsədilə yerli kütləvi informasiya vasitələrində münaqişə ilə bağlı obyektiv məlumatların dərc olunması üçün tədbirlərin görülməsi;

2.9. Münaqişənin nəticələri ilə əlaqədar məlumat, broşur və kitabların Avropada yayımlanmasına səy göstərilməsi, bu zaman xüsusi olaraq məhz avropalı müəlliflərin əsərlərinin yayılmasına daha çox üstünlük verilməsi;

2.10. Azərbaycanlı qaçqın və məcburi köçkünlərin vəziyyəti haqqında Avropa ictimaiyyətində obyektiv təsəvvür yaratmaq məqsədilə avropalı elm xadimlərinin, nüfuzlu ictimaiyyət nümayəndələrinin, jurnalistlərin Azərbaycana səfərlərinin və çadır şəhərciklərində məskunlaşmış məcburi köçkünlərlə görüşlərinin təşkil edilməsi;

2.11. Azərbaycanlılara qarşı tarixin müxtəlif mərhələlərində ermənilər tərəfindən həyata keçirilmiş soyqırımı aktları ilə bağlı məlumatların Avropa ictimaiyyətinə çatdırılması, bununla bağlı hər il soyqırım hadisələrinin ildönümlərində etiraz bəyanatlarının yayılması, həmin bəyanatların beynəlxalq təşkilatlara, xarici ölkələrin parlament və hökumətlərinə göndərilməsi, kütləvi informasiya vasitələrində obyektiv materialların dərcinə səy göstərilməsi;

2.12. 1915-ci il hadisələri ilə bağlı erməni iddiaları haqqında əsl həqiqətlərin Avropa ictimaiyyətinə çatdırılması məqsədilə tədbirlərin təşkili, məlumat, broşur və kitabların yayılmasının təmin edilməsi, müvafiq beynəlxalq təşkilatlarla bu istiqamətdə mütəmadi iş aparılması;

2.13. Azərbaycan xalqının məruz qaldığı soyqırımı aktlarının ildönümləri ilə əlaqədar Avropadakı Azərbaycan icmalarının təşkil etdiyi tədbirlərin koordinasiya edilməsi;

2.14. Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsinin və Azərbaycan Respublikasının digər müvafiq dövlət strukturlarının dəstəyi ilə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi, ermənilərin azərbaycanlılara qarşı törətdiyi terror və soyqırım aktları, 1915-ci il hadisələri ilə bağlı erməni iddiaları haqqında əsl həqiqətləri özündə əks etdirən təbliğat xarakterli bədii filmin çəkilişi üçün Avropada tanınan peşəkar rejissorlarla işgüzar əlaqələrin yaradılması, filmin çəkilişi üçün tələb olunan maliyyə mənbələrinin axtarılması, azərbaycanlı və türk iş adamlarını bu ideyanın həyata keçirilməsinə cəlb edilməsi istiqamətində iş aparılması;

2.15. Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsinin dəstəyi ilə AAK-ın mərkəzi ofisi və təşkilatın rəhbərliyi ilə Azərbaycanda fəaliyyət göstərən elektron və yazılı kütləvi informasiya vasitələri ilə birbaşa əlaqələrin yaradılması;

2.16. Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə



Dövlət Komitəsinin dəstəyi ilə AAK-ın fəaliyyəti, həyata keçirdiyi tədbirlərin Azərbaycandakı Kütləvi İnformasiya Vasitələrində işıqlandırılmasının təmin edilməsi.

3. Avropada Azərbaycan lobbisinin yaradılması işinə dəstək vermək məqsədilə:

3.1. Avropadakı nüfuzlu beynəlxalq təşkilatların, o cümlədən Avropa Birliyi və Avropa Şurasının ayrı-ayrı strukturları ilə işgüzar münasibətlər qurmağa səy göstərilməsi, Azərbaycan haqqında onların obyektiv məlumatlandırılması üçün tədbirlərin təşkili;

3.2. Avropadakı beynəlxalq təşkilatların təşkil etdiyi tədbirlərdə, konfrans və seminarlarda iştirak etməyə nail olunması;

3.3. Azərbaycan haqqında həqiqətləri özündə əks etdirən məlumatların Avropadakı beynəlxalq təşkilatlara çatdırılması üçün müxtəlif kampaniyaların (etiraz aksiyaları, elektron poçtlarına məktubların göndərilməsi və s.) təşkili, habelə bu məqsədlə keçirilən tədbirlərdə həmin qurumların nümayəndələrinin də iştirakına səy göstərilməsi;

3.4. Avropa ölkələrinin parlamentlərində, dövlət və hökumət strukturlarında təmsil olunan, Azərbaycana müsbət münasibəti olan ictimai və siyasi xadimlərlə əlaqələrin qurulmasına səy göstərilməsi, onların Azərbaycan icmalarında təmsil olunması üçün səy göstərilməsi;

3.5. Azərbaycan icmalarının toplantılarında xarici ölkələrin parlament və hökumət üzvlərinin, siyasi xadimlərinin, nüfuzlu iş adamlarının, alim və jurnalistlərin iştirakını təmin etmək istiqamətində iş aparılması;

3.6. Azərbaycan xalqının problemləri, məruz qaldığı haqsızlıqlarla bağlı avropalı ictimai və siyasi xadimlərin məlumatlandırılması məqsədilə müxtəlif formalı kampaniyaların təşkili;

3.7. Hər il 31 Mart azərbaycanlıların soyqırımı və Xocalı soyqırımının ildönümlərində Avropa ölkələrinin parlament və hökumətlərinə müvafiq müraciətlərin göndərilməsi;

3.8. Avropalı ictimai və siyasi xadimlərini Azərbaycana səfərlərinin təşkili istiqamətində mütəmadi və sistemli iş aparılması;

3.9. Avropanın müxtəlif şəhərlərində bələdiyyə parlamentlərində azərbaycanlılara qarşı törədilmiş Xocalı soyqırımının tanın-

ması məqsədilə iş aparılması, bu məqsədlə imzatoplama kampaniyalarının təşkili;

3.10. Avropa ölkələrində fəaliyyət göstərən siyasi partiyalarla əlaqələrin qurulması, bu məqsədlə həmin partiyaların üzvləri ilə işgüzar münasibətlərin yaradılması;

3.11. Digər xalqların Avropada fəaliyyət göstərən diaspor təşkilatları ilə əməkdaşlığın inkişaf etdirilməsi, onların təcrübə və imkanlarından Azərbaycan diasporunun inkişafı, habelə Azərbaycan lobbisinin yaradılması məqsədilə istifadə edilməsi.

4. Türk diaspor təşkilatları ilə əməkdaşlığın inkişaf etdirilməsi məqsədilə:

4.1. Azərbaycan Respublikası Prezidentinin 2007-ci ilin mart ayının 9-da Bakı şəhərində keçirilmiş Azərbaycan və Türk diaspor təşkilatları rəhbərlərinin I Forumundakı nitqindən irəli gələn tövsiyələrin həyata keçirilməsi istiqamətində bütün səylərin səfərbər edilməsi;

4.2. Azərbaycan və Türk diaspor təşkilatları rəhbərlərinin I Forumunda qəbul edilmiş Bakı Bəyannaməsinin müddəalarına əsaslanaraq türk icmaları ilə əlaqələrin genişləndirilməsi;

4.3. «Azərbaycan və Türk diaspor təşkilatlarının birgə fəaliyyət strategiyası»nın həyata keçirilməsində fəal iştirak, AAK-ın Türk icmaları ilə əməkdaşlığında həmin sənədin müddəalarının əsas götürülməsi;

4.4. Avropada fəaliyyət göstərən digər Azərbaycan və Türk icmalarının «Azərbaycan və Türk diaspor təşkilatlarının birgə fəaliyyət strategiyası» haqqında məlumatlandırılması;

4.5. Avropadakı Azərbaycan və Türk icmaları arasında mütəmadi görüşlər və müzakirələrin təşkili;

4.6.Türk diaspor təşkilatlarının fəaliyyətinə yaxından dəstək verilməsi; onların təşkil etdiyi bütün tədbirlərdə Azərbaycan icmalarının fəal iştirakının təmin edilməsi;

4.7. Avropa ölkələri parlamentlərinin türk və azərbaycanlı üzvləri ilə əlaqələrin yaradılması, onların seçki kampaniyalarına dəstək verilməsi;

4.8. Azərbaycan və Türk diaspor təşkilatları rəhbərlərinin I Forumuna qədər AAK-ın türk icmaları ilə əməkdaşlığın inkişafı



istiqamətində gördüyü tədbirlər barədə geniş hesabatın hazırlanması;

5. Yəhudi diasporu ilə əməkdaşlığın inkişaf etdirilməsi məqsədilə:

5.1. Avropa ölkələrindəki yəhudi diaspor təşkilatları, o cümlədən Avropa Yəhudiləri Konqresi və Ümumrusiya Yəhudiləri Konqresi ilə birbaşa əlaqələrin yaradılması;

5.2. Azərbaycan Respublikasından Avropa ölkələrinə köçmüş yəhudilərlə əlaqələrin qurulması;

5.3. Yəhudi diasporunun təşkil etdiyi tədbirlərdə Avropadakı Azərbaycan icmalarının fəal iştirakının təmin edilməsinə səy göstərilməsi;

5.4. Yəhudilərin hüzn günü - Xolokost qurbanlarının xatirəsinin anım mərasimlərinin keçirilməsində azərbaycanlıların da fəal iştirakının təmin edilməsi;

5.5. Xolokost muzeylərində Xocalı soyqırımına həsr olunmuş guşələrin yaradılması ilə bağlı yəhudi icmaları ilə iş aparılması;

5.6. Yəhudi diaspor təşkilatlarının dəstəyi ilə Avropa ölkələrinin parlamentlərində, hökumət və dövlət strukturlarında təmsil olunan yəhudilərlə əlaqələrin yaradımasına səy göstərilməsi;

5.7. Azərbaycandan köçmüş yəhudi ictimai xadimlərin seçkili orqanlara seçilməsinə dəstək verilməsi;

5.8. Yəhudi diaspor təşkilatları ilə müntəzəm və davamlı təcrübə mübadiləsinin aparılması, birgə konfransların və müzakirələrin təşkili;

5.9. Avropadakı Azərbaycan və yəhudi diasporları arasında əməkdaşlığın əsas istiqamət və prinsiplərini müəyyənləşdirən proqramın hazırlanması.

6. Azərbaycan Respublikasında həyata keçirilən sosial-iqtisadi inkişaf proseslərinə dəstək vermək məqsədilə:

6.1.Avropadakı azərbaycanlı iş adamlarının Azərbaycana sərmayə qoymağa təşviq edilməsi;

6.2. Avropadakı azərbaycanlı iş adamları arasında əlaqələrin qurulması istiqamətində iş aparılması;

6.3. Bir ildən gec olmayaraq Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsinin dəstəyi ilə Avropa-

dakı azərbaycanlı iş adamlarının forumunun təşkili, onların vahid təşkilatda birləşməsi üçün tədbirlər görülməsi;

6.4. Avropanın nüfuzlu şirkətlərinin Azərbaycana sərmayə qoymağa təşviq edilməsi, Azərbaycanın iqtisadi inkişaf potensialı və təbii resursları ilə bağlı simpoziumlar, elmi-praktik konfransların təşkil edilməsi;

6.5. Avropalı iş adamlarının Azərbaycana səfərlərinin təşkil edilməsi;

6.6. AAK-a üzv təşkilatlarda təmsil olunan azərbaycanlı iş adamlarının Azərbaycandakı qaçqın və məcburi köçkünlərə yardım kampaniyalarının təşkil edilməsi;

6.7. Avropadakı azərbaycanlı iş adamlarının dəstəyi ilə qitədə yaşayan azərbaycanlıların hüquq və azadlıqlarının müdafiəsi, Azərbaycan həqiqətlərinin Avropa ictimaiyyətinə çatdırılması ilə bağlı tədbirlərin həyata keçirilməsinə yardım göstərmək məqsədilə Avropadakı Azərbaycan diasporuna Dəstək Fondunun yaradılması istiqamətində iş aparılması;

7. Azərbaycanlılar arasında milli-mənəvi dəyərlərimizin qorunub saxlanılması və mədəni irsinin təbliği məqsədilə:

7.1. Avropanın müxtəlif ölkələrində keçirilən tədbirlərin koordinasiyası işinin təkmilləşdirilməsi və məqsədyönlülüyünün artırılması;

7.2. Azərbaycanın müvafiq dövlət strukturlarının dəstəyi ilə:

7.2.1. Avropanın iri mədəniyyət mərkəzlərində azərbaycanlı incəsənət adamlarının sərgilərinin təşkili;

7.2.2. Avropanın müxtəlif şəhərlərində azərbaycanlı incəsənət ustalarının konsert proqramlarının təşkil edilməsi;

7.2.3. Avropanın iri şəhərlərinin birində Azərbaycanın tarixi və mədəniyyətindən bəhs edən muzey mərkəzinin yaradılması;

7.2.4. Avropanın müxtəlif şəhərlərində Azərbaycan mədəniyyət günlərinin keçirilməsi;

7.2.5. Azərbaycanlıların kompakt yaşadığı regionlarda «Həftə sonu» məktəblərinin açılmasına dəstək verilməsinin davam etdirilməsi, onların maddi texniki bazasının yaxşılaşdırılması, əyani və dərs vəsaitləri ilə təminatı işinin gücləndirilməsi, həmin məktəblərin kadr potensialını inkişaf etdirmək məqsədilə Azərbaycanda pedaqoji kurslara göndərilməsinin təmin edilməsi;



7.3. Avropadakı azərbaycanlı mədəniyyət və incəsənət xadimləri arasında əlaqələrin qurulmasına və onların görüşlərinin təşkilinə səy göstərilməsi;

7.4. Avropa ölkələrində yaşayan tanınmış azərbaycanlı elm və mədəniyyət xadimlərinin yubileylərinin qeyd edilməsi;

7.5. Beynəlxalq mədəniyyət festivallarında Azərbaycanın layiqincə təmsil olunması üçün diaspor təşkilatlarının imkanlarının səfərbər edilməsi;

7.6. Azərbaycan xalqının mədəni irsini təbliğ edən təbliğat materiallarının yayılması işinin təşkil edilməsi;

7.7. Azərbaycan şəhərləri ilə Avropa şəhərləri arasında qardaşlaşma və əməkdaşlıq müqavilələrinin imzalanması istiqamətində tədbirlərin həyata keçirilməsi;

8. Azərbaycanlıların ictimai-siyasi həyatda daha fəal iştirakını təmin etmək, insan hüquq və azadlıqlarının qorunmasına dəstək vermək məqsədilə:

8.1. Avropada yaşayan azərbaycanlıların ictimai-siyasi fəallığını artırmaq məqsədilə mütəmadi təşviqat işinin aparılması;

8.2. Azərbaycanlıların seçki proseslərində fəal iştiraka təşviq edilməsi və bu prosesin Azərbaycan diasporunun maraqları kontekstində tənzimləməyə səy göstərilməsi;

8.3. Azərbaycanlıların seçkili orqanlarda təmsil olunmasına nail olmaq məqsədilə nüfuzlu soydaşlarımızın namizədliklərinin irəli sürülməsinə və onların seçki kampaniyalarının təşkilinə dəstək verilməsi;

8.4. Azərbaycanlıların yaşadıqları ölkələrin siyasi həyatına təsir imkanlarını artırmaq məqsədilə müvafiq fəaliyyət strategiyasının hazırlanması;

8.5. Azərbaycanlıların siyasi partiyalarda təmsil olunması istiqamətində iş aparılması;

8.6. Siyasi partiya və hərəkatlar, habelə onların liderləri ilə işgüzar münasibətlərin yaradılmasına səy göstərilməsi;

8.7. Azərbaycanlıların cəmiyyətə inteqrasiyasının sürətləndirilməsi məqsədilə müvafiq tədbirlərin həyata keçirilməsi;

8.8. Hüquqi maarifləndirmə işinin səmərəli təşkili məqsədilə azərbaycanlıların kompakt yaşadığı regionlarda hüquq-müdafiə mərkəzlərinin yaradılması.

9. Bu fəaliyyət Proqramı 2007-ci ilin birinci yarısında keçirilməsi nəzərdə tutulmuş Avropa Azərbaycanlıları Konqresinin İcrayyə Komitəsinin toplantısında müzakirə və təsdiq ediləcəkdir.

10. Proqram AAK-ın 2007-2009-cu illər ərzindəki fəaliyyətinin əsas istiqamətlərini, prinsiplərini və məqsədlərini müəyyənləşdirir, təşkilatın işində keyfiyyət dəyişikliyinin yaradılmasına xidmət edir.

11. Fəaliyyət Proqramı AAK-a üzv olan bütün Azərbaycan diaspor təşkilatlarının dəstəyi ilə həyata keçiriləcəkdir.

12. Proqramın icrasına nəzarət Avropa Azərbaycanlıları Konqresinin rəhbərliyinə həvalə olunacaq və AAK prezidenti ildə iki dəfə sənəddə nəzərdə tutulmuş müddəaların həyata keçirilməsi istiqamətində görülmüş işlər barədə İcrayyə Komitəsinə, habelə Avropadakı bütün Azərbaycan icmalarına, eyni zamanda Azərbaycan ictimaiyyətinə geniş məlumat verəcəkdir.



# ƏLAVƏLƏR

# «AZƏRBAYCANLILARIN SOYQIRIMI HAQQINDA» AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası müstəqillik qazandıqdan sonra xalqımızın tarixi keçmişinin obyektiv mənzərəsini yaratmaq imkanı əldə edilmişdir. Uzun illər gizli saxlanılan, üzərinə qadağa qoyulmuş həqiqətlər açılır, təhrif edilmiş hadisələr özünün əsl qiymətini alır.

Azərbaycan xalqına qarşı dəfələrlə törədilmiş və uzun illərdən bəri öz siyasi-hüquqi qiymətini almamış soyqırımı da tarixin açılmamış səhifələrindən biridir.

1813-cü və 1828-ci illərdə imzalanan Gülüstan və Türkmənçay müqavilələri Azərbaycan xalqının parçalanmasının, tarixi torpaqlarımızın bölünməsinin əsasını qoydu. Azərbaycan xalqının bu milli faciəsinin davamı kimi onun torpaqlarının zəbti başlandı. Qısa bir müddətdə bu siyasət gerçəkləşdirilərək ermənilərin kütləvi surətdə Azərbaycan torpaqlarına köçürülməsi həyata keçirildi. Soyqırımı Azərbaycan torpaqlarının işğalının ayrılmaz bir hissəsinə çevrildi. İrəvan, Naxçıvan və Qarabağ xanlıqlarının ərazilərində məskunlaşdırılan ermənilər orada yaşayan azərbaycanlılarla müqayisədə azlıq təşkil etmələrinə baxmayaraq öz havadarlarının himayəsi altında "Erməni vilayəti" adlandırılan inzibati bölgünün yaradılmasına nail oldular. Belə süni ərazi bölgüsü ilə əslində azərbaycanlıların öz torpaqlarından qovulması və məhv edilməsi siyasətinin bünövrəsi qoyuldu. "Böyük Ermənistan" ideyaları təbliğ olunmağa başlandı. Bu uydurma dövlətin Azərbaycan torpaqlarında yaradılmasına "bəraət qazandırmaq məqsədilə" erməni xalqının tarixinin saxtalaşdırılmasına yönəlmiş geniş miqyaslı proqramlar reallaşdırıldı. Azərbaycanın və ümumən Qafqazın tarixinin təhrif olunması həmin proqramların mühüm tərkib hissəsini təşkil edirdi.

"Böyük Ermənistan" yaratmaq xülyasından ruhlanan erməni qəsbkarları 1905-1907-ci illərdə azərbaycanlılara qarşı açıq şəkildə geniş miqyaslı qanlı aksiyalar həyata keçirdilər.

Ermənilərin Bakıdan başlanan vəhşilikləri Azərbaycanı və indiki Ermənistan ərazisindəki Azərbaycan kəndlərini əhatə etdi.



Yüzlərlə yaşayış məntəqəsi dağıdılıb yerlə yeksan edildi, minlərlə azərbaycanlı vəhşicəsinə qətlə yetirildi. Bu hadisələrin təşkilatçıları məsələnin mahiyyətinin açılmasına, ona düzgün hüquqi-siyasi qiymət verilməsinə maneçilik törədərək azərbaycanlıların mənfi obrazını yaratmış, özlərinin avantürist torpaq iddialarını pərdələmişlər. Birinci Dünya Müharibəsi, Rusiyada baş vermiş 1917-ci il fevral və oktyabr çevrilişlərindən məharətlə istifadə edən ermənilər öz iddialarını bolşevik bayrağı altında reallaşdırmağa nail oldular. 1918-ci ilin mart ayından etibarən əks-inqilabçı ünsürlərlə mübarizə şüarı altında Bakı Kommunası tərəfindən ümumən Bakı quberniyasını azərbaycanlılardan təmizləmək məqsədi güdən mənfur plan həyata keçirilməyə başlandı. Həmin günlərdə ermənilərin törətdikləri cinayətlər Azərbaycan xalqının yaddaşına əbədi həkk olunmuşdur. Minlərlə dinc azərbaycanlı əhali yalnız milli mənsubiyyətinə görə məhv edilmişdir.

Ermənilər evlərə od vurmuş, insanları diri-diri yandırmışlar. Milli memarlıq incilərini, məktəbləri, xəstəxanaları, məscid və digər abidələri dağıtmış, Bakının böyük bir hissəsini xarabalığa çevirmişlər.

Azərbaycanlıların soyqırımı Bakı, Şamaxı, Quba qəzalarında, Qarabağda, Zəngəzurda, Naxçıvanda, Lənkəranda və Azərbaycanın başqa bölgələrində xüsusi qəddarlıqlarla həyata keçirilmişdir. Bu ərazilərdə dinc əhali kütləvi surətdə qətlə yetirilmiş, kəndlər yandırılmış, milli mədəniyyət abidələri dağıdılıb məhv edilmişdir.

Azərbaycan Xalq Cümhuriyyəti yarandıqdan sonra 1918-ci ilin mart hadisələrinə xüsusi diqqət yetirmişdir. Nazirlər Şurası 1918-ci il iyulun 15-də bu faciənin tədqiqi məqsədilə Fövqəladə İstintaq Komissiyasının yaradılması haqqında qərar qəbul etdi. Komissiya mart soyqımını, ilkin mərhələdə Şamaxıdakı vəhşilikləri, İrəvan quberniyası ərazisində ermənilərin törətdikləri ağır cinayətləri araşdırdı. Dünya ictimaiyyətinə bu həqiqətləri çatdırmaq üçün Xarici İşlər Nazirliyi nəzdində xüsusi qurum yaradıldı. 1919 və 1920-ci ilin mart ayının 31-i iki dəfə Azərbaycan Xalq Cümhuriyyəti tərəfindən ümummilli matəm günü kimi qeyd edilmişdir. Əslində bu, azərbaycanlılara qarşı yürüdülən soyqırımı və bir əsrdən artıq davam edən torpaqlarımızın işğalı proseslərinə

tarixdə ilk dəfə siyasi qiymət vermək cəhdi idi. Lakin Azərbaycan Xalq Cümhuriyyətinin süqutu bu işin başa çatmasına imkan vermədi.

Zaqafqaziyanın sovetləşməsindən öz çirkin məqsədləri üçün istifadə edən ermənilər 1920-ci ildə Zəngəzuru və Azərbaycanın bir sıra digər torpaqlarını Ermənistan SSR-in ərazisi elan etdilər. Sonrakı dövrdə bu ərazilərdəki azərbaycanlıların deportasiya edilməsi siyasətini daha da genişləndirmək məqsədilə yeni vasitələrə əl atdılar. Bunun üçün onlar SSRİ Nazirlər Sovetinin 23 dekabr 1947-ci il tarixli "Ermənistan SSR-dən kolxozçuların və başqa azərbaycanlı əhalinin Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" xüsusi qərarına və 1948-1953-cü illərdə azərbaycanlıların öz tarixi torpaqlarından kütləvi surətdə deportasiyasına dövlət səviyyəsində nail oldular.

Erməni millətçiləri öz havadarlarının köməyi ilə 50-ci illərdən etibarən Azərbaycan xalqına qarşı kəskin mənəvi təcavüz kampaniyasına başladılar. Keçmiş sovet məkanında müntəzəm şəkildə yayılan kitab, jurnal və qəzetlərdə milli mədəniyyətimizin, klassik irsimizin, memarlıq abidələrimizin ən nəfis nümunələrinin erməni xalqına mənsub olduğunu sübut etməyə çalışırdılar. Eyni zamanda, onlar tərəfindən bütün dünyada azərbaycanlıların mənfi obrazını formalaşdırmaq cəhdləri də güclənirdi. "Yazıq, məzlum erməni xalq"ının surətini yaradaraq əsrin əvvəlində regionda baş verən hadisələr şüurlu surətdə təhrif olunur, azərbaycanlılara qarşı soyqırım törədənlər soyqırım qurbanları kimi qələmə verilirdi.

Əsrin əvvəlində əksər əhalisi azərbaycanlı olan İrəvan şəhərindən və Ermənistan SSR-in digər bölgələrindən soydaşlarımız təqiblərə məruz qalaraq kütləvi surətdə qovulur. Azərbaycanlıların hüquqları ermənilər tərəfindən kobudcasına pozulur, ana dilində təhsil almasına əngəllər törədilir, onlara qarşı repressiyalar həyata keçirilir. Azərbaycan kəndlərinin tarixi adları dəyişdirilir, toponimika tarixində misli görünməyən qədim toponimlərin müasir adlarla əvəzolunma prosesi baş verir.

Saxtalaşdırılmış erməni tarixi gənc ermənilərin şovinist ruhunda böyüməsinə zəmin yaratmaq üçün dövlət siyasəti səviyyəsinə qaldırılır. Böyük humanist ideallara xidmət edən Azərbaycan



ədəbiyyati və mədəniyyəti ruhunda tərbiyə olunmuş yeni nəslimiz ekstremist erməni ideologiyasının təqiblərinə məruz qalır. Azərbaycan xalqının mənəviyyatına, milli qüruruna və mənliyinə yönəlmiş böhtanlar siyasi və hərbi təcavüz üçün ideoloji zəmin yaradırdı. Xalqımıza qarşı aparılan soyqırımı siyasəti özünün siyasi-hüquqi qiymətini tapmadığı üçün tarixi faktlar sovet mətbuatında ermənilər tərəfindən təhrif olunur və ictimai fikir çaşdırılırdı. Ermənilərin Sovet rejimindən bəhrələnərək həyata keçirdikləri və 80-ci illərin ortalarında daha da güclənən antiazərbaycan təbliğatına Azərbaycan Respublikasının rəhbərliyi vaxtında lazımi qiymət vermədi.

1988-ci ildən ortaya atılan qondarma Dağlıq Qarabağ konfliktinin ilkin mərhələsində yüz minlərlə azərbaycanlının öz tarixi torpaqlarından qovulmasına da respublikada düzgün qiymət verilmədi. Azərbaycanın Dağlıq Qarabağ Muxtar Vilayətinin Ermənistan SSR-in tərkibinə daxil edilməsi haqqında ermənilərin qeyri-konstitusiyon qərarını və Moskvanın əslində bu vilayəti Xüsusi İdarəetmə Komitəsi vasitəsilə Azərbaycanın tabeliyindən çıxarmasını xalqımız ciddi narazılıqla qarşıladı və mühüm siyasi aksiyalara əl atmaq məcburiyyəti qarşısında qaldı. Respublikada keçirilən mitinqlər zamanı torpaqlarımızın işğalı siyasəti qətiyyətlə pislənsə də Azərbaycan rəhbərliyi öz passiv mövqeyindən əl çəkmədi. Məhz elə bunun nəticəsi olaraq 1990-ci ilin yanvar ayında getdikcə güclənən xalq hərakatını boğmaq məqsədilə Bakıya qoşunlar yeridildi, yüzlərlə azərbaycanlı məhv və şikəst edildi, yaralandı, digər fiziki təzyiqlərə məruz qoyuldu. 1992-ci ilin fevralında ermənilər Xocalı şəhərinin əhalisinə misli görünməyən divan tutdu. Tariximizə Xocalı soyqırımı kimi həkk olunan bu qanlı faciə minlərlə azərbaycanlının məhv edilməsi, əsir alınması, şəhərin yerlə yeksan edilməsi ilə qurtardı. Millətçi-separatçı ermənilərin Dağlıq Qarabağda başladığı avantürtist hərəkatın nəticəsi olaraq bu gün bir milyondan artıq soydaşımız erməni qəsbkarları tərəfindən öz doğma yurd-yuvalarından didərgin salınmış, çadırlarda yaşamağa məhkum edilmişdir. Ərazimizin 20 faizinin erməni silahlı qüvvələri tərəfindən işğalı zamanı minlərlə vətəndaşımız şəhid olmuş, xəsarət almışdır.

Azərbaycanın XIX-XX əsrlərdə baş verən bütün faciələri

torpaqlarının zəbti ilə müşayiət olunaraq, ermənilərin azərbaycanlılara qarşı düşünülmüş, planlı surətdə həyata keçirdiyi soyqırımı siyasətinin ayrı-ayrı mərhələlərini təşkil etmişdir. Bu hadisələrin yalnız birinə - 1918-ci il mart qırğınına siyasi qiymət vermək cəhdi göstərilmişdir. Azərbaycan Xalq Cümhuriyyətinin varisi kimi Azərbaycan Respublikası bu gün onun axıra qədər həyata keçirə bilmədiyi qərarların məntiqi davamı olaraq soyqırımı hadisələrinə siyasi qiymət vermək borcunu tarixin hökmü kimi qəbul edir.

Azərbaycan xalqına qarşı törədilmiş bütün soyqırım faciələrini qeyd etmək məqsədilə qərara alıram:

1. 31 mart Azərbaycanlıların Soyqırımı Günü elan edilsin.

2. Azərbaycan Respublikasının Milli Məclisinə tövsiyə olunsun ki, azərbaycanlıların soyqırımı ilə bağlı hadisələrə həsr olunmuş xüsusi sessiyanın keçirilməsi məsələsinə baxsın.

***Heydər Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti.***
***Bakı şəhəri, 26 mart 1998-ci il.***



# «1948-1953-CÜ İLLƏRDƏ AZƏRBAYCANLILARIN ERMƏNİSTAN SSR ƏRAZİSİNDƏKİ TARİXİ-ETNİK TORPAQLARINDAN KÜTLƏVİ SURƏTDƏ DEPORTASİYASI HAQQINDA» AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Son iki əsrdə Qafqazda azərbaycanlılara qarşı məqsədyönlü şəkildə həyata keçirilmiş etnik təmizlənmə və soyqırımı siyasəti nəticəsində xalqımız ağır məhrumiyyətlərə, milli facie və məşəqqətlərə məruz qalmışdır. Mərhələ-mərhələ gerçəkləşdirilən belə qeyri-insani siyasət nəticəsində azərbaycanlılar indi Ermənistan adlandırılan ərazidən - min illər boyu yaşadıqları öz doğma tarixi-etnik torpaqlarından didərgin salınaraq kütləvi qətl və qırğınlara məruz qalmış, xalqımıza məxsus minlərlə tarixi-mədəni abidə və yaşayış məskəni dağıdılıb viran edilmişdir.

SSRİ Nazirlər Sovetinin 1947-ci il 23 dekabr tarixli 4083 nömrəli və 1948-ci il 10 mart tarixli 754 nömrəli qərarları Azərbaycan xalqına qarşı növbəti tarixi cinayət aktı olmuşdur. Bu qərarlar əsasında 1948-1953-cü illərdə yüz əlli mindən çox azərbaycanlı Ermənistan SSR ərazisindəki dədə-baba yurdlarından kütləvi surətdə və zorakılıqla sürgün olunmuşdur. Adi hüquq normalarına zidd olan bu qərarların icrası zamanı avtoritar-totalitar rejimin mövcud repressiya qaydaları geniş tətbiq edilmiş, minlərlə insan, o cümlədən, qocalar və körpələr ağır köçürülmə şəraitinə, kəskin iqlim dəyişikliyinə, fiziki sarsıntılara və mənəvi gənosidə dözməyərək həlak olmuşlar. Bu işdə erməni şovinist dairələrinin və SSRİ rəhbərliyinin cinayətkar siyasəti ilə yanaşı, o dövrkü Azərbaycan rəhbərliyinin öz xalqının taleyinə zidd mövqeyi, soydaşlarımıza qarşı törədilən cinayətlərin təşkilində və həyata keçirilməsində iştirakı da az rol oynamamışdır.

Təəssüf ki, 1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindən deportasiya olunması faktı ötən 50 il ərzində lazımınca araşdırılmamış, bu hadisələrə hüquqi-siyasi qiymət verilməmişdir.

Yuxarıda göstərilənləri nəzərə alaraq qərara alıram:

1. 1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyasının hərtərəfli tədqiq edilməsi, Azərbaycan xalqına qarşı dövlət səviyyəsində həyata keçirilmiş bu tarixi cinayətə hüquqi-siyasi qiymət verilməsi və onun beynəlxalq ictimaiyyətə çatdırılması məqsədi ilə dövlət komissiyası yaradılsın.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu fərmanın icrası ilə bağlı məsələləri həll etsin.

***Heydər Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti.***
***Bakı şəhəri, 18 dekabr 1997-ci il.***



# QEYD

# AZƏRBAYCAN DİASPOR TƏŞKİLATLARI ÜÇÜN SƏNƏDLƏR VƏ MƏLUMATLAR TOPLUSU


**Tərtibatçı dizayner:**
Həzi Hacıyev

**Korrektor:**
Jalə Sadıqova

Yığılmağa verilmişdir:15. 11. 2008
Çapa imzalanmışdır: 17. 12. 2008
Kağız formatı: 60x84
Tiraj: 1000 ədəd

**"AM"965 MMC**
**mətbəəsində çap olunmuşdur.**